*Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları - diplomatlarının xatirəsinə və Bakı Dövlət Universiteti "Beynəlxalq münasibətlər" fakültəsinin 10 illiyinə ithaf olunur.*

*"Daxilən güclü, sabit Azərbaycan artıq öz-özlüyündə, real və inkaredilməz bir fakt kimi tanınmış olacaqdır. Daxildə dövlətçilik baxımından möhkəmləndikdə, o xaricdən gələn hər cür təhdidə layiqli cavab vermək üçün fiziki və mənəvi qüvvə əldə edəcəkdir".*

**Ə.Topçubaşı**

İsmayıl Musa

# AZƏRBAYCANIN XARİCİ SİYASƏTİ

Universitetlərin beynəlxalq münasibətlər fakültələri üçün

DƏRSLİK

Üç hissədə

Azərbaycan Respublikası Təhsil Nazirinin 4 fevral 2008-ci il tarixli, 158 saylı əmri ilə təsdiq edilmişdir.

Bakı – 2011

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
BAKI DÖVLƏT UNİVERSİTETİ

«Diplomatiya və müasir inteqrasiya prosesləri» kafedrası

İsmayıl Musa

Birinci hissə

# AZƏRBAYCAN BEYNƏLXALQ MÜNASİBƏTLƏR SİSTEMİNDƏ (mart 1917 – aprel 1920-ci illər)

- 15392 -

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Bakı – 2011

**Elmi redaktoru:** **BDU-nun dosenti A.H.Hacıyeva**

**Rəyçilər:** **prof. C.P.Həsənli, prof. X.M.Məmmədov, dos. K.C.Məmmədov, dos. V.B.Cəfərov**

**Musa İ.M. Azərbaycan beynəlxalq münasibətlər sistemində (mart 1917 – aprel 1920-ci illər). Dərslik.** Bakı, «Bakı Universiteti» nəşriyyatı, 2011. – 312 səh.

Bu kitab «Azərbaycanın xarici siyasəti» adlı dərsliyin birinci hissəsidir. Dərslikdə, tərəfimizdən hazırlanan tədris proqramına müvafiq surətdə, 1917-1920-ci illərdə beynəlxalq münasibətlər və AXC-nin xarici siyasəti məsələlərindən bəhs edilir. Kitabda aşağıdakı mövzular əhatə olunur: Azərbaycanda dövlətçiliyin bərpası naminə aparılan siyasi-demokratik mücadilə; AXC diplomatiyasının ilk addımları; ölkəmizin ərazi bütövlüyü uğrunda diplomatik mübarizə; AXC-nin Qafqaz dövlətləri və İranla münasibətləri; Azərbaycan Paris (Versal) Sülh konfransında; Azərbaycan-Rusiya münasibətləri və Aprel işğalı; AXC diplomatiyasının uğurları və dərsləri.

Dərslik universitetlərin Beynəlxalq münasibətlər fakültələri üçün nəzərdə tutulmuşdur. Kitab elmi-siyasi ictimaiyyət üçün də faydalı ola

$$M\frac{0802000000}{M-658(07)}-2011$$

*© 5-ci nəşri, 2011*

*© İsmayıl Musa, 2011*

*© «Bakı Universiteti» nəşriyyatı, 2011*

# ÖN SÖZ

Azərbaycanın zəngin dövlətçilik, xarici siyasət, diplomatiya təcrübəsinin və çağdaş problemlərinin, inkişaf perspektivlərinin öyrənilməsi təhsilimizin mühüm vəzifələrindən sayılır. Bu baxımdan da "Azərbaycanın xarici siyasəti" fənninin tədrisi xüsusi əhəmiyyət kəsb edir.

Fənnin tərəfimizdən hazırlanan proqramı əsasında yazılan bu dərslik Quzey Azərbaycanın XX əsrdə-XXI yüzilliyin əvvəllərindəki xarici siyasəti məsələlərini əhatə edir. Dərslikdə XX yüzillikdə Güney Azərbaycandakı azadlıq hərəkatlarının beynəlxalq əks-sədası məsələlərinə və Təbrizdə yaranan Milli hökumətlərin xarici siyasətinə də geniş yer verilmişdir.

Dərslik üç hissədən ibarətdir. Onun üç hissəyə ayrılması müəyyən məntiqi mülahizələrə əsaslanır. Belə ki, bu zaman Azərbaycanın son dövr tarixi və xarici siyasətinin üç başlıca mərhələsi əsas götürülmüşdür: **1.** Azərbaycan Xalq Cümhuriyyəti – Birinci Respublika. **2.** Azərbaycan Sovetlər İttifaqının tərkibində – İkinci Respublika. **3.** Hazırkı istiqlal dövrü – Üçüncü Respublika.

1920-1922-ci illərin, yəni formal müstəqillik dönəminin də ayrıca dövr sayılmasına dair mövqelər vardır. Bizcə, 1920-1922 və 1923-1991-ci illər eyni siyasi-ideoloji məzmunlu ictimai quruluşun mərhələləri olduğundan onların vahid dövr (1920-1991) çərçivəsində birləşdirilməsi daha məqsədəuyğundur.

Dərslik yazılarkən qaynaqlar (xüsusi ilə də diplomatik sənəd və materiallar), elmi baxış və konsepsiyalar əsas tutulmuşdur. Bu zaman Azərbaycanın dövlət xadimləri, diplomat və siyasətçilərinin əsərlərindəki fikir və mülahizələrə mühüm önəm verilmişdir. Dərslik əsasən çoxsaylı elmi araşdırmaların nəticələrinə söykənilməklə yazılmışdır. Fənnin tərəfimizdən BDU-da tədrisi təcrübəsi, habelə həmkarlarımızın tövsiyələri də nəzərə alınmışdır.

Dərsliyin hissələrinə ayrılıqda "Giriş"lərin yazılması nəzərdə tutulduğundan ümumi "Giriş"ə ehtiyac duyulma-

mışdır. Hər bir hissənin "Giriş"ində onun əhatə etdiyi dövrün başlıca problem və məsələlərinə tezisvari şəkildə diqqət yetirilir. Onlara dair qaynaqlar və ədəbiyyatdan isə müvafiq surətdə hissələrin "Giriş"lərində bəhs olunur.

Qaynaqlar və ədəbiyyatın geniş siyahısı tədris proqramında verildiyindən onların dərsliyin hissələrinə əlavə edilməsi də məsləhət bilinməmişdir. Ancaq bəzi mühüm diplomatik sənəd və materiallar, xəritə və sənədlər dərsliyin hissələrinə əlavə olunur. Onların bir qismi arxivlərdə aşkarlanmış, digərləri isə ayrı-ayrı tədqiqatçıların (A.Kurat, C.Həsənli, Ş.Tağıyeva, N.Nəsibli, M.Sadi Koçaş, İ.Musa, E.Əhmədov, E.Nəsirov, H.Baykara və b.) əsərlərindən əldə olunmuşdur.

Fənnin tədrisinə son vaxtlardan etibarən başlanılmasını, onun çoxlu yeni problemləri əhatə etməsini, dərsliyin bu sahədəki ilkin işlərdən olmasını nəzərə alaraq məsələlərin daha geniş şəkildə açıqlanması məqsədəmüvafiq sayılmışdır.



## GİRİŞ

Azərbaycanın dövlətçilik və diplomatiya tarixində 1917-1920-ci illər mühüm yer tutur. Bütövlükdə həmin dövr bu kimi tarixi hadisə və proseslərlə səciyyələnir: **a)** Quzey Azərbaycanda dövlətçiliyin bərpası; **b)** türk dünyası və müsəlman şərqində ilk demokratik quruluşun – Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) yaranması və parlamentçilik ənənələrinin formalaşması; **c)** yeni erməni-azərbaycanlı münaqişəsi və ölkəmizin ərazi bütövlüyünün təminatı naminə mübarizə; **ç)** Güney Azərbaycanda milli-demokratik hərəkatın yeni dalğası və dövlətçiliyin bərpasına cəhdlər göstərilməsi; **d)** Şimali Azərbaycanın Rusiya tərəfindən təkrar işğalı ilə dövlətçiliyimizin yenidən süqutu və s.

Azərbaycan 1917-1920-ci illərin dövlətlərarası münasibətlər sistemində və beynəlxalq – məhəlli güclərin geostrateji maraqlarında xüsusi çəkiyə malik ölkələrdən biri olmuşdur. Belə önəmli amilləri, dövrün reallıqları və tələblərini, dövlətimizin mənafelərini tam ciddiyyəti ilə nəzərə alan AXC xarici siyasət məsələlərinə mühüm diqqət yetirmişdir. Zəmanənin beynəlxalq münasibətləri və AXC-nin xarici siyasəti çoxsaylı, olduqca sanballı və öyrənilməsi vacib sayılan elmi problemlərin və məqamların geniş kompleksini əhatə edir. Onları aşağıdakı şəkildə qruplaşdırmaq və formulə etmək olar:

- XIX əsrin sonları – XX yüzilliyin əvvəllərində Azərbaycan ictimai-siyasi fikrində dövlətçilik məsələləri;
- Birinci Dünya müharibəsi dövründə böyük dövlət qruplaşmalarının Azərbaycandakı strateji maraqları;
- XX əsrin əvvəllərində Osmanlı dövlətinin Qafqaz siyasətində Azərbaycan amili;
- Rusiyadakı Fevral inqilabından sonra Azərbaycanın siyasi-milli inkişaf yollarına dair əsas baxışlar;

- Ərzincan barışığı, Trabzon-Batum konfransları və Azərbaycanın dövlətçilik maraqları;
- AXC diplomatiyasının ilk addımları: vəzifələr, çətinliklər, nəticələr;
- diplomatiyamızın ermənilərin əsassız ərazi iddialarının dəf olunması sahəsindəki fəaliyyəti;
- erməni-azərbaycanlı münaqişəsi və Qərb dövlətlərinin ikili mövqeyi;
- Gürcüstanla ərazi-sərhəd məsələlərinin tənzimlənməsi və "Qafqaz Birliyi (Evi)" uğrunda əməkdaşlıq;
- AXC-nin xarici siyasətində İranın yeri və dövlətlərarası problemlər;
- Cənub-Qərbi Qafqaz (Qars) və Şimali Qafqaz Dağlı Xalqlarının İttifaqı (Dağlılar) respublikaları ilə münasibətlərin durumu və xarakteri;
- Paris (Versal) Sülh konfransında Azərbaycanın ərazi bütövlüyü ətrafında diplomatik çəkişmələr;
- AXC-nin dövlətlərarası münasibətlərin iştirakçısına və beynəlxalq hüququn subyektinə çevrilməsi uğrunda mübarizə: problemlər və uğurlar;
- AXC-nin süqutunu şərtləndirən xarici amillər;
- Azərbaycanın Rusiya tərəfindən yenidən işğalına qarşı diplomatik mübarizə;
- AXC-nin süqutu və böyük – qonşu dövlətlərin mövqeyi;
- AXC xarici siyasətinin uğurları – dərsləri və çağdaş Azərbaycan diplomatiyası.

Dərsliyin birinci hissəsi, əsasən, 1917-1920-ci illəri əhatə etsə də XIX əsrin sonu – XX yüzilliyin əvvəllərində Azərbaycan ictimai-siyasi fikrində milli istiqlal, dövlətçilik məsələləri və s. birinci bölümdə qısa nəzərdən keçirilməsi məntiqə söykənir. Çünki "Rusiya imperiyasının dağılması ilə Azərbaycan müstəqil oldu" kimi yanlış baxışlar buna, habelə milli istiqlala aparan yollar və s. problemlərə diqqət yetirilməsini zəruri edir.



Dərslik hazırlanarkən dövrün beynəlxalq həyatına və AXC-nin xarici siyasətinə dair çoxsaylı diplomatik sənəd və materiallardan istifadə edilmişdir (Tədris proqramında həmin qaynaqların böyük bir qisminin məşğələlərdə öyrənilməsi və müzakirə edilməsi tövsiyə olunmuşdur). Bu sənəd və materialların daha mühümlərinin aşağıdakı təsnifatda sadalanması məqsədəmüvafiqdir:

**1. Dövlətlərarası saziş və müqavilələr:**

- Kürəkçay (14.V.1805), Gülüstan (12.X.1813) və Türkmənçay (10.II.1828) müqavilələri;
- İngilis-rus sazişi (31.VIII.1907);
- Türk-alman ittifaqı (2.VIII.1914);
- Sayks-Piko müqaviləsi (16.V.1916);
- Ərzincan barışığı (5/18.XII.1917);
- Brest-Litovsk müqaviləsi (3.III.1918);
- Alman-türk (27.IV.1918) və alman-gürcü (28.IV.1918) müqavilələri;
- Osmanlı imperatorluğu hökuməti ilə Azərbaycan Cümhuriyyəti arasında dostluq (Batum) müqaviləsi və ona Əlavə (4.VI.1918);
- Şimali Qafqaz ilə Türkiyə arasında müqavilə (8.VI.1918);
- Brest-Litovsk müqaviləsinə Əlavə ("Bakı sazişi" – 27.VIII.1918);
- AXC ilə Dağlılar Respublikası arasında ilkin saziş (25.IX.1918) və müqavilə (28.XI.1918);
- Azərbaycan ilə Gürcüstan arasında hərbi-müdafiə (16.VI.1919) və ticarət-tranzit (5.II.1920) müqavilələri;
- İngilis-İran müqaviləsi (9.VIII.1919);
- Azərbaycan-Ermənistan sazişi (23.XI.1919);
- Azərbaycan Respublikası (Qafqaz) və Fars şahənşahlığı arasında müqavilə (20.III.1920).

**2. Memorandumlar, məlumatlar, layihələr:**

- Ə.Topçubaşının Antanta ölkələrinin İstanbuldakı fəxri nümayəndələrinə Memorandumu (XI.1918);
- Parisdəki Sülh konfransına Qafqaz Azərbaycanı Sülh nümayəndəliyinin tələbləri (Memorandumu);
- Azərbaycanın Paris Sülh konfransındakı nümayəndə heyətinin sədri Ə.Topçubaşının AXC Nazirlər Şurasına məlumatları (1919);
- "Haskelin layihələri" (1919).

**3. Protokollar, məruzələr, arayışlar:**

- Transqafqaz Seymi müsəlman fraksiyası və Azərbaycan Milli Şurasının iclaslarının protokolları (1918);
- AXC Fövqəladə İstintaq Komissiyasının üzvləri Mixaylov və Novatskinin Azərbaycan quberniya və qəzalarında ermənilərin törətdikləri zorakılıqlar haqqında məruzələri;
- AXC XİN-in əməkdaşı A.Şepotyevin hazırladığı "Öz müqəddəratını təyin edən Azərbaycan türklərinin hüquqları olan mübahisəli Qafqaz əraziləri haqqında məruzə";
- AXC XİN-i nəzdində Xüsusi Təşviqat şöbəsinin təşkili haqqında (1919);
- Azərbaycan əhalisinin etnik tərkibi haqqında (1919);
- AXC-nin Ermənistandakı diplomatik nümayəndəliyinin sonuncu başçısı T.Makinskinin Azərbaycan SSR XXİK-ə məruzələri (1920);
- "XI Ordunun qoşunlarına Bakıya hücum və Azərbaycanın azad edilməsi haqqında" 52 saylı əmr (25.IV.1920).

Dərsliyin yazılmasında dövrün görkəmli dövlət xadimləri, ideoloqları və diplomatlarının əsərlərindən yararlanılmışdır. Onların sırasında M.Ə.Rəsulzadənin ("Azərbaycan Cümhuriyyəti", "Əsrimizin Səyavuşu", "Çağdaş Azərbaycan tarixi"), Ə.Topçubaşının ("Azərbaycanın təşəkkülü"), A.Ziyadxanın ("Azərbaycan"), C.Hacıbəylinin ("İlk müsəlman respublikası Azərbaycan") əsərləri, F.Xoyski və N.Yusifbəylinin çıxış-nitqləri, Y.V.Çəmənzəminlinin məqalələri ("Xarici siyasətimiz", "İran və biz", "Beynəlmiləl əlaqə", "Qüvvəli istiqlal", "Bolşevik qorxusu", "Azərbaycan muxtariyyatı") və s. xüsusi ilə dəyərləndirilməlidir.

"Ön söz"də vurğuladığımız kimi, dərsliyin birinci hissəsi də əsasən çoxsaylı müvafiq elmi araşdırmaların nəticələrini ümumiləşdirməklə yazılmışdır. Bu araşdırmalardan F.Kazımzadənin ("Cənubi Qafqaz uğrunda mübarizə 1917-1921"), T.Svyataxovskinin ("Rusiya Azərbaycanı 1905-1920..."), E.Şahinin "Trabzon Ve Batum Konferansları Ve Antlaşmaları (1917-1918)", A.N.Kuratın ("Türkiye Ve Rusya"), O.Alştadtın ("Azərbaycan türkləri: Rusiya idarəsi altında hakimiyyət və milliyyət"), C.Həsənlinin ("Azərbaycan beynəlxalq münasibətlər sistemində 1918-1920"), N.Nəsiblinin ("Azərbaycanın xarici siyasəti 1918-1920"; "İranda Azərbaycan məsələsi"), İ.Musanın ("Şimali Azərbaycanda ictimai-siyasi vəziyyət 1917-1920"; "Azerbaycan-Türkiye İlişkileri 1917-1922 yılları"; "Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti 1917-1921"), H.Baykaranın ("Azərbaycan istiqlal mübarizəsi tarixi"), M.Qasımovun ("Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti"), A.Gökdemirin ("Cenub-Qarbi Kafkaz Hükumeti"), A.Göyüşovun ("1917-1920-ci illərdə Şimali Qafqaz dağlılarının azadlıq uğrunda mübarizəsi") və b. Bilavasitə mövzuya aidiyyəti olan və faktiki diplomatik materialın zənginliyi, məsələlərə yeni yanaşma üslubu, çıxarılan nəticələrin dəyərliliyi ilə fərqlənən bu tədqiqatlar dərsliyin yazılmasında daha faydalı olmuşlar.

Habelə A.Balayev, P.Darabadi, X.İbrahimli, X.Məmmədov, S.Süleymanova, K.Şükürov, V.Quliyev, A.İsgəndərov, N.Yaqublu, B.Nəcəfov, Ş.Tağıyeva, N.Ağamalıyeva,

R.Xudiyev, K.Məmmədov, S.Yusifzadə, R.Hətəmov, A.Səfərova, Ə.Şahverdiyev, İ.Ağayev və burada sadalanmayan çoxlu araşdırmaçıların elmi tədqiqatlarının nəticələrindən də dərslikdə bu və ya digər dərəcədə istifadə edilmişdir.

Dərslik hazırlanarkən xarici ölkələrin o dövrki tanınmış dövlət xadimlərinin (Atatürk, L.Corc, U.Çörçill, F.Nitti, Lenin), hərbçilərinin (K.Qarabəkir Paşa, Denikin), diplomatlarının (Ə.F.Cebesoy, E.Hauz) əsərlərindəki müvafiq məqamlara da diqqət yetirilmişdir.

Dərslikdə diplomatlarımızın şəxsiyyəti, siyasi portreti və s. ilə əlaqədar məsələlərə də yer verilmişdir.



# BİRİNCİ BÖLÜM

# ŞİMALİ AZƏRBAYCANDA DÖVLƏTÇİLİYİN BƏRPASI UĞRUNDA SİYASİ-DİPLOMATİK MÜBARİZƏ (mart 1917-may 1918-ci illər)

Son orta çağ Azərbaycanı feodal dövlətlərinin (xanlıqların) Rusiya hərbi ekspansiyasına qarşı mübarizəsi uğursuzluqla başa çatdı. Türkmənçay müqaviləsi (10.II.1828) ilə Azərbaycan iki hissəyə bölündü və dövlətçiliyimiz itirildi. Lakin vətənimizin bütövlüyünün və dövlətçiliyimizin bərpası uğrunda mücadilə zaman-zaman müxtəlif yollarla, üsul və formalarla davam etdirildi.

## Azərbaycan ictimai-siyasi fikrində milli istiqlal və dövlətçilik məsələləri

Rusiya və İran müstəmləkəçiliyinə qarşı istiqlal savaşı, Azərbaycan dövlətinin bərpası naminə mübarizədə milli təfəkkür və ictimai-siyasi fikrin inkişafı mühüm rol oynadı. Azərbaycanın müstəmləkə əsarətindən qurtuluşu və milli azadlığını hazırlayan dövr kimi səciyyələndirilən XIX əsrin ikinci yarısında M.F.Axundzadə, H.B.Zərdabi və b. mütərəqqi baxışları bu baxımdan çox önəmlidir. Mirzə Fətəlinin "Nə vaxta qədər Şərqdə istibdad üsulu, müstəmləkə təzyiqi hökm sürəcək..." və "Bizim məqsədimiz xalqın azadlıq bayrağını yüksəklərə qaldırmaqdır..." kimi fikirləri milli istiqlal uğrunda mücadiləyə çağırış idi.

XX əsrin əvvəllərində Azərbaycanın quzeyində və güneyində milli oyanış başlandı, ictimai fikirdə və siyasi həyatda dövlətçiliyə dair baxışlar xeyli genişləndi. Bu, əsasən, aşağıdakı mühüm amillərlə əlaqədar idi:

- milli-azadlıq hərəkatına əlverişli şərait yaradan və güclü təkan verən kapitalist münasibətlərinin inkişafının sürətlənməsi;

- çarizmin müstəmləkəçilik siyasətinə müxtəlif yollarla etiraz edən milli burcuaziyanın (H.Z.Tağıyev və b.) tədricən də olsa qüvvətlənməsi, Azərbaycan ziyalılarının bilavasitə siyasi fəaliyyətə qatılan üçüncü nəslinin (Ə.Hüseynzadə, Ə.Ağayev, M.Ə.Rəsulzadə, Ə.Topçubaşı və s.) formalaşması;
- "Böyük Ermənistan"ın bərpasına yönəlik beynəlxalq və məhəlli fitnə-fəsadların əsas ağırlıq mərkəzinin Qafqaza (Azərbaycana) keçirilməsi, Rusiyanın himayəsi ilə Azərbaycanda yürüdülən türk-müsəlman soyqırımı siyasəti, 1905-ci il erməni-azərbaycanlı münaqişəsinin siyasi nəticələri və s.
- Rusiyada panslavyanizmin və İranda fars şovinizminin imperiyaların türk əhalisini təhdid etmələri, islamçılıq və türkçülük cərəyanlarının Azərbaycanda da geniş yayılması, xüsusi ilə də ikincinin mədəniyyət-maarif sahələrinin hüdudlarını aşaraq siyasi səciyyə daşıması və s.

Bu və digər amillərin təsiri nəticəsində XIX-XX əsrlərin qovuşuğunda ictimai-siyasi baxışların genişlənən və dərinləşən axarında dövlətçiliyin bərpasına dair fikirlər önə çıxır, azadlıq hərəkatının milli xarakteri getdikcə güclənirdi. Məhz bu dövrdə Azərbaycanda "Şərqdəki milli qurtuluş fikirləri ilə Qərbdəki demokratik cərəyanları özündə birləşdirən..." (M.Ə.Rəsulzadə) milli hərəkat meydana gəldi və genişlənməyə başladı.

Tezliklə milli dövlətçiliyə dair baxışların mövcud şəraitin imkan verdiyi formalarda gerçəkləşdirilməsi istiqamətində də müəyyən əməli işlər görülməsinə cəhdlər edildi. Bu kimi işlər sırasında aşağıdakıları qeyd etmək olar:

**a)** Azərbaycanda Rusiya müstəmləkəçiliyinə qarşı gizli mübarizə aparan ilk siyasi qurumun ("Müsəlman gənclik təşkilatı"), Rusiya dövləti-ermənilərin yeritdikləri türk-müsəlman soyqırımı siyasətinə qarşı mübarizəni özünə hədəf seçən ("Difai"), "Müstəqilliklərini qoruyub saxlamaq və ya



bərpa etmək uğrunda mübarizə aparan müsəlman ölkələrinə mənəvi və maddi yardım göstərmək" kimi tarixi vəzifəni proqramına daxil edən ("Müsavat") partiyaların yaranması və fəaliyyəti;

**b)** azərbaycanlı deputatların (Ə.Topçubaşı, İ.Ziyadxanov, M.Cəfərov və b.) Rusiyanın Dövlət dumalarındakı mücadiləsi, çağdaş dövlətçilik təcrübəsinə (parlament fəaliyyəti) yiyələnmələri;

**c)** İrandakı 1905-1911-ci illər Məşrutə inqilabının gedişində Güney Azərbaycanda yerli özünüidarə-hakimiyyət orqanlarının (əncümənlərin) təşkil olunması və s.

## Böyük dövlət qruplaşmalarının Azərbaycandakı strateji maraqları

Tarixin əksər çağlarında beynəlxalq-məhəlli güclərin geosiyası maraq dairəsində olan Azərbaycan birinci cahan savaşı illərində də diqqət mərkəzində dayanırdı. Zamanın aparıcı hərbi-siyasi blokları sayılan Antanta və Üçlər (sonralar Dördlər) ittifaqı Qafqazla, ələlxüsus da Azərbaycanla bağlı müəyyən planlara malik idilər. Böyük dövlət qruplaşmalarının 1914-1918-ci illərdə Azərbaycana mühüm önəm vermələri isə, əsasən, aşağıda sadalanan amillərlə izah oluna bilər:

- bütün Qafqazla birlikdə Azərbaycanın Yaxın və Orta Şərqə nəzarət etməyə imkan verən geostrateji mövqeyə malik olması;
- ölkəmizin təbii ehtiyatlarla, xüsusilə də yanacaq-enerji qaynaqları ilə zənginliyi. Təkcə bu faktı qeyd etmək yetər ki, Bakı o çağın dünya neft sənayesinin başlıca mərkəzlərindən biri idi və Rusiyada neftin 83 faizi Azərbaycanda çıxarılırdı. Həmçinin tərəflər Bakı neftinə yiyələnməyi müharibədə qələbənin tutarlı təminatı kimi dəyərləndirirdilər;
- "Üçlər"in və Rusiyanın Antanta üzrə tərəfdaşları-

nın gələcəkdə yiyələnmək istədikləri Qafqazda, o cümlədən də Şimali Azərbaycanda çarizmin müstəmləkəçilik siyasətinə qarşı mübarizənin genişlənməsi və qüvvətlənməsi.

Yuxarıda sadalanan güc mərkəzlərində aparıcı rol oynayan dövlətlərin Qafqazda, Yaxın və Orta Şərqdə yeni geosiyasi durum yaratmaq niyyətləri və müvafiq səyləri Azərbaycanı da əhatə edirdi. Əsasən İngiltərənin təşəbbüsü ilə bağlanan müqavilələr (İstanbul-1915; London-1915; Sayks/Riko-1916; Peterburq-1916 və s.) Osmanlı dövlətinin paylaşdırılmasını nəzərdə tutsa da burada Azərbaycanla bağlı məqamlar da vardı. “Dranq nach Osten”in müəllifi Almaniyanın İngiltərə müstəmləkələrinə (Hindistan və s.) ən qısa və əlverişli yolu Qafqazdan-Azərbaycanın quzeyindən və güneyindən keçirdi.

Beynəlxalq-məhəlli güclərin Birinci Cahan hərbi dönəmində Azərbaycandakı strateji maraqları kontekstində qruplaşmalardaxili ziddiyyətlər məsələsi də diqqətdən kənarda qalmamalıdır. Böyük və qonşu dövlətlərin Qafqazla (Azərbaycanla) bağlı siyasətində Osmanlı Türkiyəsinin mövqeyi də xüsusi maraq doğurur.

Belə ki, XX yüzilliyin əvvəlində vəələlxüsus da birinci dünya müharibəsi dövründə Osmanlı dövlətinin Qafqaz siyasətində Azərbaycan amili çox önəmli rol oynamışdır. Ottoman Portasının zəiflədiyi və çoxlu çətinliklərlə üzləşdiyi bir dönəmdə belə Azərbaycana mühüm əhəmiyyət verməsi, əsasən, aşağıdakı səbəblərdən irəli gəlirdi:

- bəzi dövlətlərin çeşidli bəhanələrlə (erməniləri müdafiə və s.) Transqafqazda möhkəmlənmək planları və bununla da Osmanlı üçün təhlükə yaratmaları;
- ermənilərin Şərqi Anadolu və Azərbaycan torpaqları hesabına “Böyük Ermənistanı” bərpa etmək niyyətləri;
- Rusiyanın və ermənilərin silahlı qüvvələrinin Azərbaycanda məqsədyönlü türk-müsəlman soyqırımı,



“etnik təmizləmə” və “yandırılmış torpaq” siyasətini həyata keçirmələri və s.

Birinci Dünya müharibəsi illərində Osmanlının hərbi-siyasi dairələrində Azərbaycanla ilgili müxtəlif ideyalar, planlar, variantlar, mülahizələr söylənilmişdi. Onlar arasında “İttihad və Tərəqqi”nin Quzey və Güney Azərbaycanı birləşdirib. Osmanlı himayəsi altında vahid Azərbaycan dövləti yaratmaq ideyası diqqəti çəkir (bəzi qaynaqlarda və tədqiqatlarda Osmanlı ordu hissələrinin 1914-cü ilin dekabrında Cənubi Azərbaycana uğursuz yürüşü də həmin ideyanın gerçəkləşdirilməsinə yönəlik tədbirlərdən biri kimi qiymətləndirilmişdir.

Sözgəlişi bunu da qeyd edək ki, o vaxt (I.1915) Güney Azərbaycan Rusiyanın Qafqaz cəbhəsi qoşunlarının komandanı Yudeniçin göndərdiyi kazak hərbi birlikləri tərəfindən işğal olundu). Dövrün şəraiti kontekstində gerçəkləşməsi reallıqdan uzaq olan həmin ideyanın əsl məzmunu (türkçülük prinsipinə söykənən müstəqil və vahid Azərbaycan dövlətinin qurulması) müxtəlifyönlü qərəzli damğalarla (pantürkçü və panturançı) üzləşdi.

15392

İri dövlət birləşmələrinin ölkəmizə dair geosiyasi və iqtisadi maraqları, müharibəyə qatılan tərəflərə münasibət Azərbaycan ictimai fikri və siyasi mühiti, xalq diplomatiyası tərəfindən birmənalı qəbul olunmadı. Burada iki cəhətə diqqət yetirilməsi lazım gəlir:

**Birincisi,** müharibənin başlanması ilə Azərbaycanın türk-müsəlman əhalisi (xalq diplomatiyası) seçim qarşısında qaldı: Türkiyə təəssübkeşliyi, yoxsa Rusiyaya loyal münasibət. Bəzi məqamlarda birinci halın (türk təəssübkeşliyinin) önə çıxması inkar oluna bilməz. Hətta, mənbələrdən də göründüyü kimi, bir dönəm “Türkiyə ordusuna bilxassə Azərbaycandan gizli olaraq könüllülər axmağa başladı” (Bu kimi hallara hələ bir az əvvəl – Balkan savaşları vaxtı da təsadüf olunmuşdu).

**İkincisi,** dünya hərbinin ehtimal olunan əlverişli nəticə-

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

ləri kontekstində Azərbaycan dövlətçiliyi ilə bağlı məsələlərin müxtəlif üsul və formalarla gündəmə gətirilməsinə cəhdlər göstərildi. Bu baxımdan aşağıda sadalanan tədbir və hərəkətlər üzərində dayanmağa dəyər:

**a)** "Difai" təşkilatının keçmiş üzvlərinin müstəqil Azərbaycan Cümhuriyyəti yaratmaq planı (Bu respublika Bakı, Yelizavetpol, İrəvan quberniyalarını, Dağıstan və Tereki əhatə etməli idi). Planın reallaşdırılması üçün Osmanlı dövlətinin dəstəyini əldə etmək məqsədi ilə onun müəlliflərinin təmsilçisi (Aslan xan Xoyski) 1915-ci ildə Ərzurumda Hərbi nazir Ənvər Paşa ilə danışıqlar da apardı;

**b)** bu dövrdə azərbaycanlılar digər qafqazlı mühacirlərlə birlikdə 1915-ci ildə Türkiyədə "Qafqaz Komitəsi" yaratmışdılar. Həmin komitə Qafqazın xilası və konfederasiya şəklində qurulmasını özünə hədəf seçmişdi. Komitənin, tərkibinə Azərbaycan nümayəndəsi Səlim bəy Behbudovun da daxil olduğu, nümayəndə heyəti Avropa dövlətlərinə Memorandum təqdim etmək niyyəti ilə Berlin və Vyanaya getmişdi. Memorandumda böyük dövlətlərdən Qafqazın qurtuluşu və dörd dövlətdən ibarət konfederasiya yaradılması üçün "Qafqaz Komitəsi"nə yardım göstərilməsi rica edilirdi. Yeri gəlmişkən, Ə.M.Topçubaşı da İsveçrə İttifaqı nümunəli Qafqaz Konfederasiyası yaradılmasına dair baxışlarını açıqlamışdı;

**c)** Ə.Hüseynzadə, Ə.Ağayev (Ağaoğlu) "Turan heyəti" adı altında Avropa dövlətlərinə gedərək Qafqazın (Azərbaycanın) Rusiya əsarətindən xilası ilə bağlı onlara diplomatik notalar verdilər. Ə.Ağaoğlu Rusiyanın asılı xalqları təmsilçilərinin Lozannada keçirilən konfransında (1915-ci il) iştirak etdi. Yenə də Ə.Ağaoğlu, Ə.Hüseynzadə və b. Rusiya imperiyası türk xalqlarının ağır həyatı ilə bağlı 1916-cı ildə ABŞ prezidenti V.Vilsona ünvanlanan müraciəti imzaladılar.

Çarizmin devrilməsindən sonra Rusiyada yaranan hakimiyyətlər (Sovetlər və Müvəqqəti hökumət) imperiyanı qoruyub saxlamağa, müstəmləkəçilik siyasətini davam et-



dirməyə çalışırdılar. Belə bir şəraitdə Azərbaycanın siyasi-milli inkişaf yollarına dair baxışlar fərqli idi. Rəngarəng baxışlar sırasında isə, əsasən, iki xətt üstünlük təşkil edir və diqqəti çəkirdi:

**Birincisi**, milli-ərazi muxtariyyəti xətti. Bu xəttin başlıca ideoloji daşıyıcıları olaraq türkçülüyü əsas götürən milli-demokratik qüvvələr ("Müsavat" və b.) çıxış edirdilər.

**İkincisi**, milli-mədəni muxtariyyət xətti. Onu isə sosialistlər və islamçılar müdafiə edirdilər. Rusiya imperiyasının dağılmasını və Azərbaycanda dövlətçiliyin bərpasını islam birliyinin parçalanması kimi dəyərləndirən ittihatçılar müsəlman birliyi ideyasına önəm verirdilər.

Azərbaycanın milli inkişaf yolu və dövlətçilik məsələlərinə dair başlıca siyasi qərarlar Qafqaz (Bakı, IV.1917) və Ümumrusiya (Moskva, V.1917) müsəlmanlarının, "Müsavat partiyasının (X.1917) qurultaylarında çıxarıldı. Gəlinən ümumi nəticə və çıxarılan qərar belə idi: Rusiyada federativ, demokratik respublika yaradılması və onun tərkibində Azərbaycana milli-ərazi muxtariyyəti verilməsi.

Tezliklə Rusiya və Azərbaycanda baş verən bir sıra hadisələr (Petroqradda Oktyabr çevrilişi, 1918-ci ilin mart-aprelində Bakıda və ölkəmizin digər yerlərində yeridilən türk-müsəlman soyqırımı siyasəti və s.) milli-demokratik qüvvələri özlərinin dövlətçiliyə dair baxışlarında ciddi təshihlər aparmağa vadar etdi. Nəticədə Rusiya tərkibində milli-ərazi muxtariyyətinə nail olmaq xətti milli dövlətçiliyin tezliklə bərpası məqsədi ilə əvəzləndi.

### Ərzincan barışığı, Trabzon-Batum konfransları və Azərbaycan

1917-ci ilin sonu-1918-ci ilin əvvəlində Güney Qafqazın beynəlxalq durumunda ciddi dəyişikliklər baş verməkdə idi. Digər tərəfdən Ərzincan barışığı ərəfəsi və dövründə Qafqazın cənubunda siyasi vəziyyət bir çox səbəblərdən mü-

rəkkəb və qeyri-müəyyən səciyyə daşıyırdı. Qərbin böyük dövlətlərinin Transqafqaz Komissarlığına münasibətindəki fərqli yanaşmalar da bir sıra problemlər yaradırdı. Belə ki, Rusiyanın artıq baştutmaqda olan bölünməsindən qayğılanan ABŞ Transqafqaz hökumətini tanımaqdan, ona yardım göstərməkdən çəkinir və imperiyadakı siyasi proseslərin aydınlaşmasını gözləyirdi. İngiltərə, Fransa və İtaliya isə alman-osmanlı ordularının, Bakı neft rayonunu ələ keçirməklə, Qərb cəbhəsində onların vəziyyətini ağırlaşdıra bilmələri təhlükəsini nəzərə alırdılar. Buna görə də Güney Qafqazdakı milli hərəkatları dəstəkləməyi mümkün sayırdılar.

Transqafqaz Komissarlığının beynəlxalq durumundakı gərginliyi və mürəkkəbliyi Seymin milli fraksiyalarının xarici siyasət məsələlərinə yanaşmadakı fərqli mövqeləri daha da artırırdı. Həmin mövqeləri qısa şəkildə açıqladıqda belə bir siyasi-diplomatik mənzərə ilə rastlaşılır:

- Azərbaycan milli fraksiyası Osmanlı dövləti ilə müharibəni davam etdirməyin əleyhinə idi. O habelə Transqafqaz hökumətinə dövlətlərlə münasibətlər yaratmaqda sərbəstlik verilməsini vacib sayırdı;
- Transqafqazdaxili məsələlərin həllinin zəruriliyini önə çəkən gürcü milli fraksiyası Osmanlı ilə barışığa gəlinməsində elə bir təhlükə görmürdü;
- erməni milli fraksiyası köklü məsələlərdə (müstəqilliyin elanı, sülh və s.) qeyri-müəyyənlik göstərirdi. Fraksiyanın bu cür mövqe tutması həm ermənilərin uzaqgedən niyyətləri, həm də onların vaxtı ilə Türkiyədə törətdiklərinə görə üzləşəcəyi problemlərlə izah oluna bilər.

Transqafqazın gərgin daxili və beynəlxaq vəziyyəti, habelə Qafqazdakı rus ordusunun durumundakı qeyri-müəyyənlik, Lenin Rusiyasının Almaniya ilə barışığa getməsi Osmanlı ilə hərbi qarşıdurmaya son qoyulmasına imkan verirdi. Bütün bu amillərin diqtəsi və müəyyən müzakirələrin nəticəsində türk-rus hərbinə son qoyan Ərzincan barışığı



(5/18.XII.1917) imzalandı. Rusiya Qafqaz ordusunun qərargah rəisi general Vışinskinin və Türkiyənin III ordusunun qərargah rəisi albay Ö.Lütvi bəyin başçılıq etdikləri nümayəndə heyətlərinin hazırladıqları bu barışıq 14 maddədən ibarət idi.

Hərbi-siyasi səciyyəli məsələlərin geniş spektrini əhatə edən barışıq: bütün düşmənçilik hərəkətlərinə qarşılıqlı olaraq son qoyulmasını (2-ci maddə), demarkasiya xəttinin təsbitini (3-cü maddə), qoşun hissələrinin strateji yerdəyişmələrinə yol verilməməsini (4 və 5-ci maddələr), qarşıya çıxa biləcək anlaşılmazlıqların parlamentarilərin müzakirəsi yolu ilə həllini (9-cu maddə) və s. nəzərdə tuturdu.

Barışığın 4 və 5-ci maddələri Azərbaycanın maraqları baxımından daha da önəmli idi. Çünki gələcək proses və hadisələrin də təsdiqlədiyi kimi, Osmanlı ordu hissələrinin Qafqazda qalmaqda davam etmələri Rusiya və ermənilər tərəfindən yürüdülən türk-müsəlman soyqırımı siyasəti ilə üzləşən Azərbaycan üçün gərəkli sayıla bilər.

Ərzincan barışığından bəhs edərkən bəzi prinsipial məqamları da vurğulamaq lazım gəlir:

**a)** tarixi-diplomatik sənədlərdən barışıq təklifinin Sovet Rusiyasına deyil, Osmanlı Türkiyəsinə məxsus olduğu aydınlaşır. Bunu Osmanlı və Rusiya Qafqaz cəbhəsi baş komandanları (Mehmed Vehip Paşa və Prcevalski) arasındakı yazışmalar da təsdiqləyir;

**b)** barışıq Osmanlı ilə Sovet Rusiyası arasında deyil, Türkiyə və Transqafqaz hökuməti – rus ordusu Qafqaz cəbhəsi komandanlığı arasında razılaşdırılan diplomatik akt kimi səciyyələndirilməlidir. Yenə də tərəflər arasındakı yazışmalardan göründüyü kimi, Vışinski barışıq danışıqlarını müstəqil Qafqaz hökuməti adından apardığını bildirmişdi. Sovet hökuməti Transqafqaz Komissarlığını əsla tanımasa da barışığa və atəşkəsə, demarkasiya xəttinə əngəl törətmədi. Ancaq Sovet hökuməti müxtəlif "bəhanələrlə" Qafqazla üzülüşmək, qoşunlarını oradan çəkmək istəmirdi. Belə "bə-

hanələrdən" biri də "Türkiyə Ermənistanı"nın erməni əhalisi özünü müdafiə edə bilənədək Qafqazı tərk etməyin qeyri-mümkünlüyü oldu. Ərzincan barışığının razılaşdırıldığı vaxtlarda Sovet hökuməti S.Şaumyanı Qafqazın Fövqəladə Komissarı təyin etdi (16.XII.1917) və "Türkiyə Ermənistanının muxtariyyəti haqqında" 13 saylı dekreti (29.XII.1917) elan etdi. "Məşhur" Andranik bu dekreti son yüzilin Rusiya tarixində "Böyük Ermənistan"ın bərpasına rəvac verən ilk rəsmi sənəd kimi dəyərləndirmişdi;

**c)** Ərzincan barışığı Transqafqaz Komissarlığının ilk mühüm müstəqil xarici siyasət addımı sayıla bilər. Və bu barışıqla Osmanlı əslində Transqafqaz Komissarlığını tanımış oldu.

Ərzincan barışığı regionda davamlı sülh yarada bilmədi. Qafqazda əmin-amanlığa və təhlükəsizliyə qənim kəsilən ermənilər daha da fəallaşdılar. Rus ordu hissələrinin tərk etdikləri ərazilərdə erməni silahlı dəstələri türk-müsəlman əhalisinə qarşı vəhşiliklər törətdilər. Osmanlı dövlətinin barışığı möhkəm təminatlı sülh müqaviləsinə yetişdirmək məqsədi ilə göstərdiyi səylər əməli nəticə vermədi. Hərbi əməliyyatlara başlamaq məcburiyyətində qalan Osmanlı 1918-ci il martın ortalarında 1914-cü il türk-rus sərhədlərinin bərpasına nail oldu.

Lakin Qafqazdakı vəziyyət mürəkkəb və perspektivləri hələki tam aydınlaşmayan bir halda qalmaqla idi. Bu və digər amillər Osmanlı – Transqafqaz münasibətlərinə bir aydınlıq gətirilməsini, onların normal axara salınmasını tələb edirdi. Tərəflərin baxış və mövqelərindəki fərqli məqamlar qarşılıqlı anlaşma və uzlaşmaya nail olunmasını çətinləşdirir və ləngidirdi. Osmanlı dövlətinin mövqeyi həm özünün özəl maraqları, həm də Transqafqaz xalqlarının ortaq mənafeləri baxımından, ümumiyyətlə, məqbul sayıla bilər.

Belə ki, Osmanlı bu kimi mülahizələrə dayanaraq Transqafqazın müstəqil dövlət statusu qazanmasına çalışırdı: **a)** Qafqazın Rusiyanın nüfuz dairəsindən xilası və bufer rolunu oynaması üçün əlverişli şəraitin yaranması; **b)** regionda yarana biləcək vakuumun Antanta tərəfindən doldurula bilməsi təhlükəsi; **c)** Azərbaycan dövlətçiliyinin bərpasına yol açılması və s. Türkiyə tərəfi bu niyyətlə hətta bir sıra cəhdlər də göstərdi. Transqafqaz hökumətinin Brest-Litovsk sülh danışıqlarında iştirakına, onun həm özü, həm Mərkəz dövlətləri və habelə Rusiya tərəfindən tanınmasına nail olunmasına yönəlik səylər bunu təsdiqləyir.

Transqafqaz hökumətində isə yekdil mövqe yox idi. Bu, hökumətin milli fraksiyalarının həm özəl maraqları, həm də müxtəlif xarici güclərə meyllənmələri ilə də izah olunmalıdır. Buna görə də gürcü və erməni milli fraksiyaları Osmanlı dövləti ilə yaxınlaşmaq istəmirdilər. Bəziləri demokratik burcua Rusiyasının davam edəcəyinə hələ də ümidli idilər.

Ermənilər isə öz xətlərinə sadiq qalaraq "türklərdənsə bolşeviklər yaxşıdır, onlar hər halda rusdurlar" prinsipini rəhbər tuturdular. Müsəlman fraksiyası sülh danışıqlarına başlanılmasını əngəlləyən çeşidli bəhanələri (Müəssislər Məclisi ilə razılaşdırma, Rusiya imperiyasına daxil olan xalqlarla birgə müzakirə və s.) qəbul etmirdi. O yubatmadan Transqafqazın müstəqilliyinin elan edilməsinin və Osmanlı ilə sülh danışıqlarına başlanılmasının tərəfdarı idi.

Ancaq Transqafqazdakı proseslər və regionla bağlı *gedən beynəlxalq siyasi oyunlar Osmanlı dövləti ilə* dayanıqlı sülhə nail olunmasını qaçılmaz edirdi. Buna görə də Osmanlının sülh danışıqlarının başlanılmasına dair növbəti təklifi (23.II.1918) qəbul olundu. Danışıqların yeri (Tiflis, Batum, İstanbul, Trabzon) ətrafındakı müzakirələrdə sonuncu üzərində dayanıldı.

Sülh danışıqları ilə bağlı Trabzon konfransı ərəfəsində Transqafqaz Seymində müxtəlif səpkili müzakirələr getdi, maraqlı mövqelər üzə çıxdı. Bu müzakirə və mövqelərin əsas məqamlarını ümumiləşdirilmiş formada aşağıdakı kimi formulə etmək olar:

- beynəlxalq şəraitin və regiondakı durumun gerçəkliklərini nəzərə alan, xislət və xarakterlərinə müvafiq çeviklik göstərən ermənilər bu dəfə də fərqləndilər. Belə ki, başı daxili problemlərə qarışan Rusiyadan ümidini üzən (hələlik) ermənilər Türkiyəyə meyl göstərməyə başladılar. Onların Seymdəki təmsilçilərindən biri (A.Xatisyan) hətta Transqafqaz dövlətlərinin ayrılıqda Osmanlı federasiyasına qatılmalarını mümkün sayırdı;
- Azərbaycan fraksiyası ölkəmizin üzləşdiyi bəzi yeni problemlərdən yana çox qayğılanmışdı. Həmin problemlər arasında bunlar daha da təhlükəli idi: **1)** Qafqaz cəbhəsindən qayıdan erməni hərbi hissələrinin S.Şaumyan güruhu tərəfindən məqsədyönlü olaraq Bakıda saxlanılması; **2)** Cənubi Azərbaycana doğru hərəkət edən ingilislərin və Qafqazda fəallaşan almanların Bakını tuta bilmələri qorxusu və s. Seymdaxili ümumi müzakirələrdə çətin vəziyyətdə qalan milli fraksiyamız aşağıdakı prinsipial məsələlərdə fərqli mövqe tutdu. Belə ki, o, "Türkiyə Ermənistanı" üçün muxtariyyət tələbini Osmanlı dövlətinin daxili işlərinə müdaxilə kimi qiymətləndirdi. Fraksiya habelə gürcü tərəfinin almanların bu və ya digər formada danışıqlar prosesi ilə əlaqələndirilməsinə (məsələn, onların məlumatlandırılması və s.) razılaşmadı. Azərbaycan fraksiyasının mövqeyindəki diqqətçəkici məqamlardan biri də onun Transqafqazın hər hansı formada Türkiyə Federasiyasına qoşulmasının əleyhinə çıxması idi. Digər tərəfdən də Osmanlıya qarşı hərbi əməliyyatlara qatılmayacağını bildirən Azərbaycan fraksiyası iki mühüm nəticəyə gəlmişdi: **a)** Transqafqazın müstəqilliyinin elan edilməsi; **b)** Osmanlı ilə tezliklə sülh müqaviləsi bağlamaqla Transqafqazda sabitliyə nail olunması. Fraksiya üzvlərinin qəti qənaətinə görə, danışıqların uğur qazanmasına aparan başlıca yol Transqafqazın müstəqilliyinin elanından keçirdi;
- Seymdəki müzakirələrdə Müttəfiqlərin də Trabzon konfransına dəvət edilməsinə dair qeyri-real təkliflər olmuşdu.



Transqafqaz Seyminin 1918-ci il martın 1-də keçirilən ümumi toplantısında Osmanlı dövləti ilə aparılacaq danışıqlara dair ümumi prinsiplər və sülh müqaviləsi ilə əlaqədar bəzi təkliflər razılaşdırıldı. Dörd maddəlik bu sənədi Seymin bütün fraksiyaları bəyəndilər. Ümumi uzlaşma naminə Azərbaycan fraksiyası həmin sənədin 4-cü maddəsində ifadə olunan fikrə (Transqafqaz sülh nümayəndəliyi Osmanlı daxilində "Türkiyə Ermənistanı"na muxtariyyət verilməsinə çalışacaqdır) etiraz etmədi.

Seymin sülh nümayəndəliyi 43 nəfərdən ibarət tərkibdə təsdiqləndi. A.Çxenkelinin başçılıq etdiyi nümayəndəliyə M.Ə.Rəsulzadə, İ.Heydərov, X.Xasməmmədov, M.H.Hacınski, M.Mehdiyev, Ə.Şeyxülislamov, Ə.Pepinov və b. daxil idilər. Osmanlı-türk sülh təmsilçiliyinə isə Hüseyn Rauf bəy Orbay rəhbərlik edirdi.

Trabzona gələn vahid sülh nümayəndəliyinin ayrı-ayrı milli fraksiyalara mənsub olan üzvləri konfransönü bəzi diplomatik gedişlər etdilər. Belə ki, gürcü təmsilçilər danışıqlar prosesində Osmanlının mövqeyinin yumşaldılmasına nail olmaq niyyəti ilə almanlarla əlaqələr qurmağa uğursuz cəhdlər göstərdilər. Osmanlı Xarici İşlər nazirliyinə bağlı mühüm diplomatik sənədlərdən bu da aydın olur ki, sülh nümayəndəliyinin Dağıstandan (İ.Heydərov, Mustafa bəy) və Azərbaycandan (M.Mehdiyev) olan üzvləri də H.Rauf bəylə gizli görüş (13.III.1918) keçirmişdilər.

Bu şəxslər bir neçə təhlükəli (ingilislərin erməniləri təşkilatlandırmaları, Qafqazda bolşevik nüfuzunun artması) və rahatsızlıq yaradan (müsəlmanlararası ixtilaflar) məqamları vurğuladılar. Osmanlı-türk ordusunun Qafqaza girməsini istədiklərini və bunu gözlədiklərini Rauf bəyin diqqətinə ye-

tirdilər. Sənədlərdə Azərbaycan nümayəndəsinin belə bir mühüm fikri də özünə yer almışdır ki, "barış müzakirələri ancaq indiki Qafqaz hökumətinin özünü rəsmən müstəqil hakimiyyət" elan etməsi ilə mümkün olacaqdır.

Trabzon konfransı (14.III-14.IV.1918) gərgin müzakirələr şəraitində keçdi. Tərəflərin qarşılıqlı irad və tələbləri sülh danışıqlarında diplomatik qarşıdurmaya səbəb oldu. Bu da onların uğursuzluğunu elə bəri başdan şərtləndirdi. Belə ki, Osmanlı diplomatiyasının "Qafqaz Cümhuriyyəti"nin rəsmi statusunun elan edilməsinə dair Bəyanatı Seymin sülh nümayəndəliyinin Brest-Litovsk müqaviləsinin Qafqaza aid hissəsini tanımamasına dair Bəyannaməsi ilə qarşılaşdı. Osmanlı nümayəndəliyinin ardıcıl və prinsipial mövqeyi gürcü və erməni təmsilçilərinin güzəştlər qazanmaq niyyətli separat səylərini də heçə endirdi.

Seymin sülh nümayəndəliyinin tərkibindəki Azərbaycan təmsilçiləri konfransda çox ciddi diplomatik problemlər və çətinliklərlə üzləşdilər. Bütün bunları və nümayəndələrimizin konfransdakı *fəaliyyətini xülasə şəklində belə* səciyyələndirmək olar:

- Osmanlı-Transqafqaz münasibətlərində Trabzon konfransı ərəfəsi ortaya çıxan dilemma (irimiqyaslı hərbi qarşıdurma, yoxsa möhkəm sülh) danışıqlarboyu da qalmaqda idi. Bu ümumi problemlə yanaşı Azərbaycan nümayəndələri həm də digər (spesifik) çətinliklərlə qarşılaşmışdılar. Onların diplomatik durumunu ağırlaşdıran və mövqeyini qəlizləşdirən bu məqamlar diqqəti çəkir. Onlar: **1.** Transqafqazın ümumi dövlət maraqlarından çıxış edərək – **a)** gürcülərin incik düşməmələrinə və **b)** ermənilərin qatı antiosmanlı mövqelərindən çəkinmələrinə çalışmalı idilər. **2.** Azərbaycanın müxtəlif bölgələrindən ilhaq tələbləri ilə Osmanlı nümayəndələrinin yanına gələn heyətlərin təzyiqlərinə dözməli və həmçinin əhalimizi kütləvi surətdə qırılmaqdan qorumaq üçün təcili tədbirlər görməli idilər. Həm Azərbaycandakı mürəkkəb siyasi-hərbi şərait, həm də nümayəndələrimizin konfransdakı qibtəolunmaz durumu onların gəldikləri bu nəticələrin kifayət qədər əsaslı olduğunu təsdiqləyirdi: **a)** Qafqazın dövlət müstəqilliyinin dərhal elanına nail olunması və **b)** ləngimədən hərbi toqquşmalara son qoyulması;
- Azərbaycan nümayəndələri gəldikləri nəticələri reallaşdırmaq və yuxarıda sadalanan diplomatik-siyasi səciyyəli konkret vəzifələri həyata keçirmək üçün bir sıra addımlar atdılar. Bu kimi tədbirlərin mərkəzində isə Seymin nümayəndəliyinin gürcü və erməni üzvlərini (Dağıstan təmsilçiləri bizimkilərlə, əsasən, həmrəy idilər) Brest-Litovsk müqaviləsini tanımağın və Qafqazın müstəqilliyinin elanının zəruriliyinə inandırmaq dururdu. Nümayəndələrimiz gürcülərlə ermənilərin birləşərək Qafqazda müsəlmanlara qarşı cəbhə yaratmalarına dair ehtimal olunan planları pozmaq üçün də səylər göstərdilər. Hətta X.Xasməmmədovun Rauf bəy Orbayla, bir az sonra isə M.H.Hacınskinin Ənvər Paşa ilə Trabzondakı görüşlərində Osmanlı tərəfinin Batumu gürcülərə güzəştə getməsi də təklif edildi.

Trabzonda danışıqların getdiyi vaxtlarda, daha dəqiq isə, martın sonları – aprelin əvvəllərində Tiflisdə və Bakıda kəskin siyasi proseslər cərəyan edirdi. Belə ki, Tiflisdə-Transqafqaz seymi və hökumətində – müharibə və sülh məsələlərinə dair Trabzonda aparılan danışıqlarla əlaqədar qızğın müzakirələr gedirdi. Bakıda və ətraf ərazilərdə isə erməni-sovet *hərbi birləşmələri* tərəfindən türk-müsəlman soyqırımı həyata keçirilir, Güney Qafqazın sovetləşdirilməsinə hazırlıq görülürdü. Və bu iki ciddi hadisə, təbii ki, Trabzon konfransındakı onsuz da gərgin olan diplomatik mühitə təsir göstərməyə bilməzdi.

Seymin fraksiyalarının 1918-ci il aprelin birinci yarı-

sında birgə və ayrılıqda keçirilən iclaslarındakı qızğın müzakirələr istər ümumi səciyyəli, istərsə də Azərbaycanın mənafeləri və mövqeyi ilə bağlı məsələlərdə çoxlu maraqlı məqamları üzə çıxardı.

Müzakirələrin materiallarının da təsdiqlədiyi kimi, Azərbaycan fraksiyasının aparıcı qüvvələri (müsavatçılar və b.) Transqafqazın müstəqilliyinin elanı və Osmanlı ilə sülh bağlanmasına dair mövqelərində ardıcıl və israrlı idilər (Osmanlı ilə müharibə məsələsinə münasibətdə müsəlman fraksiyasının daxilində də birmənalı yanaşmanın olmaması nəzərdən qaçırılmamalıdır). Fraksiya üzvləri Osmanlı-Transqafqaz müharibəsinin başlayacağı təqdirdə müsəlmanların ona qatılmayıb bitərəf qalacaqlarını bildirirdilər.

Erməni və gürcü fraksiyaları tərəfindən Seymdə səsləndirilən fikirlər (Osmanlı əleyhinə Antantadan yardım alınmasına cəhdlər göstərilməsi) və atılan addımlar (parlamentin fəaliyyətinin iki həftəliyə dondurulması; bu iki millətin nümayəndələrindən ibarət fövqəladə üçlüyün təşkili) Azərbaycan fraksiyasının təcridi siyasətini açıqlayırdı.

Azərbaycan fraksiyasının Qafqazın müstəqilliyinin elan edilməyəcəyi halda onun şərq hissəsinin müstəqilliyinin elanının müzakirəyə çıxarılması tələbi Seymdə ciddi rahatsızlıq doğurdu. Osmanlının Trabzondakı Transqafqaz sülh nümayəndəliyinə ultimatumu (6.IV.1918) Azərbaycan fraksiyasının tələbinin təsirini xeyli gücləndirdi. Ultimatumda – **a)** Brest müqaviləsinin dərhal tanınması və **b)** Osmanlı ilə qəti sülh bağlanması üçün Transqafqazın Rusiyadan ayrılaraq müstəqilliyini elan etməsi tələb olunurdu.

Bu arada (10.IV.1918) Trabzondakı sülh nümayəndəliyi Brest-Litovsk müqaviləsinin tanınması əsasında danışıqları davam etdirməyə razılığını bildirdi. Bunu Osmanlının ultimatumu və Qafqazdakı 1877-ci il sərhədlərini bərpa etmək üzrə olması ilə yanaşı həm də: **a)** Azərbaycan fraksiyasının Seymdəki demarşı və **b)** sovetlərin Transqafqazda hakimiyyəti ələ keçirmələrinin başlanğıcı kimi qiymətləndirilən



Bakı hadisələri şərtləndirdi.

Lakin Seymin gürcü və erməni fraksiyaları danışıqların davam etdirilməsi işini pozdular. Və daha kəskin mövqe tutaraq: **1)** sülh nümayəndəliyinin geri çağrılması və **2)** ölkədə müharibə vəziyyətinin elan olunması haqqında birgə qərarlar qəbul etdilər. Trabzondakı Azərbaycan nümayəndələrinin (M.Hacınski və b.) səyləri sayəsində sülh heyətinin tam tərkibdə Trabzonu tərk etməsi baş tutmadı. Nümayəndəliyin üzvlərinin bir qismi məsləhətləşmələr üçün Tiflisə qayıtdı. Beləliklə, Trabzon danışıqları kəsildi və sonralar davam etdirilmədi.

Trabzon danışıqları kəsilsə də dövrün beynəlxalq şəraiti və regiondakı proseslərin gedişi Osmanlı ilə Transqafqazın bir araya gələrək müqavilə münasibətləri səviyyəsində uzlaşmalarını qaçılmaz edirdi. Buna görə də 8 gün davam edən Osmanlı-Transqafqaz müharibəsi birincinin Batumu özünə qaytarması və sülh təşəbbüsü ilə sona yetdi.

Osmanlı-Transqafqaz münasibətlərinin aydınlaşdırılmasının yenidən danışıqlar müstəvisinə keçirilməsində Türkiyə diplomatiyası ilə yanaşı Seymin Azərbaycan fraksiyası və sülh heyətinin Trabzonda qalan üzvləri mühüm rol oynadılar. Trabzon danışıqları sonu – Batum konfransı ərəfəsində Qafqazdakı gerçəklikləri düzgün qiymətləndirən Azərbaycan parlamentari-diplomatları Seymdəki digər tərəfləri Transqafqazın müstəqilliyinin artıq reallaşmaq üzrə olmasına inandıra və razı sala bildilər.

Trabzonda qalan nümayəndələr, xüsusi ilə də M.H.Hacınski Osmanlı-Transqafqaz münasibətlərinin perspektivləri və xarakteri barədə Ənvər Paşa ilə fikir mübadiləsi etdilər. İkitərəfli münasibətlərin xarakteri məsələsində Ənvər Paşa federasiya və ya konfederasiyaya üstünlük verdiyini bildirdi. Paşa Güney Qafqazda müstəqil vahid dövlətin qurula bilməyəcəyi halda isə Azərbaycanın Osmanlı ilə Avstriya-Macarıstan şəklində sıx ittifaq yaratması imkanına malik olduğunu da söylədi (Seymin müsəlman fraksiyasındakı müzakirə-

lərdə bu variant qeyri-məqbul sayıldı).

Eyni gündə (22.04.1918) başverən iki hadisə – Osmanlının sülh təklifi və Güney Qafqazın müstəqilliyinin elanı (ZFDR-in təşkili) – ilə danışıqlar prosesinin ikinci mühüm mərhələsi başlandı. Danışıqların Batumda aparılması razılaşdırıldı.

Batum konfransına qatılacaq 45 nəfərlik Transqafqaz nümayəndəliyinin (başçısı A.Çxenkeli idi) 6 həlledici səsə malik üzvü arasında M.Ə.Rəsulzadə və M.H.Hacınski də vardı. Almaniyanın və Dağlıların təmsilçilərinin konfransda iştirakı təklifi bəzi mübahisələrə baxmayaraq Seym tərəfindən qəbul olundu. Ancaq konfransın işinə qatılmaq istəyində bulunan Sovet Rusiyasının əks halda Batum müqaviləsini tanımayacağına dair hədəsi isə təsirsiz qaldı.

Azərbaycan fraksiyasının üzvləri Seymdə yeni konfrans ərəfəsi keçirilən müzakirələrdə bəzi məsələlərlə bağlı prinsipial mövqe nümayiş etdirdilər: **1.** Alman-türk oriyentasiyasına dair möhkəm və aydın mövqe ortaya qoyuldu. **2.** Güney Qafqazın şərq hissəsinin türkləri adından Osmanlıdan yardım istənilməsi vaxtının yetişməsi ilə yanaşı azad Azərbaycanın müstəqil yaşaması (idarə olunması) fikrinin də heç zaman yaddan çıxarılmaması bildirildi. **3.** Seymdəki daşnak deputatların Bakıda hakimiyyətin bölünməsinə dair siyasi alver təklifi (Bakıda gələcək hökumətin sırf müsəlman deyil, beynəlmiləl xarakterdə olması və erməni hissələrinin şəhərdə qalmasının qarşılığında Bakı Sovetinin buraxılması barədə öhdəlik götürməsi) qətiyyətlə rədd edildi.

Batum konfransı (11.V-4.VI.1918) XX əsrin əvvəllərindəki beynəlxalq münasibətlərdə və Qafqaz diplomatiyasında böyük dəyərə malik olan hadisələrdən sayıla bilər. Cəmi bir rəsmi toplantısı keçirilən konfransda Türkiyə nümayəndə heyətinin başçısı Xəlil bəy Menteşe "Osmanlı imperiyası ilə Transqafqaz Konfederasion Respublikası arasında sülh və dostluq haqqında" müqavilə layihəsini müzakirəyə çıxardı. Osmanlı tərəfinin bir sıra yeni tələb və təkliflərini



özündə əks etdirən bu sənədə münasibətdə Transqafqaz nümayəndəliyində fikir ayrılıqları yarandı və mövqelərin məlum qütbləşməsi – xarici güclərə meyllənmənin qüvvətlənməsi baş verdi.

Azərbaycandan olan təmsilçilər Osmanlı layihəsini dəstəklədilər. Çünki onlar ermənilərin də yaşadıqları bəzi ərazilərin (Axalkələk və Axısqa qəzalarının, Sürməli, Aleksandropol, Eçmiədzin qəzalarının isə müəyyən hissələrinin) Osmanlıya güzəştə gedilməsinin Güney Qafqazda Azərbaycanın mövqelərini qüvvətləndirəcəyi qənaətində idilər.

Qafqaz türklərinin yaşadıqları müxtəlif ərazilərdən Osmanlı dövləti ilə birləşməyə dair gələn çoxsaylı çağırışlar, azərbaycanlılara qarşı törədilən zorakılıqlar, Bakı Xalq Komissarları Soveti qoşunlarının Gəncəyə yürüşünün önlənməsi zərurəti, nəhayət, Türkiyə oriyentasiyası xətti də Xəlil bəyin mövqeyinin dəstəklənməsində heç də az rol oynamadı.

Bu dövrdə Almaniya-Osmanlı münasibətlərində özünü göstərən müəyyən gərginliyi ümid yeri kimi qiymətləndirən ermənilər və gürcülər Reyx nümayəndəliyinin konfransa daha yaxından cəlb edilməsinə yönəlik diplomatik gedişlərə də əl atdılar. Bu özünü Transqafqaz nümayəndəliyinin Xəlil bəyin layihəsi müqabilində ona ünvanladığı təkliflər paketində də aydın şəkildə biruzə verdi.

Transqafqazın müqaviləni yalnız Türkiyə ilə deyil, Dördlər İttifaqının (Mərkəzin) digər dövlətləri ilə də bağlaması və s. təkliflər Almaniyanın maraqları baxımından cəzbedici idi. Çünki o, **birincisi**, hər vasitə ilə Ənvər Paşanın Şərq siyasətini əngəlləməyə, **ikincisi**, Şimali Qafqazı Reyxə qatmağa, **üçüncüsü**, Gürcüstanda təsirini qüvvətləndirməyə, dördüncüsü, bütün imkanları ilə Osmanlını ingilislərin Bakıya yolunu bağlamağa istiqamətləndirməyə çalışırdı.

Bir sıra ciddi səbəb və amillər Batum konfransında diplomatik və dolayısı yolla isə Seymdə siyasi qarşıdurmanı sərtləşdirdi:

- Transqafqaz nümayəndəliyinin təkliflərinin Osman-

lı sülh heyəti tərəfindən rədd olunması;

- Osmanlı hərbi hissələrinin Ermənistanın içərilərinə doğru irəliləmələri;
- Xəlil bəyin alman vasitəçiliyini əsla yaxın buraxmaması və Reyx nümayəndəliyinin (fon Lossov) Batumu tərk etməsi;
- müsəlman fraksiyasının Transqafqaz hökumətinin bolşeviklərin Bakıdan çıxarılması üçün tədbirlər görməyəcəyi təqdirdə, Seymi tərk edəcəyinə dair bəyanatı;
- Türkiyənin konfransa 1918-ci il 26 may tarixli Memorandumu (ultimatumu).

Bütün bunlar isə Qafqazın ictimai-siyasi həyatında keyfiyyətcə yeni mərhələyə keçidin yaxınlaşdığını göstərirdi. Vəziyyətdən çıxış yolları arayan tərəflər vahid dövlət şəklində mövcudluğun imkanlarının tükənməsində həmrəy idilər. Belə bir şəraitdə Azərbaycan nümayəndələrinin gürcülərə ikilikdə dövlət yaratmaq təklifi də qeyri-real görünürdü. Çünki əks tərəf artıq almanların qəyyumluğunda olan ayrıca dövlət qurmaq qənaətinə gəlmişdi.

* * *

Dövlətçiliyə və xarici oriyentasiya məsələlərinə fərqli baxışların gerçəkləşməsi Transqafqaz Seymi və hökumətinin dağılması, müstəqil dövlətlərin yaranması ilə yekunlaşdı. Bu yeni siyasi durum Batum konfransının işi üçün qeyri-müəyyənlik yaratdı. Yalnız müsəlman fraksiyasının Batum danışıqlarının davam etdirilməsinə dair qərarına (27.V.1918) digər tərəflərin praqmatik yanaşması konfransı uğursuzluqdan xilas etdi.

Yeni yaranmış cümhuriyyətlər Batum danışıqlarının davam etdirilməsi ilə razılaşdılar. Danışıqlar 1918-ci il iyunun 4-də Osmanlı dövləti ilə Güney Qafqaz respublikaları arasında ayrılıqda müqavilələr bağlanması ilə yekunlaşdı.



Batum müqavilələri ilə Osmanlı dövləti, Brest-Litovsk barışığına zidd olmasına rəğmən, 1828-ci il sərhədlərini bərpa etmiş oldu.

Konfransın Azərbaycan üçün nəticələrinə gəldikdə isə (onlardan az sonra ətraflı bəhs ediləcəkdir) hələlik belə bir mühüm cəhəti vurğulamaq olar: Batum müqaviləsi bərpa edilən Azərbaycan dövlətçiliyinin müdafiəsi üçün etibarlı siyasi-hərbi dəstək idi.

## İKİNCİ BÖLÜM

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DİPLOMATİYASININ İLK ADDIMLARI

Bərpa edilən dövlətçiliyin möhkəm və davamlı olması uğurlu xarici siyasət yürüdülməsindən asılı idi. AXC-nin xarici siyasətinin başlıca məqsəd, vəzifə, prinsipləri dövrün mühüm tarixi ("İstiqlal Bəyannaməsi") və habelə çoxlu diplomatik sənədlərində ifadə olunmuşdu. Azərbaycan dövlətçiliyinin fəaliyyətinə dair proqram sənədi kimi də dəyərləndirilən "İstiqlal Bəyannaməsi" hökumətin xarici siyasəti üçün çıxış və dayaq nöqtəsi sayılır. Bunu "İstiqlal Bəyannaməsi"nin 3-cü (AXC-nin bütün millətlər və, ələlxüsus da, həmcüvar olduğu millət və dövlətlərlə xoş münasibətlər qurulmasına çalışması) və 4 ilə 5-ci bəndləri (AXC dini-milli, cinsi və s. fərqləri gözləmədən öz hüdudlarında bütün vətəndaşların mülki-siyasi hüquqlarına təminat və millətlərin hamısının sərbəst inkişafına geniş meydan verir) yetərincə təsdiqləyir.

3-cü bənddə ifadə olunan prinsipial müddəa Azərbaycan parlamentinin iclasında (26.XII.1918) elan edilən "Hökumətin bəyannaməsi" adlı sənədin "Xarici siyasət" bölümündə bir daha vurğulanırdı. Həmin sənəddə "bütün millətlərlə qardaşlıq və dostluq münasibətlərinin saxlanılmasının zəruriliyi arzusu" önə çəkilirdi. Burada habelə hökumətin bu xətti rəhbər tutduğu bəyan edilirdi. Həmçinin diplomatik və iqtisadi sahələrdə dostluq əlaqələrinin qurulması əzminin xarici işlər idarəsinin siyasətinin əsasında duracağı bildirilirdi.

AXC-nin xarici siyasətinin başlıca məqsəd və vəzifələrini, onun aparıcı istiqamətlərini aşağıdakı kimi ifadə etmək mümkündür:

- yenicə bərpa edilən Azərbaycan dövlətçiliyinin gücləndirilməsi və beynəlxalq birliyin bərabərhüquqlu üzvü statusuna nail olunması;
- bütün millətlər və ölkələrlə, ələlxüsus da, Qərbin böyük dövlətləri (ABŞ, İngiltərə, Fransa, Almaniya, İtaliya) və Rusiya ilə, habelə tarixi qonşularla (Türkiyə, İran) və Qafqazda yaranan yeni cümhuriyyətlərlə (Gürcüstan, Dağlılar, Qars) normal münasibətlər qurulması;
- ermənilərin əsassız torpaq iddiaları və hərbi təcavüzünün dəf olunması, ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi.

AXC-nin xarici siyasət fəaliyyətində ardıcıl olaraq rəhbər tutduğu əsas prinsiplərdən isə: **a)** suverenlik-azad dövlətçilik xəttinin dönməzliyi; **b)** digər dövlətlərlə qarşılıqlı münasibətlərdə bir-birinin suverenliyinə və ərazi bütövlüyünə şəksiz hörmət edilməsi; **c)** beynəlxalq həyatın və beynəlxalq hüququn bütün normalarına sözsüz riayət olunması və s.

Müstəqil dövlətçilik xəttinin elanı və uğurlu xarici siyasət fəaliyyətinin gerçəkləşdirilməsi ləngimədən müvafiq strukturların formalaşdırılmasını tələb edirdi. Bütün bunlara görə də, ilk öncə, AXC hökumətinin I kabinəsində Xarici İşlər nazirliyinin də yer alması razılaşdırıldı.

Xarici siyasət idarəsinin ilk başçısı M.H.Hacınski II kabinənin istefasınadək (7.XII.1918) onun işinə rəhbərlik etdi. III və V kabinələrdə F.Xoyski, IV isə M.Cəfərov Xarici İşlər naziri işlədilər (Arxiv sənədlərindən bu da aydın olur ki, II kabinədaxili dəyişikliklərdən (6.X.1918) sonra xarici işlərə rəhbərlik Ə.Topçubaşıya həvalə edilmişdi. Bir sıra diplomatik materiallarda və araşdırmalarda isə bu müddətdə həmin vəzifəni A.Ziyadxanın icra etməsi göstərilir).

Xarici İşlər nazirliyində diplomatiya, ümumi işlər, təsərrüfat şöbələri və habelə Məlumat bürosu, Draqomanlıq, Qeydiyyat, arxiv təşkil edilmişdi. Azərbaycan Respublikasının 1919-cu ilə dair büdcə xərclərinin layihəsindən göründüyü kimi, XİN-ə 29702705 çervon ayrılmışdı.

XİN aparatının təşkili ilə paralel olaraq onun digər

strukturlarının da formalaşdırılması prosesi getdi. AXC-nin bir çox dövlətlərdə diplomatik nümayəndəlikləri açıldı. Müəyyən səbəblərə görə Ermənistan və Gürcüstandakı səfirliklərin təşkili və fəaliyyətinə daha böyük önəm verildi. Onlardan birincisində 30, ikincisində isə 19 (Batumdakı konsulluqda da 13) diplomat və b. çalışırdı.

Tezliklə Bakıda bir sıra xarici diplomatik missiyalar fəaliyyətə başladılar. Avropa dövlətlərində diplomatik nümayəndəliklər açılması müəyyən çətinliklərlə üzləşdi. Buna görə də AXC-nin həmin dövlətlərdə Osmanlı səfirlikləri vasitəsi ilə təmsilçiliyi razılaşdırıldı.

## Batumi müqaviləsi və Azərbaycan-Osmanlı münasibətləri

AXC-nin dövlətlərarası münasibətlər sisteminə qoşulmaq sahəsindəki ilkin səyləri çoxşaxəli və, əsasən də, uğurlu olmuşdur. Onlar arasında aşağıdakılar diqqəti cəlb edir:

- Diplomatiyamızın Transqafqaz respublikalarını Batum danışıqlarının davam etdirilməsinin zəruriliyinə inandıra və razı sala bilməsi;
- AXC-nin ilk beynəlxalq (Batum) müqaviləsinin imzalanmasına nail olunması;
- "İyun böhranı"nın siyasi-diplomatik yollarla aradan qaldırılması;
- Azərbaycan-Osmanlı yaxınlaşmasına Almaniyanın qərəzli yanaşmasının zərərsizləşdirilməsinə yönəlik cəhdlər;
- Dördlər İttifaqı ilə Qafqaz dövlətlərinin İstanbulda keçirilməsi gözlənilən (lakin baş tutmayan) konfransı ilə bağlı diplomatik gedişlər;
- Bakının savaşla qurtuluşuna diplomatik dəstək verilməsi;
- Ə.Topçubaşının İstanbula diplomatik missiyasının nəticələri;



- Antanta (ingilis) "idarəçiliyi"nin AXC hökumətini tanımasına dair diplomatik tədbirlər görülməsi.

AXC diplomatiyasının ilk addımları sırasında isə Batum müqaviləsi daha önəmli yer tutur. Onun bağlanmasını zəruri edən amillərə gəldikdə isə bu mühüm məqamların üzərində dayanmaq olar: **1.** Tərəflərin, Tranqsqafqazda sabitliyin yaranması və təhlükəsizliyindəki, ortaq maraqları; **2.** Azərbaycanın etibarlı siyasi dayağa və yetərli hərbi yardıma duyulan kəskin ehtiyacı; **3.** Osmanlının Azərbaycanın coğrafi yerləşməsi və yanacaq-enerji qaynaqlarından faydalanmaq istəyi və s.

Batum müqaviləsinə dair elmi-siyasi baxışlarda müəyyən ziddiyyətli mövqelər də mövcuddur: **a)** orta çağ Azərbaycan-Osmanlı qarşıdurmasından müttəfiqliyə doğru böyük addım, yoxsa Azərbaycanın Türkiyənin müstəmləkəsinə çevrilməsinə verilən rəvac; **b)** bir millətin iki dövləti arasında bərabərhüquqlu müqavilə, yoxsa Azərbaycanda "türk işğalı"nı rəsmiləşdirən saziş; **c)** Azərbaycana hərtərəfli Osmanlı yardımına təminat verən ilk beynəlxalq müqavilə, yoxsa qalib dövlətin məğlub tərəfə israrla qəbul etdirdiyi şərtlər yığnağı.

Sadalanan bu dəyərləndirmələrdəki obyektiv və qərəzli yanaşmalar arasında tərəddüddə qalmamaq üçün bilavasitə müqavilənin şərtlərinə və onun imzalanmasından dərhal sonra görülən əməli işlərə nəzər salmaq yetərli və məqsədəuyğundur. Osmanlı tərəfindən – Ədliyyə naziri və Dövlət Şurasının sədri Xəlil bəy Menteşe, Qafqaz orduları komandanı Vehib Paşa və AXC adından isə Milli Şuranın sədri M.Ə.Rəsulzadə və Xarici İşlər naziri M.H.Hacınskinin imzaladıqları Batum müqaviləsi 11 maddədən ibarətdir. Bu müqaviləyə, elə həmin gün imzalanan, 7 maddəlik bir Əlavə də mövcuddur.

Batum müqaviləsinin ana prinsipini iki dövlət arasında dostluq münasibətlərinin qurulması, dövlətçiliyin müdafiəsi naminə Azərbaycana Osmanlı siyasi dəstəyinin verilməsi və

hərbi yardımının göstərilməsi təşkil edir. Dövlətlər arasında "daimi sülh və möhkəm dostluğun bərqərar olacağına" (1-ci maddə), Osmanlı-Azərbaycan sərhədlərinin müəyyənləşdirilməsinə (2-ci maddə), daxili asayişin təmin olunması üçün, Azərbaycan Cümhuriyyəti hökumətinin tələb edəcəyi halda, Osmanlının silahlı qüvvə ilə yardımda bulunacağına (4-cü maddə) dair şərtlər də bu fikirləri təsdiqləyir.

Müqavilənin əsas maddəsi sayılan 4-cü bəndin də yanlış anlaşılmaması lazım gəlir. Müqaviləyə opponentlik edənlər bunu Türkiyənin Azərbaycanın daxili işlərinə müdaxiləsi, AXC-nin ölkəiçi problemləri xarici dövlətin ordusu vasitəsi ilə çözməsi kimi qiymətləndirirlər. Əslində burada söhbət müəyyən xarici siyasi-hərbi güclərin dəstəklədikləri ermənilərin və bolşeviklərin Azərbaycanın dövlətçiliyi və ərazi bütövlüyü üçün yaratdıqları təhlükənin aradan qaldırılmasından gedir.

10-cu maddə həm ikitərəfli, həm də çoxtərəfli (Osmanlı-Transqafqaz respublikaları – Rusiya) qarşılıqlı münasibətlər baxımından diqqətçəkici idi. Brest-Litovsk müqaviləsinin tanınmasını təsbitləyən bu maddə ilə həm də Osmanlının 1914, 1878, 1828-ci illər sərhədlərinin hərblə bərpasının diplomatik təminatına yönəlik addımlarından daha biri atılmış olurdu. Müqavilənin digər maddələrində isə bunlar nəzərdə tutulurdu:

Azərbaycan və Ermənistan cümhuriyyətləri arasında sərhədlərin müəyyənləşdirilməsinə dair (müqavilənin bir hissəsini təşkil edəcək) protokolun imzalanması (3-cü maddə); AXC hökumətinin sərhədyanı bölgələrdə silahlı quldur dəstələrinin ləğvinə dair öhdəliyi (5-ci maddə); kommunikasiya, ticarət-tranzit, konsulluq və s. məsələlərin həlli (6-9-cu maddələr). Batum müqaviləsinə 7 maddəlik "Əlavə"də isə Osmanlı-Azərbaycan hərbi əməkdaşlığının və birincinin ikinciyə göstərəcəyi irimiqyaslı əsgəri yardımın konkret detalları işlənib hazırlanmışdı.

Göründüyü kimi, müqavilənin şərtləri "türk işğalı", həmin sazişin Azərbaycanı bir müstəqil dövlət kimi qəbul etməməsi və s. tezislər üçün əsas vermir. Dövlətlərarası münasibətlərin tarixən formalaşan prinsiplərinin əlifbasına görə, biri digərinin suverenliyini tanımayan və ona hörmət etməyən dövlətlər arasında dostluq (müttəfiqlik) müqaviləsinin imzalanması mümkünsüzdür. Digər tərəfdən, Azərbaycana təcili göstərilən yetərli Osmanlı hərbi yardımı və onun gözönündəki nəticələri də bu kimi baxışlara yer qoymur.

Bir az da konkret desək: **a)** həm özünün ağır vəziyyətinə, həm də Mesopotamiyanın geostrateji baxımdan onun üçün heç də az əhəmiyyət kəsb etməməsinə baxmayaraq Osmanlı seçmə qoşun hissələrinin oradan Azərbaycana göndərilməsi; **b)** Azərbaycanda ordu saxlamağın Türkiyəyə hər ay 50 min lirəyə (1 milyon manata) başa gəlməsi; **c)** Osmanlının Azərbaycana 2 milyon lirə borc verməsi; **ç)** Azərbaycanın ərazi bütövlüyünün təminatı, onun türk-müsəlman əhalisinin kütləvi surətdə fiziki məhvolmadan xilası naminə minlərlə türk əsgər və zabitinin şəhid olması; **d)** "işğalçı" Türkiyənin ondan "asılı" Azərbaycanın müstəqil güclü ordu yaratması arzusu və bu mühüm işin gerçəkləşdirilməsinə hərtərəfli yardımı. Əslində bunlar bir millətin iki dövləti arasındakı münasibətlər üçün tələb olunanların baş verdiklərini sübuta yetirir.

Bu da mütləq vurğulanmalıdır ki, Osmanlı hərbi hissələri Azərbaycana Batum müqaviləsi ilə yanaşı, həm də AXC rəhbərliyinin (Milli Şuranın sədri M.Ə.Rəsulzadənin) rəsmi müraciəti – "Azərbaycanın Türkiyədən əsgəri müdaxilə istəməsi" adlı sənədə əsasən dəvət olunmuşdular (Osmanlı ordusunun məhdud bir kontingentinin hələ bu müqaviləyə-sənədədək Azərbaycana gəlməsi faktı – fikrini də inkar etmək olmaz). Bu sənəddə, ölkəmizi bölmək və müstəqilliyimizə son qoymaq istəyən, daha ciddi təhlükədən – bolşeviklərdən dolayı yaranan həyəcanla bağlı irimiqyaslı hərbi yardımın tezləşdirilməsi istənilirdi.

Bütün bunlarla yanaşı istər Batum müqaviləsi, istərsə

də o çağın Azərbaycan-Osmanlı münasibətləri ilə əlaqədar bəzi məqamların üstündən sükutla keçmək də obyektivlik baxımından düzgün sayıla bilməz. Buna görə də – **1)** Türkiyənin Qafqazdakı maraqları; **2)** Batum müqaviləsi və ona əlavə sazişlərin Osmanlıya müəyyən imtiyazlar verməsi; **3)** Yüksək rütbəli Türkiyə hərbçilərinin Azərbaycanın idarəçiliyinə müdaxiləsi halları və s. məqamlar diqqətdən kənarda saxlanılmamalıdır.

Bütövlükdə isə AXC-nin ilk beynəlxalq sazişi sayılan Batum müqaviləsini bir millətin hər iki dövlətinin maraqlarına təminat verən tarixi diplomatik bağlaşma kimi dəyərləndirmək daha düzgün olardı.

Osmanlı dövləti ilə Güney Qafqaz respublikaları arasında bağlanan Batum müqavilələrinə əlavə olaraq 1918-ci il iyunun 4-də daha iki saziş də imzalanmışdı. Osmanlı-Azərbaycan-Gürcüstan arasında razılaşdırılan birinci saziş Bakı-Batum neft kəmərinin fəaliyyətinin təminatını nəzərdə tuturdu (Ermənistanın bu neft kəməri ilə elə bir bağlantısı olmadığından onun həmin müqavilədə iştirakına ehtiyac duyulmamışdı). O, neft sənayemizin inkişafına və Bakı neftinin dünya bazarına çıxarılmasına müsbət təsir göstərməli idi. İkinci saziş Osmanlı, Azərbaycan, Gürcüstan, Ermənistan arasında bağlanmışdı. O, Transqafqazdakı dəmir yollarının və müvafiq nəqliyyat vasitələrinin ərazi hüdudlarına uyğun olaraq bölüşdürülməsini nəzərdə tuturdu.

1918-ci il iyunun 14-də Osmanlı ilə Azərbaycan arasındakı Batum müqaviləsinə əlavə iki saziş də bağlandı. Onlardan birincisi: **a)** Batum müqaviləsinin Almaniya və Avstriya-Macarıstana da aidiyyətini və **b)** Azərbaycanın istiqlaliyyətinin Osmanlının müttəfiqləri tərəfindən tanınmasına dair Türkiyənin öhdəliklərini özündə əks etdirirdi.

İkinci müvəqqəti əlavə sazişin birinci maddəsinə əsasən Azərbaycan Osmanlıya və müttəfiqlərinə qarşı vuruşan dövlətlərin zabitlərini və mülki məmurlarını ölkədən çıxarmağa söz verirdi. Habelə Dördlər İttifaqı ilə savaşan dövlətlərin zabitlərinin hərbi qulluğa götürülməməsi tələbi ilə razılaşırdı. Həmin sazişin 7 bəndlik ikinci maddəsi isə dəmiryollarından birgə istifadənin konkret qaydalarını müəyyənləşdirirdi.



Batum müqavilələri Transqafqaz (Azərbaycan)-Osmanlı münasibətlərini yeni tarixi mərhələ və müstəviyə çıxarsa da AXC-nin xarici siyasət xəttinə dair mübahisələr səngimədi. Əksinə, mövqe və baxışlardakı fərqlər "İyun böhranı" ilə nəticələndi. Bu siyasi qarşıdurmada başlıca tərəflər kimi "ilhaqçılar" (Osmanlı hərbçiləri və klerikallar) ilə Milli Şura çıxış edirdilər. "Hər şeydən öncə Azərbaycan" mövqeyində duranların səyləri, habelə qarşılıqlı güzəştlər sayəsində "İyun böhranı" ciddi xətalarsız ötüşdürüldü ("İlhaqçıları" Azərbaycana xəyanət etmək də suçlayan baxışlara da birmənalı yanaşmaq olmaz).

Bu dövrün beynəlxalq münasibətlər sistemində Azərbaycan-Osmanlı yaxınlaşması və Almaniyanın mövqeyi, habelə alman-türk əlaqələri və Azərbaycanın maraqları məsələləri mühüm yer tuturdu. Osmanlı-Almaniya-Azərbaycan münasibətləri üçbucağında yaranan problem və anlaşılmazlıqlar, əsasən, onların atdıqları konkret addımlarda da ifadə olunan maraq-mənafelərdən irəli gəlirdi. Məsələlərin daha asan anlaşılması üçün onların bu şəkildə qruplaşdırılması faydalı olardı:

***Birincisi***, *Almaniyanı rahatsız edən məqamlara nəzər salaq*. Burada öncə alman-türk blokunun yanacağa olan ümumi ehtiyacı kontekstində Bakı nefti ətrafında başverən tərəflərarası ziddiyyətlər diqqəti çəkir. Belə ki, Bakı neftindən maksimum istifadəyə nail olunması Almaniyanın Qafqaz siyasətində mərkəzi məsələni – ana prinsipi təşkil edirdi. Almaniyanın Bakı nefti uğrunda mübarizəsinin gözlənilən nəticələri (ondan faydalanmaq imkanlarının tamamilə itirilməsi; Türkiyə ilə şərikli istifadə; Osmanlının ona güzəştə gedəcəyi payla qane olunması) müharibənin gedişindən, habelə blokdaxili münasibətlərdən asılı idi.

Digərləri ilə yanaşı bir mühüm məqam bu cəhətdən onu çox əlverişsiz duruma salırdı: müttəfiqinin çağırışı və tələblərinə məhəl qoymayan Osmanlının öz ordu hissələrini sürətlə Bakıya doğru irəlilətməsi. Bu məsələdə hətta Qafqazın nüfuz dairələrinə bölünməsi haqqında gizli alman-türk müqaviləsi (İstanbul, 27.IV.1918), Almaniyanın Batum müqavilələrini tanımayacağına və müttəfiqlik münasibətlərinin pozula biləcəyinə dair hədələri də yetərli və təsirli olmadı.

Osmanlının: **a)** ordu hissələrini Yaxın Şərqdən Qafqaza yeritməsi ilə müttəfiqinin regiondakı strateji mənafelərini zərbə altında qoyması; **b)** Brest-Litovsk müqaviləsinə riayət etməməklə kayzeri Rusiya ilə hərbi əməliyyatların bərpası təhlükəsi ilə üzləşdirməsi; **c)** Antantaya meyllənmək ehtimalı-Almaniyanın Qafqaz siyasətini (Bakı nefti uğrunda mübarizəsini) fəallaşdırdı, ona yeni çalarlar gətirdi.

Gürcüstanla bağlanan müqavilə ilə (28.V.1918) Almaniya Bakı neftinə yiyələnmək istiqamətində əhəmiyyətli addım atdı. Həmçinin İstanbulda keçirilən alman-türk diplomatik danışıqlarında (17.VI.1918) və Almaniya rəhbərliyinin Spa müşavirəsində (2-3.VII.1918) Bakı nefti ilə bağlı məsələlər müzakirə olundu. Müşavirədə Bakı neftinin təcili ələ keçirilməsi yolları araşdırıldı. Burada Bakı nefti ilə əlaqədar Sovet Rusiyası ilə sazişə gəlinməsi qərara alındı.

**İkincisi**, Türkiyənin beynəlxalq durumu, strateji-regional maraqları və Azərbaycanla etnik-dini birliyi alman-türk münasibətlərinə də təsir göstərirdi. Almaniyanın vaxtı ilə (1914-cü il 2 avqust tarixli müqaviləyə əsasən) Türkiyəyə verdiyi vədlərə əməl olunmaması, onun bütün vasitələrlə Osmanlı qoşun hissələrinin Bakıya hərəkətini əngəlləməyə çalışması, rəsmi İstanbulun Brest-Litovsk müqaviləsinin "bəxşişləri" ilə kifayətlənməməsi və s. də bu işdə rol oynadı.

Türkiyə Azərbaycana hərbi hissələr göndərilməsinin Almaniyanın etirazı ilə üzləşəcəyini nəzərə almalı oldu. Və buna görə də vəziyyətdən çıxış yolu Osmanlı qoşunları və Azərbaycan könüllülərindən ibarət "Qafqaz İslam Ordusu"



yaradılmasında görüldü. Habelə Qafqaz müsəlmanlarına verdiyi vədi yerinə yetirməkdə israrlı olan Ənvər Paşa almanların tələblərinə məhəl qoymayıb Osmanlının Azərbaycana dair siyasətini davam etdirdi və onların Bakı neftinə yiyələnməsini əngəllədi.

**Üçüncüsü**, Azərbaycan da bir sıra ciddi problemləri nəzərə almalı oldu. Belə ki, Azərbaycan-Osmanlı yaxınlaşmasına Almaniyanın müqaviməti, onun Bakının Türkiyənin hərbi yardımı ilə qurtuluşunu istəməməsi, neftlə bağlı Sovet Rusiyası ilə işbirliynə getməsi və s. hallar dövlətimizi alman-türk ixtilaflarında ikinci tərəfin mövqelərində durmağa vadar edirdi.

### İstanbul konfransı məsələsi və Azərbaycan

Azərbaycan diplomatiyası 1918-ci ilin yayıboyu fəaliyyətini əsasən üç məsələ ətrafında cəmləmişdi: **1.** Mərkəz (Almaniya, Osmanlı, Avstriya-Macarıstan, Bolqarıstan) və Qafqaz (Azərbaycan, Gürcüstan, Ermənistan, Dağlılar respublikaları) dövlətlərinin nəzərdə tutulan İstanbul konfransına hazırlıq; **2.** Bakının qurtuluşu uğrunda diplomatik mübarizə; **3.** Bakı nefti ətrafında gedən sovet-alman sövdələşməsi (bazarlığı) planlarının pozulması.

Mərkəz-Qafqaz dövlətlərinin konfransı ideyasının müəllifi Gürcüstan olmuşdur. O, Dördlər İttifaqı dövlətləri ilə Brest-Litovsk müqaviləsi əsasında əlaqələr yaratmaq üçün bir konfrans çağrılması fikrinə düşdü. Həmin ideyanı dəstəkləyən Almaniya onun daha geniş tərkibdə (Mərkəz-Qafqaz dövlətləri), özü də İstanbulda keçirilməsini təklif etdi.

Almaniyanın belə bir konfransın keçirilməsində maraqlı olmasının səbəbi isə bundan ibarət idi: O, Gürcüstana gətirdiyi məhdud hərbi qüvvə ilə Osmanlıya qarşı çıxıb Bakı üzərinə getməyin mümkünsüzlüyünü nəzərə aldı və məqsədlərə diplomatik yolla yetişilməsinə üstünlük verdi, konfran-

sın təşəbbüsçüsü oldu.

M.Ə.Rəsulzadənin başçılıq etdiyi 7 nəfərdən ibarət Azərbaycan nümayəndə heyəti iyunun 24-də İstanbula gələrək fəaliyyətə başladı. Nümayəndəliyin qarşısına qoyulan vəzifələr və onlara verilən səlahiyyətlər bunlar idi: 1. Beynəlxalq konfransın bütün iştirakçıları ilə müxtəlif səciyyəli müqavilələr bağlanılması; 2. Yalnız Osmanlı dövləti və Dağlılar Respublikası ilə hər cür gizli sazişlər imzalanması.

Heyətin İstanbulda konfransa hazırlıq müddətində gördüyü işlər və qazandığı nəticələr sırasında aşağıdakıları fərqləndirmək mümkündür:

- sərhəd məsələləri ilə bağlı erməni və gürcü nümayəndələrlə ilk dəfə olaraq müzakirələr aparılması. Bununla əlaqədar AXC-nin sərhədlərinə dair xüsusi, sanballı sənəd türk-alman təmsilçilərinə təqdim olunmuşdu (Bu məsələlər barədə sonrakı bölümdə ətraflı bəhs ediləcəkdir);
- Osmanlı dövlətinin Azərbaycana maliyyə yardımı (borc verməsi), pullarımızın İstanbulda kəsilməsinə başlanılması, maarifin inkişafına yönəlik tədbirlər görməsi;
- xarici ölkələrin İstanbuldakı təmsilçiləri, ələlxüsus da, Dördlər İttifaqı dövlətlərinin nümayəndələri ilə müxtəlif məsələlər ətrafında faydalı müzakirələr aparılması, Türkiyə ilə hərtərəfli əlaqələrin əsasının qoyulması;
- Azərbaycana Osmanlı hərbi yardımının artırılması, ən önəmlisi isə Bakını xilas edə biləcək yetərli silahlı qüvvənin göndərilməsinə nail olunması.

Diplomatiyamızın bu ilkin uğurlarını yetərincə dəyərləndirən elmi mövqelərlə yanaşı həmin missiyanı "ölkəmizin Türkiyəyə ilhaqına xidmət edən bir addım" kimi qiymətləndirən baxışlar da mövcuddur. Sadalanan nəticələrə əlavə kimi bunu da qeyd etmək lazımdır ki, Osmanlı dövlətinin Azərbaycana öz ordusunu yaratmaq tövsiyəsi də məhz elə



buradakı danışıqların gedişində səslənmişdi. Daha bir maraqlı və önəmli məqam. Nümayəndəliyin Ənvər Paşaya məktubunda Azərbaycanın müstəqilliyinin müdafiəsinin zəruriliyi və həm də olduqca dəyərli belə bir fikir vurğulanmışdı: "Türkiyənin böyük siyasəti Azərbaycanın müstəqil və güclü olmasını tələb edir".

Beynəlxalq İstanbul konfransı alınmadı. Bu, alman diplomatiyasının baş vurduğu bəzi hərəkətlər (Osmanlı maraqlarına zidd gizli danışıqlar və s.) üzündən müttəfiqlərarası münasibətlərin daha da gərginləşməsi ilə izah oluna bilər. Ən başlıcası isə, Dördlər İttifaqının müharibədəki durumunun getdikcə ağırlaşması ucbatından konfransa ehtiyac və həvəs qalmadı.

Bakının antiazərbaycanlı qüvvələrdən xilası uğrunda diplomatik mübarizə neftə dair sovet-alman sövdələşməsinin zərərsizləşdirilməsi prosesi ilə paralel və, əslində, çulğalaşmış şəraitdə getdi (Onun yubadılmadan azad edilməsi həm ölkəmizdəki ikihakimiyyətliliyə (ikimərkəzliliyə), həm də bu şəhər (neft) ətrafında gedən beynəlxalq çəkişmələrə (oyunlara) son qoyulması zərurətindən irəli gəlirdi). Bu, paralel-çulğalaşmış diplomatik mübarizə prosesində və mərhələsində çox ciddi hadisələr baş verdi:

**Birincisi**, Bakı Kommunasının Gəncəyə yürüşü uğursuz oldu. Osmanlı-Azərbaycan ordu hissələrinin həlledici qələbələri Bakıda Sovet hakimiyyətinin süqutu ilə nəticələndi.

**İkincisi**, Azərbaycandakı dayaqlarının itirilməsi ilə razılaşmayan Sovet Rusiyası (bu məsələlərə VI bölümdə geniş toxunulur) Almaniyanın hesabına Bakının qurtuluşunu ləngitmiş oldu. Türkiyə və Azərbaycan vasitəsi ilə Bakı neftinə yiyələnmək ümidini itirən Almaniya da Lenin Rusiyası ilə sövdələşməyə olduqca meylli idi. Bakını azad etməyə gedən "Qafqaz İslam Ordusu"na məhdud alman hərbi kontingentinin də qatılmasına dair təklifin keçməməsi bu meyli daha da qüvvətləndirdi. Brest-Litovsk sülhünün şərtlərinin Türkiyə tərəfindən pozulmasına Sovetlərin "etirazı" almanların

Osmanlıya təzyiqinə və Bakıya gəlişini əngəlləməyə "əsas verdi". Və, qısa müddət üçün, bu baş tutdu.

**Üçüncüsü**, Bakı nefti naminə formalaşmaqda olan sovet-alman işbirliyi bir müddət Antantanın (ingilislərin) xeyrinə işlədi. Mərkəzi Xəzər (Sentrokaspi) hökuməti dönəmində (1.VIII-14.IX.1918) ingilislərin məhdud hərbi qüvvəsi Bakıya gətirildi. Bakı və nefti ətrafında gedən diplomatik mübahisələr daha da qızışdı.

**Dördüncüsü**, gözlənilən beynəlxalq konfransda iştirak məqsədi ilə İstanbula gələn Almaniya və AXC nümayəndəliklərinin danışıqlarında (VIII.1918) Bakı neftinə dair müəyyən güzəştlərin mümkünlüyü bildirildi. Bu danışıqlarda habelə ölkəmizdəki alman koloniyaları ilə bağlı dövlətlərarası müqavilənin bağlanması da razılaşdırıldı (Müqavilə Azərbaycanda yaşayan almanların hüquq və azadlıqlarının təminatı məsələlərini nəzərdə tuturdu). Almaniya hətta Bakı üzərinə yeridəcəyi qoşunların tərkibinə yerli alman kolonistlərinin də qatılmasını planlaşdırmışdı.

**Beşincisi**, Osmanlı-Azərbaycan ordu hissələrinin Bakı hüdudlarına yetişmək üzrə olması sovet-alman sövdələşməsini sürətləndirdi. Almaniya sanki həm də Batum müqaviləsinin hayfını (əvəzini) çıxaraq Türkiyədən gizlin 1918-ci il avqustun 27-də Sovet Rusiyası ilə Brest-Litovsk müqaviləsinə əlavə saziş imzaladı. Diplomatik ədəbiyyatda "Bakı sazişi" adlandırılan bu əlavə Almaniyanın "böyük səhvi" kimi də səciyyələndirilir.

"Bakı sazişi"nin 14-cü maddəsi Azərbaycana aid idi. Həmin maddə ilə tərəflər Azərbaycana dair məsələlərlə bağlı qarşılıqlı öhdəliklər götürmüşdülər. Belə ki, Almaniya üçüncü bir dövlətin (yəni Türkiyənin) qoşunlarının Bakı, Quba və Şamaxı qəzalarının sərhədlərini keçməmələrinə çalışmalı idi. Bunun əvəzində isə rus hökuməti Bakı dairəsindəki neft yataqlarının istismarını və hasil olunan neftin 1/4-nin Almaniyaya veriləcəyini vəd edirdi. Sazişin Qafqaza aid hissəsində ifadəsini tapan bir sıra məqamlar isə AXC-nin ərazi



bütövlüyünü təhdid edirdi.

Bütün bunlara görə də "Bakı sazişi" Osmanlı və Azərbaycan diplomatiyalarının ciddi müqaviməti ilə üzləşdi. Bir sıra mühüm addımlar atıldı və tədbirlər görüldü:

- AXC hökuməti tərəfindən fövqəladə səlahiyyətli nazir və geniş hüquqlara malik diplomatik nümayəndə sifəti ilə İstanbula ezam olunan (20.VIII.1918) Ə.Topçubaşı Dördlər İttifaqı dövlətlərinə missiyalar göndərilməsini təklif etdi;
- konfransda iştirak üçün gələn nümayəndəlik Sultan VI Mehmed və Sədr-əzəm Tələt Paşa ilə görüşərək (6.IX.1918) Bakının tezliklə xilas olunması məsələsini bir daha qaldırdı;
- həmin nümayəndə heyəti Mərkəz dövlətlərinin İstanbuldakı səfirliklərinə nota (12.IX.1918) verdi. Notada "Azərbaycanın təbii paytaxtı, onun siyasi, mədəni və iqtisadi mərkəzi", yəni Bakı üzərində Rusiyanın suverenliyini neftə görə tanıyan Almaniyaya etiraz bildirildi;
- alman koloniyaları haqqındakı dövlətlərarası müqavilənin imzalanması dayandırıldı.

"Bakı sazişi"nin reallaşdırılması mümkün olmadı. Çünki, **1-cisi**, Bakının azad edilməsi buna imkan vermədi, **2-cisi**, beynəlxalq şəraitin Antantanın xeyrinə dəyişməsi Almaniyanın sazişə marağını azaltdı, **3-cüsü**, alman-osmanlı protokolu ilə (23.IX.1918) əslində ondan imtina edilmiş oldu. Protokola əsasən Almaniya AXC-ni tanıyacağına, habelə Sovet Rusiyasının da onunla diplomatik münasibətlər qurmasına çalışacağına söz verirdi. Əvəzində isə Osmanlı qoşunlarının Azərbaycanda çox saxlanılmayacağı vəd olunurdu.

## Ə.Topçubaşının İstanbula diplomatik missiyası

AXC diplomatiyasının ilkin addımları və uğurlarında Ə.Topçubaşının İstanbul missiyasının rolu böyükdür. Əlimərdan bəyin diplomatik fəaliyyətinin İstanbul dövrü (IX.1918-IV.1919) çoxlu sanballı hadisələrlə zəngindir. Onun bu dövrki diplomatik fəaliyyətinin çoxşaxəliliyini nəzərə alaraq başlıca xarakterik məsələlər üzrə qruplaşdırma aparmaq lazım gəlir. Bu məsələləri səciyyələndirərkən aşağıdakı mühüm məqamlara xüsusi diqqət yetirilməsi vacibdir:

**Birincisi**, Ə.Topçubaşının İstanbula diplomatik missiyasının məqsədləri açıqlanmalıdır. AXC-nin xarici siyasətinin əsas istiqamətləri və vəzifələrinə müvafiq olaraq Əlimərdan bəy bu məsələlərin həllinə çalışmalı idi: **a)** Osmanlı dövləti ilə münasibətlərin daha da möhkəmləndirilməsi; **b)** İstanbuldakı səfirliklərlə sıx əlaqələr qurmaqla Azərbaycanın beynəlxalq münasibətlər sisteminə qoşulmasına yönəlik tədbirlərin həyata keçirilməsi; **c)** birinci dünya müharibəsinin nəticələrini yekunlaşdıracaq beynəlxalq Sülh konfransında Azərbaycanın da iştirakına nail olunması; **ç)** diplomatiyamızın konfransdakı platformasının işlənib hazırlanmasına yardım göstərilməsi və s.

**İkincisi**, Ə.Topçubaşının İstanbula diplomatik missiyası əslində hələ yoldaikən – "Bakı sazişi"nə qarşı görülməli olan tədbirlərlə bağlı təklifi ilə (15.IX.1918) başladı. Əvvəldə qeyd edildiyi kimi, o, Mərkəz dövlətlərinin paytaxtlarına nümayəndə heyətləri göndərilməsinin vacibliyini məsləhət bildi. Azərbaycan hökumətinin üzləşdiyi problemlər üzündən bu alınmadı. Lakin Əlimərdan bəy Avropa dövlətlərinə xüsusi nümayəndəliklər göndərilməsində israrlı idi.

Çünki dövrün beynəlxalq şəraiti və Azərbaycanın problemlərinin həlli bunu zəruri edirdi. Nəzərə almaq lazımdır ki, erməni və gürcü nümayəndəlikləri bu vaxt Avropada Antanta dövlətlərinin təmsilçiləri ilə danışıqlar aparırdılar. Ə.Topçubaşı bir sıra Avropa ölkələrinə (İsveçrə, Fransa və s.)



göndərilməsi üçün Ə.Hüseynzadənin başçılığı ilə kiçik bir nümayəndəlik də yaratmışdı. Ancaq bu cəhd də baş tutmadı. Bu dəfə də Antanta dövlətləri viza verməkdən imtina etdilər.

**Üçüncüsü**, Ə.Topçubaşının İstanbul missiyasında onun oktyabr-noyabr aylarında Osmanlı rəhbərliyi ilə diplomatik görüşləri və danışıqları mühüm yer tutur. Görüş və danışıqlarda müzakirə olunan məsələlər arasında bunlar xüsusi önəm daşıyırlar:

**a)** istər bu görüş-danışıqlarda, istərsə də, ümumiyyətlə, Ə.Topçubaşının İstanbula diplomatik missiyasında Azərbaycanın ərazi bütövlüyü məsələsi ana xətlərdən birini təşkil etmişdir (Bu barədə III bölümdə ətraflı yazılmışdır);

**b)** danışıqlarda Sovet Rusiyasının özünün "əsas şəhərlərindən biri" saydığı Bakının qurtuluşu ilə bağlı etirazına dair məsələlər ətrafında da geniş müzakirələr aparıldı. Çünki Sovet hökuməti Bakının antitürk qüvvələrdən xilas edilməsini "özünün ərazi bütövlüyünə qəsd" kimi qiymətləndirirdi. O həm bununla, həm də Brest müqaviləsinin Türkiyəyə aid hissəsinin qüvvədən salındığını elan etməklə Qafqazda yeni diplomatik-hərbi qarşıdurma yaratmağa çalışırdı. Buna görə də tərəflər bolşevik-sovet siyasətinin türk-müsəlman düşmənçiliyi mahiyyətini bir daha vurğuladılar. Habelə Sovet Rusiyasının Türkiyə-Azərbaycan birliyinin pozulmasına yönəlik təbliğatına (müsəlmanlar arasındakı məzhəb ayrılıqları) uyulmaması məsələsi də nəzərdən keçirildi. Danışıqlar prosesi çətin duruma düşən Türkiyənin yenə də Azərbaycanın tərəfində olduğunu təsdiqlədi (Həmin vaxt Türkiyədə tez-tez baş verən hökumət əvəzlənmələri də buna təsir göstərmədi). Bunu layihəsi Türkiyə tərəfindən hazırlanan protokoldan da görmək olur. Həmin protokoldan Türkiyənin Sovet Rusiyasına gedə biləcəyi ciddi güzəştlərdən birinin (Brest-Litovsk müqaviləsinin müəyyənləşdirdiyi hüdudlara çəkilməyə dair öhdəliyi) də Azərbaycanın mənafeləri ilə bağlılığı aydınlaşır. Yəni protokolun qüvvəyə minəcəyi təqdirdə

Sovet Rusiyası AXC-ni tanımalı və ona hər hansı bir müdaxilədən imtina etməli idi. Lakin dünya hərbinin Osmanlının ziyanına yekunlaşmaq üzrə olması bunu mümkünsüz etdi. Sovet Rusiyası Türkiyəyə qarşı uydurma ittihamla ("Osmanlının Bakını Antantaya təslim etməsi barədə gizli saziş bağlaması") çıxış etdi və ona nota (10.X.1918) verdi. Notada Almaniyanın tanıdığı Gürcüstan çıxılmaqla Transqafqazın, öncə isə Bakının Sovetlərə verilməsi tələb olunurdu. Lakin Rusiya daxilindəki hərbi-siyasi qarşıdurmanın qüvvətlənməsi onun planlarının gerçəkləşməsini bir müddət ləngitdi;

**c)** danışıqların nəticəsində tərəflər Qafqazın Rusiya imperiyasının əsarətindən tamamilə qurtulmasının başlıca yollarından birinin də regionun xalqlarının birliyindən keçməsi qənaətinə gəldilər. Əlimərdan bəy həm də ermənilərin uzaqgedən niyyət və planlarının buna imkan vermədiyini vurğuladı;

**ç)** Avropanın aparıcı dövlətlərində Azərbaycanın səfirliklərinin və xüsusi ilə də Türkiyənin Bakıda diplomatik nümayəndəliyinin açılması məsələləri də danışıqlarda ətraflı müzakirə edildi. Türkiyə, öz ordularının Azərbaycanı tərk edəcəyi təqdirdə, Bakıda diplomatik nümayəndəliyini açacağı fikrində olduğunu da bildirdi (Lakin əvvəlcə ingilislərin Bakıya gəlişi, sonra da digər səbəblər üzündən bu baş tutmadı). Görüşlərdə hərbi əməkdaşlıq və Türkiyənin Azərbaycanda ordu quruculuğuna yardımı məsələləri də geniş şəkildə nəzərdən keçirildi.

**Dördüncüsü**, Əlimərdan bəy İstanbulda olduğu müddətdə həm də Mudros barışığının (30.X.1918) Azərbaycan üçün yaratdığı ciddi problemlərlə üzləşdi. Belə ki, müqavilənin şərtinə (11-ci maddə) görə, Osmanlı qoşunları Güney Azərbaycanı və Qafqazı-bir həftə ərzində Bakını və bir ay müddətinə isə bütün Quzey Azərbaycanı tərk etməli idilər. Barışığın 15-ci maddəsi Müttəfiqlərin Bakını tutmasının Osmanlı ordusu tərəfindən əngəllənməməsini və Cənubi Qafqaz dəmir yollarına nəzarətin Türkiyədən Antantaya keçməsini nəzərdə tuturdu.



Ə.Topçubaşı Mudros müqaviləsinin Azərbaycana aid hissəsi ilə bağlı həm Osmanlı rəsmiləri ilə görüşlərində (3 və 5.XI.1918), habelə Türkiyə hökumətinə etiraz notasında (4.XI.1918) bir sıra məqamlara toxundu (Bu arada (4.XI.1918) AXC hökuməti müqaviləni pisləyərək Osmanlı və Almaniya hökumətlərinə qəti etirazını bildirmişdi). O, Azərbaycana aid məsələlərin Mudros barışığına daxil edilməsini beynəlxalq hüquqa zidd sayırdı.

Özü daha böyük itkilərlə üzləşən Türkiyə Azərbaycan diplomatının etirazları ilə bağlı dörd məqama daha çox diqqət yetirilməsini lazım bildi: **a)** Mudros barışığına ağır məğlubiyyətin nəticəsi kimi yanaşılması; **b)** Osmanlının heç vaxt ona məxsus olmayan torpaqları Antantaya güzəştə gedə bilməməsi; **c)** Osmanlı qoşunlarının Bakını tərk etmələrinə AXC-nin Bakıya olan hüququnun pozulması kimi baxılmaması; **ç)** Türkiyənin Azərbaycanın müstəqil dövlətçiliyində maraqlı olması (Diplomatik ədəbiyyatda dünya müharibəsinin lap son anlarında Ənvər Paşanın yenidən Türkiyəyə qələbələr qazandırmaq üçün Bakıdan bir dayaq nöqtəsi kimi istifadə etmək istəməsinə dair fikirlərə də rast gəlinir). Osmanlı habelə AXC-nin Antanta tərəfindən tanınmasına nail olmağın vacibliyini qeyd edirdi. Və AXC hökumətinin xahişini nəzərə alaraq vasitəçilik missiyasına cəhd edəcəyini bildirirdi.

**Beşincisi**, Ə.Topçubaşı İstanbul missiyasının gedişində diplomatik fəaliyyətinin əhatə dairəsini və coğrafiyasını genişləndirməyə çalışırdı. Çünki bir dönəmdə Mərkəz, *Mudros barışığından sonra isə Antanta dövlətləri ilə* əlaqələr qurulması tələb olunurdu. Bu niyyətlə də onun Dördlər İttifaqı dövlətlərinin paytaxtlarına (Berlin və Vyana) planlaşdırdığı səfəri əvvəl ləngiməsi, sonra da artıq lüzumsuz olması üzündən alınmadı.

Antanta dövlətləri ilə birbaşa Avropada əlaqələr qu-

rulması imkan xaricində olduğundan onların İstanbuldakı diplomatik nümayəndəliklərinə üz tutuldu. Həm bu baxımdan, həm də bütövlükdə İstanbul missiyasında Əlimərdan bəyin Antanta ölkələrinin İstanbuldakı fəxri nümayəndələrinə Memorandumu çox böyük əhəmiyyətə malikdir. Mühüm dəyərə və sanbala malik olan bu sənəddə görkəmli diplomatımızın bir çox problemlərə dair baxışları öz əksini tapmışdı. Memorandumda:

- Güney Qafqaz xalqlarının yaxın keçmişdəki dövlətçiliyi qısa şəkildə səciyyələndirilmişdi;
- Qafqazın Rusiya imperiyası şəraitindəki idarəçiliyinin xüsusiyyətləri açıqlanmışdı;
- Fevral inqilabından sonrakı siyasi proseslərin təhlili verilmişdi;
- regionun etnik tərkibi nəzərdən keçirilmişdi;
- Azərbaycan Respublikasının inzibati bölgüsünə dair layihə diqqətə yetirilmişdi;
- Güney Qafqaz xalqlarının İsveçrə İttifaqı nümunəsində bir konfederasiya qurmaları ideyası əsaslandırılmışdı.

**Altıncısı,** Ə.Topçubaşının İstanbul dövrü diplomatik fəaliyyətinin çox və əsas hissəsi Paris (Versal) Sülh konfransına hazırlığa sərf olunmuşdu. Konfransa həm Bakıda, həm də İstanbulda ciddi hazırlıq işləri görülürdü (Bunlar V bölümdə geniş izah olunduğundan burada əlavə şərhə ehtiyac duyulmur).

### AXC diplomatiyası Müttəfiqlərin (ingilislərin) "idarəçiliyi" şəraitində

Birinci cahan müharibəsinin sonuna yaxın beynəlxalq münasibətlərdə və Qafqaz regionunda Antanta, xüsusi ilə də İngiltərə aparıcı rol oynamağa başladı. Bu mühüm faktoru nəzərə alan AXC diplomatiyası da Antanta ilə münasibətlər qurulmasına yönəlik səyləri artırdı.



Bu sahədəki ilkin addımlardan biri kimi AXC hökumətinin (XİN-in) ABŞ prezidenti V.Vilsona müraciəti (10.XI.1918) dəyərləndirilməlidir. Müraciətdə ABŞ-ın Azərbaycan istiqlalının xarici dövlətlər tərəfindən tanınmasına yardım göstərməsi istənilirdi.

Bu çağın AXC-Antanta münasibətlərində Ənzəli danışıqları da (XI.1918) mühüm yer tutur. Ə.Topçubaşının məsləhəti ilə AXC hökumətinin nümayəndə heyəti (N.Yusifbəyli, Ə.Ağayev, M.Rəfiyev (Rəfibəyov) və ya Mehdi bəy Hacınskidən ibarət) Şimali İrandakı Böyük Britaniya silahlı qüvvələrinin komandanı Denstervili əvəzləyən Tomsonla qarşılıqlı əlaqələrə dair müzakirələr apardı. Tərəflərin mövqeləri onların tələb və təkliflərində ifadə olunmuşdu.

AXC nümayəndəliyi general Tomsona dövlətimizi tanıması barədə bəyanat verməsini təklif etdi. General bu təklifə "... Azərbaycan xalqının arayi-ümumiyyəsindən doğan bir cümhuriyyət yoxdur. Yalnız türk komandanlığının fitnə-fəsadı ilə təşəkkül etmiş bir hökumət var" cavabını verərək öz tələblərini və mülahizələrini söyləmişdi.

Onlardan bəzilərinin burada qeyd olunması yerinə düşərdi: **a)** təkcə Osmanlı deyil, Azərbaycan qoşunları da Bakını (17.XI.1918-dək) tərk etməlidirlər; **b)** Bakı və ətrafı ingilislər tərəfindən işğal olunmalı və ölkənin qalan ərazisi isə AXC hökuməti və ordusunun nəzarəti altında qalmalıdır; **c)** AXC rəsmən tanınmır, ancaq müttəfiqlər onun hökuməti ilə de-fakto əlaqələr yaradırlar; **ç)** silahsız ermənilərin Bakıya buraxılmalarına maneçilik törədilməyəcəkdir; **d)** Azərbaycan Paris Sülh konfransına buraxılacaqdır və s.

Mövcud gərgin beynəlxalq vəziyyət, Antantanın (Tomsonun) tələb-təklifləri Azərbaycanın siyasi (Milli Şurada – 16.XI.1918) və diplomatik dairələrində geniş müzakirə olundu. Bu halı da diqqətdən kənar tutmaq olmaz ki, həmin dövrdə AXC-nin xarici oriyentasiyasının nəzərdən keçirilməsinə (Rusiyaya meyllənmə) dair mövqelər də (Ə.Ağaoğlu) ortaya qoyuldu.

Tomsonun ilkin tələb və tədbirlərindən fərqlənən sonrakı addımları generalın əvvəlcə AXC-ni tanımamasının və "Rusiyapərəst" mövqeyinin strateji deyil, taktiki xətt olduğunu təsdiqlədi. Əslində İngiltərənin Qafqaz, xüsusi ilə də Bakı neftinə dair özəl maraqları Rusiyanın regiondan birdəfəlik və tamamilə çəkilməsini şərtləndirirdi. Bu mühüm geostrateji faktorun fonunda Müttəfiqlərin "Rusiyanın 1914-cü il sərhədlərinin bərpasına yardım göstəriləcəyi" və "Azərbaycanın gələcəyi dirçələn Rusiya ilə bağlıdır" kimi tezisləri sadəcə təbliğati-taktiki səciyyə daşıyırdı.

AXC hökuməti (XİN-i) rəsmilərinin Tomsonla noyabr-dekabr aylarında aparılan diplomatik yazışmalarından və danışıqlarından tərəflərin qarşılıqlı əməkdaşlıq xəttinə üstünlük verdikləri açıq görünür. Bu xəttin ardıcıl yeridilməsi Tomsonun tarixi bəyanatı (28.XII.1918) ilə nəticələndi. Bəyanatda generalın F.Xoyskinin başçılığı ilə yaradılan koalision Azərbaycan hökumətini ölkədə yeganə qanuni və təsirli mülki hakimiyyət kimi tanıdığı, habelə onu müdafiə edəcəyi bildirilirdi. Tomsonun mövqeyinin (bəyanatının) Müttəfiqlərin Qafqazdakı qoşunlarının Baş komandanı C.Miln tərəfindən bəyənilməsi də (Bakı, I.1919) müsbət hal kimi qiymətləndirilməlidir.

Antantanın (ingilislərin) Azərbaycan dövlətçiliyinə bu yeni baxışının formalaşmasına aşağıdakı amillərin də böyük təsiri olmuşdur:

**a)** AXC hökumətinin çağdaşlaşma kursu (parlament üsul-idarəsinə üstünlük verilməsi, əhalinin milli tərkibinin nəzərə alınması prinsipi əsasında koalision hökumətin təşkili və s.);

**b)** Tomsonun ölkəmizdəki gerçəkliklərlə hesablaşmağa məcbur olması;

**c)** diplomatiyamızın hərtərəfli səylərinin nəticələri və s.

Məhz AXC hökumətinin yürütdüyü ardıcıl xarici siyasət və diplomatiyamızın gerçəkliklərlə ayaqlaşan addımları Tomsonun bəyanatının (Azərbaycan dövlətinin tanınmasının) Müttəfiqlərin aşağıdakı təqdirəlayiq tədbirləri ilə



(XII.1918-II.1919) tamamlanmasını təmin etdi:

- Bakıdakı erməni hərbi hissələrinin tərksilah edilməsi və buraxılması;
- AXC hökumətinin qəti tələbi ilə Biçeraxovun "Qafqaz-Xəzər hökuməti"nin qanundankənar elan edilməsi və *onun silahlı qüvvəsinin Bakıdan çıxarılması;*
- ingilis komandanlığının Bakıda tətbiq etdiyi inzibati, iqtisadi-maliyyə və ideoloji səciyyəli məhdudiyyətlərin tədricən ləğv olunması.

* * *

Az sonra Bakıda ingilis general-qubernatorluğunun ləğvi (IV.1919) və Böyük Britaniya qoşunlarının Qafqazı *tərk etmələri ilə (VII.1919)* AXC "tam istiqlaliyyətə yetişdi" (N.Yusifbəyli). Bir sözlə, AXC diplomatiyası Antanta (ingilis) "idarəçiliyi" şəraitində dövlətçiliyimizin mövcudluğunun müdafiəsinə müvəffəq *ola bildi.*

# ÜÇÜNCÜ BÖLÜM

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN ƏRAZİ BÜTÖVLÜYÜ UĞRUNDA DİPLOMATİK MÜBARİZƏ

AXC xarici siyasətiinin başlıca vəzifələri sırasında ölkəmizin ərazi bütövlüyünün təmin olunması da mühüm yer tuturdu. Bu dövrdə Azərbaycanın torpaq bütövlüyünün təminatı iki istiqamətdə ciddi fəaliyyət göstərilməsini tələb edirdi:

**1.** Qonşu dövlətlərdən – **a)** Ermənistanın əsassız ərazi iddialarının və onları gerçəkləşdirmək üçün başvurduğu hərbi təcavüzün; **b)** "Vahid və bölünməz Rusiya" siyasətinin; **c)** İranın Quzey Azərbaycanı "geri qaytarmağa" və ona dair "tarixi hüquqlarının bərpası"na yönəlik səylərinin dəf olunması.

**2.** Qafqaz cümhuriyyətləri (Gürcüstan, Dağlılar) ilə ərazi-sərhəd mübahisələrinin danışıqlar yolu ilə tənzimlənməsi.

**Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları**

Öyrənilən dövrdə Azərbaycanın ərazi tamlığına başlıca təhlükəni, havadarlarını şəraitə uyğun olaraq dəyişməkdə çeviklik göstərən, ermənilər təşkil edirdilər. Bu vacib məqamı nəzərə alınaraq "Böyük Ermənistan" iddialarının və türk-müsəlman soyqırımı siyasətinin AXC diplomatiyası tərəfindən dəf olunması uğrunda mübarizə önə çəkilməlidir (İranla Rusiyanın Şimali Azərbaycana dair "tarixi hüquqları"nın əsassızlığı, onların təkzibi və AXC-nin Gürcüstan, Dağlılar respublikaları ilə ərazi-sərhəd problemlərinin həlli məsələləri sonrakı müvafiq bölümlərdə yetərincə işıqlandırılır).

"Şərq məsələsi"nin tərkib hissəsi kimi qiymətləndirilən və XIX əsrdə Rusiya-İngiltərənin həmmüəllifliyi ilə ərsəyə gətirilən "erməni məsələsi" tezliklə öz coğrafiyasını genişləndirdi, Qafqaza da ayaq açdı. Bu işdə aparıcı rolu Rusiya oynadı. Ona görə də Rusiyanın Qafqazdakı ermənipərəst siyasətinin Türkmənçay müqaviləsindən Fevral inqilabınadək (Paskeviçdən Sazonova qədər) olan mərhələsinin başlıca səciyyəvi proseslərinin, ortaya atılan mövqe və variantların qısa şərhinə də ehtiyac vardır.



Öncə bunu qeyd edək ki, Rusiyanın strateji məqsədlərinə və ermənilərin niyyətlərinə uyğun olaraq onlar Persiya və Osmanlı dövlətlərindən Qafqaza, ələlxüsus da Azərbaycanın əzəli torpaqlarına (İrəvan, Naxçıvan, Zəngəzur, Qarabağ) köçürüldülər (Təkcə 1828-1830-cu illər arasında təxminən 130 min erməni bu istiqamətdə yerdəyişməsi etmişdi. XX əsrin əvvəlinə aid qaynaqların və araşdırmaların da (N.Şavrov və b.) təsdiqlədiyi kimi, bu dövrdə Cənubi Qafqazda yaşayan 1 milyon 300 min ermənininin 1 milyondan çoxu Rusiya tərəfindən buraya köçürülənlər idi). Rusiya imperiyasına qatılan Quzey Azərbaycan torpaqlarının bir hissəsində əvvəlcə "Erməni vilayəti"nin (1828), sonra isə İrəvan quberniiyasının (1849) təşkili əslində dövlətimiz və millətimizin üzləşdiyi çağdaş problemlərin (münaqişələrin) ilkin rüşeymləri sayılmalıdır.

XX əsrin əvvəllərindəki beynəlxalq şərait "Böyük Ermənistan"ın bərpası uğrundakı fitnə-fəsadlar üçün geniş imkanlar yaratdı. Rusiya imperiyasındakı qarmaqarışıqlıqdan, yəni 1905-1907-ci illərdəki proseslərdən (Fevral inqilabı və SSRİ-dəki yenidənqurma zamanı da belə oldu) faydalanan ermənilər onun hüdudlarında ilk türk-müsəlman soyqırımı siyasətinə baş vurdular.

1913-cü ildə Tiflisdə keçirilən ümumerməni milli qurultayında strateji hədəflər və taktiki xətlər açıqlandı. Belə bir taktika işlənib hazırlanmışdı: **1.** Qarşıdakı böyük hərbdə Antantanın tərəfində duran (hətta vuruşan) xalq kimi tanınmaq; **2.** Osmanlının da bu savaşa qatılmasına çalışmaq. Strateji məqsəd isə müharibənin Müttəfiqlərin xeyrinə bitəcəyi təqdirdə Antantanın tərəfdaşı kimi Osmanlının bölüşdürülməsindən iri pay qazanılmasını nəzərdə tuturdu.

Birinci dünya müharibəsi dövründə Rusiyanın siyasi-hərbi-diplomatik dairələrində "erməni məsələsinə dair çeşidli baxışlar və planlar ortaya çıxdı. Onlardan başlıcaları aşağıdakılardır:

- bütün ermənilərin katolikosu V Gevorqun "erməni məsələsini yaddan çıxarmamaq və bunun həlli üçün yaranan əlverişli tarixi andan faydalanmaq" çağırışına Rusiya çarı II Nikolay "erməniləri ən parlaq gələcək gözləyir" cavabını vermişdi. İmperator ermənilər üçün Şərqi Anadoluda müstəqil dövlət yaradacağını da vəd etmişdi;
- ermənilərdən bir alət (vasitə) kimi istifadə edən və, eyni zamanda, onların etibarsızlığını unutmayan Rusiya rəhbərliyində müxtəlif fikirlər səslənirdi. Onlardan üçü xüsusi ilə ibrətamiz və maraqlı idi: **a)** hərbçi Yudeniçə görə, "...ermənilərin işğal etdikləri torpaqları müharibədən sonra geri almaq və ya tutulanların onlara məxsus olmadığını sübuta yetirmək çətin olacaqdır". General hətta Rusiyanın ələ keçirdiyi Osmanlı ərazilərinə (Fərat çayı çevrəsinə) kazakların məskunlaşdırılmasını istəmişdi; **b)** siyasi partiya (kadet) lideri P.Milyukov: "İşdə mənim üçün ermənilərin istədikləri yox, Rusiya üçün əlverişli olan vacibdir"; **c)** Xarici İşlər naziri Levanov-Rostovski: "Rusiya sərhədlərində ermənisiz Ermənistan yaradılması";
- Xarici İşlər naziri S.Sazonovla Qafqaz canişini, böyük knyaz Nikolay Nikolayeviç (çarın əmisi) arasındakı yazışmalarda (VI-VII.1916) vurğulanan məqamlar da diqqətçəkicidir. Nazir Rusiyanın müxtəlif dairələri tərəfindən gündəmə gətirilən təklifləri ("Şərqi Anadolu ermənilərinə çarizmin himayəsində muxtariyyət verilməsi" və "ermənilərin siyasi önəminin sıfra endirilərək onların yerinə müsəlmanların qoyulması") qarşılaşdıraraq belə bir qənaətə gəlmişdi: "Bunların hər ikisi Rusiyanın daxili və xarici siyasətinin məntiqi baxımından yararsızdır". Sazonov 1-ci təklifi "ruslar tərəfindən yenicə tutulan ərazilərdə ermənilərin heç vaxt çoxluq təşkil etməmələri" və 2-ci variantı isə "erməni xalqını müsəlmanlara qurban verməyin mümkünsüzlüyü" baxımından qeyri-məqbul saymışdı. Nəticə etibarı ilə o hələlik tarazlaşdırıcı bir siyasətin yürüdülməsini məsləhət bilmişdi (Yeri gəlmişkən, 1913-cü ilin əvvəlinə aid bir ingilis sənədində də Böyük Britaniya diplomatiyasının oxşar baxışı özünə yer tapmışdı: "Erməni məsələsinin indiki anda ortaya çıxarılması düzgün deyildir. Kiçik Asiya məsləsini daha uyğun bir zamanda ələ alarıq". Bu müvafiq dövr isə 1914-1920-ci illər oldu). Böyük knyaz da Sazonovun mövqeyinə şərik çıxdığını yazaraq "Rusiya sərhədləri daxilində bir erməni məsələsinin əsla olmadığını" bildirmişdi.

Fevral inqilabından sonra Rusiyada yaranan siyasi durum və dövrün beynəlxalq şəraiti "Böyük Ermənistan" iddialarına yeni bir təkan oldu. İmkandan yararlanıb dənizlərarası (Xəzər və Qara) əraziləri ələ keçirməyə çalışan ermənilər Azərbaycan torpaqlarını "özününküləşdirmək" işinə girişdilər. Beləliklə də, "Böyük Ermənistan"ın – Türkiyənin şərq vilayətləri, Qüzey və Guney Azərbaycan torpaqları hesabına bərpası" planının gerçəkləşdirilməsinə başlanıldı. Azərbaycanın tarixi torpaqlarına (İrəvan, Naxçıvan, Qarabağ, Zəngəzur mahallarına və Borçalının bir hissəsinə) əsassız iddialar irəli sürüldü.

Tezliklə daha konkret tələblər və təkliflər açıqcasına səsləndirildi. Belə ki, kəndli deputatlarının Ümumqafqaz qurultayında (Tiflis, 1917) daşnaklar Güney Qafqazın yeni inzibati bölgüsü təklifi ilə çıxış etdilər. Yelizavetpol (Gəncə) quberniyasının iki inzibati vahidə ayrılması ideyası ortalığa atıldı. Onlardan biri də tərkibinə Yelizavetpol qəzasının dağlıq hissəsinin, Qarabağ və Zəngəzurun qatıldığı Qandzaq

quberniyası olmalı idi. 1917-ci ilin payızında Tiflisdə çağırılan ümumerməni milli konfransı da qonşulara, xüsusi ilə də türk-müsəlmanlara qarşı torpaq iddiaları şəraitində keçdi.

Ermənilər Cənub-Qərbi Azərbaycan torpaqlarına (Urmiya gölü ətrafı, İrəvan, Naxçıvan, Qarabağ, Zəngəzur) dair iddialarını "əsaslandırmağa" çalışarkən "tarixi hüquqları" ilə yanaşı "etnoqrafik hüquqları"na da istinad edirdilər. Lakin çoxsaylı tarixi-rəsmi sənədlər (faktlar) onların əsassızlığını isbatlamağa yetərincə imkan verir (Burada və IV bölümdə bölgələrin əhalisinin milli tərkibinə dair statistika materiallarının (rəqəmlər və s.) verilməsinə ehtiyac yoxdur. Çünki "Əlavələr"dəki müvafiq cədvəllərə və bəzi elmi araşdırmalara (N.Nəsibli, İ.Musayev) baxmaq olar).

"Böyük Ermənistan" strategiyasının gerçəkləşdirilməsi üçün seçilən taktikaya əsasən ermənilər Azərbaycanda türk-müsəlman soyqırımı ("etnik təmizləmə" – "yandırılmış torpaq") siyasətinin həyata keçirilməsini önə çəkdilər (Bu, "etnoqrafik hüquqları" – üstünlükləri havadarlara və mötəbər məclislərə göstərmək üçün lazım idi). 1917-ci ilin əvvəlindən 1918-ci ilin martınadək İrəvan quberniyasında 197 müsəlman kəndi dağıldı və boşaldıldı. Onlarda yaşayan 135 min nəfər türk-müsəlman qırıldı və didərgin salındı. Təkcə 1917-ci ildə Zəngəzur qəzasında 109, Qarabağda 157 kənd qismən dağıdılmış, Azərbaycan üzrə isə (Lənkəran qəzası çıxılmaqla) 60 yaşayış məskəni tamamilə məhv edilmiş, 388-i qismən zərər çəkmiş, viran qoyulan təsərrüfatların sayı 5140-a çatmışdı.

1918-ci ilin mart-aprelində Bakıda 12 min nəfər qırıldı, Şamaxıda 7 min nəfər qətlə yetirildi və Quba qəzasında 122 kənd dağıdıldı, 60 nəfər öldürüldü və 53 nəfər yaralandı. 1918-ci il yayın sonu-payızda Zəngəzur bölgəsinin Sisyan mahalında 115 kənd dağıdıldı və yandırıldı, 10068 nəfər türk-müsəlman öldürüldü və yaralandı (AXC Fövqəladə İstintaq Komissiyası (FİK) ermənilər tərəfindən müsəlmanlara qarşı törədilən bütün bu zorakılıqlara dair 36 cildlik-



3500 səhifəlik tədqiqat materialları hazırlamışdı).

İstər Azərbaycanın ərazi bütövlüyünün təminatı, istərsə də onun türk-müsəlman əhalisinə qarşı törədilən zorakılıqların qarşısının alınması AXC hökumətinin təcili və ciddi siyasi-diplomatik-hərbi səciyyəli tədbirlər görməsini şərtləndirirdi. XİN və digər müvafiq strukturlar tərəfindən bir sıra istiqamətlərdə və müxtəlif səviyyələrdə iş aparılmasına başlanıldı. Bununla əlaqədar aşağıdakı məsələlərin nəzərdən keçirilməsi lazım gəlir:

**Birincisi**, AXC diplomatiyası Güney Qafqazda gözlənilən irimiqyaslı siyasi-hərbi qarşıdurmaları önləmək və, ümumiyyətlə, dövlətlərarası münasibətlər qurmaq məqsədi ilə öncə ərazi-sərhəd məsələlərinin tənzimlənməsinə üstünlük verdi. Bu niyyətlə də üçtərəfli danışıqlar vasitəsi ilə ümumi razılığa gəlinməsi təklif olundu. Hələ Trabzon və Batum konfranslarında ermənilərlə aparılan müvafiq müzakirələr müstəqilliyin elanından sonra daha da intensivləşdirildi.

Həmin müzakirələrdə İrəvanla bağlı məqamlar mühüm yer tutmuşdu. Və nəticədə Azərbaycan Milli Şurası (MŞ) tərəfindən (29.V.1918) İrəvanın Ermənistan Respublikasının siyasi mərkəzi kimi tanınmasına dair yanlış qərar çıxarılmışdı. Diplomatiyamızın yanlış addımlarından biri kimi səciyyələndirilməli olan bu mövqeni MŞ-nin bir sıra üzvləri müəyyən *mülahizələrlə* – "dəlillərlə" əsaslandırmışdılar:

- qonşu dövlətə xeyirxah yardım (Aleksandropol, yəni Gümrü Osmanlı tərəfindən tutulduğundan Ermənistan paytaxt problemi ilə üzləşmişdi);
- gələcəkdə iki dövlət arasında konfederasiya yaradılması ehtimalı;
- güzəştin "tarixi zərurət, qaçılmaz şər" olması;
- bu güzəştin erməniləri Azərbaycana qarşı digər iddialardan çəkindirməsi.

İrəvanın ermənilərə güzəştə gedilməsinə, təbii ki, heç bir halda haqq qazandırmaq mümkün və düzgün deyildir. Və MŞ üzvləri arasında da bu qərara qarşı çıxanlar olmuş-

du. Onlar öz mövqelərini: **a)** konfederasiyanın qeyri-mümkünlüyü və, **b)** İrəvanın ermənilərə verilməsinin mahalın türk-müsəlman əhalisinin taleyi üçün təhlükə yarada biləcəyi ilə izah etmişdilər (Sonrakı proses və hadisələr bu öngörmələrin dürüstlüyünü təsdiqləmiş oldu. Çünki ərazi iddiaları daha kəskinliklə sürdürüldü, türk-müsəlman əhaliyə qarşı zorakılıqlar davam etdirildi və konfederasiya *ehtimalı müharibə* reallığı ilə əvəzləndi).

**İkincisi**, İrəvanın güzəştinə dair yanlışlığın ardınca Batum müqaviləsinin imzalanması və Osmanlıdan hərbi yardım, diplomatik dəstək istənilməsi kimi çox düzgün, tarixi bir iş görüldü. Bununla ərazi bütövlüyümüz və əhalimizin fiziki mövcudluğunun üzləşdikləri ciddi təhlükələr sovuşduruldu.

**Üçüncüsü**, AXC diplomatiyası gözlənilən İstanbul konfransına hazırlıq dövründəki müzakirələr prosesində də ermənilərin əsassız ərazi iddialarına qarşı çıxdı. Çünki İstanbula gələn erməni nümayəndə heyətinin "ərazi-sərhəd məsələlərinin tənzimlənməsinə" dair təqdim etdiyi layihə, əsasən, Azərbaycana qarşı torpaq iddialarından ibarət idi. Həmin layihəyə əsasən Azərbaycanın tarixi ərazilərinin böyük bir hissəsinin (İrəvan qəzası, Sürməli, Naxçıvan, Ordubad, Qarabağ, Zəngəzur, Axalkələk, Eçmiədzin, Qazax və Borçalı mahallarının) Ermənistana verilməsi tələb olunurdu. Ermənilər bunu "demoqrafik hüquqları" ilə (guya həmin ərazilərdə yaşayanların 70%-i ermənilərdi) əsaslandırmağa çalışırdılar.

AXC nümayəndəliyinin İstanbulda Almaniya və Osmanlı dövlətlərinin müvafiq təmsilçilərinə təqdim etdikləri layihədə isə Azərbaycan Respublikasının hüdudlarına daxil olan mübahisəsiz ərazilər (96502 kv.km) sadalanırdı:

**I.** Tərkibinə Bakı dairəsi ilə yanaşı Bakı, Cavad, Göyçay, Şamaxı, Quba, Lənkəran qəzalarının da daxil edildiyi Bakı quberniyası.

**II.** Yelizavetpol (Gəncə) quberniyası. Ona aşağıdakı



qəzalar daxil idi: Gəncə, Cavanşir, Nuxa (Şəki), Ərəş, Şuşa, Qaryagin (Cəbrayıl), Zəngəzur, Qazax; sonuncunun 1/3-ni təşkil edən dağlıq hissəsi Azərbaycanla Ermənistan arasında mübahisəli olaraq qalır.

**III.** İrəvan quberniyası Naxçıvan, Yeni Bayazid qəzalarının hər birinin 1/5 və Şərur-Dərələyəz qəzasının 1/2 hissəsi.

**IV.** Tiflis quberniyasından Borçalı qəzası (onun vasitəsi ilə Türkiyə və Azərbaycan arasında dəhliz açılmalı idi), Tiflis qəzasının 1/5, Sığnax qəzasının 1/3 hissəsi.

**V.** Zaqatala dairəsi.

İstanbul konfransı alınmadığından ona hazırlıq mərhələsində ərazi-sərhəd məsələlərinə dair aparılan müzakirələr də bir nəticə vermədi (1917-1920-ci illərdə Qafqaz xalqları arasındakı torpaq mübahisələrinə dair, AXC XİN-in əməkdaşı A.Şepotyevin, "Giriş"də qeyd olunan qaynaqlar sırasında adıkeçən, məruzəsində xeyli material vardır).

1918-ci ilin yayı-payızında ermənilərin Azərbaycanın *ərazi bütövlüyünə* qəsdləri çoxaldı:

**a)** Dağlıq Qarabağ ermənilərinin Şuşada keçirilən I qurultayı tərəfindən mahalın "müstəqilliyi" elan edildi. Bununla da Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi üçün göstərilən birinci böyük cəhdin və uzunsürən faciəli münaqişənin başlanğıcı qoyuldu;

**b)** Andranikin "Naxçıvan yürüşü" zamanı bölgə "Sovet Rusiyasının ayrılmaz hissəsi" elan olundu;

**c)** Andranik mərkəzi Gorus olan Zəngəzur "qubernatorluğu"nun yaradıldığını bildirdi və Şuşanı tutaraq "Kiçik *Ermənistan*"ın "paytaxtı"na çevirməyə çalışdı.

Ermənilərin bu və digər təcavüzkar hərəkətləri ərazi-sərhəd məsələlərinin həllinə yönəlik səylərin Ə.Topçubaşının İstanbul missiyasında da mühüm önəm daşımasını şərtləndirmişdi. AXC-nin inzibati bölgüsünə dair (az öncə nəzərdən keçirilən) layihə onun Memorandumu vasitəsi ilə Antantanın İstanbuldakı fəxri nümayəndələrinin diqqətinə çatdırılmışdı.

Ermənilərin iddia etdikləri ərazilərin Azərbaycanın tarixi torpaqları olması, onların əhalisinin böyük çoxluğunu türk-müsəlmanların təşkil etməsi və AXC-yə qatılmaq istədiklərini dəfələrlə bildirmələri, bunun ümumi və açıq səsvermə yolu ilə yoxlanması və təsdiqlənməsinin mümkünlüyü kimi vacib məqamlar Memorandumda vurğulanmışdı.

Ə.Topçubaşı ermənilərin möhkəm yapışdıqları "demoqrafik prinsip"in onların xeyrinə olmadığını təsdiqləyən bəzi faktları da (Güney Qafqazın 7.667.370 nəfər əhalisinin 3.306.000 nəfərini müsəlmanların, 1.786.000 nəfərini isə ermənilərin təşkil etmələri və s.). Memorandumda xatırlatmışdı. Onun Osmanlı rəsmiləri ilə danışıqlarında Qafqaz dövlətləri arasındakı sərhədlərə dair mübahisələrin həlli yolları da müzakirə edilmişdi.

Azərbaycanın ərazi bütövlüyü uğrunda diplomatik mübarizə 1918-ci ilin sonralarından etibarən daha da əməli səciyyə daşımağa başladı. Bu dövrdə atılan diplomatik addımlar və görülən işlər arasında aşağıdakıları xüsusi olaraq fərqləndirmək lazımdır:

**1.** Ərazi tamlığımızın təminatının yollarından biri kimi Araz-Türk Respublikasının hərtərəfli dəstəklənməsi.

**2.** AXC-nin Ermənistanda diplomatik nümayəndəliyinin açılması və onun fəaliyyətinin istiqamətləndirilməsi.

**3.** İngilislərin Cənub-Qərbi Azərbaycana dair ikili siyasətinin zərərsizləşdirilməsi.

**4.** AXC Naxçıvan və Qarabağ general-qubernatorluqlarının təşkili ilə bağlı Ermənistanla "diplomatik müharibə".

**5.** Andranik-Denikin cütlüyünün Azərbaycanın ərazi bütövlüyünün pozulmasına yönəlik səylərinin heçə endirilməsi.

Azərbaycanın bəzi mahalları müəyyən çətinliklər üzündən bir müddət AXC-nin birbaşa idarəçiliyindən kənarda qalmışdılar. Buna görə də həmin bölgələrlə bağlı problemlərin həlli əsasən siyasi-diplomatik yollarla mümkün idi. Belə hal Araz-Türk Respublikası (ATR) ilə əlaqədar məsələlər



üçün də səciyyəvi sayıla bilər.

ATR-ə Naxçıvan diyarının "...hələ keçmişlərdən regional müstəqilliyə can atması..."nın yekunu damğasının vurulması zərərli yanlışlıqdır. Əslində bu bölgədə az bir zaman ərzində fəaliyyət göstərən ATR (məhəlli dövlət qurumu) dövrün beynəlxalq şəraitinin nəticəsi kimi dəyərləndirilməlidir. Çünki ATR-in yaradılması: **a)** Osmanlı qoşunlarının bölgədən çıxmaları ilə onun ərazi və əhalisinin taleyi üçün doğan təhlükənin önlənməsini; **b)** mahalın ermənilərin əlinə keçməməsini və bununla da AXC-nin ərazi bütövlüyünü təmin etdi. AXC hökuməti ATR-ə siyasi-diplomatik dəstəklə yanaşı ona imkanlar daxilində hərbi-maliyyə yardımı da göstərmişdi.

AXC-nin xarici siyasət fəaliyyətində, xüsusi ilə də Cənub-Qərbi Azərbaycanın ərazi toxunulmazlığının təmin olunması və onun türk-müsəlman əhalisinin ermənilərdən müdafiəsində Ermənistanda diplomatik nümayəndəliyimizin açılması əvəzsiz rol oynadı. AXC XİN-in sənədlərindən bəlli olur ki, müəyyən müzakirələrdən və diplomatik qaydalara əsasən Ermənistanla razılaşdırmadan sonra Azərbaycan FİK üzvü Məhəmməd xan Təkinski 1919-cu il yanvarın 29-da AXC-nin İrəvandakı səfiri təyin edilmişdi.

### Erməni – azərbaycanlı münaqişəsi və *Qərb dövlətlərinin ikili mövqeyi*

AXC diplomatiyası ingilislərin Azərbaycanın ərazi bütövlüyü ilə bağl siyasətinin (ziddiyyətli mövqeyinin) zərərsizləşdirilməsi üçün də çox ciddi səy göstərdi. Bu ziddiyyətli mövqe özünü Böyük Britaniya rəsmilərinin ermənilər barəsində söylədikləri fikirlərdə açıq təzahür etdirirdi. Belə ki, ingilis diplomatı Kerzon, bir tərəfdən, "dünya müharibəsi başladıqdan sonra əlahəzrət hökumətinin başlıca məqsədi ermənilərin azad edilməsi"dir fikrini söyləmişdi. Digər tərəfdən də, Böyük Britaniya hökumətinin iclasında (9.XII.1918)

"Ermənistan Fransaya verilməlidir, çünki başqa heç kəs bu qeyri-adi dərəcədə qeyri-cazibədar insanlarla nə isə etmək istəmir" demişdi.

İkibaşlı ingilis siyasəti Azərbaycanın Qarabağ, Naxçıvan və Zəngəzur bölgələrinin ərazi mənsubiyyəti məsələsindəki qeyri-ardıcıllıqda, bəzən ermənilərin əsassız iddialarını dəstəkləməkdə də üzə çıxırdı. Böyük Britaniyanın ikili siyasətinin mahiyyətinə vardıqda, AXC XİN-in də nəzərə almaq məcburiyyətində qaldığı, bir sıra bədniyyətlər və məkrli planlar diqqəti çəkir. Məsələn, ingilislər əvvəlcə Naxçıvan bölgəsində öz general-qubernatorluqlarını yaratdılar (Əslində bu dövr (8.II.-3.V.1919) yerli əhalinin özünüidarəsinin davamı oldu). Tezliklə isə mahalın uğursuz "erməni idarəçiliyi"nə keçməsini təmin etdilər.

Bu cür niyyət-planlar Qarabağ və Zəngəzur bölgələrinə münasibətdə də özünü göstərirdi. Azərbaycanla Ermənistan arasındakı ərazi-sərhəd münasibətlərinə Paris Sülh konfransı tərəfindən son qoyulacağını israrla bəyan edən ingilis hərbçi-diplomatları ermənilərin bu mahallara dair iddialarını şirnikləşdirən hərəkətlərə də yol verirdilər. Misal üçün, Zəngəzurun 4/5 hissəsinin və digər həmsərhəd ərazilərin mühafizəsinin Andranikə tapşırılması ilə əlaqədar yayılan xəbərlər və s.

Bu dövrdə Qafqazda sözükeçən əsas dövlət sayılan İngiltərənin ikili siyasətinin Cənub-Qərbi Azərbaycan torpaqlarının toxunulmazlığına yaratdığı təhlükənin sovuşdurulması vacib məsələlərdən idi. Və AXC hökumətinin bu istiqamətdə atdığı çox təsirli addımlardan biri, yəni Naxçıvan, Qarabağ general-qubernatorluqlarının təşkili Ermənistanın kəskin diplomatik etirazları (notaları) ilə üzləşdi. Xüsusi ilə də Qarabağ general-qubernatorluğunun (Zəngəzur, Şuşa, Cavanşir, Cəbrayıl qəzalarından ibarət) yaradılması və vətənpərvər bir şəxsiyyətin (X.Sultanovun) ona başçı təyin edilməsi Ermənistanla Azərbaycan arasındakı "diplomatik savaşı" şərtləndirdi.



İngilis generalı Tomsonun Qarabağ və Zəngəzurun AXC-nin müvəqqəti idarəçiliyinə verildiyini elan etməsi və həmin bölgələrdə onun general-qubernatorluğunun təşkilinə obyektiv münasibəti Ermənistan rəhbərliyini xeyli çaşdırdı, narazı saldı. Ermənistanın Xarici İşlər naziri S.Tiqranyanın AXC XİN-ə notalarında (I-III. 1919) və daşnak mətbuatında Azərbaycanın ünvanına kəskin ittihamlar söylənildi. Erməni diplomatiyasının əsaslandığı bir sıra "dəlillər" əslində onların haqsızlığını təsdiqləyir və çoxdan bəlli olan bəzi mətləblərə daha da aydınlıq gətirirdi.

**Birincisi**, AXC Qarabağ general-qubernatorluğunun yaradılması "Ermənistanın ərazi hüquqlarına qəsd" və iki qonşu xalq arasında münasibətlərin kəsilməsi aktı kimi səciyyələndirilirdi.

**İkincisi**, yeni yaradılan general-qubernatorluğun böyük hissəsi Ermənistanın ayrılmaz ərazisi və sayılır onun idarəçiliyinin Ararat Respublikasının təmsilçiləri (Milli Şura, Gorusdakı daşnak komissarı) tərəfindən həyata keçirildiyi iddia olunurdu.

**Üçüncüsü**, Ermənistanın hərtərəfli dəstəklədiyi Andranikin quldur dəstəsinin işğalçılıq və zorakılıq hərəkətəri Qarabağ-Zəngəzurun erməni əhalisinin öz müstəqilliklərini Azərbaycan və Türkiyənin qəsbkarlıq siyasətindən silahlı müdafiə kimi qələmə verilirdi.

**Dördüncüsü**, AXC-nin Qarabağ və Zəngəzuru ələ keçirərək ATR ilə birləşməsi və öz hüdudlarını Türkiyə sərhədlərinədək genişləndirmək məqsədini güddüyü vurğulanırdı.

**Beşincisi**, Müttəfiqlərdən (ingilislərdən) AXC hökumətinin "məsuliyyətsizliyinə və feodalizminə" son qoyulması, Tomsonun işə qarışması və general-qubernatorluğun ləğv edilməsi tələb olunurdu.

Təbii ki, Ermənistan XİN-in bu hədyan və hədələri cavabsız qala bilməzdi. Və AXC XİN-in diplomatik etirazlarında, əsasən də nazir əvəzi A.Ziyadxanın notasında (31.I.1919) Azərbaycan tərəfinin mövqeyi bir daha açıqlandı (Əslində

bu açıqlama general-qubernatorluğun təşkili prosesində-müvafiq beynəlxalq instansiyaların məlumatlandırılması zamanı yetərincə olmuşdu). AXC XİN-in mövqeyi (açıqlamaları) aşağıdakı məqamların nəzərə alınmasını lazım bilirdi:

- Şuşa, Zəngəzur və s. qəzaların erməni əhalisinin 1917-ci ilin əvvəllərindən etibarən özlərinin xüsusi inzibati vahidlərini (quberniyalarını – Qandzaq və s.) yaratmağa can atmaları;
- adıçəkilən bölgələrin türk-müsəlman əhalisinə qarşı zorakılıqların genişlənməsi;
- bölgələrdə yaşayan ermənilərin separatçılıq meyllərinin, AXC-nin elanından sonra, daxili və xarici güclərin hərtərəfli yardımı hesabına daha da məqsədyönlü (Azərbaycandan ayrılaraq Ermənistana birləşmək) xarakter alması, Andranikin "yürüşü"-nün də bu məqsədə xidmət etməsi;
- AXC hökumətinin üzləşdiyi problemlər, təbii-coğrafi çətinliklər və s. görə bölgələrdəki erməni separatçı hərəkətlərinin əngəllənməsinin mürəkkəbliyi;
- general-qubernatorluğa qatılan qəzaların Azərbaycanın əzəli torpaqları olması, onların əhalisinin çoxluğunu türk-müsəlmanların təşkil etmələri və buna görə də erməni tərəfinin diplomatik etirazlarının əsassızlığı, suverenliyimizə qəsd kimi qiymətləndirilməsi;
- dini-milli mənsubiyyətindən asılı olmayaraq general-qubernatorluğun bütün əhalisinin hüquqlarının təminatlı müdafiəsi.

Qarabağ general-qubernatorluğunun yaradılması və onun idarəçiliyi məsələləri Ermənistan hökumətinin Tomsonun iştirakı ilə keçirilən müşavirələrində də (28.III; 6.IV.1919) qaldırıldı. Birinci müşavirədə Qarabağın dağlıq hissəsinin Ararat Respublikasının ayrılmaz hissəsi olduğunu təkrarlayan Ermənistan rəhbərliyi onun idarəçiliyinin yerli ermənilərə (Milli Şuraya) verilməsini tələb etdi. İkincisində isə ingilislərin ermənilərə hərbi yardım göstərmələrinə dair Tomsonun



vədini qazandı.

Cənub-Qərbi Azərbaycan torpaqlarının toxunulmazlığının təminatı ilə bağlı "xalq diplomatiyası"nın imkanlarından da istifadə olundu. Belə ki, keçmiş İrəvan quberniyası müsəlmanları həmyerlilər cəmiyyətinin təmsilçisi M.Mirbağırovun Naxçıvan bölgəsinə səfəri zamanı (I-II. 1919) ingilis general-qubernatoru ilə müəyyən müzakirələr aparıldı.

Müzakirələrdə generalın "... bu ərazi hələlik Azərbaycanın tərkib hissəsini təşkil etmir və kimə məxsus olacağı məlum deyildir, burada ingilis qubernatorluğu mövcuddur, sizin hökumətin buraya adamlar göndərmək hüququ yoxdur..." fikri "xalq diplomatı"nın üç tutarlı əks-dəlili ilə qarşılaşdı: 1. Kiçik xalqların təyin-müqəddərat hüququnun Avropa millətləri, xüsusi ilə də ingilislər tərəfindən bəyanilməsi. 2. Tomson və Milnin Azərbaycan dövlətçiliyini tanımaları. 3. Bölgənin tamamilə müsəlmanlardan ibarət əhalisinin Azərbaycan hökumətinə xüsusi rəğbət bəsləməsi.

AXC-nin ərazi bütövlüyünün saxlanması Ermənistan hökumətinin və Andranikin general Denikinlə əlaqələrinin əngəllənməsini zəruri edirdi. Onlar arasında müəyyən münasibətlər artıq yaranmışdı. Belə ki, Denikinin Moskva üzərinə hücumu zamanı onunla Ermənistan arasında gizli müqavilə bağlanmasına dair sübutlar vardı. Habelə Denikinin Azərbaycanla müharibə edəcəyi təqdirdə Ermənistan ordusu "Könüllü Ordu"nun 7-ci korpusunu təşkil etməli idi. Zəngəzurdakı erməni hissələri (Andranikin dəstəsi və s.) ilə Denikin arasındakı əməkdaşlığa dair də çoxsaylı faktlar məlumdur. Hətta A.Mikoyan özü də Müttəfiqlərin və Denikinin yardımı ilə "Böyük Ermənistan" yaradılmasına çalışıldığından bəhs etmişdi.

Bunlar çox ciddi təhlükə yaradırdı və Ermənistan-Denikin yaxınlaşmasında mühüm rol oynayan Andranikin təcili zərərsizləşdirilməsi olduqca vacib idi. Buna görə də, bir tərəfdən, AXC XİN-i ingilislərlə müvafiq məsləhətləşmələr apardı. Digər tərəfdən də, hərbi və yerli idarə strukturları

vasitəsi ilə lazımi işlər görüldü. Birgə israrlı səylər təsirli oldu və Andranikin quldur dəstəsinin Azərbaycanın hüdudlarını tərk etməsi ilə nəticələndi (Bu məsələnin belə uğurlu həllində ingilislərin Qafqazda asayişin və sabitliyin bərqərar olmasındakı maraqları da aparıcı rol oynadı).

Azərbaycanın ərazi bütövlüyü ilə əlaqədar yaradılan problemlərin ən mürəkkəblərindən biri də Dağlıq Qarabağla bağlı idi. Bu dövrdə Azərbaycanın siyasi-diplomatik dairələrində həmin problemin həlli yolları və vasitələrinə dair müxtəlif qənaətlər və mövqelər ortaya çıxmışdı.

Bunlar arasında AXC-nin ilk hərbi naziri və Qarabağın general-qubernatoru olan X.Sultanovun mülahizə və təklifləri çox maraqlı və dəyərlidir. Həmin fikir və təkliflər Xosrov bəyin AXC hökumətinə "Qarabağda ingilis siyasəti ilə əlaqədar olaraq yaranmış vəziyyət və onun düzəldilməsi üçün zəruri tədbirlər" adlı məlumat-məruzəsində, habelə ingilis generalı Şatelvortla Qarabağ məsələsinə dair apardığı müzakirələrdə (25.VI.1919) səslənmişdi.

Onların bir qismi mübahisəli görünsə də bütövlükdə problemin ayrı-ayrı məqamlarına daha dərindən nüfuz edilməsi baxımından əhəmiyyətlidir. Həm bu cəhət, həm də XX əsrin sonlarında başlayan və hazırda davam etməkdə olan Ermənistan-Azərbaycan münaqişəsinin (müharibəsinin) reallıqları və perspektivləri X.Sultanovun ibrətamiz mülahizə və təkliflərinin nəzərdən keçirilməsinə ehtiyac yaradır.

**Birincisi**, X.Sultanov Qarabağ general-qubernatorLuğuna daxil olan bölgələrin, xüsusi ilə də Zəngəzurun Azərbaycan üçün geosiyasi önəmini dəyərləndirmişdi. Onun fikrincə, Qarabağın itirilməsi Naxçıvan və Ordubadın, ümumiyyətlə isə bütün Azərbaycanın itirilməsi demək olardı. Bununla Bakı ilə Gəncə arasında möhkəmlənən ermənilər dövlətimizin mövcudluğunu təhlükə altına qoya bilərdilər.

**İkincisi**, Xosrov bəy Şatelvortla söhbətdən belə bir nəticəyə gəlmişdi: ingilislərin guya bizə münasibətdə qərəzsizlik və xeyirxahlıq göstərərək Qarabağ məsələsində bitərəf



mövqe tutmaları problemin həllini yubatmış və sayıqlığımızı azaltmışdır. Belə hal isə Azərbaycan üçün əlverişsiz şərait yaratmış və ermənilərin xeyrinə olmuşdur; üstəlik də Şərur, Naxçıvan və Qarsın ermənilərə verilməsi elan edilmişdir.

**Üçüncüsü**, ingilislərin Qarabağ məsələsində üzərlərinə götürdükləri öhdəliklərə əməl etməmələrini (Əlalxüsus da Zəngəzurda hakimiyyəti AXC-yə deyil, erməni Milli Şurasına verdiklərini) vurğulayan general-qubernator bu vəziyyətin ermənilərin daha da fəallaşmalarına təkan olduğunu açıqlamışdı.

**Dördüncüsü**, X.Sultanovun yerli şəraiti bilməsinə əsaslanan dərin inamını (qənaətini), vəziyyətdən çıxış yolu kimi təklif etdiyi təcili həyata keçirilməli olan tədbirləri və onların ləngidilməsi (yaxud da qəbul olunmaması) şəraitində gözlənilən nəticələri belə qruplaşdırmaq olar.

**a) Gəlinən qənaətlər:**

- Qarabağ-Zəngəzur məsələsinin həllində ingilislərin köməyindən qətiyyətlə imtina edilməsi, çünki onlar bu işdə bizə yalnız maneçilik törədirlər;
- məcburedici tədbirlər görülməzsə, ermənilər Azərbaycan hökumətinin tabeçiliyinə razı olmayacaqlar;
- bu məsələni bir ay da həllsiz qoymaq əhalini hökumətin gücsüzlüyünə inandırmaq, müsəlman hissəsində anarxiyaya səbəb olmaq və bölgədən həmişəlik əlini üzmək deməkdir.

**b) Təcili həyata keçirilməli olan tədbirlər:**

- təxirəsalınmadan Zəngəzura hərbi hissələr yeridilməsi və ermənilərin İrəvandan Azərbaycana hərəkətinin qarşısının alınması;
- Dağlıq Qarabağa Azərbaycan hakimiyyətini tanımaq barədə altı günlük ultimatum verilməsi;
- bütün ermənilərə müsəlman rayonlarını tərk etmələrinin təklif olunması (Şuşa şəhəri üçün istisna ediləcəyi bildirilməklə);
- Azərbaycan hökuməti tanınmayacağı təqdirdə altı

gündən sonra hərbi əməliyyatlara başlanılması.

**c) Təxirəsalınmaz tədbirlərin görülməyəcəyi şəraitdə gözlənilən nəticələr:**

- ermənilərin Zəngəzurdan irəliləmələri və Dağlıq Qarabağdakı həmmillətləri ilə birləşmələri;
- müsəlman rayonlarında anarxiya;
- Qarabağın itirilməsi ehtimalı.

**Beşincisi**, general-qubernator xülasə olaraq bildirirdi ki, ingilis siyasəti nəticəsində Qarabağ məsələsinin həlli ləngidilmiş, Zəngəzur və Qarabağ ermənilərinin Azərbaycan hakimiyyətini dinc yolla tanımaları təmin olunmamış, nəticədə bölgədə millətlərarası münasibətlər xeyli kəskinləşmişdi.

Qarabağ və Zəngəzurdakı əlverişli vəziyyətdən yararlanan ermənilər yenə də ingilislərin himayəsi ilə Naxçıvan mahalında öz "idarəçiliklərini" yaratmağa cəhdlər göstərdilər. Tezliklə (3.V.1919) bölgənin Ermənistanın müvəqqəti idarəçiliynə verilməsi barədə ingilis generalı Devi və İrəvan hərbi dəstəsinin rəisi Dro tərəfindən birgə əmr imzalandı. Bununla Naxçıvan mahalının itirilməsi təhlükəsi daha da artdı. Belə bir şəraitdə AXC hökuməti bölgəyə dair suveren hüquqlarının müdafiəsi ilə bağlı bəzi diplomatik addımlar atdı.

Öncə F.Xoyski-Tomson görüşündə (5.V.1919) Naxçıvanın "erməni idarəçiliyi"nə verilməsinə kəskin etiraz olundu. Tomsonun "Qarabağ müvəqqəti Azərbaycana verildiyi kimi, Naxçıvanın idarəsi də müvəqqəti Ermənistana verilir və gələcəkdə sərhəd Culfadan keçməlidir" fikri təbii ki, AXC hökumətini qane edə bilməzdi.

Buna görə də AXC xarici siyasət idarəsi Gürcüstandakı və Ermənistandakı səfirliklər vasitəsi ilə çoxşaxəli tədbirlər gördü. Bu sahədə əsas ağırlıq müəyyən səbəblərə görə İrəvandakı diplomatik nümayəndəliyin (M.Təkinski) üzərinə düşürdü. Səfirliyin səmərəli və gərgin fəaliyyəti aşağıdakı mühüm məsələlərin həllinə yönəldilmişdi:



**1.** Cənub-Qərbi Azərbaycan torpaqlarının toxunulmazlığı, ilkin zəruri tədbirlərdən biri kimi Naxçıvanda "erməni idarəçiliyi"nin ləğv edilməsi. Bu istiqamətdə görülən vacib işlər sırasında isə bunları qeyd etmək lazımdır:

**a)** bölgələrdəki siyasi duruma dair ətraflı və mötəbər məlumatların toplanması, onların təhlili və müvafiq tövsiyələr hazırlanması;

**b)** Naxçıvan mahalında "erməni idarəçiliyi"ni əsla tanımaq istəməyən yerli əhalinin müqavimətinə hərtərəfli yardım göstərilməsi və onun təşkilatlanması üçün lazım olan diplomatik-maliyyə-hərbi imkanların öyrənilməsi.

**2.** Bölgələrin türk-müsəlman əhalisinə qarşı ermənilər tərəfindən törədilən zorakılıqların önlənməsi üçün müttəfiqlərin yerlərdəki təmsilçiləri qarşısında məsələlər qaldırılması.

**3.** Qaçqınların problemlərinin araşdırılması və müvafiq yardımların göstərilməsinin təşkil olunması, imkan daxilində onların öz yaşayış yerlərinə qayıtmalarına cəhdlər edilməsi.

AXC XİN-i İrəvandakı səfirliyin səhih məlumatları və digər diplomatik materialların təhlili əsasında hökumətə tövsiyələr hazırlamışdı. Bu Naxçıvan bölgəsindəki "erməni idarəçiliyi"nə son qoyulmasına imkan verən əlverişli mövcud şəraitin mütləq və yubanmadan diqqətə alınmasına dair idi. Mövcud əlverişli şərait dedikdə isə: **a)** ingilislərin getmələri xəbəri ilə əlaqədar bölgədə Ermənistan hökumətini tanımamaq zəminində çıxışların artması; **b)** Türkiyə qoşunlarının toplanması ilə bağlı Ermənistanın öz qərb sərhədlərini möhkəmləndirmək məcburiyyətində qalması; **c)** AXC ordusu zabitləri tərəfindən yerli əhalinin döyüş hazırlığı vəziyyətinə gətirilməsi və s. nəzərdə tutulurdu.

Bu zaman səfirliyin belə bir sanballı məsləhətinə də önəm verilmişdi: "AXC hökuməti Sürməli, Qars, Şərur, Naxçıvan və s. yerlərin müsəlman əhalisinin səfərbər olmasına çalışmalıdır. Yalnız həmin ərazilərdə hərbi qüvvələrin mövcudluğu Ermənistan üçün böyük təhlükə yarada və Azər-

baycanla müharibə şəraitində onu ağır vəziyyətə sala bilər".

Xarici siyasət idarəsinin qənaətinə görə, bütün bu amillər bölgədə "erməni idarəçiliyi"nin ləğvi və AXC hökumətinin oraya təsirinin genişlənməsi üçün yetərli idi. Bu məqamların hamısını nəzərə alaraq AXC hökuməti Ermənistanla olan ərazi-sərhəd münasibətlərinin diplomatik yollarla həllinə yönəlik yeni səylər göstərdi. Onun təklifi ilə birgə qarışıq hökumət-parlament komissiyası yaradıldı. Lakin yenə də Ermənistanın ucbatından gözlənilən nəticələr hasil olmadı.

Belə olduqda Naxçıvan mahalının türk-müsəlman əhalisinin müqaviməti daha da qüvvətləndi və AXC hökumətinin diplomatik səyləri artırıldı. Bir həftəlik (18-25.VII. 1919) silahlı mübarizə nəticəsində bölgədəki "erməni idarəçiliyi" (3.V-25.VII.1919) iflasa uğradı. İngilislərlə ermənilərin bir-birlərindən faydalanmaqla öz məqsədlərinə yetişmək siyasəti biabırçılıqla qurtardı. AXC-nin Baş naziri N.Yusifbəyli sonralar (18.VIII.1919) parlamentdə çıxış edərkən bu barədə demişdi ki, Naxçıvan öz qüvvələri ilə istilaçıları devirərək təbii orqanizmi saydığı Azərbaycana birləşməyə hazır olduğunu bildirmişdir.

1919-cu ilin yayı Azərbaycan hökuməti və diplomatiiyası üçün ərazi bütövlüyünün təminatı sahəsində görülən işlər baxımından uğurlu sayıla bilər. Belə ki, **1-cisi**, Naxçıvan bölgəsində "erməni idarəçiliyi" ləğv olundu, mahalın müsəlman kəndləri kütləvi surətdə AXC idarəçiliyinə keçmək barədə qərarlar qəbul etdilər, habelə erməni icması da rəsmi müraciətlərlə Azərbaycan hökumətini tanıdı. **2-cisi**, AXC hökuməti Dağlıq Qarabağ ermənilərinin Şuşada keçirilən VII qurultayı (VIII.1919) tərəfindən də müvəqqəti (Paris Sülh konfransının qərarınadək) tanındı. **3-cüsü**, "Böyük Ermənistan" uğrundakı fitnə-fəsadların Versal konfransındakı davamına qarşı önəmli mübarizə aparıldı (Bu barədə V bölümdə ətraflı bəhs olunur).

Bütün bu gözəgəlimli nəticələrə baxmayaraq Azərbaycanın ərazi bütövlüyünün pozulması təhlükəsi tamamilə aradan qalxmadı. Bəzi beynəlxalq (ABŞ) və məhəlli (ermənilər) güclər tərəfindən AXC-nin torpaq tamlığını parçalamağa yönələn yeni variantlar ortaya çıxarıldı, müxtəlif diplomatik gedişlər edildi. Bu cür variant-oyunlardan biri yenə Naxçıvan mahalı ilə bağlı oldu.

1919-cu ilin ikinci yarısında – Qafqazda (Azərbaycanda) ingilislərin mövqelərinin zəiflədiyi zaman ABŞ burada fəal siyasət yürütməyə başladı. Azərbaycanın, xüsusi ilə də onun Naxçıvan mahalının geostrateji mövqeyinə mühüm önəm verən ABŞ erməni-azərbaycanlı münaqişəsindən faydalanmağa çalışırdı. Birləşmiş Ştatlar, ermənilərin bu mahala indi də onun vasitəsi ilə yiyələnmək niyyətlərindən istifadə edərək, müxtəlif üsullarla regionda möhkəmlənmək xəttinə üstünlük verirdi. O, əsasən, ermənipərəst mövqedə dayansa da müəyyən mülahizələrə (regiona yetərincə hərbi qüvvə gətirə bilməməsi; bölgənin türk-müsəlman əhalisinin çox güclü müqaviməti; AXC hökumətinin prinsipial siyasəti və s.) görə ikili siyasət yürüdürdü.

Müttəfiqlərin Ermənistandakı Ali komissarı, amerikalı polkovnik V.Haskel İrəvanda – parlamentdəki çıxışında (22.VIII.1919) ermənilərin Naxçıvan mahalına olan ərazi iddialarını dəstəkləmiş və ingilislərin müəyyənləşdirdikləri sərhədlərin pozulmasında Azərbaycanı suçlamışdı. Haskel Bakıda AXC rəsmiləri ilə görüşündə (29.VIII.1919) isə "mən ermənilərin vəkili deyiləm" söyləyərək hər iki respublikaya eyni gözlə baxdığını bildirmişdi.

Onun ziddiyyətli mövqeyi elə həmin görüşdə və digər söhbətlərində özünü biruzə verdi. Haskel, bir tərəfdən Ermənistanla Azərbaycan arasında silahlı toqquşmalara imkan verməməyi və "modus vivende" yaratmağı özünün Transqafqaz missiyasının başlıca vəzifələrindən biri kimi vurğulamışdı. Digər tərəfdən də Zəngəzur və Qarabağı AXC-nin tərkib hissəsi kimi tanıdığını bəyan etmişdi. Habelə ermənilərlə müsəlmanlar arasında normal münasibətlər yaradılma-

sı məqsədi ilə Naxçıvan və Şərur-Dərələyəz qəzalarının müvəqqəti xüsusi bitərəf zona elan edilməsi və bu bölgədə Amerika general-qubernatorluğunun təşkili təklifini irəli sürmüşdü.

Bütün bunlara baxmayaraq 29 avqust görüşündə Naxçıvan və Şərur-Dərələyəz qəzalarının idarəçiliyinə dair sazişin layihəsi razılaşdırıldı. 12 maddədən ibarət olan həmin layihədə qeyd edilirdi ki: **a)** Naxçıvan və Şərur-Dərələyəz qəzaları müvəqqəti xüsusi general-qubernatorluq təşkil edirlər; **b)** general-qubernator Haskel tərəfindən amerikalı vətəndaşlar arasından təyin olunur; **c)** Azərbaycanın pul vahidi rəsmi pul kimi tanınır və s.

Haskel bölgənin Azərbaycanın idarəçiliyində saxlanılacağını ümumi halda elan etsə də, lakin tezliklə burada möhkəmlənmək siyasətinin həyata keçirilməsinə başladı. ABŞ-ın bölgəyə dair siyasəti və planının mahiyyəti Haskelin N.Yusifbəyliyə ünvanlanan məktubunda (1.IX.1919) və Ali komissarın bəyanatında (27.IX.1919) açıqlandı. Məktubda öz əksini tapan 20 maddədən ibarət sənəddə (Haskelin birinci layihəsi) və 12 maddəlik bəyanatında (onun ikinci layihəsi) aşağıdakların gerçəkləşdirilməsi nəzərdə tutulurdu:

- Naxçıvan və Şərur-Dərələyəz ərazilərində bitərəf zona yaradılması;
- onun Haskelin təyin etdiyi amerikalı qubernator tərəfindən idarə olunması;
- bütün yerli hakimiyyət orqanlarının amerikalı qubernatora tabe etdirilməsi;
- Ermənistanla yanaşı Azərbaycanın da öz qoşunlarını tezliklə bölgədən çıxarması və s.

ABŞ bütün bunların reallaşdırılmasında xüsusi ilə maraqlı idi. Çünki baştutacağı halda Qafqazda yeganə Amerika general-qubernatorluğu ola biləcək bu üsul-idarə ABŞ-a regionda möhkəmlənmək imkanı verirdi. Lakin "Haskelin layihələri"ndə qoyulan bir çox məsələlər və irəli sürülən təkliflər, ələlxüsus da bölgədə bitərəf zona yaradılması ideyası



"Bakı razılaşması" ilə (29.VIII.1919) əsla uzlaşmırdı. Və buna görə də AXC hakimiyyətinin (XİN-in) etirazları ilə üzləşdi. Xarici İşlər naziri M.Cəfərovun Ali komissara göndərdiyi sənəddə (4.X.1919) bildirilirdi ki, "Haskelin layihələri"nin bəzi maddələri 1919-cu il 29 avqust tarixli razılaşmadan kənara çıxır.

AXC diplomatiyasının etirazları öz növbəsində Haskelin təzyiqləri ilə qarşılaşdı. Ancaq Azərbaycan hökumətinin israrlı mövqeyi və Naxçıvan mahalı əhalisinin dəyanəti həmin təzyiqlərin tədricən zərərsizləşdirilməsinə şərait yaratdı. Bölgə əhalisinin etirazlarının mütəşəkkil xarakter almasında yenə də AXC-nin İrəvandakı diplomatik nümayəndəliyi fəallıq göstərdi (Doğrudur, bu arada M.Təkinskinin geri çağrılması və yeni səfirin təyinatının azmüddətə ləngiməsi işlərin gedişinə təsir göstərməyə bilməzdi. Burada M.Təkinski ilə bağlı iki mühüm ibrətamiz məqama da diqqət yetirilməsi lazım gəlir.

**Birincisi**, M.Təkinskinin səmərəli diplomatik fəaliyyətindən xeyli qayğılanan rəsmi İrəvan müxtəlif bəhanələrlə (Ermənistan əleyhinə siyasət yeritməsi, müsəlman əhalisi arasında təşviqat aparması və s.) onun geri çağırılmasına nail olmuşdu.

**İkincisi**, ermənilər AXC XİN-ə daxil olan sənədləri (o cümlədən, Təkinskinin 50 teleqramını) müxtəlif yollarla ələ keçirib bəzi dövlətlərə çatdırmışdılar (AXC-nin Ermənistandakı diplomatik nümayəndəliyinə M.Təkinskidən sonra Ə.Haqverdiyev, M.Mirbabayev və T.Makinski başçılıq etdilər).

"Haskel layihələri"nin əngəllənməsinə Cənub-Qərbi Azərbaycan müsəlmanları ümumi yığıncağının Ali komissara ünvanladığı 10 bənddən ibarət Memorandum da (9.IX.1919) ciddi təsir göstərdi. Naxçıvanda keçirilən müşavirə də (1.X.1919) bu baxımdan əhəmiyyətli oldu. AXC Naxçıvan general-qubernatoru S.Cəmillinski, Türkiyə hərbçisi Xəlil bəy, Haskelin nümayəndəsi general Robenzon və digər tanınmış şəxslərin iştirak etdiyi bu müşavirədə 12 maddədən ibarət bir sənəd

qəbul olundu. Həm Memorandumda, həm də müşavirənin sənədində "Haskelin layihələri"nin Azərbaycanın ərazi bütövlüyünü zədələyən məqamları ("Bitərəf zona" ideyası və s.) qətiyyətlə rədd edildi.

Belə barışmaz (haqlı) mövqenin ortaya qoyulması və Azərbaycanın XİN-i ilə Paris Sülh konfransındakı nümayəndəliyinin birgə səyləri Haskelin bütün bu tədbirlərini labüd aqibətlə üzləşdirdi:

- Ali komissarın Azərbaycan üzrə müvəkkili C.Reyin Naxçıvana missiyası (X.1919) uğursuz oldu;
- Haskelin Naxçıvanda Amerika general-qubernatorluğunun yaradılması haqqında bəyanatı (25.X.1919) təsirsiz qaldı;
- bölgəyə general-qubernator təyin edilən amerikalı polkovnik Edmond L.Dellinin fəaliyyəti baş tutmadı. O yalnız Paris Sülh konfransının (yaxud ABŞ-ın) nümayəndəsi kimi tanına bilərdi.

Tezliklə Delli özü, 1920-ci ilin yanvarında isə bütün amerikalı zabitlər Naxçıvanı birdəfəlik tərk etdilər. Beləliklə, ABŞ-ın bölgəni bitərəf zona elən edərək öz general-qubernatorluğunu yaratmaqla burada möhkəmlənmək siyasəti boşa, ermənilərin amerikalılar vasitəsi ilə mahalı ələ keçirmək niyyəti isə puça çıxdı.

### Azərbaycan – Ermənistan sazişi və konfransı

1919-cu ilin payızında Azərbaycana qarşı ərazi iddialarının reallaşdırılması siyasətini daha da gücləndirən Ermənistan hökuməti bir sıra diplomatik gedişlər etdi. Belə ki, həmin il sentyabrın 28-də Ermənistanın Baş naziri A.Xatisyan AXC-nin İrəvandakı diplomatik nümayəndəsi ilə görüşündə ərazi-sərhəd mübahisələrinin həllində, ilk növbədə, Naxçıvan və Zəngəzur bölgələrinin məsələsinin müzakirəsini zəruri saydı; Ermənistan-Azərbaycan konfransının keçirilməsi təklifini irəli sürdü.



Bu məsələ ilə bağlı öz hökumətinin mövqeyini açıqlayan səfir həmin bölgələrin, habelə Qarabağın Azərbaycana tarixi mənsubiyyətini bir daha xatırladaraq onlara dair problemlərin həllinin Paris Sülh konfransının səlahiyyətinə aid olduğunu bildirdi.

Bu arada Ermənistanın Bakıdakı diplomatik nümayəndəsi T.Bekzadyan Ermənistan-Azərbaycan konfransı ilə əlaqədar 1919-cu il oktyabrın 12-də N.Yusifbəyli və sabahısı gün isə M.Cəfərovla görüşərkən ərazi mübahisələri ilə bağlı məsələlərə toxunmuşdu. Erməni tərəfinin konfrans çağırmaqda Zəngəzur və Naxçıvana yiyələnmək niyyətini duyan AXC rəhbərliyi artıq Qarsın, İrəvanın, Eçmiədzin qəzasının güzəştə gedildiyini xatırlatdı.

Digər əzəli Azərbaycan torpaqlarının, yəni Qarabağ, Naxçıvan və Zəngəzurun ona mənsubiyyəti barədə söhbətin belə ola bilməməsi vurğulandı. Sözgəlişi, həmin illərdə bəzi müşavirə və konfransların keçirilməsinin bilavasitə təşəbbüsçüsü olan ermənilərin özləri həmin məclislərin yeri və vaxtı kimi xırda məsələlərə dair əsassız mübahisələrlə onların keçirilməsini ləngitmişdilər. Ən başlıcası isə, bütün bu toplantıların nəticəsiz qurtarmasına və ya yekunların reallaşmamasına maraq göstərmiş, əksər hallarda isə buna nail olmuşdular.

1919-cu ilin noyabrını ermənilərin növbəti fitnələri ilə bağlı fəal və gərgin diplomatik qarşıdurma, habelə müxtəlif səpkili çoxlu yazışmalar, görüşlər, və sazişlər ayı kimi də səciyyələndirmək olar. Hələ Zəngəzur məsələsinin yenidən kəskinləşməsinədək tərəflər 1919-cu il noyabrın 2-də Bakıda konfrans çağrılmasını razılaşdırmışdılar. Onun ardınca isə noyabrın 12-də T.Bekzadyan konfransın həmin ayın 20-də Bakıda keçirilməsinə öz hökumətinin razılığını M.Cəfərova yetirmişdi.

Lakin çox maraqlıdır ki, Ermənistan elə həmin gün, noyabrın 12-də Azərbaycana verdiyi notada öz nümayəndələrini həmin konfransa göndərməyəcəyini bəyan etmişdi. O öz mövqeyini AXC-nin qoşunlarını erməni Zəngəzuruna

göndərib oranı zorla tutmaq istəməsi, bunun da gözlənilən ikitərəfli müzakirələrin məqsəd və vəzifələrinə zidd olması ilə əsaslandırmağa çalışmışdı.

Ermənilərin hərbi toqquşmaların çərçivəsini genişləndirmək səyləri, habelə regionda vəziyyətin yenidən ciddi surətdə ağırlaşması ehtimalı və s. görə Qərb dövlətlərinin Qafqazdakı nümayəndəliklərinin diplomatik fəallığı da xeyli qüvvətləndi. N.Yusifbəyli və A.Xatisyana ünvanlanan eyni məzmunlu – Zəngəzurdakı kəskin hərbi durumla bağlı narahatlıq ifadə olunan teleqramlarda (İngiltərənin Qafqazdakı nümayəndəsi Uordropun və ABŞ-ın Qafqazdakı təmsilçisi Reyin) bölgədə silahlı toqquşmaların davam etdirilməsinin Sülh konfransının işinə xələl gətirə biləcəyi göstərilir, ümumi səciyyəli tövsiyələr verilirdi. Reyin teleqramında respublikaların hökumət başçıları məsələlərin dinc yolla həlli məqsədi ilə noyabrın 20-də onun yanında konfrans keçirmək üçün Tiflisə dəvət olunurdu.

Müəyyən məsləhətləşmələrdən sonra N.Yusifbəyli Paris Sülh konfransındakı Azərbaycan nümayəndə heyətinin üzvü M.H.Hacınski və Gürcüstanın Bakıdakı səfiri Alşibayanın müşayiəti ilə noyabrın 20-də (19-u da göstərilir) Tiflisə gəldi. Noyabrın 20-22-də Azərbaycan və Ermənistan nümayəndə heyətləri (ikinciyə A.Xatisyan başçılıq edirdi) arasında ikitərəfli-birbaşa (Reyin təklifi ilə) danışıqlar aparıldı. Müzakirələr Zəngəzurda hərbi əməliyyatların dayandırılması məsələsinin hissələri və əsas müddəaların ifadə formulalarında ciddi fikir ayrılıqlarını aşkarladı. Belə olduqda tərəflər baş tutmayan konfransın çağrılmasına zəmin yaratmaq və s. məqsədlərlə noyabrın 22-də təkliflərini C.Reyə verib ondan münsiflik funksiyasını öhdəsinə götürməyi xahiş etdilər.

**Ermənistan hökumətinin təklifləri aşağıdakılardan ibarət idi:**

1. Azərbaycan öz qoşunlarını və artilleriyasını Zəngəzur sərhədlərindən əvvəlki yerlərinə qaytarır. 2. Ermənistan hərbi əməliyyat zamanı oraya göndərdiyi qoşunları və artilleriyanı geri aparır. 3. Azərbaycan və Ermənistan bütün yolların açılması üçün öz nüfuzlarından istifadə edirlər. 4. Haskelin Şərur və Naxçıvan haqqındakı layihəsi həyata keçirilir. 5. Tiflisdə erməni-azərbaycanlı konfransı çağırılır və onun gündəliyi əvvəlcədən, qaçqınlar haqqında məsələ də daxil olmaqla müəyyənləşdirilir.

**Azərbaycan hökumətinin təkliflərinə isə bunlar daxil idi:**

1. Azərbaycan və Ermənistan hökumətləri hazırkı anda əhalisi onların hakimiyyətlərini tanımayan əraziləri özlərinə tabe etdirmək üçün heç bir qüvvə tətbiq olunmamasını öhdələrinə götürülər. 2. Azərbaycan və Ermənistan hökumətləri aralarındakı bütün mübahisəli məsələləri sülh sazişləri yolu ilə həll etməyə razılıq verirlər. 3. Azərbaycan Respublikasının hökuməti Zəngəzur rayonuna – Qarabağ general qubernatorunun sərəncamına göndərilən hərbi qüvvələri geri qaytarır; öz növbəsində Ermənistan hökuməti hərbi hissələri, zabitləri, təlimatçıları və komissarları Zəngəzur qəzasının hüdudlarından geri çağırır, habelə yerli erməni əhalisindən artilleriyanın, pulemyotların və digər xüsusi hərbi səciyyəli silahların yığılmasına hərtərəfli yardım göstərir. Eyni zamanda bu rayonun hüdudlarındakı bütün səngərlərin və möhkəmləndirilmiş mövqelərin dağıdılması üçün tədbirlər görülür. 4. Azərbaycan və Ermənistan hökumətləri Zəngəzurdan gələn bütün yolların açılması üçün real tədbirlər görür və əhalinin onlarla maneəsiz hərəkətinə yardım edirlər. 5. Zəngəzur qəzasının qaçqınlarına öz yerlərinə qayıtmaq imkanı verilir. 6. Azərbaycan və Ermənistan arasındakı bütün mübahisəli məsələlər Bakıda keçiriləcək azərbaycanlı-erməni konfransının müzakirəsinə çıxarılır.

Müəyyən əlavə görüş və müzakirələrdən sonra 1919-cu il noyabrın 23-də amerikalıların vasitəçiliyi ilə Azərbaycanla Ermənistan arasında saziş bağlandı. Sazişə Azərbaycan və Ermənistan hökumətlərinin başçıları N.Yusifbəyli və A.Xatisyan, habelə təminatçı sifəti ilə ABŞ nümayəndəsi C.Rey və Gürcüstan Xarici İşlər naziri E.Gekeçkori imza etdilər. Beş maddədən ibarət olan bu sazişdə aşağıdakı şərtlər razı-

laşdırılmışdı:

**1.** Ermənistan və Azərbaycan hökumətləri hazırda baş-verən toqquşmaları dayandırmağı və yenidən silahın gücünə əl atmamağı öhdələrinə götürürlər.

**2.** Ermənistan və Azərbaycan hökumətləri Zəngəzura gələn yolların düzəldilməsi və açılması, onlarla dinc hərəkət üçün təsirli tədbirlərin görülməsini razılaşdırırlar.

**3.** Ermənistan və Azərbaycan hökumətləri sərhədlər haqqında məsələlər də daxil olmaqla bütün mübahisələri dinc sazişlər yolu ilə həll etməyi öhdələrinə götürürlər. Dinc saziş əldə etmək mümkün olmadıqda hər iki hökumət üçüncü tərəf – münsiflər məhkəməsi sifəti ilə bitərəf şəxs seçməyi və onun qərarlarını məcburi qəbul etməyi razılaşdırırlar; hazırkı dövrdə belə bir bitərəf şəxs kimi polkovnik Rey tanınır.

**4.** Erməni-azərbaycanlı konfransını 1919-cu il noyabrın 26-da Bakıda açmaq qərara alınır.

**5.** Bu saziş imzalandığı gündən həqiqi sayılır və respublikaların parlamentləri tərəfindən təsdiq olunduğu vaxtdan isə qüvvəyə minir.

Saziş müvəqqəti xarakter daşıyırdı. Çünki yalnız qarşıdakı Ermənistan-Azərbaycan konfransı iki dövlət arasındakı mübahisəli məsələlərin bütün kompleksini və hissələrini həmin sazişə uyğun surətdə həll etməli idi. Onun nəticələrinə gəldikdə isə, **əvvələn**, bu akt Azərbaycan tərəfi üçün heç də faydalı olmadı, əksinə, onun siyasi-hərbi mənafe və mövqelərinə xələl gətirdi.

O öz məzmunu etibarı ilə mövcud vəziyyətdə elə bir ciddi dəyişiklik yaratmadı və mübahisəli ərazi məsələlərini də həll etmədi. İki respublika arasındakı ixtilafların gələcək həlli üçün dəqiq və aydın prinsiplər müəyyənləşdirə bilmədi; əslində bu "Status quo" demək idi. Müqavilə yalnız yaranmış faktiki vəziyyəti qanuniləşdirir, hərbi əməliyyatların qarşılıqlı surətdə dayandırılmasını və törənə biləcək mürəkkəbliklərin danışıqlar yolu ilə həllinin zəruriliyini nəzərdə tuturdu.



**İkincisi**, və ən əsası isə, Azərbaycan hökuməti bu müvəqqəti sazişə inanaraq tezliklə öz hərbi hissələrini Zəngəzurdan çıxardı. Bu işdə Qarabağda olduğu kimi, Zəngəzurda da vəziyyətin onun xeyrinə olmayan tərzdə dəyişəcəyini görən Ermənistanın "hərbi əməliyyatları" dayandırmaq üçün Azərbaycana təsir göstərilməsi məqsədi ilə Gürcüstana, Uordopa və Reyə müraciətləri də öz mənfi rolunu oynadı.

Onların N.Yusifbəyliyə müvafiq müraciətlərini müzakirə edən AXC Dövlət Müdafiə Komitəsi münasibətləri kəskinləşdirməmək niyyəti ilə, lakin Zəngəzurun Azərbaycanın tərkib hissəsi olmasına dair mövqeyində möhkəm dayanmaqla, qoşunları bölgədən müvəqqəti uzaqlaşdırdı. Azərbaycan Xalq Cümhuriyyəti bu barədə Paris konfransındakı nümayəndəliyə xüsusi məlumat da çatdırdı. Bundan istifadə edən Ermənistan isə həmin sazişi pozaraq özünün əlavə nizami qoşun hissələrini dərhal Zəngəzura yeritdi. Erməni hərbi qüvvələri tərəfindən Zəngəzurun və Dərələyəz mahalının dinc müsəlman əhalisinə divan tutuldu.

**Üçüncüsü**, 1919-cu ilin dekabrında keçirilən Azərbaycan-Ermənistan konfransının uğursuzluğu, daşnak silahlı qüvvələrinin hərbi əməliyyatları genişləndirmələri, amerikalıların 1920-ci ilin əvvəlində regionu tərk etmələri də Azərbaycanın həmin sazişə bəslədiyi ümidlərin boşa çıxmasına təsir göstərdi. Beləliklə, bu saziş ermənilərin diplomatik oyunu olduğundan nəinki regionda sülhü və əmin-amanlığı təmin edə bilmədi. Əksinə, iki dövlət arasında siyasi ziddiyyətlər və hərbi münaqişə daha da gərginləşdi.

Tarix sübut edir ki, ermənilər öz strateji məqsədlərini reallaşdırmaq üçün (müəyyən xarici dövlətlərin maraqlarına uyğun gəlməklə) həmişə belə bir sınanmış taktikanı seçmişlər. Yəni konkret vəzifələri hərbi-siyasi mərhələlərin və tədbirlərin bir-birini vaxtında və çevik əvəzləməsi ilə həll etməyə çalışmışlar. Müəyən diplomatik-ideoloji aktlardan sonra hərbi əməliyyatlara başlanılması, tutulan ərazilərdə qüvvətlənmək üçün döyüşlərdə fasilə verilib qazanılan uğurların

başaldadıcı diplomatik tədbirlərlə (konfranslar, sazişlər və s.) möhkəmləndirilməsi və yenidən müharibənin davam etdirilməsi prosesi, bu qayda ilə məqsədə doğru irəli gedilməsi həmin taktikanın əsas məzmununu təşkil edir.

1919-cu ilin noyabrında da belə oldu. 23 noyabr sazişindən sonrakı ilk günlərdən başlayaraq ermənilər Zəngəzurda hərbi əməliyyatları yenidən genişləndirdilər. Vəziyyətin daha təhlükəli şəkil aldığını görə AXC hökuməti – Baş nazir N.Yusifbəyli Haskelə və Uordropa ünvanladığı, Xarici İşlər naziri isə Reyə, Uordropa, Fransa və İtaliyanın Qafqazdakı hərbi nümayəndəliklərinin başçıları Nonankura və Qabbaya, habelə Gegeçkoriyə və Tiflisdəki diplomatik nümayəndəmiz F.Vəkilova göndərdiyi teleqramlarda bunları bildirdilər:

Azərbaycan 23 noyabr sazişinə müvafiq olaraq öz hərbi hissələrini Zərgəzurdan çıxardığı halda, Ermənistan nəinki nizami qoşunlarını bölgədən aparmış, əksinə, əlavə qüvvələr gətirməklə döyüş əməliyyatlarını davam etdirmiş, dinc əhalinin bir qismini qırmış, digərini isə qovmuşdur.

Qərb dövlətlərinin Qafqazdakı nümayəndəliklərinin bu məsələlərlə bağlı tutduqları mövqelərə gəldikdə isə onlar əvvəllərdə olduğu kimi indi də, əsasən, diplomatik xəbərdarlıqlarla kifayətlənmişdilər. Ən başlıcası isə yenə də mümkün olmayan işin görülməsinə, yəni problemin hər iki tərəfi eyni zamanda qane edə biləcək qaydada və səviyyədə nizamlanmasına çalışmışdılar.

1919-cu il noyabrın 26-da Bakıda açılması nəzərdə tutulan Azərbaycan-Ermənistan konfransının təxirə salınmasının səbəbləri də maraq doğurur. Erməni tərəfi hərbi əməliyyatlar vasitəsi ilə yeni ərazilər ələ keçirib etnik cəhətdən təmizləmək vəzifəsinin bu mərhələdə həyata keçirilməsi planlaşdırılan hissəsini hələlik başa çatdırılmaması üzündən konfransın keçirilməsini yubadırdı. A.Xatisyan bunu Tiflisdəki danışıqlardan sonra İrəvana gec, yəni dekabrın 1-də qayıtması və konfransa hazırlaşmaq üçün vaxtın azlığı ilə



izah edirdi.Lakin hətta Haskel də onun təxirə salınmasını ermənilərin Zəngəzurdakı niyyətləri ilə əlaqələndirirdi.

1919-cu il dekabrın əvvəlində Bekzadyan, Arqutinski və Arutyunovun Baş nazir N.Yusifbəyli, habelə AXC parlamenti sədrinin müavini H.Ağayevlə keçirdikləri görüşlərdə Azərbaycan-Ermənistan danışıqları ilə bağlı məsələlər yenidən müzakirə edildi. Əvvəldə açıqlanan taktikaya müvafiq olaraq ermənilər Zəngəzurda müəyyən ərazilərdən azərbaycanlıları çıxardıqdan sonra yenə də vaxt qazanmaq və əldə olunan hərbi uğurları siyasi-diplomatik yolla möhkəmləndirmək məqsədi ilə konfransın keçirilməsinə razılaşdılar.

Azərbaycan-Ermənistan konfransı 1919-cu il dekabrın 14-ü ilə 21-i arasında Bakıda keçirildi. AXC-nin F.Xoyski (sədr), M.H.Hacınski, R.Vəkilov və erməni tərəfinin isə Arutunyants (sədr), Arqutinski, Dolqorukov, Bekzadyanla təmsil olunduqları bu konfransda gedən müzakirələrin başlıca cəhətləri ümumiləşdirilmiş şəkildə aşağıdakı kimi ifadə edilə bilər:

1. Azərbaycan tərəfi (F.Xoyski və M.H.Hacınski) 23 noyabr sazişinə uyğun olaraq ərazi-sərhəd mübahisələrinin həllini konfransın əsas vəzifəsi kimi dəyərləndirdi. Buna görə də onlar öncə ərazi problemlərinin müzakirəsinə başlamağı təklif etdilər. Erməni diplomatlarından Arutunyants və Bekzadyan isə ərazi məsələlərinin qəti həlli üçün lazımi şəraitin və vaxtın hələ yetişməməsini əsas tutdular. Onlar qaçqınlar və müvəqqəti demarkasiya sərhədlərinin müəyyənləşdirilməsi məsələlərinin araşdırılmasında israr etdilər. Belə olduqda F.Xoyski müvəqqəti sərhədlər-demarkasiya xəttinin heç nə verməyəcəyi qənaəti ilə 23 noyabr diplomatik aktını "Status quo" kimi götürərək ərazi-sərhəd məsələlərinin qəti həllini yubatmamağı lazım bildi.

2. Ərazi məsələsi ilə bağlı aparılacaq müzakirələrdə bəzi məqamların bəri başdan açıqlanması və dəqiqləşdirilməsi zərurətinə dair mövqelər üzə çıxdı:

- bu problemə dair bütün aspektlərin və hətta məruzə-

çilərin təyin edilməsi, sərhədlərin niyə məhz müvəqqəti olaraq müəyyənləşdirilməsinin səbəblərinin aşkarlanması (F.Xoyski);

- tərəflərin hazırlıqsızlığına görə məsələnin müzakirəsinin ümumiyyətlə təxirə salınması (Arutunyants);
- dərhal müzakirələrə başlanılması (Bekzadyan);
- erməni tərəfinin bu məsələ ilə bağlı mövqeyi tamamilə aydın olmadığından ona aid baxışların açıqlanması (Vəkilov).

**3.** Sonrakı fikir mübadilələri nəticəsində Azərbaycan diplomatiyası ərazi məsələlərinin bütövlükdə müzakirəyə çıxarılmaması və indiki şəraitdə yalnız demarkasiya xəttinin müəyyənləşdirilməsi səviyyəsində həlli qənaətinə gəldi. Bu qənaət bir sıra amillərin diqtəsindən doğmuşdu:

- erməni təmsilçilərinin uzlaşmayan mövqeləri;
- onların tam açıqlanmayan niyyətləri;
- problemin ifrat mürəkkəbliyi;
- hökumətlərin kəskin fərqli yanaşmaları;
- hazırkı şəraitdə sərhədlərin qəti ayrılmasının verə biləcəyi mənfi nəticələr.

**4.** AXC nümayəndə heyətinin Güney Qafqaz Konfederasiyası yaradılması məsələsinə dair konfransda müzakirələr aparılması təklifi də keçmədi. Erməni tərəfi (Arutunyants) bunu öz hökuməti ilə razılaşdırmalı olduğunu bildirdi. O habelə məsələnin respublikaların hökumət-parlamentlərində ilkin müzakirədən keçməsinin və Gürcüstanın münasibətinin öyrənilməsinin lazım gəldiyini söylədi.

**5.** Müzakirələrin sonuna yaxın 23 noyabr sazişi ilə bağlı da kəskin mübahisələr oldu. Arutunyants sazişin demarkasiya xətti və ya "modus vivende"ni müəyyənləşdirdiyini, bu aktın konfrans tərəfindən yenidən təsdiqlənə biləcəyini deyərək danışıqların Tiflisdə davam etdirilməsini istədi. Azərbaycan diplomatları erməni tərəfinin 23 noyabr sazişini mürəkkəbi qurumamış pozduğunu xatırladaraq (M.H.Hacınski) konfransın onu yenidən təsdiqləmək səlahiyyətində olmadığını bildirdilər (F.Xoyski). Konfransın ikinci plenar iclasında: **a)** respublikalar arasındakı hərbi əməliyyatların dayandırılması; **b)** bütün mübahisəli problemlərin danışıqlar yolu ilə həllinə dair mövqelərin də tam açıqlanması təklifləri (Arqutinski və Dolqorukov) səsləndi.

Ümumiyyətlə, konfrans iki dövlət arasındakı münasibətlərə heç bir aydınlıq gətirmədi və ərazi-sərhəd mübahisələrinin həllində əməli işlər görə bilmədi. O, Transqafqaz respublikalarının konfederasiyası məsələsinə dair Tiflisdə konfrans çağrılması haqqında qərar çıxarmaqla başa çatdı.

Azərbaycanın ərazi bütövlüyü uğrunda diplomatik mübarizə 1920-ci ilin əvvəlində də davam etdi. Çünki Ermənistan Azərbaycana qarşı hərbi təcavüzü genişləndirməyə çalışır və Zəngəzurdan çəkilmək istəmirdi. Bununla əlaqədar olaraq dövlətlərarası "notalar savaşı" yenidən (I-II.1920) qızışdı. Tiflisdə Xarici İşlər nazirləri səviyyəsində danışıqlar (I.1920) aparıldı. Azərbaycanla Ermənistan arasındakı ərazi-sərhəd mübahisələri Cənubi Qafqaz dövlətləri təmsilçilərinin Tiflis konfransında (IV.1920) müzakirə olundu. Hətta Ermənistan AXC-yə "barışıq" təklifi də (26.IV.1920) etdi.

* * *

Bütövlükdə isə Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan diplomatik-hərbi-ideoloji mübarizə Aprel çevrilişi ərəfəsi uğurla yekunlaşdı. Ermənistanın iddiasında olduğu və hərbi təcavüzə məruz qoyduğu üç mühüm strateji bölgə ilə bağlı uğurlar qazanıldı.

**a) Qarabağla bağlı:**

- 1920-ci ilin əvvəllərində Paris Sülh konfransı AXC-nin Qarabağ üzərində hakimiyyətini tanıdı;
- Azərbaycan ordusunun tarixi Əsgəran qələbəsi ilə Sovet Rusiyası və ermənilərin dövlətçiliyimizə qarşı növbəti qəsdi – Qarabağ qiyamı (III.1920) yatırıldı.

**b) Zəngəzurla əlaqədar:**

- erməni silahlı qüvvələri sıxışdırıldı;
- bölgədəki hadisə və proseslərə Azərbaycan hökumətinin nəzarəti bərpa edildi.

**c) Naxçıvan üzrə:**

- erməni ordusunun növbəti hücumu (III.1920) qətiyyətlə dəf edildi və o, İrəvan hüdudlarınadək geri oturduldu;
- ermənilərin bölgəyə təsiri heçə endirildi;
- Türkiyənin, əsasən də kamalçıların bölgəyə himayəsi 1920-ci ilin əvvəlindən etibarən yenidən qüvvətləndi.

Bütün bunların sayəsində də AXC-nin ərazi bütövlüyü təmin olundu. 1920-ci ilin apreli üçün Quzey Azərbaycanın ərazisi 97.297,67 kv. km mübahisəsiz və 16.598,30 kv.km mübahisəli torpaqları əhatə etməklə 113.895,97 kv.km olmuşdur.



# DÖRDÜNCÜ BÖLÜM

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN QAFQAZ DÖVLƏTLƏRİ VƏ İRANLA MÜNASİBƏTLƏRİ

XX əsrin əvvəllərində dünyada gedən qlobal proseslər Qafqaza da ciddi təsir göstərdi. Bu dövrdə regionun siyasi həyatında və beynəlxalq durumunda çox mühüm dəyişikliklər baş verdi. Onların ən əsaslarından biri də burada cümhuriyyətlərin (Dağlılar, Gürcüstan, Azərbaycan, Ermənistan, Araz-Türk, Qars) yaranması oldu. Bununla da yeni tarixi mərhələyə və siyasi şəraitə qədəm qoyan Qafqaz bu qaçılmaz prosesləri yaşamalı idi:

**1.** Millətlərarası problemlərin həlli. Bu, ən başlıcası, ərazi-sərhəd mübahisələrinin tənzimlənməsini (ələlxüsus da ermənilərin qonşulara qarşı irəli sürdükləri əsassız torpaq iddialarının dəf olunmasını) tələb edirdi.

**2.** Beynəlxalq münasibətlər sisteminə qatılma. Bunun üçün də ilk öncə yenicə yaranan cümhuriyyətlərin Qərb dövlətləri tərəfindən rəsmi (de-yure) tanınmaları, böyük (İngiltərə, Rusiya, Almaniya, ABŞ, Fransa, İtaliya) və qonşu (İran, Türkiyə) dövlətlərlə münasibətlər qurmaları lazım gəlirdi.

**3.** Dövlətçiliyin müdafiəsi. Bu isə bir çox amillərlə yanaşı əvvəlki iki aparıcı prosesdən daha çox asılı idi.

Bütün bunlar Qafqazın tərkib hissəsi olan Azərbaycanın xarici siyasətində regionun digər cümhuriyyətlərinə mühüm önəm verilməsini zəruri edirdi. Bir sıra səbəb-amillər isə Qafqazdaxili münasibətlərdə və Qafqaz-Avropa (Qərb) əlaqələrində Azərbaycan-Gürcüstan əməkdaşlığını önə çıxarırdı.

## Azərbaycan-Gürcüstan münasibətləri və "Qafqaz Birliyi" naminə əməkdaşlıq

Dövlətçilik ənənələrini bir daha bərpa edən Azərbaycanın və Gürcüstanın o dövrki beynəlxalq durumu və siyasəti müəyyən fərqli-oxşar cəhətlərlə səciyyələnir. Fərqli məqamlar, əsasən, özünü: **a)** xarici oriyentasiya; **b)** ərazi-sərhəd məsələlərinə yanaşmada göstərirdi.

Oxşar tərəflərdən isə ən önəmlisi dövlətlərin strateji məqsədlərinin üst-üstə düşməsi idi. Kəsişən təbii strateji məqsədlər (dövlətçiliyin möhkəmləndirilməsi və dünya birliyində layiqli yer tutulması) bu kimi ortaq maraqları da şərtləndirirdi:

- müstəqilliyin itirilməsinə yönələn təhlükələrdən birgə müdafiə zərurəti. "Şimalda rus qorxusu və cənubda ola biləcək fitnə-fəsadlar gürcülər ilə azərbaycanlıları kip dostluğa məcbur edir" (Y.V.Çəmənzəminli);
- Qafqazda dayanıqlı, təminatlı və davamlı sabitlik;
- strateji ehtiyacların qarşılıqlı ödənilməsi (Gürcüstanın Bakı neftinə; Azərbaycanın isə Qara dəniz vasitəsi ilə Avropaya (dünyaya) çıxışı).

Strateji məqsədlərdəki eyniyyət və mənafelərdəki müəyyən *ortaqlıq dövlətlərarası hərtərəfli münasibətlər yaradılması* üçün tutarlı bir zəmin oldu, bu işi tezləşdirdi. Bu çoxtərəfli münasibətlərdə üç başlıca istiqamət diqqəti daha çox cəlb edir: **a)** ərazi-sərhəd məsələlərinin tənzimlənməsi; **b)** hərbi-müdafiə və iqtisadi-ticarət sahələrində əməkdaşlıq; **c)** "Qafqaz Birliyi (Evi)" uğrunda birgə diplomatik mübarizə.

Dövlətlərarası əlaqələrin qurulması və inkişafı, təbii ki, ilk öncə diplomatik münasibətlərin yaradılmasını tələb edirdi. Buna görə də AXC hökuməti yubatmadan (VII.1918) Gürcüstanda diplomatik nümayəndəliyini açdı. Görkəmli dövlət adamı M.Cəfərov səfir təyin olundu (Sonralar onu F.Vəkilov əvəzlədi).



Azərbaycanla Gürcüstan arasındakı ərazi-sərhəd mübahisələri Ermənistanla olduğu qədər dərinə getmədi, uzunsürən münaqişə – irimiqyaslı hərbi qarşıdurma səviyyəsinə yüksəlmədi. Lakin dövlətlərarası sərhədlərin müvəqqəti müəyyənləşdirilməsi və Ümumqafqaz əmlakının bölüşdürülməsi məsələləri ilk vaxtlar müəyyən ixtilaflar, anlaşılmazlıqlar yaratdı. Bunların baş verməsində Gürcüstan Respublikasının (GR-in) AXC-yə qarşı irəli sürdüyü ərazi iddiaları da az rol oynamadı.

AXC XİN-in əməkdaşı A.Şepotyevin, əvvəldə qeyd olunan, sanballı məruzəsində Gürcüstanın iddiasında olduğu əzəli Azərbaycan mahallarının (Zaqatala, Qarayazı, Sığnaxın cənub-şərq hissəsi, Borçalının türk zonası) qısa tarixi-iqtisadi icmalı verilmiş və onların əhalisinin etnoqrafik tərkibi araşdırılmışdır. Burada habelə sərhədlərin müəyyənləşdirilməsinin əsasları məsələlərinə toxunulmuşdur.

AXC-GR ərazi/sərhəd münasibətlərindən tez, asan və ilk həllini tapanı Zaqatala məsələsi, ən çətini isə Borçalı problemi oldu. Zaqatala məsələsi dinc yolla – bölgənin müsəlman əhalisinin (91,94%) ardıcıl səyləri, mahalın Milli Şurasının qərarı əsasında həll edildi. Bölgə 1918-ci il iyunun 26-da AXC-yə birləşdi. GR mahala "olan haqqını" unutmasa da "başvermiş faktla" razılaşmaq məcburiyyətində qaldı.

Borçalı məsələsi isə bir müddət iki dövlət arasındakı diplomatik müzakirələrin (əsasən də yazışmaların) və "təbliğat müharibəsi"nin başlıca mövzusuna (obyektinə) çevrildi. Gürcüstanın "sərhədlərin dürüst müəyyənləşməsi zərurəti" adı altında mübahisəli ərazilərə qoşun hissələri yeritməsi (VI.1918) gərginlik yaratdı. Bunun alman hərbi dəstələrinin dəstəyi ilə gerçəkləşdirilməsi vəziyyəti daha da qəlizləşdirdi. Mahalların müsəlman əhalisi xüsusi müraciətlə AXC-dən Borçalıda da öz hakimiyyətini təsbitləməyi tələb etdi. Əksər çoxluğu təşkil edən müsəlman camaatı vəziyyətdən çıxış yolunu bunlarda görürdü: **1.** Mərkəzi Tiflis şəhəri və himayəçisi Türkiyə olan yarımmüstəqil "Qarapapax" xanlığı kimi

tanınmaq. **2.** Tiflis şəhəri ilə birlikdə Azərbaycana birləşmək.

AXC xarici siyasət idarəsi Borçalı məsələsinin həllində, xüsusi ilə də bölgələrdə yaranan gərginliyin ləğvində diplomatik səylərə üstünlük verdi. AXC XİN-i M.H.Hacınski özünün gürcü həmkarına (nazir əvəzi N.Ramişviliyə) ünvanladığı məktublarda (14 və 22. VI.1918) dövrə və şəriətə uyğun mülahizə-təkliflərlə çıxış etdi:

- mübahisəli ərazilərə yeridilən gürcü qoşunları-alman dəstələri ilə yerli dinc müsəlman əhalisi arasında silahlı qarşıdurmanın genişlənməsinin yolverilməzliyi;
- mehriban qonşuluq münasibətlərinin saxlanması naminə qoşun hissələrinin Borçalıdan çıxarılmasının vacibliyi;
- mahalların müsəlman əhalisinin AXC-yə qatılmaq istəyində olmaları;
- sərhəd məsələsi üzrə qarışıq (AXC-GR) komissiyası yaradılmasına önəm verilməsi.

Azərbaycanın, keçmiş Tiflis quberniyasına qatılan, ərazilərinə iddiasında israrlı mövqe tutan GR hərbi cəhdlərini artırdı. Mahalların müsəlman əhalisinin və Azərbaycan ordusunun Qarayazıdakı dəstəsinin əks tədbirləri dövlətlərarası notalarla nəticələndi. GR hökumətinin notasında (20. VI.1918) AXC ordusu hissəsinin Qarayazını tərk etməsi tələb olunurdu. AXC XİN-in cavab notasında (23. VI.1918) isə bütün mübahisələrin, o cümlədən də Azərbaycan hərbi hissəsinin ordan çıxarılmasının qarışıq beynəlxalq komissiyanın təşkili ilə həllinə dair mövqe təkrarlanırdı.

Özlərinin müvafiq xarici siyasət oriyentasiyalarına uyğun olaraq tərəflər Almaniya-Osmanlının diplomatik vasitəçiliyini də mümkün saydılar. Almaniyanın Qafqazdakı təmsilçisi fon Kress tərəflərə qarşılıqlı güzəştli şərtlər təklif etdi: **a)** GR beynəlxalq münsiflər komissiyasının yaradılması ilə razılaşır; **b)** AXC hərbi hissələri Qarayazıdan çıxarılır;



**c)** oraya məhdud alman silahlı qüvvəsi yerləşdirilir. AXC diplomatiyası sonuncu təklifin mahalın müsəlman əhalisi arasında rahatsızlıq yaradacağını vurğuladı. Və, buna görə də, bölgədəki gürcü-azərbaycanlı qoşun hissələrinin alman-türk hərbi dəstələri ilə əvəzlənməsi daha münasib bilindi; bu fikri Nuru Paşa da dəstəklədi.

Diplomatik müzakirələr, **1-cisi**, AXC ordusu hərbi hissəsinin bölgədə qalması və, **2-cisi** də, qarışıq (beynəlxalq) arbitraj komissiyasının yaradılması barədə qərarların qəbulu ilə yekunlaşdı. O, AXC (M.Vəkilov), GR və tərəfsiz dövlətlərdən birinin təmsilçilərindən ibarət təşkil olunmalı idi. Lakin torpaq mübahisələrinin gözlənilən beynəlxalq İstanbul konfransında müzakirəsinə dair gəlinən birgə qənaət komissiyanın fəaliyyətə başlamasına yer qoymadı.

İstanbul konfransı ərəfəsi AXC-GR münasibətləri bir "ideoloji qarşıdurma" mərhələsini də yaşadı Əsasən, ərazi-sərhəd mübahisələri ətrafında cərəyan edən bu "təbliğati savaş"da tərəflər mövqelərini belə əsaslandırırdılar: Gürcülər iddialarını haqlı sayaraq "tarixi hüquqları"na istinad edirdilər. Həmin "tarixi hüquqlar" isə iddia edilən "torpaqların əsrlər boyu Gürcüstanın tərkibində olması" və onun paytaxtının (Tiflisin) lap yaxınlığında yerləşməsi kimi "dəlillərə" söykənirdi. Zaqatala, Qazax və Göyçə gölü rayonunun da "tarixən gürcü torpaqları olması" ilə razılaşmaq tələb edilirdi.

Azərbaycan tərəfinin mövqeyinin əsasında isə bu dəlillər dayanırdı: **a)** üstündə mübahisə gedən ərazilərin əhalisinin mütləq çoxluğunun türk-müsəlmanlardan ibarət olması; **b)** onların AXC-yə birləşməyə dair israrlı istəyi – təyin/müqəddərat hüququ. AXC-nin İstanbula gələn sülh nümayəndəliyi diplomatik səylərin nəticə verməyəcəyi halda, əks tərəfin ərazi mübahisələrini "qan tökməklə" həlli cəhdlərinin eyni müstəvidə cavablandırılacağını da bildirirdi.

Lakin iri dövlət birliklərinin Qafqazda nüfuz dairələri uğrunda apardıqları mübarizədə Antantanın (ingilislərin)

üstünlüyü ələ alması və s. regiondaxili münasibətlərə yanaşmada çeviklik və yenilik tələb edirdi. Çünki Azərbaycanı Osmanlının, Gürcüstanı isə Almaniyanın müttəfiqi kimi qiymətləndirən Antantanın onlara münasibəti ilk vaxtlar xüsusi ilə dözülməz idi.

Gürcüstanın Qərbin "xristian təəssübkeşliyi"ndən yararlanmaq istəyi də elə bir nəticə vermədi. Özünü Antantanın "təbii və daimi tərəfdaşı" kimi qələmə verən Ermənistan isə mövcud şəraitin imkanlarından faydalanmaq fürsətini qaçırmadı. Məhz bu dövrdə ermənilər Borçalıya və digər ərazilərə iddia ilə çıxış etdilər. Onlar qiyam qaldırdılar və Gürcüstanla irimiqyaslı hərbi toqquşmaya hazırlaşdılar.

Yaranmış yeni beynəlxalq şərait və Qafqazda günügündən gərginləşən durum mütləq aşağıdakıların gerçəkləşdirilməsini şərtləndirirdi:

**1.** Region xalqları arasındakı problemlərin həlli, xüsusi ilə də ərazi-sərhəd mübahisələrinə (münaqişələrinə) tezliklə son qoyulması.

**2.** "Qafqaz Birliyi (Evi)" naminə mübarizənin (əməkdaşlığın) önə çəkilməsi.

**3.** Gözlənilən beynəlxalq Paris Sülh konfransında Qafqaz cümhuriyyətlərinin diplomatik tərəfdaşlığının hazırlanması.

Bunların reallaşdırılması üçün isə region dövlətləri diplomatlarının təcili bir araya gəlmələri – Qafqaz konfransının çağrılması qaçılmaz idi. Mötəbər Ümumqafqaz toplantısının keçirilməsi təşəbbüsü ilə regionun digər dövlətlərinə (AXC, ER, DR) müraciət edən (27.X.1918) GR-in gündəliyə dair təkliflər paketində bunlar vardı:

- konfransa dəvət edilən dövlətlərin qarşılıqlı tanınmaları;
- bütün mübahisəli problemlərin (ərazi-sərhəd məsələləri də əhatə olunmaqla) maraqlı dövlətlər arasında sazişlərlə, bu alınmadıqda isə arbitraj vasitsi ilə həll edilmələri;



- konfransa qatılan dövlətlərin əleyhinə yönələn sazişlərə qoşulmamağa dair qarşılıqlı öhdəliklər götürülməsi;
- Qafqaz cümhuriyyətlərinin istiqlalının tanınması və maraqlarının müdafiəsi məqsədi ilə beynəlxalq Sülh konfransında eyni mövqedən çıxış edilməsi və qarşılıqlı diplomatik yardım göstərilməsi.

Konfransa dəvət olunan dövlətlərin bu təşəbbüs və təkliflərə münasibəti birmənalı olmadı. Belə ki, Ermənistan dəvəti qəbul etsə də: **1)** konfransdan əvvəl Gürcüstanla ikitərəfli ilkin danışıqların aparılmasını və **2)** Azərbaycanın konfransla bağlı mövqeyinin aydınlaşdırılmasını lazım bildi. Öz işinə Ermənistansız başlayan (14.XI.1918) konfransda Gürcüstan onun təxirəsalınmasını, Azərbaycan (M.Cəfərov) və Dağlılar isə davam etdirilməsini istədilər.

Ermənistan diplomatiyasının konfransdan öncə GR ilə ikitərəfli müzakirələr keçirilməsinə (əslində ondan imtinasına) dair israrlı mövqeyi məqsədli və qərəzli səciyyə daşıyırdı. Burada iki məqam diqqəti çəkir: **Birincisi**, Ermənistan həm AXC-yə, həm də GR-ə qarşı ərazi iddiaları irəli sürmüşdü. Konfransda təklənməsindən ehtiyatlanaraq Gürcüstanla ikitərəfli danışıqlarda daha çox qazanacağına ümid bəsləyirdi. **İkincisi**, və ən önəmlisi isə, Ermənistan artıq Qafqaza gəlməkdə olan Antantanın onu ("müttəfiqini") şəksiz müdafiə edəcəyinə inamlı idi. O, Müttəfiqlərdən "xidmətlərinin" əvəzini səbirsizliklə gözləyirdi.

Birinci Qafqaz konfransı bir neçə dəfə təxirə salındı və Ermənistan-Gürcüstan müharibəsi ilə (XII.1918-I.1919) əlaqədar olaraq yarımçıq qaldı, bir sözlə, alınmadı. Erməni-gürcü müharibəsinə ikitərəfli danışıqların başlanması ilə (Tiflis, 9.I.1919) son qoyuldu. İngilislərin vasitəçiliyi-münsifliyi ilə və Azərbaycanın iştirakı olmadan aparılan bu danışıqlarda Borçalı məsələsinə aid qərar çıxarıldı.

Həmin qərarla Azərbaycanın tarixi torpağı – Borçalı paylaşdırıldı. Belə ki, onun şimalı gürcülərə, cənubu ermən-

lərə çatdı. Loru nahiyəsi isə bitərəf zona elan olundu; ona nəzarəti ingilislərin başçılığı ilə qarışıq komissiya həyata keçirməli idi. Təbii ki, AXC hökuməti bu qərardan irəli gələn nəticələrlə razılaşa və onları tanıya bilməzdi. Və belə də oldu. Gürcü tərəfi də Azərbaycanın bu mövqeyinin ədalətini etiraf etdi.

Paris Sülh konfransının öz işinə başlaması, region dövlətlərini bu və ya digər tərəflərdən təhdid edən təhlükələr "Qafqaz Birliyi" ideyasını və onun gerçəkləşdirilməsinə yönəlik əməkdaşlığın zəruriliyini daima gündəmdə saxlayırdı. Belə bir şəraitdə Gürcüstan XİN-i Qafqaz dövlətlərinin yeni konfransının keçirilməsi təşəbbüsü ilə AXC hökumətinə müraciət etdi (21.II.1919). Müraciət-təşəbbüs dəstəkləndi. GR-in diplomatları konfransda maliyyə, ticarət və tranzit məsələlərinin müzakirəsini təklif etdilər.

Azərbaycan XİN-i bununla razılaşdı. O həm də əlavə daha altı məsələnin konfransın gündəliyinə salınmasını vacib saydı. Həmin məsələlərdən dördü Gürcüstan hökumətinin Birinci Qafqaz konransında müzakirə üçün təklif etdiklərini bu və ya digər formada təkrarlayırdı. Qalan iki məsələ isə Qars Respublikasının konfransa dəvət olunmasının və qaçqınlar probleminin müzakirəsini nəzərdə tuturdu.

Azərbaycan tərəfi konfransın Bakıda keçirilməsini məsləhət gördü. Lakin ermənilərin buna etiraz edəcəyi halda Tiflisə üstünlük verdiyini bildirdi. Ermənistan və Gürcüstan hökumətləri Qars Cümhuriyyətinin danışıqlar prosesinə cəlb olunması ilə qətiyyən razılaşmadılar. AXC XİN-i konfransın baştutması naminə bu məsələ ətrafında mübahisə açmadı. Azərbaycan nümayəndə heyətinə F.Xoyskinin başçılıq etməsi qərara alındı.

İkinci Qafqaz konfransının (Tiflis, IV-VI.1919) açılışı (25.IV.1919) Denikin Rusiyasından gözlənilən təhlükənin genişlənməsi dövrünə təsadüf edirdi. Buna görə də region dövlətlərinin müstəqilliklərinin qorunması və xarici hərbi müdaxilədən birgə müdafiə məsələləri konfransdakı müzakirələrdə mühüm yer tuturdu. Konfransda fəaliyyət göstərən altı komissiyadan biri məhz bu məsələlərin öyrənilməsi ilə məşğul idi.

Qafqazdaxili problemlərin *ana xəttini təşkil edən ərazi-sərhəd mübahisələrinin* həlli bu konfransda da müzakirə obyekti oldu. Tərəflərin mövqelərindəki fərqli məqamlar qalmaqda idi. AXC nümayəndəliyi problemin həllinə yanaşmada bir sıra *prinsiplərin* mütləq nəzərə alınmasını vacib *sayırdı:*

- torpaq iddiaları yalnız dövlətlərarası sərhədyanı ərazilərə qarşı irəli sürülə bilər;
- mübahisəli ərazi məsələlərinin həllində onların əhalisinin iradəsi (təyin-müqəddərat hüququ) əsas tutulmalıdır;
- iddia edilən ərazinin tarixi və təsərrüfat-məişət əlaqələri ilə bağlandığı mübahisəsiz rayon da tələb olunduqda, onda referendum bütöv şəkildə götürülən rayonların əhalisi arasında keçirilməlidir.

*Ərazi-sərhəd mübahisələrinin* bu dəfəki müzakirəsində *nisbi də olsa irəliləyiş* baş verdi. Xeyli müddətdən bəri Qafqazı münaqişələr meydanına çevirən bu problemə dair danışıqlarda ilk dəfə ümumi istiqamətlər və prinsiplər məsələsində *anlaşma əldə olundu. Qərara alındı ki,* **a)** *yalnız* cümhuriyyətlər arasında, əhalisi qarışıq milli tərkibə malik, mübahisəli ərazilərin məsələsi müzakirə oluna bilər; **b)** mövcud müvafiq mübahisələr respublikalararası sazişlər vasitəsi ilə, bu mümkün olmadıqda isə, arbitraj yolu ilə həll edilə bilər.

Konfransda iqtisadi-maliyyə məsələləri də müzakirə olundu. Qafqazı təhdid edən Denikin təhlükəsi onun gündəliyində də öz əksini tapdı. AXC təmsilçiliyinin təklif etdiyi "Qafqazın müstəqilliyinə təcavüzün qarşısının alınması tədbirləri haqqında" sənəd müzakirə edildi. Lakin Denikinin Dağıstana hücumu ilə əlaqədar olaraq konfrans yarımçıq qaldı.

Denikin təcavüzünün əsas hədəfləri olan və Qafqazda-

xili proseslərdə (münasibətlərdə) aparıcı rol oynayan AXC və GR birgə müdafiə üçün vacib əməli işləri önə çəkmək zorunda qaldılar. Ümumi təhlükənin birlikdə dəf olunması məqsədi ilə iki dövlət arasında hərbi-müdafiə müqaviləsi (16.VI.1919) bağlandı. Parlamentlər tərəfindən dərhal (27.VI.1919) təsdiqlənən bu müqavilə dövlətlərarası münasibətlərin inkişafında yeni mühüm mərhələ sayıla bilər.

Müqavilənin bilavasitə şərhinə gəldikdə isə bunları xüsusi ilə vurğulamaq lazımdır:

**a)** əvvəlinci iki maddə daha böyük önəm daşımaqla, bir növ, müqavilənin özəyini təşkil edirdi. 1-ci maddə müqavilə tərəflərinin ərazi tamlığı və istiqlalının təklikdə və ya ümumilikdə təhlükə (Denikin təcavüzü) ilə üzləşəcəyi təqdirdə ona qarşı silahlı qüvvələrlə birlikdə çıxılmasını nəzərdə tuturdu.

Hərbi əməliyyatların başlandığı (Denikin nəzərdə tutulur) şəraitdə ərazi problemlərinin hərbi yolla həlli məqsədi ilə müqavilə iştirakçılarından birinə (yaxud ikisinə də) hücum edən qonşu dövlət vuruşan tərəf kimi tanınmalı idi (2-ci maddə).

**b)** müqavilə bir sıra cəhətləri ilə də diqqəti çəkir. O:

- ciddi müdafiə xarakteri daşıyırdı (3-cü maddə). Belə ki, tərəflərdən biri digəri ilə razılaşdırmadan (öz təşəbbüsü ilə) müharibəyə başlayardısa müttəfiqi hərbi əməliyyatlarda iştirak etməyə borclu sayılmırdı;
- müddətli, yəni üç illik idi (5-ci maddə). Habelə 9-cu maddəyə əsasən bu müddətdə dövlətlərarası sərhədlərin toxunulmazlığına təminat verən Xalqlar Liqasının yaranacağı və AXC ilə GR-in də ona qatılacağı halda müqavilə qüvvədən salına bilərdi;
- separat danışıqları (sülhü) istisna edirdi (7-ci maddə). Bunu tamamlayan şərt kimi (8-ci maddə) tərəflərdən birinin digərini məlumatlandırmadan başqa dövlətlə hərbi müqavilə bağlamasına yol verilmirdi.



**c)** tərəflər arasındakı sərhəd münaqişələrinin həlli məsələləri də müqavilədə (4-cü maddə) öz əksini tapmışdı. Bu zaman onların sazişlər – arbitraj yolu ilə tənzimlənməsinə üstünlük verilməsi və çıxarılan müvafiq qərarların sonuncu – məcburi sayılması tələb olunurdu.

**ç)** müqavilənin 10-cu maddəsi maraq doğurur. Həmin maddəyə görə müqavilənin elanından sonrakı iki həftə ərzində Ermənistan da ona qoşula bilərdi. Hələ saziş bağlanmazdan əvvəl Ermənistana belə bir təklif edilmişdi. Lakin o, müxtəlif bəhanələrlə AXC-GR müqaviləsinə qatılmadı. Əksinə, Denikinlə gizli saziş bağlayaraq onunla müttəfiq oldu.

**d)** müqavilə Qafqazda maraqlı olan dövlətlərin diqqətindən yayınmadı. Denikin Rusiyasının mövqeyinin şərhinə ehtiyac yoxdur. Müttəfiqlər (ingilislər) isə sazişə əvvəlcə mənfi yanaşsalar da az sonra onu "Transqafqazın birliyi üçün başlıca təminat" kimi dəyərləndirdilər. Bu işdə isə, təbii ki, **1)** müttəfiqlərin Qafqazdakı maraqları; **2)** AXC ilə GR-in israrlı birgə mövqeyi; **3)** Denikinin Cənuba yürüşünü *ingilislərlə razılaşdırmaması* və s. mühüm rol oynadı.

Bu dövrdən etibarən dövlətlərarası hərbi-iqtisadi əməkdaşlıq genişləndi. Tezliklə əlavə hərbi-texniki saziş imzalandı. Birgə Hərbi şura yaradıldı. Gürcü hərbçisinin başçılıq etdiyi bu şurada Azərbaycanı generallar Ə.Şıxlinski və S.Sulkeviç təmsil edirdilər. Şura müdafiə planını hazırlamalı və digər tədbirləri görməli idi.

AXC-nin hərbi kadrlara olan ehtiyacının Gürcüstanın yardımı ilə ödənilməsinə üstünlük verildi. Çünki, bir tərəfdən, bu darmacalda milli hərbçilər hazırlanması mümkün deyildi, digər tərəfdən də, AXC ordusundakı rus zabitlərinin çoxu Denikinə rəğbət bəsləyirdilər. Bir az sonra (5.II.1920) AXC ilə GR arasında ticarət-tranzit müqaviləsi də bağlandı. Bu müqavilə: **1)** ölkələrarası sərbəst tranzit rejiminin müəyyənləşdirilməsini; **2)** Gürcüstana istənilən qədər və münasib qiymət-qaydalar əsasında neft və neft məhsullarının satılmasını nəzərdə tuturdu.

Hərbi-iqtisadi əməkdaşlığın genişləndiyi şəraitdə siyasi-diplomatik əlaqələr daha sistemli və ardıcıl səciyyə daşımağa başladı. AXC və GR diplomatiyaları Paris Sülh konfransında əsasən birgə mövqe nümayiş etdirdilər. Onların təşəbbüsü və təşkilatçılığı ilə Güney Qafqaz dövlətlərinin konfransı çağrıldı (Tiflis, 9.IV.1920). İndi də Lenin Rusiyası tərəfindən gözlənilən hərbi təcavüz təhlükəsi AXC-GR mövqelərinin daha da yaxınlaşdırılmasını və "Qafqaz Birliyi" uğrunda mübarizənin gücləndirilməsini şərtləndirdi. Bu niyyətlə də danışıqların gedişində Qafqaz cümhuriyyətləri Şurasının yaradılması razılaşdırıldı. Lakin yenə də erməni tərəfinin əsassız iddia və tələbləri üzündən bu danışıqlarda da ciddi əməli nəticələr əldə olunmadı.

Bütövlükdə, AXC-GR münasibətləri müəyyən ərazi-sərhəd mübahisələri (əsasən, Borçalı məsələsi ətrafında) və diplomatik-hərbi-iqtisadi əməkdaşlıqla səciyyələnirdi. Dövlətlərarası münasibətlərdə "Qafqaz Birliyi" naminə mübarizə başlıca xətlərdən birini təşkil edirdi. AXC-nin süqutu ərəfəsində onun GR-lə münasibətləri xeyli yaxşılaşmışdı və əlverişli inkişaf perspektivlərinə malik idi.

**Dağlılar və Qars respublikaları ilə əlaqələr**

AXC-nin xarici siyasətində Dağlılar Respublikası (DR) ilə münasibətlər də mühüm yer tuturdu. Bu dövrdəki Azərbaycan-Şimali Qafqaz əlaqələrini müəyyən məntiqi mülahizə və prinsiplərə əsasən aşağıdakı mərhələlərə də ayırmaq mümkündür:

**1.** Cümhuriyyətlərin yaranması uğrunda mübarizə (II.1917-V.1918).

**2.** AXC-DR əməkdaşlığı (V.1918-V.1919).

**3.** "Könüllü Ordu"nun idarəçiliyindəki Quzey Qafqazla siyasi həmrəylik (V.1919-II.1920).

**4.** Sovet Rusiyası tərəfindən işğala qarşı müqavimət (II-IV.1920).



Birinci mərhələ, əsasən, Azərbaycanla Şimali Qafqazın ictimai-milli hərəkatları arasında əlaqələr yaradılması ilə səciyyələnir. Azərbaycanın milli-demokratik qüvvələrinin vahid dağlılar hərəkatı ilə Ümumqafqaz problemlərinə dair apardığı müzakirələr onun başlıca məzmununu təşkil edir. Bu dövrün əlaqələrində bir sıra hadisə və proseslər diqqəti xüsusi ilə çəkir:

- Qafqaz müsəlmanlarının qurultayındakı (Bakı, IV.1917) birgə müzakirələr. Onlar yeni tarixi şəraitə və siyasi inkişaf meyllərinə yanaşmaya fərqli baxışları ortaya çıxardı. Lakin vahid muxtariyyət ideyası da ciddi müzakirələrin obyektinə çevrilməkdə idi;
- Şimali Qafqaz dağlılarının I qurultayı (Vladiqafqaz, V.1917). Tanınmış xeyriyyəçi H.Z.Tağıyevin və b. maddi yardımı ilə keçirilən qurultayda Azərbaycan təmsilçisi H.Ağayev də çıxış etdi. Qurultay qarşılıqlı əlaqələrin inkişafına müsbət təsir göstərdi;
- azərbaycanlılarla dağlıların erməni-sovet hərbi hissələrinin müsəlmanlara qarşı törətdikləri zorakılıqları birlikdə dəf etmələri;
- Transqafqaz Seymində Azərbaycan fraksiyası ilə Şimali Qafqaz nümayəndəliyinin birgə müzakirələrində həmrəy mövqe ortaya qoyuldu. Həm də ikitərəfli münasibətlərin tənzimlənməsi üzrə xüsusi komissiya yaradıldı;
- Seymin Azərbaycan fraksiyasının səyləri ilə dağlı təmsilçiləri də Trabzon konfransına qatıla bildilər;
- DR-in yaradılmasının (11.V.1918) Azərbaycan tərəfindən bəyənilməsi və müdafiə olunması;
- Azərbaycanın aparıcı siyasi partiyalarının ("Müsavat" və b.) Şimali Qafqazda şöbələrinin yaranması və fəaliyyəti.

DR və AXC-nin yaradılmaları ilə Azərbaycan-Quzey Qafqaz münasibətləri yeni mərhələyə, yəni dövlətlərarası əlaqə-

lər səviyyəsinə yüksəldi. AXC hökuməti Qafqazın ilk respublikası sayılan Dağlılar Cümhuriyyəti ilə əməkdaşlığa böyük önəm verirdi. Buna bir sıra amillərin təsiri danılmazdır: **a)** dağlı xalqları ilə dini-etnik və s. bağlılıq; **b)** DR-in Transqafqazdakı inteqrasiya proseslərinə və "Qafqaz Evi" naminə mübarizəyə cəlb edilməsi zərurəti; **c)** "Könüllü Ordu" (Denikin) təcavüzü qorxusu-Azərbaycanın təhlükəsizliyi üçün DR-in əhəmiyyəti.

AXC Dağlılar Respublikası ilə ikitərəfli əlaqələrin qurulması, Qafqazdaxili problemlərin həlli sahəsində əməkdaşlıq və s. ardıcıl xətt yeridirdi. Azərbaycan çox tezliklə DR ilə diplomatik münasibətlər yaratdı (Onu Osmanlı və Gürcüstan da tanıdılar; birinci ilə müqavilə də imzalandı (8.VI.1918).

AXC XİN-in sənədlərindən də göründüyü kimi, Azərbaycan hökuməti DR ilə siyasi, iqtisadi və hərbi iqttifaqın bağlanması istiqamətində müəyyən işlər görülməsinə nail ola bildi. Dağlı xalqlarının ictimai-siyasi xadimləri hələ DR-in elanından əvvəl (Trabzon konfransında və s.) Qafqazda ümumi dövlət yaradılmasında israrlı idilər. Bu alınmadığından onlar Azərbaycanla siyasi ittifaq və hətta vahid dövlətdə birləşmək xəttini yeridirdilər. AXC diplomatiyası siyasi ittifaq üçün elə bir problem olmadığını vurğuladı. Yeganə şərt kimi hər iki tərəfin dəqiq sərhədlərinin göstərilməsi və müvafiq müştərək komissiyanın təşkili təklif olundu.

DR-in rəsmi müraciətindən (10.VII.1918) sonra AXC hökuməti iki dövlətin birləşməsi haqqında müqavilənin layihəsini və birləşmə prinsiplərini hazırladı. Layihə və prinsiplər də cümhuriyyətlərin sərhədləri məsələlərinin razılaşdırılmasını önə çəkirdi. Bu məqam mütləq vurğulanmalıdır ki, AXC ilə DR arasında ərazi-sərhəd mübahisələri (münaqişələri) olmamışdır. Lakin ayrı-ayrı vaxtlarda DR-dən Azərbaycana qarşı istifadə etmək istəyən qüvvələr (Rusiya və b.) onlar arasında nifaq salmağa çalışırdılar. Bu işdə sərhədlər məsələsindən istifadəyə cəhdlər göstərilirdi.

DR tərəfinin bəzi anlaşılmaz hərəkətləri və təklifləri də çətinliklər törədirdi. Bakıdakı səfir Ə.Kantemirin Xarici İşlər naziri H.Bammatova məktubundakı məlumat, "mülahizə və məsləhətlər"i məsələlərə aydınlıq gətirilməsinə şərait yaradır:

**a)** DR hərbi dəstəsinin Quba qəzasına girərək Yalamanı tutması və sonradan (XII.1918) AXC qoşun hissələri tərəfindən oradan çıxarılması; **b)** sərhəd məsələlərinin həllinədək bu ərazilərdə qarışıq hərbi dəstənin saxlanması; **c)** Azərbaycanın öz dövlət sərhədlərini keçmiş Bakı quberniyasının ərazisi boyunca müəyyənləşdirməsinin əsassızlığı; **ç)** 200 min ləzginin yaşadığı Quba qəzasının Azərbaycana birləşdirilməsinin mümkünsüzlüyü; **d)** sərhəd məsələlərinin xüsusi orqan tərəfindən həll edilməsi; **e)** AXC hökuməti üzvlərinin Azərbaycanın ərazi bütövlüyünün təhlükə altına qoyulmaması naminə kompromisin əleyhinə olmaları.

AXC ilə DR arasındakı sərhədlərə dair mülahizələr və təkliflər Azərbaycan diplomatlarının hazırladıqları bir çox sənədlərdə ifadə olunmuşdu. Onlardan bəzilərinin nəzərdən keçirilməsi AXC diplomatiyasının mövqeyini açıqlamağa imkan verir:

**1.** Diplomatik ədəbiyyatda "Ə.Topçubaşının Memorandumu" da (XI.1918) adlandırılan sənəddə öz əksini tapan AXC-nin inzibati bölgüsünün layihəsinə Zaqatala dairəsi də daxil edilmişdi. AXC-GR münasibətlərinin təhlili zamanı qeyd edildiyi kimi, bununla Azərbaycan özünün əzəli torpağına hüquqlarını (istər tarixi, istərsə də etnoqrafik) təsbitləmişdi;

**2.** AXC XİN-in əməkdaşı A.Şepotyevin, əvvəldə nəzərdən keçirilən, məruzəsinin V bölməsi Dağıstana aid idi. Burada diqqətə yetirilən məsələlər olduqca maraqlı və əhəmiyyətlidir:

- Dağıstan və Azərbaycan iqtisadi bölünməz tamı təşkil edirlər;
- təbii sərhədlər nöqteyi-nəzərindən Samur çayıboyu sərhədin kifayət etmədiyi mübahisəsizdir;

• Azərbaycanın bütün digər ərazisinin təhlükəsizliyinin yetərli təminatı yalnız Dərbəndə malik olmaqla mümkündür;

• Azərbaycan Respublikasının sərhədi Dağıstanla bağlı milli prinsip üzrə müəyyənləşdirilməli və Dərbənd şəhərindən şimala doğru Xəzər sahiliboyu başlanmalıdır.

3. Paris Sülh konfransındakı AXC nümayəndəliyinin tələblərində (Memorandumunda) – IX bölmədə – Qafqaz Azərbaycanının keçmiş inzibati bölgüsü diqqətə çatdırılırdı. Burada (5 və 6-cı bəndlər) "Zaqatala qəzası; Dağıstan regionunda Kürə və Samur nahiyələrini əhatə edən ərazinin bir hissəsi, habelə Dərbənd şəhəri və onun ətrafı da daxil olmaqla Qaytaq-Tabasaran qəzasının bir hissəsi"də qeyd olunurdu. Sənəddə habelə bunlar da vurğulanırdı:

• respublikalar arasında iddialar doğuran, sahəcə çox kiçik ərazilərin də mövcudluğu;

• Azərbaycanla Dağıstanın sıx iqtisadi-siyasi bağlılığı;

• Dağıstanın azərbaycanlılar yaşayan hissəsinin həmişə Azərbaycana qatılmağa meyl göstərməsi və Sulak çayı boyunca AXC-yə birləşmək tələbi.

AXC ilə DR arasındakı kiçik ərazilərlə bağlı iddialar münaqişələr yaratmadı. Əksinə, ortaq məqsədlər və maraqlar, habelə dövrün – şəraitin sərt reallıqları siyasi ittifaqa, hərbi və iqtisadi əməkdaşlığa yönəlik səylərin gücləndirilməsini tələb edirdi. Müəyyən müzakirələrdən sonra AXC-DR arasında ilkin saziş imzalandı (25.IX.1918). Sazişin əsas məzmunu və məqsədini tərəflərin müstəqilliklərinin xarici təhlükədən birgə müdafiəsi və iqtisadi siyasətin əlaqələndirilməsi təşkil edirdi (Əslində bu, dövlətlərarası konfederasiya demək idi). Onun başlıca cəhətləri belə səciyyələndirilə bilər.

**1.** Bu problemlər iki dövlət arasında ümumi işlər hesab edilirdi: **a)** xarici işlər; **b)** tərəflərin müstəqillikləri və ərazi



bütövlüklərinin xarici təhlükədən qorunması; **c)** maliyyə məsələləri.

Xarici işlər aşağıdakıları əhatə edirdi:

• beynəlxalq sazişlərin bağlanması;

• digər dövlətlərlə ya birgə, ya da müttəfiqlə razılaşdırılma yolu ilə münasibətlər qurulması.

Xarici təhlükədən birgə müdafiə bunları nəzərdə tuturdu:

• daxili asayişin qorunması üçün tərəflərin bir-birlərinə hərbi yardım göstərmələri;

• müharibə şəraitində tərəflərin hərbi qüvvələrinin hökumətlərin razılaşdırılması əsasında vahid komandanlığa keçməsi.

**2.** Aşağıdakı məsələlər ümumi prinsiplər və razılaşdırılmış qaydalar əsasında həll olunur:

**a)** respublikaların gömrük ərazisi, gömrük qanunvericiliyi və gömrük rüsumlarının bölüşdürülməsi;

**b)** pul kəsilməsi və pul vahidi;

**c)** vahid ölçü sisteminin tətbiqi;

**ç)** dəmir yolu və rabitənin tənzimlənməsi.

**3.** Müqavilədə razılaşdırılan məsələlərin reallaşdırılması məqsədi ilə konkret xüsusi sazişlərin bağlanması nəzərdə tutulurdu.

Belə sazişlərdən biri 1918-ci il noyabrın 28-də imzalandı. Ona əsasən AXC hökuməti DR-ə 10 milyon manatlıq (3 milyonu dərhal verilməklə) fasiləsiz kredit ayırdı. İki illik bu kredit taxılla ödənilməli idi (Azərbaycan əlavə də taxıl ala bilərdi). DR tezliklə (XI.1918) Güney Qafqaz pul vahidi haqqındakı AXC-GR müqaviləsinə də qatıldı. AXC diplomatiyası bunu DR-in Qafqazdaxili proseslərə daha fəal qoşulmasının təminatına dair siyasi razılaşma kimi dəyərləndirirdi.

AXC ilə DR arasında iqtisadi - maliyyə əlaqələri birincinin ikinciyə iki il müddətinə 10 milyon man. faizsiz borc (6 milyonunu dərhal) verilməsinə dair daha bir müqavilə (23.II.1919) ilə də genişləndirildi (Sözgəlişi, Azərbaycanın Şimali Qafqaza

maliyyə yardımı ingilislərin ciddi etirazları şəraitində göstərilirdi).

Lakin təxminən elə bu vaxtlarda (IV.1919) Qafqazı, ilk öncə də Dağıstanı təhdid edən Denikin təcavüzü təhlükəsi birgə silahlı müdafiəni, ələlxüsus da AXC-nin DR-ə hərtərəfli yardımını qüvvətləndirməyi şərtləndirirdi. Denikinin "Könüllü Ordu"sunun yaratdığı təhlükə Qafqaz dövlətlərinin (başlıcası da AXC ilə DR-in) qarşılıqlı münasibətlərinə yeni məzmun gətirdi. Dağıstanı Sovetlərə qarşı plasdarm sayan Denikin onun zəbtini "Vahid və bölünməz Rusiya"nın bərpası yolunda birinci mərhələ (addım) kimi qiymətləndirirdi.

Azərbaycan Şimali Qafqaz xalqlarının Denikinə qarşı istiqlal savaşına (Dağlı üsyanına) hərtərəfli yardım etdi. AXC, əvvəldə nəzərdən keçirilən və habelə digər səbəblərə görə, DR-in müdafiəsində maraqlı idi. Azərbaycanın – Denikin işğalını dəf etməyə çalışan – Şimali Qafqazla əlaqələri, ona yardımı müxtəlif istiqamətlərdə və səviyyələrdə olmuşdur.

**Birincisi**, dövlət səviyyəsində DR-ə siyasi-diplomatik dəstək verilmiş, müxtəlif formalarda hərbi-iqtisadi kömək göstərilmişdi. Onlardan bəzilərinin burada qısa şərhi məsələlərə aydınlıq gətirilməsi baxımından vacibdir:

**a) siyasi-diplomatik həmrəylik tədbirləri:**

- Denikin təhlükəsi və Quzey Qafqaz məsələləri AXC parlamentində dəfələrlə (II-IV.1919) müzakirə edildi. Bu müzakirələr Azərbaycandakı Denikinpərəst qüvvələri və onların bəzi hərəkətlərini (ermənilərin gizli silahlanması) aşkarladı. DR-ə yardım işinin təşkili üçün xüsusi parlament komissiyası yaradıldı;
- "Dağıstana vurulan zərbəni özünə dəymiş kimi" qiymətləndirən AXC hökuməti (F.Xoyski) Denikin Rusiyasının işğalçılıq hərəkətləri ilə bağlı general Tomsona nota verdi. Notada Şimali Qafqazın təcavüzə məruz qalmasına kəskin etiraz və ona mümkün vasitələrlə kömək ediləcəyi bildirilirdi;
- AXC diplomatiyasının təkidi ilə "Könüllü Ordu"nun DR-ə təcavüzü məsələsi II Qafqaz konfransının gündəliyinə salındı. Müzakirələrin gedişində (29-30.V, 9.VI.1919) Azərbaycan tərəfi Dağıstanın işğalına, onun hökumətinin ləğvinə rəsmi etiraz etdi. Habelə Dağlı xalqlarının istiqlalının müdafiəsinə dair israrlı mövqeyini təkrarladı. AXC nümayəndələrinin mövqeyi Denikinlə gizli ittifaq yaradan ermənilərin pozucu fəaliyyəti üzündən dəstəklənmədi;
- Azərbaycan hökuməti Parisdəki Sülh nümayəndəliyi vasitəsi ilə də müvafiq diplomatik səylər göstərdi (bu məsələ V bölümdə nəzərdən keçirilir);

**b) hərbi-iqtisadi yardım sahəsində görülən işlər:**

- AXC-nin DR-ə hərbi yardım göstərməsinə dair qərar çıxarıldı (06.IV.1919) Azərbaycan ordusunun hərbi əməliyyatlarda bilavasitə iştirakı məqsədəmüvafiq sayılmadı. Ancaq qeyri-rəsmi könüllülər dəstəsinin və xüsusi sanitar briqadalarının DR-ə göndərilməsi razılaşdırıldı. Xüsusi parlament komissiyası bu məqsədlə "Qardaşlara və vətəndaşlara" müraciəti ilə (30. IV.1919) çıxış etdi;
- Azərbaycandakı molokanlar arasından "Könüllü Ordu"ya əsgər toplanılması dərhal dayandırıldı və bu işə başçılıq edən general Prcevalski ölkədən çıxarıldı;
- hərtərəfli maliyyə, imkan daxilində isə hərbi sursat yardımı göstərildi. AXC ilə GR arasındakı ikitərəfli razılaşma əsasında Dağıstan hərbi ekspedisiyası təşkil edildi. Azərbaycan hökuməti onun ehtiyaclarına və cəbhənin digər xərclərinə üst-üstə 20 milyon man. sərf etmişdi. Habelə həmin məqsədlər üçün hər ay 10 milyon man. ayrılmasını nəzərdə tutmuşdu. Məhz AXC rəhbərliyinin təşəbbüsü ilə Nuru Paşa və digər türk zabitləri Dağıstana göndərildilər. Dövlət struk-

turları Quba əhalisindən partizan dəstələrinin təşkilində bilavasitə iştirak edirdilər. Bakıdakı inquş cəmiyyətinin dağlılardan ibarət könüllülər dəstəsinin yaradılmasına yardım xahişinə cavab olaraq hökumət 500 min man. ayırmış və GR vasitəsi ilə onu silahlandırmışdı. Dağlı mücahidlərin Azərbaycan hospitallarında müalicəsinə şərait yaradılmış, qaçqın dağlıların AXC ordusunda hərbi xidmət göstərmələrinə icazə verilmiş, Dağıstan qaçqınlarına 1 milyon man. ayrılmışdı.

**İkincisi**, Azərbaycan ictimaiyyəti də Şimali Qafqaz xalqlarının Denikin işğalına qarşı mübarizəsinə biganə qalmamış, hərtərəfli həmrəylik nümayiş etdirmişdi. Bir sıra partiyalar ("Müsavat", "İttihad" və b.) DR-in müdafiəsi ilə bağlı sabit və prinsipial mövqe tutdular. "Dağlıların müharibəsi də, qələbəsi də bizimdir" fikri onlarla həmrəyliyin ana xəttini təşkil edirdi. Şimali Qafqaz xalqlarına yardım məqsədi ilə Bakıda çoxlu xeyriyyə günləri təşkil olundu (V.1919), ianələr toplanıldı. Dərbənd və s. işğalı etiraz mitinq və yürüşlərinə səbəb oldu; onlardan biri (13.VI.1919) bilavasitə M.Ə.Rəsulzadənin rəhbərliyi ilə keçirildi. İki gün sonra Bakıda Şimali Qafqaz və Dağıstan ictimai xadimlərinin qurultayı açıldı.

DR-in Denikin qoşunları tərəfindən işğalı ərəfəsi və dövrü Azərbaycan-Şimali Qafqaz münasibətlərindən bəhs edilərkən bu məqamlar əsla diqqətdən kənarda qalmamalıdır:

1. DR-in süqutunda AXC-nin suçlandırılması və Azərbaycanın Dağlı xalqlarını müdafiə etməyib Denikin təcavüzü qarşısında tək qoymasına dair baxışlar yanlışdır. Bu mövqe yuxarıda sadalananların və burada qeyd olunmayan çoxlu işlərin fonunda əsla inandırıcı səslənmir. Əksinə, bu da məlumdur ki, AXC Dağlılar Respublikasına hərtərəfli yardımına görə ingilislərin etirazları, ermənilərin əngəlləri və Denikinin hədələri ilə üzləşmişdi (Hətta DR-dəki səfir Ə.Haqverdiyevin Dağıstanı tərk etməsi tələb olunmuşdu).



Digər tərəfdən Dağlı liderlərinin də dəfələrlə vurğuladığı kimi, istiqlal savaşı dönəmində azərbaycanlılar Quzey Qafqaz xalqlarının "yeganə sadiq müttəfiqi" olmuşdular.

2. Bu dövrdə AXC-DR əlaqələrini əngəlləyən və Şimali Qafqazın müstəqilliyinin itirilməsinə şərait yaradan bir sıra hadisələr, anlaşılmazlıqlar da baş verdi. Onları tezisvari belə qruplaşdırmaq olar:

- Dağlılar hökumətinin səhvləri və onun bəzi üzvlərinin AXC ilə münasibətlərə xələl gətirən hərəkətləri;
- bəzi Dağlı xadimlərinin "Dağıstanın gələcəyini Azərbaycanla birlikdə görən" baxışlarının qəbul olunmaması. Bu zaman "dəlil"lər olaraq birləşmiş qurumun özünü qoruya bilməməsi və avropalıların biganəliyi göstərilməklə ruslarla yaxınlaşmaq istənilirdi;
- DR hökumətinin bəzi üzvlərinin AXC-yə və GR-ə əsassız iddialarının yaratdıqları əlavə problemlər və çətinliklər (Quba qəzasında sərhəd məsələsi ilə əlaqədar narazılıqlar bu baxımdan səciyyəvidir);
- Qafqaz siyasətində Sovet Rusiyasına (bolşevizmə) qarşı mübarizəyə üstünlük verən ingilislərin Denikinin "Cənub yürüşü"nə dözmələri.

"Könüllü Ordu"nun Dərbəndi tutması (25.V.1919) və DR-in Denikinin nəzarətinə keçməsi Ümumqafqazdakı siyasi-hərbi şəraitə ciddi təsir göstərdi. Lakin bu da Azərbaycan-Şimali Qafqaz münasibətlərini əngəlləyə bilmədi. Bu dövrki xalqlararası əlaqələrdə yeni (III) mərhələ başlandı. "Könüllü Ordu"nun asılılığındakı Quzey Qafqazla siyasi həmrəylik və onun xalqlarına yardım müxtəlif yollarla davam etdirildi.

DR-in süqutundan az sonra AXC hökuməti Denikinlə mübarizəni davam etdirən dağlılara maddi və mənəvi yardım göstərilməsi haqqında qərar qəbul etdi. Azərbaycanın rəhbərliyi və ictimai xadimləri bu dövrdə Dağlı xalqlarının müxtəlif silahlı dəstələri arasında qızışdırılan qarşıdurmanın önlənməsi sahəsində də müəyyən işlər görə bildilər. Denikin

idarəçiliyindən qurtulmağa çalışan dağlı üsyançıların dəstəklənməsində Nuru Paşanın onlara Ali Baş komandan təyin olunması da mühüm addım sayıla bilər.

Şimali Qafqaz xalqlarının hüquqlarının müdafiəsinə yönəlik diplomatik səylər də təsirsiz qalmadı. Tezliklə (IX.1919) AXC hökuməti Tiflisdə yerləşən Dağlılar İttifaqı Məclisinin sədri Ə.Salikovun göndərdiyi nümayəndəliklə Bakıda danışıqlar apardı. Müzakirələrin nəticəsi kimi, AXC-nin Tiflisdəki səfirliyindən Şimali Qafqaz Respublikasının maraq və mövqelərini beynəlxalq aləmdə təmsil etmək xahiş olundu.

AXC xarici siyasət idarəsi Müttəfiqlərin (ingilislərin) Qafqazdakı yüksək rütbəli təmsilçiləri ilə çoxlu müzakirələr və yazışmalar (IX.1919) apardı. Azərbaycan hökuməti başlıca şərt olaraq Denikin ordusunun Dağıstandan getməsini istədi. Habelə Dağıstan məsələsinin həllinin üç mümkün yolunu təklif etdi:

**a)** Dağıstanın idarəçiliyi AXC-yə keçir və Azərbaycan "Könüllü Ordu"nun arxadan (bolşeviklərdən) təhlükəsizliyinə təminat verir;

**b)** Dağıstan əhalisinə müstəqil hakimiyyət qurmaq şəraiti yaradılır;

**c)** Dağıstanda ingilis və yaxud amerikan kapral-qubernatorunun başçılığı ilə xüsusi idarəçilik həyata keçirilir.

İstər bu təkliflərlə, istərsə də digər problemlərlə əlaqədar AXC ilə ingilislərin Qafqazdakı komandanlığı arasında danışıqlar xeyli çəkdi. Azərbaycanın Kuban hökumətindəki diplomatik nümayəndəsi C.Rüstəmbəylinin apardığı müzakirələrdə diplomatiyamızın Denikin ordularının Dağıstanı tərk etmələrinə dair ardıcıl mövqeyi mühüm yer tutdu.

"Könüllü Ordu"nun boşaldacağı ərazilərdə bolşevizmin möhkəmlənməsini əsas təhlükə sayan və "Denikində Azərbaycanın Dağıstan üsyanında iştirakını isbatlayan" sənədlər olduğunu söyləyən ingilisləri yola gətirmək baş tutmadı. Hətta Böyük Britaniya hökumətinin Dağlı üsyanına münasibətdə Denikini dəstəkləməsinə AXC-nin Kubandakı



diplomatik nümayəndəliyinin ləğvi ilə (20.I.1920) etiraz olundu. Lakin tezliklə (II.1920) Denikin Dağlılar Respublikasının bərpası ilə razılaşdı və onu tanımaq məcburiyyətində qaldı.

Bundan sonra isə Şimali Qafqaz Sovet Rusiyasının təcavüzü təhlükəsi ilə qarşılaşdı. Özü də eyni təhlükə ilə üzləşən Azərbaycan bu dönəmdə də Dağlı xalqları ilə birlikdə oldu. AXC-DR münasibətlərinin axırıncı (IV) və çox qısa müddətli mərhələsi əsasən rus-bolşevik (sovet) işğalından birgə müdafiə olunmaqla səciyyələnir.

DR-in bərpasından sonra Azərbaycanın üçlü (AXC–GR–DR) konfederasiya yaradılmasına dair göstərdiyi səyləri, Nuru Paşanın Dağıstandakı fəaliyyətinin dəstəklənməsinə yönəlik cəhdləri və s. tədbirləri zamanın sərt gerçəklikləri qarşısında gücsüz idi. Az sonra (III.1920) Sovet Rusiyasının XI ordusu DR-i tutub Azərbaycanı təhdid etməyə başladı.

Azərbaycan Xalq Cümhuriyyəti xarici siyasətinin əsas məqsədlərinə uyğun olaraq Cənub-Qərbi Qafqaz (Qars) Respublikası ilə münasibətlərə də böyük önəm verildi. Bilavasitə respublikalararası əlaqələrin təhlilinə keçməzdən əvvəl regiondakı o dövrki siyasi durumun qısa səciyyələndirilməsi lazım gəlir.

Birinci dünya müharibəsinin sonuna doğru Cənub-Qərbi Qafqazda da ciddi proseslər getdi. Osmanlı qoşunlarının regionu tərk etmələri ilə onun türk-müsəlman əhalisi təhlükə ilə üzləşdi. Ermənilər və gürcülər tərəfindən irəli sürülən ərazi iddiaları, birincilərin törətdikləri zorakılıqlar bölgədə siyasi-dövlət qurumlarının meydana gəlməsini şərtləndirdi. Onlardan biri də Qars Respublikası (QR) oldu.

Qars Respublikası Cənub-Qərbi Qafqazın müxtəlif hissələrində məhəlli siyasi qurumların yaranması prosesinin yekun aktı da hesab olunur. Belə ki, öncə (29.X.1918) başçısı Ö.F.Nemanzadə olan "Axısqa hökuməti-Müvəqqətisi" quruldu (Azərbaycanın Naxçıvan mahalı və onun çevrəsində yaradılan Araz-Türk Respublikasından III bölümdə bəhs

olunur). Təxminən bir həftə sonra (5.XI.1918) Cənub-Qərbi Qafqazın türk-müsəlman əhalisi Qars və ətrafını ehtiva edən Qars İslam Şurası adı ilə "Milli hökumət" təşkil etdi.

Regionun bir çox bölgələrindən olan təmsilçilərin toplantısında (Qars, 30.XI.1918) "Milli Şura hökuməti"nin yaranması haqqında qərar çıxarıldı. Mərkəzi Qars olan bu hökumətə İ.Cahangiroğlu başçılıq edirdi (Yeri gəlmişkən, Araz-Türk Respublikasının ona qatılmasına dair mülahizələr səhih deyildir. Çünki qərar çıxarılsa da müəyyən səbəblərə görə bu mümkün olmamışdı).

İngilislərin Cənub-Qərbi Qafqaza gəlişi və regionda yürütdükləri ikili siyasət Batumdan Ordubada qədər uzanan ərazilərdəki duruma da təsir göstərdi. İngilislərin ermənilərə meyllənmələri və onlara üstün şərait yaratmağa çalışmaları bölgələrin türk-müsəlman əhalisindən (siyasi qurumlardan) təşkilatlanmanı daha da təkmilləşdirməyi tələb edirdi.

Bu məqsədlə də bölgələrin təmsilçilərinin növbəti qurul-tayında (Qars, 17.I.1919) "Cənub-Qərbi Qafqaz hökuməti" quruldu və 18 maddədən ibarət konstitusiya aktı qəbul edildi. Qars Respublikası təxminən 40 min kv. km əraziyə və 1,7 mil-yon nəfər (1,5 milyonu türk-müsəlman) əhaliyə malik idi. Konstitusiya aktına əsasən dövlət dili olaraq turk dili təsdiqlənmişdi. Üçrəngli (ağ, yaşıl və qara), ay-ulduzlu bayrağı vardı.

Qars Cümhuriyyəti (QC) konstitusiya aktının tələblərinə və müvafiq bəndlərinə uyğun olaraq qonşu hökumətlərlə daim dostluq münasibətlərinin yaradılmasına səylər göstərirdi. Bu xətt AXC-nin xarici siyasəti ilə uzlaşdığından onlar arasında əlaqələr qurulması olduqca zəruri idi. AXC hökuməti QR-in bir türk-müsəlman dövləti olmasını, Qafqazda xalqlararası münasibətlərin durumu və xarakterini nəzərə alaraq onunla əlaqələrə xüsusi diqqət yetirirdi.

AXC ilə QR arasındakı münasibətləri səciyyələndirərkən aşağıdakı mühüm məsələlərə nəzər salınması da vacibdir:



**Birincisi**, AXC-nin Qars Respublikasına hərtərəfli siyasi-diplomatik dəstək verməsi nəzərdən keçirilməlidir. Çünki ikinci tərəf buna kəskin ehtiyac duyurdu. Belə ki, Ermənistan və Gürcüstan öz məqsədlərinə uyğun olaraq QR-ə qərəzli münasibət bəsləyir, onu sıxışdırırdılar. Buna görə də AXC-nin QC-ni diplomatik himayəyə götürməsi əbəs deyildi. Osmanlı ilə yanaşı AXC də onun hüquqlarını dövlətlərarası toplantılarda və beynəlxalq (Qərb) nümayəndəliklərlə təmaslarda müdafiə edirdi. İngilislər əvvəlcə QR-i tanısalar da ikibaşlı (erməniпərəst) siyasətləri ilə ona ciddi problemlər yaradırdılar. AXC Qars hökumətinə münasibətdə özünü göstərən erməni-gürcü düşmənçiliyini və hiss olunan ingilis təzyiqini zərərsizləşdirmək məqsədi ilə bəzi tədbirlərə əl atdı, təkliflər irəli sürdü:

**a)** bir sıra önəmli məsələlərə dair ortaq mövqenin işlənib hazırlanması üçün Qars hökumətinin nümayəndəlikləri ilə Bakıda məsləhətləşmələr apardı (I.1919);

**b)** XİN Cənub-Qərbi Qafqaz hüdudlarında mövcud *status-kvonun* saxlanması zərurəti barədə Müttəfiq qoşunlarının *Bakıdakı* komandanlığına nota verdi (8.I.1919). Bu məzmundakı başqa bir notada ifadə olunan fikir və təkliflər də maraq doğurur:

- QR-ə qarşı düşmənçiliyin AXC-yə qarşı da qeyri-dost münasibət kimi qəbul olunması;
- ingilislərin təyin-müqəddərat hüququna hörmək edərək bu yeni dövləti, yəni QR-i erməni və gürcülərin işğalından qorumaları;
- QR-in daimi mövcudluğunun ən müvafiq təminatı kimi onun ərazilərinin Azərbaycana ilhaq edilməsi.

**c)** Qars Cümhuriyyətinin AXC hökumətinə ünvanladığı nota və müraciətlər (26-27.I.1919), onların vasitəsi ilə edilən çeşidli xahişlər nəzərə alındı.

**İkincisi**, AXC diplomatiyasının QR-in beynəlxalq və məhəlli münasibətlərə qatılması, Qafqazdaxili problemlərin həlli prosesinə qoşulması sahəsindəki fəaliyyəti qeyd olun-

malıdır. Burada ilk növbədə QR-in də Paris Sülh konfransında təmsil olunmasına yönəlik səylər göz önünə gəlir. Bu məsələdə QR parlamentinin bəyannaməsi (27 və ya 25.III.1919) və orada irəli sürülən-konfransa buraxılmaq tələbi də əhəmiyyət kəsb edir.

AXC hökuməti QR-in II Qafqaz konfransına dəvət olunması üçün də xeyli cəhd göstərdi. Erməni və gürcü tərəflərinin kəskin etirazları buna imkan vermədi. Azərbaycan rəhbərliyi məlum qoşunların Qars Cümhuriyyətinə hücumlarının və onun süqutunun önlənməsi istiqamətində də bəzi diplomatik addımlar atdı.

Bu dövrdə Müttəfiqlərin Cənub-Qərbi Qafqaza dair siyasətində kəskin dəyişiklik baş verməkdə idi. Belə ki, ingilislər artıq QR-ə xitam verib Qars vilayətini ermənilərə bağışlamaq xəttini tutmuşdular. Çoxçəkmədən (III.1919) belə bir qərar qəbul olundu. Qafqazdakı ingilis generalları (Miln və Tomson) arasındakı müzakirələrin sonunda (IV.1919) Naxçıvan və Qars mahallırının ermənilərə, Borçalının isə yenə də onlara, ya da gürcülərə verilməsi razılaşdırıldı. İngilislər ləngitmədən (12.IV.1919) silah gücünə Qars Respublikasını devirib onun başçılarını Maltaya sürgün etdilər.

**Üçüncüsü**, Qars Cümhuriyyətinin suqutuna məhəlli-qonşular səviyyəsində reaksiya və Cənub-Qərbi Qafqazdakı sonrakı durum da səciyyələndirilməlidir. QR-in ləğvinə qonşuların münasibəti fərqli oldu. Ermənilər və gürcülər istədiklərinə çatdıqlarından razı qaldılar. AXC, təbii olaraq, bu ədalətsiz aktı hiddətlə qarşıladı. Bununla bağlı ingilis komandanlığına onu qınayan qəti etiraz da bildirildi.

Cənub-Qərbi Qafqaz əraziləri məsələsinə gəldikdə isə, əslində, ingilislər onları siyasi hərrac obyektinə çevirib paylaşdırdılar. Qarsı ermənilər tutdular. Gürcülər Axısqadan Ərdahanın şimalınadək olan ərazilərin işğalına icazə və təminat aldılar. Naxçıvan bölgəsində, əvvəldə barəsində danışılan, uğursuz "erməni idarəçiliyi" peyda oldu. Sonra isə bu mahalda amerikalı polkovnik Haskelin, yenə də uğursuz, "bitərəf zona" siyasi oyunları getdi. Batum məsələsi uzunsürən mübahisələrin (müzakirələrin) obyekti olaraq qaldı. Bununla da AXC-nin strateji məqsədlərindən biri – Batum vasitəsi ilə Qara dənizə çıxış yolu əldə edilməsi əngəlləndi.



## AXC-nin xarici siyasətində İranın yeri və dövlətlərarası problemlər

Azərbaycanın bu dövrdəki beynəlxalq siyasətində İranla münasibətlər aparıcı (üstün) istiqaməti təşkil edirdi. AXC-nin xarici siyasətində İran xüsusi yer tuturdu. Azərbaycan, bir tərəfdən, "İstiqlal Bəyannaməsi"nin prinsiplərinə uyğun olaraq bütün dövlətlərlə, o cümlədən də İranla normal münasibətlər yaradılmasını istəyir və buna da çalışırdı. Digər tərəfdən, Azərbaycan-İran münasibətlərinin spesifik (özəl) cəhətləri də vardı. Başqa sözlə, AXC-nin İranla münasibətlərinə xüsusi yanaşma tələb olunurdu. Bu, Azərbaycanın parçalanmış durumda olması, onun torpaqlarının böyük hissəsinin (280 min kv. km) İranın tərkibində qalması və s. amillər ilə əlaqədar idi.

Öz növbəsində İran da həmişə Quzey Azərbaycanda gedən prosesləri diqqət mərkəzində, Güney Azərbaycanda baş verənləri isə nəzarətdə saxlamışdır. Bu baxımdan Azərbaycanın şimalında dövlətçiliyin bərpası – Xalq Cümhuriyyətinin yaranması və onunla münasibətlərin xarakteri məsələləri İranın xarici siyasətində heç də az yer tutmurdu. İranda Quzey Azərbaycanın müstəqilliyinə (AXC-yə) münasibət birmənalı deyil, ikili səciyyə daşımışdı.

**Birincisi**, Güney Azərbaycanın və bütün İran türklərinin münasibəti. Dövrə aid çoxsaylı diplomatik sənədlərin və s. təsdiqlədiyi kimi, onlar AXC-yə dost və qardaşcasına münasibət bəsləmişdilər. Azərbaycanın şimalında dövlətçiliyin bərpası onun cənubunda da muxtariyyət və müstəqillik, Farsistandan ayrılmaq meyllərinin qüvvətlənməsinə ciddi təsir göstərmişdi.

**İkincisi**, İran dövlətinin baxışları və rəsmi mövqeyi. Maraqlıdır ki, burada da fərqli dəyərləndirmələr özünü göstərirdi:

**a)** İranın siyasi-diplomatik dairələrində AXC-nin qətiyyən tanınmamasına dair radikal baxış üstünlük təşkil edirdi. Bu mövqenin tərəfdarlarının əsas "dəlilləri" tarixən Azərbaycan dövlətinin olmaması, AXC ərazilərinin İrana məxsusluğu və s. ibarət idi. Ancaq onları daha çox qayğılandıran əsas dəlil-başlıca amil Azərbaycanın quzeyində dövlətçiliyin bərpasının onun cənubunda da analoji istək doğurması ehtimalı hesab olunur.

Bu cür baxışlarla yüklənmiş siyasətin nəticəsi idi ki, Osmanlıdakı İran konsulu AXC-nin İstanbul konfransına gələn nümayəndəliyinin Azərbaycan dövlətçiliyinin bərpasına dair bəyannaməsini (VII. 1918) qəbul etməmiişdi. Habelə bəyannaməyə münasibətini belə açıqlamışdı: "İran "Azərbaycan" adlı müstəqil dövlət tanımır".

İran "Arazın şimalından gələn təhlükə"dən rahatsızlanaraq "ölkədə AXC təsirini" qüvvətləndirə biləcək bütün qurumların fəaliyyətinə xitam verdi. Vaxtı ilə şimallıların komitə olaraq yaratdıqları və sonralar isə diplomatik qurum kimi fəaliyyət göstərən Təbrizdəki "Qafqaz İslam Cümhuriyyəti" konsulluğu və s. bağlandı.

**b)** bəzi İran rəsmilərinin nəzər nöqtəsinə görə isə onların ölkəsi ilə Rusiya arasında müstəqil (ələlxüsus da müsəlman) dövlətlərin yaranması şahlığın maraqlarına uyğun idi. Bu baxımdan da AXC İranla Rusiya arasında "bufer dövlət" və bununla da birincinin təhlükəsizliyinin əlavə təminatı (amili) kimi dəyərləndirilirdi. İranın Xarici İşlər naziri Əliqulu xan AXC təmsilçisi ilə söhbətində (I.1919) Azərbaycanın istiqlalını ölkəsi üçün "...bütün hallarda sərfəli ..., gələcək Rusiyaya qarşı müəyyən zəmanət" kimi qiymətləndirmişdi.

Yeri gəlmişkən, Azərbaycan diplomatları arasında da belə oxşar mövqe və fikir sahibləri vardı: "Rusla İranın arasında Azərbaycan dövləti təşəkkül etdi... İran da asudə nəfəs almağa başladı... İran bizi tutarsa (tərəfimizi mənasında – İ.M.) və bizi müstəqil deyə tanırsa, özü üçün şimal tufanına qarşı bir sipər qazanar" (Y.V.Çəmənzəminli).



**c)** rəsmi İranın AXC-yə münasibətindəki baxışlarının "təkamülü" prosesində üçüncü bir nöqteyi-nəzər, yəni onların vahid dövlət yaratmaları ideyası da ortaya çıxdı (Ona əvvəlki fərqli dəyərləndirmələrin ("a" və "b"-nin) sintezi – tarazlaşdırıcı ortaq mövqe kimi də baxmaq olar). Bu ideyanı (təklifi) Paris Sülh konfransına gedən İran Xarici İşlər naziri yolüstü Bakıda (XII. 1918) Azərbaycan rəhbərliyi və İstanbulda (I.1919) Ə.Topçubaşı ilə görüşlərində səsləndirdi. İran diplomatının öz ideyasının lehinə gətirdiyi dəlillər olduqca maraqlı və diqqətçəkicidir:

- mövcud beynəlxalq şəraitin Azərbaycan üçün qeyri-münasibliyi. Bu, Türkiyənin müttəfiqi sayılan Azərbaycana Antantanın rəğbətlə yanaşmayacağı ilə izah olunurdu;
- Azərbaycanın Qafqaz Konfederasiyasına olan ümidlərinin əbəsliyi (ədalət naminə bu dəlil tutarlı idi və sonralar özünü doğrultdu. Ə.Topçubaşının N.Yusifbəyliyə məktubundan (8-9.VII.1919) bu da aydın olur ki, İran tərəfi "Qafqaz Konfederasiyası yaradılmasının qeyri-mümkünlüyü" motivini Sülh konfransında da vurğulamışdı). Nazir bunu ehtimal olunan konfederasiya tərəflərinin (Gürcüstan və Ermənistanın) maraqları (iddiaları), ələlxüsus da sonuncunun Azərbaycana düşmənçiliyi ilə əsaslandırırdı;
- vahid dövlətdə birləşməyin tərəflər üçün qarşılıqlı faydalılığı;
- Azərbaycanın daxili muxtariyyətinin saxlanması, xarici siyasətin xüsusi sənədlə müəyyənləşməsi və bunların Paris Sülh konfransında rəsmiləşməsi.

İran tərəfinin bu ideyası gözlənilməz olduğu qədər də şübhəli göründüyündən Azərbaycanın siyasi dairələri və dip-

lomatları tərəfindən birmənalı qarşılanmadı. Bir sıra dəyərləndirmələr oldu: "İran diplomatiyasının hiyləsi" (Ə.Ağaoğlu), "Azərbaycanın təhlükəsizliyi baxımından diqqətəlayiq təklif" (Ə.Topçubaşı) və s. Əlimərdan bəyin Azərbaycanın suverenliyini önə çəkməsi və siyasi-diplomatik dairələrdəki kəskin etirazlar bu mövzunun müvəqqəti "unudulmasına", gündəlikdən çıxmasına təsir göstərdi.

Dövrün Azərbaycan-İran münasibətlərində ciddi problemlər, islama və mehriban qonşuluq normalarına əsla uyğun gəlməyən məqamlar mövcud idi. Bunlar İranın: **1)** Azərbaycanla diplomatik münasibətlər yaradılmasını əngəlləməsi; **2)** Ermənistanın AXC-yə hərbi təcavüzünü himayə etməsi; **3)** "öz tarixi torpaqlarını" (Quzey Azərbaycanı) geri qaytarmağa çalışması və s. ilə əlaqədar olaraq yaranmışdı (Sonuncu məsələ V bölümdə izah olunur. Çünki İranın AXC-yə qarşı ərazi iddiaları rəsmən məhz Paris Sülh konfransında qaldırılmışdı).

AXC-nin İranla diplomatik əlaqələr qurulması işi uzun çəkdi. İ.Ziyadxanın başçılıq etdiyi nümayəndəliyin İrana səfəri (1919-cu ilin yazı) zamanı səfirliyin və Təbrizdə konsulluğun açılması məsələləri müzakirə olundu. AXC hökuməti ləngitmədən (16.VII.1919) İranda diplomatik nümayəndəliyin yaradılması haqqında qərar çıxardı. A.Ziyadxan səfir təyin edildi. Lakin o yalnız 1920-ci il yanvarın 4-də Tehrana gedib fəaliyyətə başladı.

Ermənistan-Azərbaycan münaqişəsində (müharibəsində) İranın birincinin tərəfini tutmasının səbəbləri aydın idi. Azərbaycanın şimalında müstəqil dövlətin yaranmasından və həm də bunun Güney Azərbaycana təsirindən qayğılanan İran bu münaqişədən faydalanmağa çalışırdı. İranın erməni təcavüzünü və onun yürütdüyü türk-müsəlman soyqırımı siyasətini himayə etməsi və konkret məqsədlər güdməsi aşağıdakı məsələlərdə özünü açıq-aşkar göstərirdi:

**1.** İran hökuməti erməni təcavüzünə məruz qalan Cənub-Qərbi Azərbaycan torpaqları ilə bağlı məkrli siyasət yürüdürdü. Bu dövrki şəraiti əlverişli sayan İran: **a)** Naxçıvan diyarına və çevrəsinə yiyələnməyə, **b)** bu alınmadıqda isə həmin ərazilərin ermənilərə keçməsinə çalışırdı.

AXC-nin İrəvandakı səfiri M.Mirbabayevin məlumatlarından da göründüyü kimi, İran ingilislərin və ermənilərin təhriki ilə Naxçıvan və onun ətrafından 60 mindən çox müsəlman əhalisini Arazdan cənuba köçürməyə, bununla da bölgəni zəiflədib, daşnakların planlarının reallaşmasına münasib şərait yaratmağa meylli idi. İran hökuməti bu niyyətlə də müsəlman qaçqınları qəbul etmək üçün sərhədə öz məmurlarını göndərmiş və torpaq sahələrinin ayrılması da daxil olmaqla onlara hərtərəfli yardım göstəriləcəyini bildirmişdi. Naxçıvan general-qubernatoru S.Cəmillinski İranın azərbaycanlı qaçqınlara qəfil diqqətini və rəhmli münasibətini bölgəni AXC-dən ayırmaq məqsədini güdən ingilis siyasətinin astarı kimi qiymətləndirirdi.

**2.** İran erməni silahlı qüvvələrinin zorakılıq və vəhşilikləri ilə üzləşən Cənub-Qərbi Azərbaycan müsəlmanlarının yardım çağırışlarına da məhəl qoymamışdı.

**3.** Rəsmi Tehran İran ermənilərinin Naxçıvan bölgəsində gedən hərbi əməliyyatlarda iştirakına şərait yaratmışdı. Təbrizin zəngin ermənilərinin sərhədboyu xanları ələ almalarına, onların dəstələrinin və ermənilərin Xudafərindən keçərək Zəngəzura, Cəbrayıla soxulmalarına əsla mane olmurdu.

İran Paris Sülh konfransında Azərbaycana qarşı ərazi iddiaları irəli sürsə də onunla yaxınlaşmağa da ciddi meyl göstərdi. Tərəflərin Sülh nümayəndəliklərinin danışıqlarında dövlətlərarası ittifaq məsələsi mühüm yer tutdu. Ə.Topçubaşının o vaxtkı Xarici İşlər naziri Firuz Mirzə ilə görüşündə (25.X.1919) İran tərəfi Qafqazda müstəqil Azərbaycanın mövcudluğunun zəruriliyini vurğuladı. Ona hər hansı şəkildə mane olunmayacağı bir daha təsdiqləndi. Müzakirələrin sonunda (1.XI.1919) Azərbaycan diplomatları dövlətlərarası ittifaqa dair dörd benddən ibarət sənədi (ona "Paris sənədi"

də deyirlər) digər tərəfə təqdim etdilər.

AXC diplomatiyasının bu addımının və təklif olunan sənədin bir neçə tərəfdən şərhə ehtiyacı vardır. İlk öncə, Azərbaycan tərəfinin bu məsələdə güddüyü strateji maraqların açıqlanması lazım gəlir. Burada isə iki mühüm məqsəd-qənaət dominant rol oynayırdı:

**Birincisi**, ölkənin təhlükəsizliyinin təminatında, ələlxüsus da Rusiyanın təcavüzündən qurtulmasında İran amilindən istifadə olunması.

**İkincisi**, AXC-nin suverenliyini saxlayaraq İranla konfederasiya yaratmaqla Cənubi Azərbaycan ilə birləşmək (Bakı-Təbriz ittifaqı) imkanının qazanılması.

Azərbaycan diplomatiyasının bu qənaəti heç də təsadüfi olmayıb onun xeyrinə işləməyən mövcud beynəlxalq gerçəkliklərin diqtəsindən irəli gəlmişdi. İran faktoruna üstünlük verilməsini şərtləndirən başlıca səbəblər isə bunlar idi:

**a)** Müttəfiqlərin (ingilislərin) qoşunlarının Azərbaycandan çəkilmələri;

**b)** Qafqaz Konfederasiyası ideyasının iflasa uğraması (İran diplomatiyasının əvvəlcədən söylədiyi və istinad etdiyi fikir);

**c)** İtaliyanın Cənubi Qafqaz üzərindəki müvəqqəti mandat hüququndan imtina etməsi;

**ç)** yeni yaranmış dövlətlərin istiqlalının tanınması sahəsindəki qeyri-müəyyənliyin qalması.

Bu sənəd və ondan irəli gələ biləcək nəticələr, xüsusi ilə də İranla ittifaq, təhlükəsizliyin təmin olunmasında ona bel bağlanılması, ümumi xarici siyasət və s. təbii rahatsızlıqlar da yaratmışdı. Əlimərdan bəy bunlarla əlaqədar həm də tarixi şəraitin bizim xeyrimizə olan reallıqlarını da nəzərə almağı vacib saymışdı: İranın mədəniyyət baxımından dindarlığı və dövlət təşkilatı cəhətdən isə zəifliyi üzündən Qafqaz Azərbaycanına təsir etmək durumunda olmaması; Azərbaycanın öz dövlət təşkilatını müasirləşdirməyə və həyatını



mədəni-siyasi-dini azadlıq prinsiplərinə əsasən qurmağa çalışdığı bir zamanda İranın indi bu qaydalardan uzaqda olması və onlara biganə qalması.

Ə.Topçubaşı birgə xarici əlaqələrə meyl göstərilməsini dövrün şərtlərinin nəticəsi kimi dəyərləndirmişdi. Eyni zamanda da müstəqilliyimizin qorunub saxlanılması prinsipinin qətiyyətlə müdafiə olunacağını bildirmişdi. Habelə, istəkləri olarsa, gürcülərin də bu məsələyə – İranla birgə xarici əlaqələrə cəlb ediləcəklərini açıqlamışdı.

Bilavasitə dövlətlərarası ittifaq sənədində ifadə olunan təkliflərə, mülahizələrə və onların şərhinə gəldikdə isə bu məqamlar üzərində dayanılmalıdır:

- Qafqaz Azərbaycanı, Paris Sülh konfransına təqdim edilən tələblərində və xəritələrdə göstərilən torpaqları ilə, Rusiyadakı ictimai quruluş (hakimiyyət) fərqindən əsla asılı olmayaraq ondan birdəfəlik və qəti surətdə ayrılır;
- Qafqaz Azərbaycanı paytaxtı (Bakı), Prezidenti və Parlamenti olan müstəqil, suveren, demokratik respublika kimi tanınır;
- AXC İran ilə siyasi-iqtisadi əlaqələr qurur. Dövlətlərin xarici işlər sahəsindəki fəaliyyətlərinin birləşdirilməsi istənilir;
- yuxarıda göstərilənlərə nail olunması, habelə Azərbaycan Respublikasının tanınması, müstəqilliyi və ərazi bütövlüyünə yönələn qəsdlərin zərərsizləşdirilməsi işində İngiltərənin həqiqi yardımına (İrana edilən kömək timsalında) ehtiyac duyulur;
- İrana AXC ilə iqtisadi-siyasi ittifaqa girmək və ümumi xarici siyasət yeritmək şansı verən bu sənəd (təkliflər paketi) yalnız yetərli ingilis yardımı-Britaniya ilə faydalı əlaqələr şəraitində təsirli ola və gerçəkləşə bilərdi. Əks təqdirdə AXC-nin zəif və geridə qalmış İranla iqtisadi-siyasi ittifaqa (birləşməyə) zəif maraq və meyl göstərməsi olduqca təbii idi.

Parisdəki Sülh nümayəndəliklərinin görüşləri və razılaşmaları Bakı ilə Tehran arasında aparılan birbaşa danışıqlarla müşayiət olunurdu. "Paris sənədi"ndən sonra – dekabrın əvvəli üçün İran diplomatı S.Z.Təbatəbainin başçılığı ilə xüsusi nümayəndəlik Bakıda danışıqlar apardı. Müzakirələrdə əsas yeri siyasi-hüquqi və ticarət-tranzit-rabitə əlaqələrinə aid məsələlər tuturdu. Bu diplomatik missiyanın digər bir mühüm vəzifəsi də Azərbaycanın İranla konfederasiyada birləşməsinin mümkünlüyünün nəzərdən keçirilməsi idi.

Azərbaycan-İran konfransının açılışında (5.XII.1919) diplomatlar dövlətləri bir-biri ilə möhkəm bağlayan çoxtərəfli amilləri – "siyasi və iqtisadi, eyni zamanda mədəni, dini və irqi ümumilikləri" (M.Cəfərov), habelə "tarixi və qohumluq əlaqələrini" (S.Z.Təbatəbai) vurğuladılar. Tərəflər bunları əsas tutaraq konfransın AXC-İran şahlığı münasibətlərində bir mərhələ olacağına və onun uğurla nəticələnəcəyinə ümidli idilər.

Bütövlükdə isə konfrans mübahisəli müzakirələr şəraitində keçdi. Fərqli baxışlar və mübahisə doğuran məsələlərin başlıcaları aşağıdakılar idi:

**1.** İranda yaşayan AXC təbəələrinə kapitulyasiya rejiminin (bir dövlətin vətəndaşlarının digər ölkədə sahib olduqları üstünlüklər) şərtlərindən (qaydalarından) istifadə etmək hüququnun verilməsi tələbi. O qəbul olunmadı. Belə ki, İran hökuməti həmin rejimin ölkədə artıq rəsmən ləğv edildiyini və tərəflərin bu məsələdə beynəlxalq hüquq normalarına əsaslanmalarını zəruri saydı. Sonda konfransın siyasi-hüquqi komissiyası tərəfindən hər iki dövlətin qanunları əsasında onların vətəndaşlarının təhlükəsizliyinə təminat verən sənədin hazırlanması razılaşdırıldı.

**2.** Bolşevik təbliğatına uyan şahsevən tayfalarının sərhəd pozuntuları və İran ərazisinə soyğunçu hücumları. Azərbaycan hökuməti bu kimi hərəkətlərin onun təbliğatının nəticəsində baş verməsinə dair ittihamı təkzib etdi. Eyni zamanda belə hərəkətlərə son qoyulması üçün də müvafiq



tədbirlər gördü.

Konfrans bir sıra diplomatik sənədlərin imzalanması ilə başa çatdı. Onların sırasında "Azərbaycan Respublikası (Qafqaz) və Fars Şahənşahlığı arasında dostluq haqqında" müqavilə (20.III.1920) xüsusi yer tutur. Müqavilə aşağıdakıların həyata keçirilməsini nəzərdə tuturdu:

- "Azərbaycan Respublikasının (Qafqaz) istiqlaliyyətinin təntənəli surətdə tanınması" (1-ci maddə);
- dövlətlər arasında dostluq münasibətlərinin və iqtisadi əlaqələrin əsasını qoyan sazişlərin imzalanması (2-ci maddə);
- iki dövlət arasında diplomatik nümayəndəlik (səfirlik) səviyyəsində əlaqələrin qurulması (3-cü maddə).

Müqavilə ilə yanaşı teleqraf, ticarət-gömrük, poçt sazişləri imzalandı və konsul konvensiyası qəbul edildi.

Müqavilə və sazişlərin şərtlərinin gerçəkləşdirilməsi istiqamətində görülən işlər də diqqəti cəlb edir. Burada, bir tərəfdən, AXC-nin İrandakı diplomatik strukturlarının təşkili, digər tərəfdən də, onların, xüsusi ilə də səfirliyin fəaliyyətinə dair bəzi məqamları vurğulamaq lazımdır.

AXC XİN-i Təbrizdə baş konsulluğun, habelə digər şəhərlərdə konsulluq, vitse-konsulluq və konsul agentliklərinin açılmasına səylər göstərdi. Bu işlərin bəziləri görülsə də Təbrizdə baş konsulluğun yaradılması İran tərəfinin əngəlləri və AXC-nin süqutu ilə bağlı baş tutmadı. Baxmayaraq ki, AXC XİN-i hələ müqavilədən əvvəl (17.II.1920) Bakıdakı İran konsulluğunun statusunun səfirlik səviyyəsinə yüksəldilməsini istəmiş və buna şərait yaratmağa hazır olduğunu bildirmişdi.

AXC hökumətinin İranla münasibətləri yaxşılaşdırmaq sahəsindəki ardıcıl səyləri nəticəsiz qalmadı. AXC XİN-in Parisdəki Sülh və İrandakı diplomatik nümayəndəliklərinin, onların başçılarının (Ə.Topçubaşı və A.Ziyadxan) fəaliyyəti təsirsiz ötüşmədi. Belə ki, Azərbaycanın güneyi ilə quzeyi arasındakı iqtisadi-mədəni bağlar möhkəmləndi.

Erməni-fars diplomatiyasının Cənub-Qərbi Azərbaycanın AXC-dən qopardılmasına yönəlik məkrli siyasəti və çoxlu qəsdləri zərərsizləşdirildi. İranın türk əhalisinin mədəni-maarif işinə yardım göstərildi.

AXC ilə İran arasında münasibətlərin qurulduğu bir dövrdə Cənubi Azərbaycanda olduqca ciddi siyasi proseslər gedir, milli-demokratik hərəkat genişlənirdi. Qalibiyyətli Təbriz üsyanı (IV.1920) Cənubi Azərbaycanda da milli dövlətçiliyin dirçəldilməsinə yol açmışdı (Şeyx Məhəmməd Xiyabaninin başçılığı ilə yaranan Milli hökumətin fəaliyyəti və "Azadistan məsələsi" barədə dərsliyin II hissəsinin birinci bölümündə bəhs olunur). Bununla bağlı səfirlik Güney Azərbaycandakı siyasi proseslərə dair məlumatların toplanması, onların təhlili əsasında AXC hökuməti üçün müvafiq təlimat və tövsiyələr hazırlamışdı.

* * *

Şimali Azərbaycanın Rusiya tərəfindən yenidən işğalı ilə AXC-İran münasibətlərinin təbii sonu yetişdi. AXC-nin süqutu ilə İran dövləti keçmiş düşməni-sonrakı müttəfiqinin (Rusiyanın) hesabına rahat nəfəs aldı. Bu rahatlıq, Güney Azərbaycanındakı sonrakı proses və hadisələr nəzərə alınmazsa, 1991-ci ilin sonunadək davam etdi.



# BEŞİNCİ BÖLÜM

## AZƏRBAYCAN PARİS (VERSAL) SÜLH KONFRANSINDA

Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasətində dövlətimizin beynəlxalq aləmdə tanınması və onun müstəqilliyinin dönməzliyi uğrunda mübarizə mühüm yer tuturdu. Bu baxımdan Azərbaycan diplomatlarının Paris Sülh konfransındakı gərgin və səmərəli fəaliyyəti böyük əhəmiyyət kəsb edirdi.

Nümayəndə heyətinin Paris Sülh konfransında iştirakı məsələləri nəzərdən keçirilərkən aşağıdakı məqamların üzərində dayanılması vacibdir:

1. Azərbaycan diplomatiyasının konfransdakı məqsəd və vəzifələri, ona Bakıda AXC hökuməti və İstanbulda Ə.Topçubaşı tərəfindən görülən hazırlıq tədbirləri.

2. Azərbaycan istiqlalının tanınması uğrunda mübarizə-çətinliklər və uğurlar:
   - müttəfiqlərin təmsilçiləri ilə ikitərəfli görüşlər və müzakirələr;
   - Denikin diplomatiyasının "Vahid, bölünməz Rusiya" siyasəti və Azərbaycanın mövqeyi;
   - Qafqaz respublikalarının sülh nümayəndəlikləri ilə əməkdaşlıq;
   - Qərb mandatlığı məsələsi və AXC diplomatiyası;
   - "Avropaya pəncərə açılması".

3. AXC-nin ərazi bütövlüyü məsələsi ətrafında diplomatik çəkişmələr:
   - "Böyük Ermənistan" iddialarına qarşı mübarizə;
   - İranın Şimali Azərbaycana dair ərazi iddialarının dəf olunması.

4. Xalqlar konfransının Azərbaycan üçün nəticələri və Sülh nümayəndəliyimizin taleyi.

## Sülh konfransına qatılma prosesi

Birinci cahan savaşından sonrakı yeni dünya düzəni Paris Sülh konfransı tərəfindən müəyyənləşdirilməli idi. AXC də beynəlxalq birliyin tamhüquqlu üzvü olmaq, Qərb dövlətləri tərəfindən tanınmaq və ərazi bütövlüyünə təminat almaq kimi strateji məsələlərdə Sülh konfransına ümid bəsləyirdi. Buna görə də qarşıda duran ilkin vəzifələrdən biri konfransın işinə qatılmaq hüququnu qazanmaq idi.

Hələ Ənzəli danışıqlarında (XI.1918) Müttəfiqlər AXC-nin Paris Sülh konfransında iştirakına icazə və təminat vermişdilər. Azərbaycan dövləti beynəlxalq Sülh toplantısına dəvətli olanların 4-cü kateqoriyasına daxil idi. Yəni Azərbaycana aid xüsusi məsələlərin müzakirəsində 1-ci kateqoriyaya daxil olan böyük dövlətlərdən (İngiltərə, ABŞ, Fransa, İtaliya, Yaponiya) birinin dəvəti ilə iştirak edə bilərdi.

AXC konfransda iştiraka razılıq əldə etsə də müxtəlif əngəllərlə üzləşdi. Lakin bunlara baxmayaraq konfransa hərtərəfli hazırlıq işlərinin görülməsinə başlanıldı. Konfransa hazırlıq Bakıda AXC hökuməti (XİN-i) və Əlimərdan bəyin İstanbula missiyası vasitəsi ilə aparılırdı. Bakıda görülən hazırlıq tədbirləri sırasında bunları qeyd etmək olar:

**Birincisi**, AXC-nin Paris Sülh konfransındakı nümayəndə heyətinin tərkibi müəyyənləşdirildi və tezliklə də (28.XII.1918) təsdiqləndi. Az öncə (7.XII.1918) Azərbaycanın dövlət başçısı seçilən Ə.Topçubaşı Sülh nümayəndəliyinin sədri, M.H.Hacınski isə onun müavini təyin olundu. AXC-nin Sülh nümayəndəliyinə dövlət başçısının – beynəlxalq siyasi dairələrdə çox yaxşı tanınan və qəbul olunan Əlimərdan bəyin rəhbərlik etməsi çox uğurlu diplomatik addım kimi dəyərləndirilə bilər.

Nümayəndə heyətinə üzv statusunda Ə.Şeyxülislamov, Ə.Ağayev (Ağaoğlu), məsləhətçilər kimi C.Hacıbəyli, M.Məhərrəmov, M.Mehdiyev və habelə köməkçi personal-texniki



işçilər qrupu daxil idi. Sülh nümayəndəliyinin tərkibinə sonradan daxil edilən A.Atamalıbəyov onun katibi olaraq çalışırdı. R.Topçubaşov isə sədrin şəxsi katibi kimi fəaliyyət göstərirdi.

**İkincisi**, parlamentdə müvafiq müzakirələr aparıldı. XİN və digər strukturlar birlikdə Azərbaycan Sülh nümayəndəliyinin fəaliyyət proqramını işləyib hazırladılar. Hətta Paris konfransınadək Avropa və Amerikaya bir xüsusi nümayəndəlik göndərilməsi də razılaşdırılmışdı. Lakin konfransın tezliklə açılacağına dair məlumatlar alındığından buna lüzum görülmədi. Eyni zamanda həmin xüsusi təmsilçilik üçün müəyyənləşdirilən vəzifələrin həyata keçirilməsi Sülh nümayəndəliyinə həvalə olundu.

**Üçüncüsü**, AXC XİN-i nəzdində yaradılan Xüsusi təşviqat şöbəsinin fəaliyyətində Paris konfransı ilə bağlı müvafiq məqamlara geniş yer verildi. Belə ki, Qərbdə Azərbaycanın maraqları naminə aparılacaq təşviqat işinin əsas istiqamətləri, vasitələri və xüsusiyyətləri müəyyənləşdirildi. Onların sırasında aşağıdakıları fərqləndirmək olar:

- Müttəfiqlərin, Qafqazdakı ərazi və iqtisadi mübahisələrdə münsiflik edən nümayəndələrinin-yarırəsmi səfirlərin müxtəlif yönlərdən məlumatlandırılması, bu zaman müsəlman "ünsürünün əzabkeşliyi"nin vurğulanması;
- Avropada xüsusi təşviqat işinin təşkili və Parisdəki Azərbaycan Sülh nümayəndəliyinin hadisələrin mərkəzində saxlanılması;
- Varşavada – "yeni yaranan dövlətlər", Cenevrədə – Avropa, Vaşinqtonda – Amerika, İstanbulda (yaxud Qahirədə) isə Şərq ölkələri üçün xüsusi xarici "məlumat büroları"nın (ya da "mətbuat büroları"nın) təşkili və materiallarla təchiz olunması.

**Dördüncüsü**, bəzi texniki-təşkilati işlər görüldü, maliyyə məsələləri həll olundu (Sülh nümayəndəliyinə hələlik 2,5 milyon man. vəsait ayrıldı. Müqayisə üçün: ermənilər 10,

gürcülər isə 5 milyon man. pulla təmin olunmuşdular).

AXC-nin Sülh nümayəndəliyi sədrin müavini (müvəqqəti sədr) M.H.Hacınskinin başçılığı ilə 1919-cu il yanvarın 4-də Tiflisə, 11-də Batuma, 20-də isə İstanbula gəldi. Yolboyu, yəni Tiflisdə gürcü, Batumda erməni və yenə də gürcü nümayəndəlikləri ilə müəyyən danışıqlar apardılar. Tiflis danışıqları Sülh konfransında birgə nümayəndəliklə təmsil olunmağın qeyri-mümkünlüyünü bir daha təsdiqlədi. Ancaq nümayəndəliklərin fəaliyyətinin əlaqələndirilməsi razılaşdırıldı.

Batum görüşlərində gürcü tərəfi ermənilərin "zərərsizləşdirilməsi" üçün Türkiyədə onlara müstəqil dövlət yaradılması təklifini səsləndirdi. Bununla bağlı AXC hökumətini məlumatlandıran M.H.Hacınski müəyyən güzəştlərə də meyllənmiş oldu. O həm də rəsmi Bakıya Batum və çevrəsindəki ərazilərin müsəlman əhalisinin durumu, habelə Sülh nümayəndəliyinin maliyyə və digər yönlərdən qüvvətləndirilməsi məsələləri ilə əlaqədar təkliflər də vermişdi.

AXC-nin Sülh konfransına hazırlığı işinin əsas ağırlığı Ə.Topçubaşının İstanbul missiyasının üzərinə düşmüşdü. Elə missiyanın ilk dörd ayı (X.1918-I.1919) ərzində bu istiqamətdə xeyli işlər görülmüşdü. Əlimərdan bəyin Osmanlı rəhbərləri və Müttəfiqlərin İstanbuldakı təmsilçiləri ilə görüşlərində qarşıdakı Sülh konfransı ilə bağlı məqamlar da müzakirə edilmişdi.

Ə.Topçubaşının bu dövrdə Rusiya və İran diplomatları ilə apardığı söhbətlər də Paris Sülh konfransına hazırlıq prosesinə dair tədbirlər silsiləsindəndir. Bu danışıqlarda Azərbaycanın mənafeləri ilə bağlı bir sıra məsələlərə toxunulmuşdu. Rusiyanın tanınmış siyasi xadimi, müvəqqəti hökumətdə xarici siyasətə rəhbərlik edən P.Milyukovla görüşdə (7.XII.1918) Əlimərdan bəyin Güney Qafqaz dövlətlərinin gələcək taleyi ilə bağlı sualı birmənalı cavablandırılmadı.

Vaxtı ilə çar Rusiyasının Xarici İşlər naziri və bu dövrdə Denikin hökumətinin Sülh konfransındakı təmsilçisi olan S.Sazonovla söhbət isə "Bölünməz Rusiya" siyasəti ilə bağlı bir çox mətləblərə aydınlıq gətirdi. Tərəflərin diplomatik müzakirədən çox, açıq siyasi polemika səciyyəli kəskin dialoqu Sülh konfransındakı gələcək gərgin qarşıdurmadan xəbər verirdi. Ə.Topçubaşı: **a)** çarlıq Rusiyası rejiminin azərbaycanlıları "geridə qalmış bədbəxt xalq" etməsini; **b)** qafqazlıların (azərbaycanlıların) daha ruslarla birgə yaşaya bilməməsini; **c)** Azərbaycanın da Vilsonun prinsiplərinə görə müstəqil yaşamağa əsası olmasını və daima buna can atacağını vurğulamışdı. S.Sazonov isə Rusiya ilə bağlı vəd ("yaxşı idarə olunacaq") və israr ("vahid, bölünməz") ruhlu mövqedən çıxış edirdi.

Gürcüləri "səfeh, qoyun", erməniləri "nisbətən maraqlı", azərbaycanlıları isə "Rusiyadan ayrılmaq istəməyən" xalq, habelə Türkiyəni "ölü ölkə", Vilsonun prinsiplərini "yalnız ideologiya" kimi dəyərləndirən S.Sazonov Qafqazın imperiyadan qopması ilə heç cür razılaşmaq istəmirdi. Maraqlıdır ki, o, Avstriya-Macarıstan və Osmanlı imperiyalarına qatılan xalqların müstəqil dövlət yaratmalarını alqışlasa da Rusiya xalqlarına bunu məsləhət bilmir və rəva görmürdü. Onun fikrincə, Rusiya yalnız Polşaya münasibətdə günaha batmış, ədalətsiz olmuş, tarixi səhvə yol vermişdir və qalan xalqların qarşısında onun vicdanı təmizdir.

Əlimərdan bəy İran XİN-i Əliqulu xanla görüşündə isə (9.I.1919) şahənşahlığı Azərbaycana düşmənçilik münasibətindən çəkindirməyə çalışmışdı. Hətta istiqlalımızın fars diplomatiyası tərəfindən Sülh konfransında tanınmasına ilkin razılıq əldə olunmasına da cəhd göstərmişdi. O belə bir dəlilə əsaslanmışdı ki, Azərbaycanın istiqlalı təkcə özünə deyil, xüsusilə indiki vaxtda İrana da fayda gətirəcəkdir.

Azərbaycan Sülh nümayəndəliyinin İstanbula yetişməsi ilə (20.I.1919) Paris konfransına qatılma prosesinin, ona hazırlığın, bir növ, yeni mərhələsi başladı. İstər bu prosesin davamının, istərsə də Sülh nümayəndəliyinin Parisdəki çoxşaxəli fəaliyyətinin bilavasitə konfransın sənəd və material-

ları (Memorandum, Ə.Topçubaşının AXC hökumətinin başçısına məktubları və s.) əsasında nəzərdən keçirilməsi daha da məqsədəuyğundur.

Azərbaycan Sülh nümayəndəliyinin ilk iclasında (22.I.1919) heyət qəti olaraq müəyyənləşdirildi (köməkçi-texniki personal tamamlandı), iş bölgüsü aparıldı və təşkilatdaxili vəzifələr aydınlaşdırıldı. Sədrin vurğuladığı kimi, dövrün fövqəladə şəraiti nümayəndə heyətinin təşkili zamanı yol verilən çatışmazlıqlar üzərində geniş dayanmağa imkan vermirdi.

Sülh nümayəndəliyinin tərkibində üç bölmə yaradıldı: siyasət və milli məsələlər; iqtisadiyyat və kommersiya; təbliğat və məlumat. Heyətin bütün üzvlərinin konkret fəaliyyət sahəsi müəyyənləşdirildi. Onlar aşağıdakı məsələlər üzrə məsul idilər:

- sədr Ə.Topçubaşı – siyasi məsələlər və Memorandum hazırlanması, təşkilati işlər və maliyyə vəsaitinin xərclənməsi;
- sədrin müavini M.H.Hacınski – iqtisadiyyat və maliyyə məsələləri, xəzinə;
- Ə.Şeyxülislamov – sərhəd məsələləri və onlara dair müxtəlif materiallar hazırlanması;
- M.Məhərrəmov – xalq təsərrüfatı və əkinçilik, protokolların ana dilində yazılmasına nəzarət;
- M.Mehdiyev – ticarət və sənaye sahələri, maliyyə hesabatlarının yoxlanılması;
- Ə.Ağaoğlu və C.Hacıbəyli – informasiya və təbliğat işləri, Fransa mətbuatı və ictimaiyyəti ilə əlaqələr yaradılması;
- Ə.Hüseynzadə – t rixi/etnoqrafik, ədəbi materialların seçilməsi və təbliğat işində onlardan istifadə olunması.

Nümayəndə heyətinin bu dövrdə üzləşdiyi ən ciddi problemlərdən biri Parisə yetişilməsi ilə bağlı idi. Çünki o, texniki çətinliklər adı altında siyasi səciyyəli maneçiliklərlə qarşılaşmışdı. Müttəfiqlər İstanbuldakı fransızdilli erməni mətbuatının böhtanlarını bəhanə edərək Ə.Ağaoğlunun Parisə getməsinə qadağa qoydular (O, "İttihad və Tərəqqi"nin fəal təmsilçisi, müttəfiqlərin əleyhdarı, Tələt-Ənvər kabinəsinin günahlarının iştirakçısı kimi ittiham olunurdu).

Ə.Topçubaşının Əhməd bəyin əslən Qarabağdan olması, nümayəndə heyəti üçün çox vacib şəxs sayılması və Tomsondan zəmanət məktubu alması kimi dəlilləri təsirsiz qaldı. Hətta Müttəfiqlər AXC Sülh nümayəndəliyinə qarşı hörmətsizlik edərək Ə.Ağaoğlu və Ə.Hüseynzadəni həbsə aldılar. Birinci Maltaya sürgün olundu, ikinci azad edilsə də Parisə getmək üçün viza ala bilmədi. Bununla bağlı Sülh nümayəndəliyi üzvləri arasındakı iş bölgüsündə müəyyən dəyişikliklər aparıldı.

İstanbul erməni mətbuatının "miskin" adlandırdığı və Müttəfiqlərin də müxtəlif əngəllərlə üzləşdirdiyi Sülh nümayəndəliyimiz Parisə getmək üçün yollar aramaqda idi. O eyni zamanda artıq öz işinə başlayan (18.I.1919) Sülh konfransında gedən prosesləri də imkan daxilində izləyir və orada qaldırılan əlaqədar məsələlərə münasibət bildirirdi.

Belə bir mövqe Paris konfransı Onlar şurasının (İngiltərə, ABŞ, Fransa, İtaliya, Yaponiyanın dövlət (hökumət) başçıları və Xarici İşlər nazirlərindən ibarət) iclasında (22.I.1919) müzakirəyə çıxarılan "Rus məsələsi" ilə bağlı ortaya qoyuldu. Şura Rusiya imperiyasının hüdudlarında yaranan yeni dövlətlərin təmsilçilərinin xüsusi konfransının keçirilməsini təklif etmişdi. AXC Sülh nümayəndəliyi Mərmərə dənizində – İstanbul yaxınlığındakı Şahzadə (Prinkipo) adasında tezliklə (fevralın 15-dək) keçirilməsi nəzərdə tutulan "Rusiya konfransı"nda iştiraka razılıq vermədi (Ümumiyyətlə, az sonra bu konfransın məsələsi gündəlikdən çıxarıldı).

Erməni və gürcü təmsilçilərinin bəzilərinin hələ xeyli əvvəl Avropaya (Parisə) gələrək burada hərtərəfli iş aparmaları Sülh konfransına dəvət və buraxılma məsələsində onlara üstünlük qazandırmışdı. Bu həm də Qərbdəki ermənipərəstlikdən və gürcü menşeviklərinin beynəlxalq sosializm ilə sıx

əlaqələrindən irəli gəlirdi. Erməni nümayəndələrinin artıq Parisdə olmaları və gürcü təsmilçilərindən isə ikisinin konfransa buraxılmalarına icazə verilməsi (13.I.1919) AXC heyətini xeyli qayğılandırdı. Dağlılar və Azərbaycan respublikalarının hərəsinin iki nümayəndəsinə də müvafiq icazə veriləcəyinə dair vədlər hələki özünü doğrultmurdu.

Belə olduqda İstanbula gəlib Parisə getməyə icazə gözləyən nümayəndəliklər (AXC, Dağlılar, Ukrayna, Kuban, Don) razılıq alınmasında birgə fəaliyyət göstərməyi qərara aldılar. Müvafiq Məsləhət Şurası yaradıldı. Müxtəlif fərqli baxışları uzlaşdırdıqdan sonra Memorandum-Sülh konfransına kollektiv müraciət hazırlandı. Müraciət Müttəfiqlərin İstanbuldakı komissarlarına təqdim olundu. Parisə buraxılacaqlarına ümidli olan Ə.Topçubaşını ən çox qayğılandıran Müttəfiqlərin Rusiyanın "vahidliyi və bölünməzliyi"ndə israrlı görünmələri idi. Onlar, Polşa və Finlandiya çıxılmaqla, yeni yaranan dövlətləri tanımamaq xəttini yeridirdilər.

Lakin, bir tərəfdən, İngiltərənin Azərbaycandakı özəl maraqları, digər tərəfdən də, Müttəfiqlərin Qafqaza dair ümumi mənafeləri Sülh nümayəndəliyimizdə müəyyən inam yaratmışdı. Paris konfransının, Cənubi Rusiyadakı siyasi və sosial-iqtisadi durumu öyrənmək üçün, göndərdiyi xüsusi missiya bu inamı daha da artırdı. Missiyanın Qafqazı öyrənməli olan bölməsinin başçısı, amerikalı polkovnik B.V.Moore AXC Sülh nümayəndəliyinin sədri və müavini ilə də görüşdü.

Bakıya da gəlməsi nəzərdə tutulan bu missiyanın nümayəndə heyətimizə təqdim etdiyi suallar və Əlimərdan bəyin onlara müvafiq qısa cavabları da maraq doğurur:

1. Azərbaycan siyasi və iqtisadi baxımdan müstəqil yaşaya bilərmi?

2. Bunun üçün sizin maddi və mənəvi gücünüz çatarmı?

3. Qafqazda, yaxud Güney Qafqazda federasiya, ya da konfederasiya yarana bilərmi?

4. Əgər Rusiya Federativ Respublikası yaranarsa, Azərbaycan onun tərkibinə daxil olmaq istəyərmi?

5. Hər hansı bir başqa dövlətin sizi öz təsiri altına almasının mümkünlüyü barədə düşünürsünüzmü?

6. İndi Azərbaycanın daimi, yaxud müvəqqəti bitərəfliyini təmin etmək barədə məsələ qaldırmaq mümkündürmü?

Birinci iki sualın cavabı Əlimərdan bəyin Sülh konfransına Memorandumuna əsasən müsbət olmuşdu. Üçüncü sualla bağlı "Böyük Ermənistan" yaratmaq iddiaları şəraitində Qafqaz Federasiyasının təşkili ideyasının şübhə doğurduğu bildirilirdi. Dördüncü suala mənfi cavab verilmiş, beşinci ilə əlaqədar isə "ölkəmizlə bağlı heç bir maddi marağı olmayan, lakin mənəvi və ümumbəşəri səciyyəli Vilson prinsiplərinə əsaslanaraq bizi dəstəkləyəcək" Amerikanın adı çəkilmişdi. Altıncı suala gəldikdə isə Azərbaycanın bitərəfliyi Güney Qafqazdakı sabitliklə bağlanılmışdı.

Sülh konfransına qatılmaqda çox gecikdiklərini yaxşı dərk edən nümayəndə heyəti səylərini intensivləşdirdi. Konfransın sədrinə (C.Klemansoya və Müttəfiq dövlətlərin başçılarına ünvanlanan müraciətdə (21.III.1919) Sülh nümayəndəliyinin Parisə buraxılmasına və müzakirələrə qoşulmasına israrlı icazə istənildi. Fransa hökuməti nümayəndələrin Parisə buraxılmalarını səbəbi açıqlanmadan ləngidirdi. Buna görə də Ə.Topçubaşı Müttəfiq qoşunlarının Şərqdəki Ali Baş komandanı, general F.d'Espero ilə görüşərək (18.III.1919) bu məsələni bir daha qaldırmalı oldu. Konfransın sədrinə və Müttəfiqlərin dövlət-hökumət başçılarına müvafiq məzmunlu teleqram (8-9.IV.1919) göndərildi.

Müxtəlif səviyyələrdə aparılan danışıqların - yazışmaların nəticəsində əvvəlcə M.H.Hacınski, M.Məhərrəmov, C.Hacıbəylinin Parisə və Ə.Şeyxülislamovla M.Mehdiyevin isə Londona getmələrinə icazə alındı. Göründüyü kimi, Ə.Topçubaşının Sülh konfransına qatılmasına əsla imkan verilmirdi. Bu isə erməni təbliğatına uyan Fransa hökuməti tərəfindən edilirdi.

Ermənilər Əlimərdan bəyin beynəlxalq siyasi dairələr-

də yaxından tanınmasını, onun 1905-1906 və 1915-ci illərdəki, habelə sonrakı erməni fitnəkarlıqlarını, saxta təbliğatlarını ifşa etməsini unutmamışdılar. Vaxtı ilə Ə.Ağaoğluna ünvanlanan böhtanlı təbliğat kompaniyası indi də Ə.Topçubaşını hədəfə götürmüşdü.

Konfransa bir qədər də gec qatılmağın daha ciddi mənfi nəticələr verə biləcəyi gözönündə idi. Buna görə də Sülh nümayəndəliyinin iki hissəyə bölünüb hərəkət etməsi (verilən icazələrə uyğun olaraq), Ə.Topçubaşının isə əməkdaşlar və köməkçi heyətlə birlikdə hələlik İstanbulda qalması qərara alındı. Təbii ki, həmin qruplar artıq heyət kimi çıxış edə bilməzdi. Və onlar digər nümayəndələrin də Parisə buraxılmalarına çalışmalı idilər.

Vəziyyətin belə gərginliyini görən Ə.Topçubaşı yeni adamlar göndəriləcəyi halda onlara icazənin elə Bakıda alınmasını məsləhət bilmişdi. O habelə maddi vəsaitlə bağlı məsələyə toxunaraq bunun pul tələbi kimi deyil, şəraitin çeşidli çətinliklərindən doğan ehtiyatlılıq kimi başa düşülməsini istəmişdi.

Sülh nümayəndəliyinin, ələlxüsus da Ə.Topçubaşının konfransa buraxılmasının ləngiməsi çıxılmaz, böhranlı vəziyyət yaratmışdı. Bununla əlaqədar olaraq birara (martın sonu) hətta sədrin əvəzlənməsi problemi də yaranmışdı. Nümayəndə heyəti üzvləri sırasından heç kəs sədr məsuliyyətini daşımaq istəmədi.

M.H.Hacınski müəyyən diplomatik iş səriştəsinə malik olan M.Cəfərovun və X.Xasməmmədovun namizədlikləri üzərində dayanmışdı. F.Xoyskinin də ermənilərin böhtan kompaniyası ilə üzləşə bilmək ehtimalı olduğundan onun adı çəkilmədi. Azərbaycan hökuməti isə Ə.Topçubaşının Parisə gedə bilməyəcəyi təqdirdə sədrliyi M.H.Hacınskiyə verməsini məsləhət bildi (17.IV.1919).

Lakin vəziyyət çox tezliklə Sülh nümayəndəliyinin (Əlimərdan bəyin) xeyrinə köklü şəkildə dəyişdi. V.Vilsonun Azərbaycan məsələsini konfransda müzakirəyə çıxarmaq



istəməsi ərəfəsində AXC nümayəndə heyəti tələsik Parisə dəvət olundu. İstanbuldakı son üç aylıq qorxulu nigarançılıqdan sonra Sülh nümayəndəliyi Ə.Topçubaşının başçılığı ilə, ancaq Ə.Ağaoğlusuz, habelə əməkdaşlarsız, xidmətçilərsiz yola çıxdı (22.IV.1919). Nümayəndə heyəti gec də olsa – hadisələrlə zəngin və maraqlı bir dövrdə (7.V.1919) – Parisə yetişərək dərhal gərgin və səmərəli diplomatik fəaliyyətə başladı.

## Azərbaycan istiqlalının tanınması naminə mübarizə: çətinliklər və uğurlar

Dövlətimizin və müstəqilliyimizin beynəlxalq aləmdə tanınması naminə mücadilə AXC Sülh nümayəndəliyinin Paris konfransındakı çoxşaxəli fəaliyyətinin mərkəzində dayanırdı. Azərbaycan istiqlalının beynəlxalq birlik tərəfindən bəyənilməsi və müdafiəsi uğrunda Sülh konfransında aparılan mübarizə bir sıra ciddi problemlərin dəf olunması baxımından müəyyən şərti mərhələlərdən keçməli oldu.

İlk növbədə, Azərbaycanın konfransa və onun vasitəsi ilə də Qərbə təqdim edilməsi işinin təşkili tələb olunurdu. Yəni Qərb dünyasının Azərbaycanla bağlı məlumatsızlığı problemi və ondan doğan çətinliklər aradan qaldırılmalı idi. Bunlar AXC-nin tanınmasını əngəlləyən amillər sırasında heç də az rol oynamırdı.

Konfransın və Avropanın siyasi-sıravi ictimaiyyətinin Azərbaycan haqqında məlumatlandırılması: **1)** müxtəlif səpkili materialların yayılması; **2)** beynəlxalq məclisin rəhbərliyi, habelə Sülh nümayəndəlikləri ilə çoxtərəfli və ikitərəfli görüşlərin keçirilməsi; **3)** mötəbər toplantının ümumi və bölmə müzakirələrinə qatılmaq və s. yollarla mümkün idi.

AXC Sülh nümayəndəliyi Azərbaycanın dövlətçilik tarixi, mövcud durumu və problemləri, iqtisadi-mədəni potensialı, inkişaf perspektivləri ilə bağlı çoxsaylı materiallarla təchiz olunmuşdu. Konfransa və Qərb ictimaiyyətinə təqdim

olunaraq yayılan materiallar-kitablar sırasında bunlar xüsusi ilə önəmli idi:

- "Paris Sülh konfransına Qafqaz Azərbaycanı Sülh nümayəndəliyinin tələbləri" (Memorandum), AXC-nin nəzarət və iddia etdiyi ərazilərə dair xəritələr;
- "Azərbaycanın iqtisadiyyatı və maliyyə vəziyyəti";
- "Azərbaycan əhalisinin etnik tərkibi haqqında";
- "Ermənilərin müsəlman əhalisi üzərində etdikləri vəhşiliklər haqqında";
- "Azərbaycan rəqəmlərdə" (Bakıdan sonralar göndərilmişdi. Sözgəlişi, Ə.Topçubaşı bu cür materialların və Azərbaycanda işlərin vəziyyətinə dair sanballı məlumatların alınmamasının (ya da onların azlığının) nümayəndəliyin fəaliyyətinə mənfi təsir göstərdiyini də yazırdı).

Azərbaycan istiqlalının tanınması sahəsində aparılan işdə nümayəndə heyətinin çoxsaylı diplomatik görüşləri və müzakirələri də faydalı oldu. Sülh nümayəndəliyi hələ Parisə yetişməmiş konfransın Dördlər Şurasının iclasında *(2.V.1919)* V.Vilsonun təşəbbüsü ilə Azərbaycan məsələsinin müzakirəsi və çıxarılan qərarlar da gələcək fəaliyyət üçün tutarlı stimul yaratdı.

Bu iclasda: **a)** AXC nümayəndə heyətinin konfransa buraxılması və **b)** Ə.Topçubaşının nümayəndəliyin başçısı kimi tanınmasının razılaşdırılması sonrakı diplomatik müzakirələr üçün əlverişli şəraiti təmin etdi. Tez bir zamanda - təxminən bir ay ərzində Müttəfiqlərin və qonşu dövlətlərin nümayəndə heyətləri ilə fikir mübadilələri aparıldı. Habelə Vilson tərəfindən qəbula nail olundu və konfransın sədri, habelə İngiltərə, İtaliya, Yaponiyanın hökumət başçıları ilə görüşlərə səylər göstərildi.

Bu ikitərəfli görüş və müzakirələr bir neçə səbəbdən əhəmiyyət kəsb edirdi. Və, ən başlıcası isə, konfransdan güdülən məqsədlərin gerçəkləşməsi və arzulanan nəticələrə varılması Müttəfiqlərarası əlaqələrin, habelə onların Avropa-



nın digər dövlətləri ilə münasibətlərinin öyrənilməsini şərtləndirirdi. Bu isə qarşıdakı gərgin və mürəkkəb diplomatik çəkişmələrdə düzgün xəttin yeridilməsi üçün də vacib idi.

İlkin belə görüşlər konfransdakı İngiltərə təmsilçisi L.Malletlə (23.V.1919) və ABŞ nümayəndəsi Q.Morqentau ilə (28.V.1919) keçirildi. Bu görüşlərdə Qərb diplomatları Azərbaycan barədə məlumatlandırıldılar. Nəticə isə bizə göstəriləcək diplomatik-maliyyə yardımı vədindən ibarət oldu. Arada Azərbaycanla tarixi əlaqələrə malik olan Polşa dövlətinin nümayəndəliyi ilə də danışıqlar aparıldı (Qafqaz dövlətləri və İranın təmsilçiləri ilə görüşlərdən az sonra bəhs olunur).

AXC Sülh nümayəndəliyinin bu görüşləri – Paris konfransındakı ilk addımları arasında onun V.Vilson tərəfindən qəbulu (28.V.1919) xüsusi yer tutur. Bu qəbul-görüşün özəl bir üstünlüyü vardı. Belə ki, Müttəfiq dövlətlərin başçıları adətən Sülh nümayəndəliklərini şəxsən qəbul etmirdilər. Göründüyü kimi, bu məsələdə Azərbaycan üçün istisnalıq olmuşdu.

V.Vilsonla görüşdə AXC nümayəndəliyi ABŞ prezidentində Azərbaycan haqqında ətraflı və dürüst təəssürat yaratmağa çalışdı. Həm buna, həm də digər səbəblərə görə Ə.Topçubaşının çıxışında və onun yazılı kiçik məruzəsində (xatırlatmada), bütövlükdə müzakirələrdə aşağıdakı məqamlar xüsusi olaraq vurğulandı:

- ABŞ-ın və şəxsən də V.Vilsonun yeni dünya düzəni formalaşdırmaq istiqamətindəki fəaliyyəti;
- Azərbaycanın müstəqil yaşamaq imkanları və belə bir istəkdə israrı;
- konfransın nümayəndəliyimizi dinləməsi və Azərbaycanın da Millətlər Cəmiyyətinə buraxılması;
- Amerikanın Azərbaycana yardım göstərməsi;
- Quzey Azərbaycanda cümhuriyyətin yaranmasından sonra ölkənin durumu;
- Azərbaycanın Rusiyadan qəti ayrılması, onunla coğ-

rafi-etnoqrafik əlaqələrə malik olmaması və çarizmin Qərb dövlətlərinə olan borcundan payına düşəni tədricən ödəməyə dair təminat verməsi;

- Qafqaz Konfederasiyasının mümkünlüyü;
- ermənilərin haqsız ərazi iddiaları və zorakılıqları ilə üzləşən Azərbaycanın maddi-insan itkiləri;
- xeyli görkəmli hərbçimizin yaxın keçmişdə Rusiya ordusunun tərkibində vuruşmaları və Antantanın bəzi ehtiyaclarının ödənilməsinə Azərbaycanın yardımı.

Bütün bu mülahizə və istəklərin yekunu olaraq Sülh nümayəndəliyi ABŞ prezidentinə xahiş ruhlu və ahəngli tələblər də verdi:

1. Azərbaycanın müstəqilliyinin tanınması.
2. Vilson prinsiplərinin Azərbaycana da şamil edilməsi.
3. Azərbaycan nümayəndə heyətinin Sülh konfransında iştirakına icazə verilməsi.
4. Azərbaycanın Millətlər Cəmiyyətinə qəbul olunması.
5. ABŞ hərbi departamentinin Azərbaycana hərbi yardım göstərməsi.
6. ABŞ ilə Azərbaycan Respublikası arasında diplomatik münasibətlər yaradılması.

V.Vilson görüşdə qaldırılan məsələlərə və sonda verilən tələblərə birmənalı münasibət bildirmədi. O, **əvvələn**, Sülh nümayəndəliyimizə konfransa memorandum verməyi təklif etdi. **İkincisi**, mövqeyini açıqlayarkən bəzi məqamları önə çəkdi: **a)** konfrans (ABŞ) dünyanın kiçik hissələrə bölünməsini istəmir; **b)** Azərbaycanın Qafqaz Federasiyası yaradılmasına tərəfdar çıxması onun üçün daha yaxşı olardı; **c)** bu federasiya Millətlər Cəmiyyətinin tapşırığı ilə hər hansı bir dövlətin himayəsi altında ola bilərdi; **ç)** Azərbaycan məsələsi rus məsələsindən əvvəl həll edilə bilməz.

ABŞ prezidentinin belə bir xətt tutmasına, **1-cisi**, "ağ Rusiya"nın fəallaşması, **2-cisi,** erməni təbliğatı, **3-cüsü** də, Müttəfiqlərin Kolçak hakimiyyətinin keçmiş Rusiya imperiyası ərazisində tanınmasına dair notası (26.V.1919) və s.



təsir göstərmişdi.

Sülh konfransına təqdim ediləcək Memorandumun hazırlanması ilə bağlı nümayəndəliklərlə görüşlərə və müzakirələrə qısa müddətə ara verildi. Memorandumun hazırlanması prosesində və konfransa təqdimatı ərəfəsində nümayəndəlik müəyyən mülahizələrə əsasən AXC hökumətinin aşağıdakı məsələlərlə bağlı məlumatlar çatdırılmasını istədi:

Azərbaycanda və qonşu dövlətlərdəki vəziyyət (İran istisna olunmamaq şərti ilə); Müttəfiq komandanlığının ölkəmizdəki rolu; "Könüllü Ordu"nun Şimali Qafqazdakı əməliyyatları; parlament və hökumətimizin fəaliyyəti; ümumdövlət həyatının diqqətəlayiq hadisələri.

AXC nümayəndə heyəti Memorandum üzərində işi tamamlayıb onu Sülh konfransının katibliyinə təqdim etdi. "Parisdəki Sülh konfransına Qafqaz Azərbaycanı Sülh nümayəndəliyinin tələbləri" adlı bu sənəd diplomatiyamızın şah əsəri kimi də dəyərləndirilir. O, 14 bölümdən ibarətdir.

I-IV bölümlərdə tarixi-siyasi məsələlərin qısa şərhi verilmişdi. Burada Azərbaycanın mənşəyi, coğrafi hüdudları, etnoqrafiyası, son orta çağ feodal dövlətləri sayılan xanlıqlar və onların süqutu, Rusiya işğalı və Şimali Azərbaycanda dövlətçiliyin bərpası, AXC hökuməti və paytaxtı kimi problemlər tezisvari ifadə olunmuşdu.

V-VII bölümlər Azərbaycanın üzləşdiyi bolşevik-erməni təhlükəsinin mahiyyətini açıqlayır, birgə təcavüzün qurbanları, bolşeviklərin Bakıda və çevrəsində hakimiyyəti zəbt etmələri, onun qurtuluşu və buna Türkiyənin yardımı məsələlərini ehtiva edirdi. VIII bölümdə müttəfiqlərin "idarəçiliyi" şəraitində Azərbaycanda (Bakıda) siyasi vəziyyət, bolşevik üsul-idarəsinin bərbad hala saldığı ölkədə quruculuq işləri, çağdaş dövlətçiliyin inkişafı (parlamentin təşkili) və s. məsələlər nəzərdən keçirilir.

Memorandumun IX-X bölümləri konfransda müzakirə olunan problemlərlə daha sıx bağlılığına görə diqqəti çəkir. Burada Azərbaycanın ərazisi və əhalisi, onun inzibati

bölgüsü, AXC hökumətinin nəzarət və iddia etdiyi bölgələr haqqında məlumatlar verilir (Bu bölümlər az sonra ətraflı nəzərdən keçiriləcəkdir).

XI-XIII bölümlər də Müttəfiqlərin və konfrans iştirakçılarının maraqları baxımından çox əhəmiyyətli idi. Bölümlərdə Azərbaycanın iqtisadi potensialı – təbii sərvətləri,ələlxüsus da neft amili, maliyyə imkanları (1919-cu il büdcəsi), AXC-nin Rusiya və Qafqaz respublikaları ilə münasibətləri, Millətlər Cəmiyyətinə dair mövqeyi, azərbaycanlıların çağdaş durumu və gələcəyi səciyyələndirilmişdir.

Sonuncu (XIV) bölümdə Azərbaycanın müstəqil dövlət olaraq mövcudluğu imkanları və istəyi vurğulanır, konfrans qarşısında qoyduğu tələbləri açıqlanır:

**1.** Sülh konfransı Qafqaz Azərbaycanının Rusiya imperiiyasından ayrılmasını bəyənsin. Azərbaycan – sərhədləri Memoranduma əlavə olunan xəritədə göstərilən və Azərbaycan Xalq Cümhuriyyəti adı ilə tanınan tam müstəqil dövlət olacaqdır.

**2.** Azərbaycan Respublikası Sülh nümayəndəliyinin üzvləri Sülh konfransının və onun komissiyalarının işinə cəlb olunsunlar.

**3.** Azərbaycan Respublikası, başqa dövlətlər kimi yüksək himayəsi altında olmaq istədiyi, Millətlər Liqasının üzvlüyünə qəbul edilsin.

Sülh konfransında Azərbaycan istiqlalının tanınması və ərazi bütövlüyünün təminatına qarşı yönələn başlıca əngəllərdən biri "Vahid və bölünməz Rusiya" ideyası, onun Müttəfiqlər tərəfindən (fərqli yanaşmalarla) müdafiə olunması idi. Çünki "Rusiyanın bölünməzliyi" ilə razılaşılması Azərbaycanın da istiqlalının tanınmasının üstündən xətt çəkirdi. Bu manеənin dəf olunması – təhlükənin sovuşdurulması bir sıra işlərin görülməsini, ələlxüsus da Rusiya imperiyasının hüdudlarında yaranan yeni dövlətlərin, ən başlıcası isə, Qafqaz respublikaları Sülh nümayəndəliklərinin ortaq mövqeyini və əməkdaşlığını şərtləndirirdi.



"Vahid və bölünməz Rusiya" ideyasına Müttəfiqlərin ilk ciddi dəstəyi Kolçak hakimiyyətinin bütün keçmiş Rusiya İmperiyası ərazisində tanınması oldu. Onlar bunu Antanta Ali Şurasının Kolçaka ünvanladığı notalarla (26.V və 12.VI.1919) rəsmiləşdirdilər. Bu hərəkətə ilk və kəskin münasibəti AXC-nin Sülh nümayəndəliyi bildirdi. Nümayəndə heyətinin diplomatik etirazlarında – Müttəfiq dövlətlərin liderlərinə, konfransın sədrinə göndərdikləri bəyanat (31.V.1919) və notada (5.VI.1919) bu məqamlar vurğulandı:

- Müttəfiqlərin notalarında ifadə olunan mövqenin AXC-nin maraqlarını nəzərə almaması və onun mənafelərinə toxunması;
- Azərbaycanın Rusiya rejiminə qarşı mübarizədə xeyli maddi və insan itkisinə məruz qalması;
- Rusiyada kimin hakimiyyətinin tanınmasından asılı olmayaraq yalnız öz parlamenti və hökumətini qəbul edən Azərbaycanın yenidən onun tərkibinə qatılmasının mümkünsüzlüyü.

AXC Sülh nümayəndəliyi fərdi etirazların yetərsizliyini yaxşı dərk edirdi. Buna görə də o, Rusiya imperiyasının çökməsindən sonra yaranan dövlətlərin konfransdakı təmsilçilərinin müvafiq tədbirlərinə də qatıldı. Bu numayədəliklərin birgə fəaliyyətinə kəskin ehtiyac vardı.

Çünki Müttəfiqlərin Kolçakın hakimiyyətini geniş coğrafi hüdudlarda tanımaları ilə yanaşı baş vurduqları digər hərəkətlər və rəvac verdikləri proseslər "Vahid və bölünməz Rusiya"ya işləyən yeni situasiyanın yaranmasına müsbət təsir göstərirdi: **a)** Dağıstanı tutaraq Gürcüstanla Azərbaycanı təhdid edən Denikinin "Könüllü Ordu"sunun təcavüzkar hərəkətlərinə Müttəfiqlərin "göz yummaları"; **b)** ingilis qoşunlarının Qafqazı tərk etməyə (italyanlarla əvəzlənməyə) hazırlaşması.

Mövcud yeni şərait postçarlıq məkanı dövlətlərinin Sülh konfransındakı təmsilçilərini xeyli fəallaşdırdı. Tezliklə "yeddilər"in (Azərbaycan, Gürcüstan, Şimali Qafqaz, Ukray-

na, Latviya, Belorusiya, Estoniya) Bəyannaməsi (17.VI.1919) və "üçlər"in (Azərbaycan, Gürcüstan, Şimali Qafqaz) notası ilə (23.VI.1919) Sülh konfransına etirazlar edildi. V.Vilsona da təqdim olunan (18.VI.1919) Bəyannamədə Rusiyadan ayrılan yeni dövlətlərin tanınmasının "rus məsələsi"nin asılılığından çıxarılması istənildi.

Denikin təhlükəsinin qüvvətlənməsi, ingilislərin regiondan çıxmağa hazırlaşmaları və s. Qafqaz dövlətlərinin Sülh nümayəndəliklərindən daha əlbir işləməyi, məsuliyyəti artırmağı tələb edirdi. Buna görə də 7 bənddən ibarət 23 iyun notası ilə Kolçak və Denikinlə bağlı etirazlarını bildirən "üçlər" Rusiyaya qatılmaqdan imtinada israrlı idilər. Müttəfiqlərin "Vahid və bölünməz Rusiya"ya münasibətdə zahiri həmrəylik nümayiş etdirmələrinə baxmayaraq fərqli baxışlar da ortaya çıxırdı. Qatı "bölünməz Rusiya"çılarla (Fransa, İtaliya) bu məsələlərdə görüntü yaradanların (İngiltərə, ABŞ) fikir ayrılıqları hiss olunurdu.

Ancaq Müttəfiqlər arasında Rusiya imperiyasının bərpasına inam artdığından nə onların təmsilçiləri, nə də konfrans qafqazlıların (ermənilərsiz) etirazlarına münasibət bildirmirdi. Qafqazdakı digər üç dövlətin Sülh təmsilçiləri isə bu və digər hallara məhəl qoymadan fəaliyyətlərini daha sıx əlaqələndirməyə başladılar. Onların nəzərə nöqtəsinə görə, ingilislərin Qafqazı tərk etmələri və Denikin təcavüzü regionun Rusiyaya qatılması, yenicə qazanılan müstəqilliklərin tanınmadan itirilməsi demək idi.

Buna görə də AXC, GR və DR Sülh nümayəndəliklərinin birgə müzakirələrində (12,24,27.VII; 6.VIII.1919) Müttəfiqlərə müvafiq etirazlar edilməsi ilə yanaşı Qafqaz Konfederasiyasına dair məsələlər də özünə yer almışdı. Qafqaz Konfederasiyanın gələcəyi ilə bağlı İranın "xəbərdarlığı" – qınağına tuş gələn Azərbaycan bu məsələdə daha maraqlı idi.

Ə.Topçubaşının AXC Nazirlər Şurasının sədrinə göndərdiyi diplomatik materiallardan (8-10.VI.1919, №7; 8-



9.VII.1919, №8) – "Paris məktubları"ndan aydın olduğu kimi, müzakirələrin gedişi və nəticəsində:

- Qafqaz respublikalarının siyasi-iqtisadi ittifaqda (konfederasiyada) birləşməsi məsələləri (onun mümkünlüyü, perspektivləri və s.) ilə bağlı qarışıq və ya Dağlı-Gürcü-Azərbaycanlı Ümumi Komissiyası (M.H.Hacınski, M.Mehdiyev və b.) yaradılmışdı;
- gömrük ittifaqı və iqtisadi əməkdaşlığın zəruriliyini dərk edən gürcülərin siyasi birliyə (konfederasiyaya) münasibətdə son vaxtlar bir qədər tərəddüdlü-tərəfsiz mövqedə dayanmaları aydınlaşmışdı;
- Sülh nümayəndəliyimizin konfederasiyada hər bir respublikanın öz muxtariyyətini saxlamasının zəruriliyinə dair mövqeyi açıqlanmışdı;
- bizim və dağlıların, meydana çıxa biləcək, ərazi-sərhəd mübahisələrinin həllinə hazır olduğu elan edilmişdi;
- ermənilərə də bu ittifaqa qoşulmaları təklifinə "konfederasiyada yalnız Türkiyə və Qafqaz Ermənistanından təşəkkül tapacaq "Vahid, bütöv Ermənistan"la iştirakın mümkünlüyü" cavabı alınmışdı.

Sonuncu məsələ ilə bağlı bəzi məqamların nəzərdən keçirilməsinə ehtiyac vardır. Bu, istər konfransdakı diplomatik qarşıdurmanın ümumi mənzərəsinin daha da aydınlaşdırılması, istərsə də ermənilərin "Qafqaz Birliyi (Evi)"nə törətdikləri əngəllərin açıqlanması baxımından gərəklidir. Ermənilər bu dövrdə daha çox "ağ Rusiya"ya üstünlük verirdilər. Buna görə də Kolçak və Denikinlə hərtərəfli əlaqələr qurduqlarından Qafqaz Sülh nümayəndəliklərinin birgə fəaliyyətinə (tədbirlərinə) qoşulmurdular.

Ermənilər Paris konfransında iki nümayəndə heyəti ilə (türkiyəli və qafqazlı soydaşları adından) iştirak edirdilər. Poqos Nubarın və Aqaronyanın başçılıq etdikləri bu nümayəndəliklər əlbir fəaliyyət göstərirdilər. Onlar "Qafqaz hüdudlarını aşan ümumerməni mövqeyindən çıxış edirdilər" (Ə.Topçubaşı). Ziyalı və zənginlərinin Avropa mərkəzləri və

Amerikadakı əlli ildən çoxsürən çoxşaxəli fəaliyyəti ermənilləri konfransda üstün mövqelərə çıxarmışdı.

Əlimərdan bəyin qeyd etdiyi kimi, bu üstünlük (böyük plyus) erməniləri onlara xas və hamıya da bəlli olan minuslardan hələlik qoruyurdu. Beynəlxalq şərait (Türkiyənin "miskin nəhəng" halına düşməsi, Qərb və "ağlı-qırmızılı Rusiya"dakı erməniporəstlik hərəkatı, mövqeyi, ruhu) onların xeyrinə işləməkdə davam edirdi. Bu cəhətdən də Ermənistan Respublikası Sülh nümayəndəliyinin Qafqaz problemlərinin həllinə dair əməkdaşlıqdan yayınması təsadüfi deyildi. Bəhanə, əslində isə, prinsip bu idi: "Sizi məhdud Qafqaz maraqları məşğul edir, bizim isə bütün erməni xalqının, birləşmiş Ermənistanın mənafeyi ilə bağlı qayğılarımız var" (Aqaronyan).

Lakin AXC nümayəndəliyi zəmanənin ağır şərtləri və Qafqaz xalqlarının (hətta ermənilərin də) mənafeləri baxımından birgə fəaliyyətdə israrlı idi. Məhz buna görə də Sülh nümayəndəliyimiz bəzi təşəbbüs-təkliflərlə çıxış etdi: **a)** Qafqaza xüsusi nümayəndə heyəti göndərilməsinə dair konfransa müraciətin qarışıq komissiyada müzakirəsi; **b)** konfransın nəzdində Qafqaz işləri üzrə xüsusi komissiyanın təşkilinin nəzərdən keçirilməsi.

Hər iki müzakirəyə dəvətli olan ermənilər qarışıq komissiyanın işində iştirakdan qətiyyətlə imtina etdilər. İkinci məsələnin müzakirəsinə isə müxtəlif bəhanə və oyunlardan sonra qatıldılar. Qafqaz dövlətləri Sülh nümayəndəliklərinin birgə müşavirələrinə (4 və 13.VIII.1919) bu və ya digər səviyyələrdə qatılan erməni təmsilçilər (Aqaronyan, Kaçaznuni və Papacanov) ikinci toplantıda üç suala cavab istədilər:

**1.** Qafqaz və Türkiyə Ermənistananıdan ibarət birləşmiş Ermənistana münasibətiniz? **2.** Sərhəd-ərazi mübahisələrinin Sülh konfransında qəti həllinin zəruriliyini etiraf edirsinizmi? **3.** İngilis qoşunlarının Qafqazdan çıxarılmamasına dair konfransa müraciəti zəruri sayırsınızmı?

Əslində suallarına elə özləri də cavab verən ermənilər



təkliflərinə ("Vahid Ermənistan"ın tanınması; ərazi problemlərinin Sülh konfransında həlli; ingilislərin Qafqazda qalmaları) dair mövqe və dəlillərini də açıqladılar:

- müstəqil Azərbaycanın və Gürcüstanın mövcudluqlarının etirafının qarşılığında vahid, birləşmiş Ermənistanın tanınması;
- onlar üçün son dərəcə vacib sayılan bu üç məsələdə ümumi razılığa gəlməyincə, konfransa birgə təklif verilməsi ideyasına qoşulmağın mümkünsüzlüyü;
- həmin problemlərə dair ümumi rəyə nail olunmadığı halda təklif edilən komissiyanın yaradılmasına əngəl törədiləcəkdir.

İngilis qoşunlarının Qafqazda qalması məsələsində ümumi anlaşma olsa da hərtərəfli məsləhətləşmələr aparılması razılaşdırıldı. Bunlarla bağlı geniş müzakirələr, əsasən, ikitərəfli (Azərbaycan-Gürcüstan) birgə iclaslarda (14 və 23.VIII, 18.IX.1919) aparıldı (Çünki ermənilər özünütəcrid xəttini davam etdirirdilər. *Dağlı nümayəndə heyəti isə dağılmaq üzrə olduğundan bu dövrdə əvvəlki fəallığını göstərə bilmirdi*). 14 avqustdakı məşvərətdə problemlərin həllinə yönəlik çoxlu təklif və mülahizələr səsləndi (Ərazi-sərhəd mübahisələrinə dair məsələlər az sonra izah ediləcəkdir):

**1.** "Vahid və birləşmiş Ermənistan"ın tanınmasının qeyri-mümkünlüyü. Bu mövqeyə dair gətirilən dəlillər də tutarlı və yetərli idi:

- Şərqi Anadoludakı altı vilayətin türk-müsəlman əhalisinə (çoxluğa) ermənilərin (azlığın) ağalıq etməsinə razılığın imkansızlığı (Çxeidze);
- birləşmiş Ermənistanın tanınmasının ədalət və sərbəst təyin-müqəddərat hüququ baxımından əsassızlığı (C.Hacıbəyli);
- vahid Ermənistanın uzunsürən və geniş təşviqat vasitəsi ilə Avropa ictimai xadimlərinin zehniyyətinə yeridilən bir ideya olması (Qvarceladze);
- birləşmiş Ermənistanın hansı hüdudlarda (sərhədlər-

də) düşünüldüyünün izahının tələb olunması (Şeyxülislamov);

- biz Antantanın, qonşuların qanuni hüquqları və maraqlarına zidd olmayan əsaslarla və hüdudlarda, milli erməni dövlətini yaratmasının əleyhdarı deyilik (Avalov);
- ermənilərin Türkiyə Ermənistanının yalnız nəzəri baxımdan tanınmasını tələb etmələri (Ə.Topçubaşı);
- ermənilər suallar qoyurlarsa, onda Denikinə münasibət bildirməlidirlər. Kiminləsə, ələlxüsus da elə həmən Türkiyə ilə münasibətlərin birləşmiş Ermənistana qurban verilməməsi (Çxeidze);
- indi birləşmiş Ermənistan barədə danışmaq çox tezdir. Türkiyə Ermənistanı haqqında məsələ həll ediləndə (əgər bu baş verərsə) Qafqaz Ermənistanı indiki qərarına yenidən baxa bilər (Məhərrəmov).

**2.** İngilis qoşunlarının hələlik Qafqazda saxlanılmasının zəruriliyi. Tərəflər (Məhərrəmov və b.) qeyd etdilər ki, bu, ermənilərdən daha çox Azərbaycan və Gürcüstan respublikalarına lazımdır. Həm də məsələnin motivlərinə fərqli baxışlar özünü göstərirdi. Hər iki tərəf qoşunların regionda qalmasına Dağıstanın işğalı ilə Qafqaz üçün getdikcə artan xarici təhlükənin ("Könüllü Ordu"nun təcavüzünün) önlənməsi prizmasından yanaşırdı.

Bu məsələdə daha maraqlı görünən ermənilər isə daxili təhlükə motivini (qafqazlı qonşular amilini) önə çəkirdilər. Ermənilər həm keçmişdə qonşularına qarşı törətdiklərinə görə cəzalandırıla bilmələrindən qayğılanırdılar. Həm də Qafqazdakı ingilis qoşunlarını respublikalarının təminatçısı kimi dəyərləndirirdilər. Həmin iclasda belə bir mülahizə də vurğulandı ki, bu təklifdən də imtina ermənilərin geniş təxribatlarına material (fürsət) verə bilər (Məhərrəmov).

Bu və digər məsələlərin müzakirəsi Qafqazın bütün (dörd) nümayəndə heyətlərinin iştirakı ilə keçən ilk yığıncaqda (15.VIII.1919) davam etdirildi. Erməni tərəfi siyasi oyunbazlığını davam etdirərək iki gün əvvəl ortaya qoyduğu sualları müzakirə obyekti kimi deyil, oradakı söhbətlərdən irəli gələn nəticə olaraq səciyyələndirdi. O, Müttəfiq (ingilis) qoşunlarının Qafqazda saxlanmasına dair konfransa müraciətin təcili müzakirəsində təkid etdi.



Dağlılar bununla razılaşmadılar. Münasibətlərin korlanmaması naminə razılıq əldə edildi. Digər məsələlərin müzakirəsi üçün başqa bir iclas çağrılması və qoşunların saxlanmasına dair dərhal müraciət edilməsi barədə qərar qəbul olundu. Qoşunların saxlanmasının motivləri mübahisələr doğurduğundan mətndə onların açıqlanmaması razılaşdırıldı.

Gürcüstan və Azərbaycan təmsilçilərinin birgə iclasında (23.VIII.1919), habelə bütün nümayəndə heyətləri sədrlərinin daha üç toplantısındakı məsləhətləşmələrdən sonra mətnin axırıncı variantı ərsəyə gəldi. Müraciət üç sədrin (dağlılarsız) imzası ilə konfransın sədarətinə təqdim olundu (23.VIII.1919). Burada respublikaların istiqlalı tanınadək ingilis qoşunlarının regionda saxlanılması xahiş edilirdi.

Azərbaycan Sülh nümayəndəliyi belə bir ümumi xahiş prosesində fəal iştirak etsə də ehtiyatlılıqdan irəli gələn bəzi işləri də görürdü. Belə ki, istər Qərb diplomatları, istərsə də Qafqaz Sülh nümayəndəlikləri ilə (gürcü və dağlılarla) ilk görüşlərdən etibarən Denikin təhlükəsi, ingilislərin italyanlarla əvəzlənməsi və oriyentasiya məsələlərinə də ciddi diqqət yetirilmişdi.

Denikin təhlükəsi ilə bağlı:

**a)** ikitərəfli (dağlılarla – 30.V.1919), habelə üçtərəfli (gürcülər və dağlılar – 15.VI.1919) danışıqlarda Qafqaz Konfederasiyası yaradılması müzakirə olundu, üç nümayəndəliyin əlbir diplomatik fəaliyyəti haqqında qərar qəbul edildi;

**b)** çoxlu etiraz notaları hazırlanıb Müttəfiqlərə və konfransa təqdim olundu (onların bir qisminə əvvəldə toxunulmuşdur);

**c)** Ə.Topçubaşı iyulun əvvəlində ingilis Sülh nümayən-

dəliyinin başçısı ser Malletlə görüşdü. "Könüllü Ordu"nun, bolşeviklərə qarşı istifadə üçün Müttəfiqlərin verdiyi silahla, bizə hücuma keçəcəyindən qayğılanan Əlimərdan bəy həmsöhbətindən "bizim və Gürcüstanın təhlükəsizliyinə təminat" aldı. Ə.Topçubaşı Malletin məsləhəti ilə həm də ingilis Sülh nümayəndəliyinin üzvü – Qafqazın bilicisi prof. Simpsonla görüşdü. Professor dağlıların, müstəqil dövlət qurmaq istəmədiklərindən, Denikin tərəfindən işğala özlərinin yardım göstərmələrini qeyd edərək Ə.Topçubaşını sakitləşdirmişdi: "Dağıstan sizindir və Denikin sizin ölkəyə gəlməyəcək". Əlavə olaraq O.Uordropun (Vudrop da yazılır) bu məqsədlə də ingilis təmsilçisi – Transqafqazdakı Ali komissar kimi regiona göndərildiyi də bildirildi;

**ç)** Müttəfiqlər və konfransın rəhbərliyi Azərbaycan-Gürcüstan müqaviləsi ilə (16.VI.1919) əlaqədar məlumatlandırıldı. Bu zaman həmin sazişin Ermənistana qarşı olmadığı vurğulandı;

**d)** Ə.Topçubaşının Sülh konfransının sədrinə göndərdiyi (9.IX.1919) məktubla: 1) Denikin qoşunlarının demarkasiya xəttini keçməmələri; 2) Dərbəndin onlardan təmizlənməsi və 3) "Könüllü Ordu"nun əlinə keçən Azərbaycan gəmilərinin geri qaytarılması tələb olundu.

## Qafqaz üzərində Qərb mandatlığı məsələsi və Azərbaycanın mövqeyi

Qafqazdakı ingilis qoşunlarının italyanlarla əvəzlənməsi və, ümumiyyətlə isə, region (Azərbaycan) üzərindəki Qərb mandatlığı məsələləri zəmanənin dövlətlərarası münasibətlərində mühüm yer tuturdu. Qafqaz dövlətləri arasında Qərb mandatlığına münasibətdə fərqli yanaşmalar mövcud idi. Ancaq əlverişsiz beynəlxalq şərait Azərbaycanın mandatlıqla razılaşmasını şərtləndirirdi.

Bu, bir tərəfdən, Müttəfiqlərin Ümumrusiya məsələsinin həllinə qədər Qafqaz cümhuriyyətlərinin müstəqilliyinin



müzakirəsi və tanınması ilə məşğul olmamaq siyasətindən irəli gəlirdi. Digər tərəfdən də, Azərbaycan ciddi xarici təhlükə (Rusiyanın gözlənilən təcavüzü) ilə üzləşdiyindən himayəyə kəskin ehtiyac duyurdu. Osmanlının böyük hərbdəki uğursuzluğu Azərbaycanı doğma himayədən məhrum etmişdi. Buna görə də nəzərlər Qərb dövlətlərinə yönəlmişdi.

Belə bir şəraitdə də, Ə.Topçubaşının qeyd etdiyi kimi, Müttəfiqlərə deyil, yalnız "məğlublara qarşı güclü olan Sülh konfransının və onun "hələlik ölü doğulmuş uşağı"na oxşayan Millətlər Cəmiyyətinin mandatlıq sistemi ideyası ortalığa atıldı. Maraqlıdır ki, Qafqazda nüfuz dairələri uğrunda bir-birləri ilə çəkişən "qaliblər" regiona dair mandatı qazanmaqda çox da maraqlı və həvəsli görünmürdülər.

Müttəfiqlərin Qafqaz (Azərbaycan) mandatına dair baxışları, istinad etdikləri amillər və AXC-nin mövqeyi məsələlərinin bir sıra maraqlı məqamları problemətrafı diplomatik mənzərənin aydınlaşdırılmasına imkan verir.

**1. Böyük Britaniya hökuməti belə hesab edirdi ki:**

- ingilislər Qafqaza müvəqqəti missiya – onun problemlərinin Sülh konfransı tərəfindən həllinədək regionda asayişi saxlamaq üçün gəlmişlər;
- Qafqazın (Azərbaycanın) ingilis imperiyasına qatılması mümkünsüzdür;
- imperiyanın hüdudlarının genişləndirilməsinə deyil, yeni işğal olunan ərazilərin əldə saxlanılmasına üstünlük verilməlidir;
- Qafqaz xalqlarının münasibətlərindəki gərginlik və səbatsızlıq onların idarəçiliyini çətinləşdirir;
- ABŞ ilə Fransanın regiona buraxılmaları və orada möhkəmlənmələrinə şərait yaradılması arzuolunmaz və yolverilməzdir. Buna görə də ingilis qoşunları italyan hissələri ilə əvəzlənməlidirlər. Yalnız bu cür əvəzlənmə İngiltərənin maraqları və Yaxın Şərqdəki qüvvələr tarazlığı baxımından sərfəlidir.

Böyük Britaniya hökumətinin Qafqazdan (Azərbay-

candan) çəkilmək qərarına – ingilislərlə italyanlar arasındakı gizli ilkin sazişə (24.III.1919) də məhz yuxarıda sadalananların kontekstində yanaşılmalıdır. Qərar barədə Tomson vasitəsi ilə məlumatlandırılan (10.V.1919) Azərbaycan hökuməti ciddi rahatsızlıq keçirmişdi. Bununla əlaqədar isə general bildirmişdi ki, "...bu dəyişmə yalnız hərbi səciyyə daşıyır və səlahiyyətlər məsələsinə təsir etməyəcəkdir".

Tomson üçün də gözlənilməz olan bu qərarı o, "zorakılıq aktı və yeni yaranan respublikalara qarşı xəyanət" kimi qiymətləndirmişdi. AXC hökuməti və onun Parisdəki Sülh nümayəndəliyi Antantanın "ağ generallar"la yaxınlaşmasından daha da əndişələnirdi. Buna görə də ingilislərin italyanlarla əvəzlənməsi məsələsinin nəzərdən keçirilməsinə çoxlu, ancaq əbəs səylər göstərildi. Artıq özü də general Kori ilə əvəzlənmək üzrə olan Tomson qoşunların çıxarılmasına dair həm Böyük Britaniya hökumətində, həm də Sülh konfransında qərara gəlindiyini bildirmişdi.

İngilislərin Qafqaza (Azərbaycana) dair mövqeyindəki dəyişikliklər və çağdaş şəraitin sərt tələbi (Şimal təhlükəsinə qarşı möhkəm arxa tapılması) "bizi yeni istiqamət götürməyə, italyanlara doğru addımlamağa məcbur edirdi" (Ə.Topçubaşı). Azərbaycanın dövlət başçısı bunu həm də ölkəmizlə bağlı siyasətin bizsiz yürüdülməsi və onun çox çətin anlaşılan şəkildə meydana çıxması ilə əlaqələndirirdi.

**2. İtaliya hökumətinə görə:**

- onun Qafqazdakı maraqları yalnız iqtisadi səciyyə daşıyırdı;
- göndəriciləcək ordu heç də işğalçılıq məqsədi güdməyəcək, candarm rolunu oynamayacaq və ancaq iqtisadi-mədəni niyyətlərə xidmət edəcəkdi;
- regionda üç-beş ildən artıq qalmamaq nəzərdə tutulurdu;
- bu müddətdə Qafqaz cümhuriyyətlərinin konfederasiya yaradaraq güclənmələri və talelərini özlərinin həll etmələri istənilirdi. Rusiya Federativ Cümhuriyyəti yaranarsa Qafqaz Konfederasiyasının da ona qoşulacağı təqdirdə italyan qoşunları regionu tərk edəcəkdilər;
- italyan qoşunları Denikin və digərləri ilə savaşmayacaqdı;
- Qafqazın öz ordusunu saxlaması və İtaliyanın da ona yardım göstərməsi mümkün idi.



Bu və digər mülahizələrdən çıxış edən İtaliya ləngimədən Qafqaza (Azərbaycana) "himayə"yə başladı. Savoyya şahzadəsinin rəhbərliyi ilə ilk (fövqəladə) missiya (16.V.1919) və polkovnik M.Qabbanın başçılığı ilə hərbi heyət (22.V.1919) Bakıya gəlib AXC hökuməti ilə danışıqlar apardılar. Müzakirələrdə Denikin təhlükəsi ilə bağlı Azərbaycan ordusunun qüvvətləndirilməsinə dair müəyyən vədlər verildi. Ancaq italyan nümayəndəliklərini, əsasən, Azərbaycanın xammal ehtiyatlarından istifadə maraqlandırırdı.

Parisdəki Sülh nümayəndəliyimiz də italyanların ingilisləri əvəzləməsi və mandatlıqla bağlı bəzi mətləbləri aydınlaşdırmalı oldu. Ə.Topçubaşı Qabbanın missiyasının üzvü Valeri ilə görüşlər (13 və 28.VI.1919) keçirdi. Bu söhbətlərdə Valeri – **a)** AXC hökumətinin özünün çoxlu italyan əsgərinin göndərilməsinə razılığını, **b)** İtaliya dövlətinin tərəddüdlərini, **c)** Əlimərdan bəyin mövqeyini öyrənmək istədiyini vurğulamışdı.

Təxminən eyni vaxtda baş verən hadisələr Qafqaz (Azərbaycan) üzərində mandatlıq məsələsində sürprizlər yaratdı. Belə ki, Britaniya hökuməti "Sülh konfransı tərəfindən bəyənilmiş hərəkətlər planı ilə kökündən fərqlənən bir addım atdı" (Ə.Topçubaşı). Sülh konfransı ingilis qoşunlarının Qafqazdan çıxarılması ilə əlaqədar rəsmən məlumatlandırıldı (28.VI.1919). Müttəfiqlər ingilislərin italyanlarla əvəzlənməsinə dair qərar çıxardılar. Habelə Transqafqazın İtaliya mandatına verilməsi razılaşdırıldı.

Lakin İtaliyanın yeni hökuməti və Sülh nümayəndəliyi məsələyə fərqli münasibət bildirdi. Qafqaz üzərində İtaliya

mandatını baha başa gələ biləcək avantüra kimi dəyərləndirən yeni Baş nazir F.Nitti regiona qoşun göndərməkdən imtina etdi. Ümumiyyətlə, mandat qəbul olunmadı. Reallıqları nəzərə almaqla siyasət yeritməyə çalışan yeni hökumət Qafqaza qoşun göndərilməsini Rusiya ilə müharibəyə cəlb olunmaqla (artıq Türkiyəyə silahlı müdaxilədə iştirak edilirdi) ölkənin iqtisadiyyatının dağılması kimi qiymətləndirirdi.

Yeni şəraitlə bağlı AXC-GR-DR təmsilçiləri İtaliyanın Fransadakı səfirliyinin attaşesi qraf Saldino ilə qeyri-rəsmi görüş ("ziyafət diplomatiyası" tədbiri) keçirdilər. Saldino öz hökumətinin Qafqaza dair mövqeyini (yuxarıda sadalanan mülahizələrdən bəzilərini) burada açıqladı. Az sonra (31.VII.1919) İtaliya tərəfi Güney Qafqaza qoşun göndərməyəcəyinə dair rəsmi məlumatı Azərbaycan hökumətinə çatdırdı. İtaliya hökumətinin rəsmi bəyanatı ilə (5.VIII.1919) məsələyə nöqtə qoyuldu. İngidis qoşunlarının Qafqazı tərk etmələri ilə Azərbaycanda elə bir ciddi xarici hərbi qüvvə qalmadı. Ölkəmiz Rusiya təhlükəsi ilə üzbəüz-təkbətək dayanmalı oldu.

Ə.Topçubaşının "Paris məktubları"ndan birində (22-25.IX.1919, №9) qeyd edildiyi kimi, təxminən elə bu dövrlərdə gürcü Sülh nümayəndəliyi ilə aparılan birgə müzakirələrdə İngiltərəyə və gələcək Rusiyaya doğru istiqamətlənmək imkanları məsələsi də araşdırılmışdı. Qorxulu səhvdən qaçılması məqsədi ilə məsələyə dair birgə məşvərətdən (dəyərləndirilmədən) sonra Millətlər Cəmiyyətinə müraciət olunması və müvafiq mandatı alacaq dövlətin onun vasitəsi ilə müəyyənləşdirilməsi razılaşdırıldı.

Lakin az sonra Azərbaycan Sülh nümayəndəliyi (M.H.Hacınski) birbaşa İngiltərəyə müraciət etməyi vacib saydı. İngiltərədən məlum müddət ərzində Qafqaz (Azərbaycan) mandatını öz üzərinə götürmək xahiş olundu. Bu məqsədlə də əvvəlcədən konfransdakı ingilis təmsilçilərlə və sonra da Londonda hökumətlə danışıqlar aparılması məsləhət bilindi. Onun razılığını aldıqdan sonra isə İngiltərəyə müvafiq mandat verilməsi xahişi ilə Millətlər Cəmiyyətinə müraciət olunması qərarına gəlindi. Lakin gürcülərlə birlikdə iclasda bu qətnamə keçmədi.



Çünki gürcülər İngiltərə ilə əlaqələr saxlamağı zəruri saysalar da Londona xüsusi müvafiq təmsilçilik göndərilməsi vaxtının hələ yetişmədiyini bildirdilər. Bu zaman həm də İngiltərədəki parlament seçkiləri və gözlənilən hökumət dəyişiklikləri, habelə Xarici İşlər naziri Balfurun və Malletin Parisdə olmamaları da nəzərə alındı. İngilis qoşunlarının Qafqazda saxlanılmasına dair müxtəsər xahiş ərizəsi (28.VIII.1919) də nəticə vermədiyindən gözləmək qərarına gəlindi.

Gələcək Rusiyaya istiqamətlənməyə gəldikdə isə onun Parisdəki təmsilçiləri əvvəlki mövqelərində israrlı görünürdülər. Sazonov, Milyukov və b. "Rusiyanı Demokratiyanın idarə edəcəyi"ndən dəm vuraraq onun vahidliyi və bölünməzliyi"nin təbliğatçıları rolunda çıxış edirdilər. Onlar Rusiyanın "keçmiş ögey oğulları"nın müstəqilliyi fikrini əsla yaxın buraxmırdılar. Bunu belə "dəlillərlə əsaslandırmağa" çalışırdılar: "müstəqil Azərbaycan şüarını yalnız ziyalılar irəli sürürlər" və "sadə azərbaycanlılar Rusiyadan ayrılmaq istəmirlər". Bütün bu ifrat böyük dövlətçilik və şovinist baxışlar "ağ"lığından və "qırmızı"lığından asılı olmayaraq hər hansı bir Rusiyaya oriyentasiyanı mümkünsüz edirdi.

**3. Fransanın Qafqaz (Azərbaycan) mandatına münasibətinə gəldikdə isə:**

- regiona fransız himayəsi gerçəkliklə uzlaşmırdı. Çünki Qərb dövlətləri arasında Fransa "Vahid və bölünməz Rusiya"nın ən ardıcıl, qəti tərəfdarı idi;
- AXC ilə ticarət-iqtisadi əlaqələr qurulmasında maraqlı olan Fransa onu nə faktiki, nə də hüquqi cəhətlərdən tanımaq istəmirdi. Fransa diplomatiyasına görə, yeni respublikalardan yalnız bolşeviklərə qarşı fəal mübarizə aparana, yaxud bu işə yaxından yardım göstərənə rəğbətlə yanaşmaq mümkündü;
- fransızlar Qafqaza himayə məsələlərində oradakı şə-

raitin qeyri-sabitliyini və regionla hər cür əlaqələr saxlamağın çətinliyini önə çəkirdilər.

Lakin bütün bunlara baxmayaraq Fransanın Qafqaza (Azərbaycana) nüfuz etməsi prosesinə artıq başlanılmışdı. Xarici İşlər naziri S.Pişon Qafqazla (Azərbaycanla) əlaqələr yaranmasına meylli siyasətçilərin və işgüzar dairələrin etirazları ilə qarşılaşdı. Bu işdə keçmiş ticarət naziri, o vaxt isə deputat olan Monzi xüsusi fəallıq göstərirdi. Fransanın islam aləmi ilə əlaqələrində Azərbaycana mühüm önəm verən Monzi hökumətin Qafqaz dövlətlərinə (AXC-yə) münasibətinin açıqlanması üçün Pişona deputat sorğusu göndərmişdi. Onun rəhbərlik etdiyi Fransa-Qafqaz Komitəsinə M.Məhərrəmov, M.Mirmehdiyev və C.Hacıbəyli də daxil idilər.

Fransa hökuməti Qafqaza xüsusi missiya da göndərmişdi. Onun əsas vəzifəsi gələcəkdə regionun bütün xalqlarını əhatə edən Qafqaz Federasiyasının yaradılması imkanlarını öyrənməkdən və bununla bağlı da yerlərdəki durumu araşdırmaqdan ibarət idi. Bakıya da təşrif buyurması nəzərdə tutulan missiyaya erməni İv. Loris-Melikov başçılıq edirdi (O, Sülh konfransındakı erməni milli nümayəndəliyinin üzvü, Ermənistan Respublikasının Parisdəki təmsilçisi qraf Loris-Melikovun qardaşı oğlu idi. Tiflisdə Əlimərdan bəylə gimnaziyada oxumuşdu. Klemanso ilə dostluq edirdi. Qafqaz respublikalarının müstəqil mövcudolma imkanlarına şübhə ilə yanaşırdı. "Vahid və bölünməz Rusiya" tərəfdarı kimi tanınmışdı).

Xarici siyasət idarəsi Qafqaz dövlətləri ilə müqavilələr bağlamasa da rabitə-ticarət əlaqələrinə dair müəyyən hökumət qərarları qəbul olunmuşdu. Bütövlükdə isə Fransa Qafqaza hərtərəfli himayə göstərmək fikrindən uzaq idi.

**4. ABŞ rəhbərliyi çalışırdı ki:**

- ingilislərin Qafqazdan çəkilmələri ilə bağlı regionda yaranan vakuumu doldursun. Qafqaza yetərincə hərbi qüvvə gətirməyin imkansızlığı ABŞ-ı diplomatiyaya üstünlük verməyə məcbur edirdi. Buna görə



də o, Qafqaz mandatına yiyələnməkdə maraqlı idi;
- Azərbaycanın ərazi bütövlüyünə qənim kəsilən ermənilərdən faydalansın və AXC-nin Amerika himayəsinə razılığından istifadə etsin.

Qafqazda nüfuz dairəsi uğrunda fəal mübarizəyə qatılan ABŞ öncə Sülh konfransı Dördlər Şurasının qərarı ilə (28.VI.1919) Ermənistan üzərində səlahiyyətlərə sahib oldu. Onlar Şurasında müəyyən məşvərətdən (5.VII.1919) sonra (C.Harbord-V.Haskel seçimi ilə bağlı) ikinci Müttəfiqlərin Ermənistana Ali komissarı təyin edildi (Qərargahı İrəvanda yerləşən Haskelin Qafqaz missiyası, xüsusi ilə də onun ermənipərəst mövqeyi, Azərbaycanın Naxçıvan bölgəsi və çevrəsindəki torpaqlarla bağlı uğursuz "bitərəf zona" oyunları barədə *III* bölümdə ətraflı bəhs olunmuşdur).

Əvvəllər Qafqaz mandatına yiyələnməkdə çox israrlı görünən ABŞ az sonra bu məsələdə təkid göstərmədi. Bu işdə iki amilin (hadisənin) rolu danılmazdır: Haskelin Transqafqazdakı vəziyyətə dair Parisdə Sülh konfransına məruzəsi ilə (XI.1919) əlaqədar yaranan diplomatik qalmaqal və Harbord missiyasının nəticələri (rəyi).

Parisə gələn Haskel öz təşəbbüsü ilə Əlimərdan bəylə də görüşdü. İstər bu görüşdə, istərsə də konfransın Ali Şurasında Haskelin məruzəsinə dair müzakirələrdə (14-15.XI.1919) çoxlu maraqlı məqamlar üzə çıxdı, etiraflar edildi və təkliflər verildi. Bunları aşağıdakı tezisvari fikirlərlə ifadə etmək mümkündür:

**a)** Ali komissarın Ə.Topçubaşı və M.Məhərrəmovla söhbətdə Azərbaycanla bağlı önə çəkdiyi məqamlar:

- "xalqınız sülhsevərdir və qətiyyən ermənilərin düşməni deyildir";
- "qəyyumluqdan birinci növbədə Azərbaycan qurtarmalıdır!";
- "Naxçıvan və Şərurda indi sakitlikdir. Amerikalı qubernatorun idarə etdiyi neytral zona yaradılmışdır" (Buradakı ikinci fikirdə yanlışlıq vardır. Çünki

əslində bu qubernatorluğun təşkili baş tutmamışdı);

- "Sülh konfransı artıq Şimali Qafqazda Denikin üçün demarkasiya xətti müəyyənləşdirib və o, həmin xətdən cənuba doğru hərəkət edə bilməz";
- "nə bütün ermənilər yaxşıdılar, nə də eyni dərəcədə bütün türklər pisdirlər";
- Türkiyə və Qafqazı "ümumi bir mandat altında birləşdirmək olardı. Lakin Amerika həmin mandata sahib çıxmayacaqdır".

**b)** Haskelin məruzəsi ilə bağlı yaranan diplomatik qalmaqalın başlıca cəhətləri:

- onun Ali Şuradan xəbərsiz - amerikanlar tərəfindən Sülh konfransına çağrılması;
- Transqafqazın ABŞ-ın mandatına verilməsi təklifi. Polkovnikin dəlilləri: regionda iqtisadi durumun fəlakət həddinə yetişməsi; Qafqaz respublikaları arasındakı ərazi mübahisələri; ER-in AXC-GR müqaviləsinə qoşulmaması. – Çıxış yolu kimi üç respublikanın vahid mandatda birləşdirilməsi lazım bilinir;
- Ali komissarın səlahiyyətlərini aşaraq Ermənistanla kifayətlənməyib Azərbaycan və Gürcüstan barəsində də məlumatlar verməsi;
- ABŞ təmsilçisi F.Polkun Haskelə bütün Transqafqazın Ali komissarı statusunu qazandırmaq üçün 5 iyul qərarına düzəlişlər edilməsi cəhdi (Bu, Amerika sənayeçilərinin Bakı neftinə maraqları ilə də əlaqələndirilir;
- ingilis diplomatının (E.Krou) kəskin etirazı ilə bağlı çəkişmə;
- sonda gəlinən qənaət – Haskel Müttəfiqlərin bütün Transqafqazda Ali komissarı kimi deyil, yalnız "Amerika Yaxın Şərqə Yardım Komitəsi" Qafqaz bölməsinin rəhbəri olaraq Azərbaycan və Gürcüstanda da fəaliyyət göstərə bilər.

Qafqaz üzərində ABŞ mandatı ilə əlaqədar məsələlər



sırasında Harbord missiyasının da özəl yeri vardır. Həmin missiya məqsədləri, hərəkət marşrutu, keçirdiyi görüşlər və apardığı müzakirələr, gəldiyi nəticələr, ona verilən önəm və tələblər baxımından olduqca diqqətçəkicidir.

Qafqaz dövlətlərinin Sülh nümayəndəlikləri (ermənilər çıxılmaqla) birgə iclaslarında regiona xüsusi komissiya göndərilməsinin konfransdan xahiş edilməsinə dair çoxlu müzakirələr aparmışdılar (Belə bir ideya ABŞ təmsilçiləri tərəfindən əvvəlcə dağlılara məsləhət bilinmişdi).

ABŞ-ın komissiya göndərilməsi ilə bağlı motivi müzakirələrdə rahatsızlıq doğurdu. Çünki Qafqazda təhlükəli vəziyyətin tənzimlənməsi və öncə də insan qanı axıdılmasının dayandırılması motivi ilə komissiya göndərilməsinə dair konfransa müraciət ingilisləri narazı sala bilərdi. Buna görə də yalnız mülki şəxslərdən ibarət komissiya göndərilməsinə dair gəlinən qənaət ABŞ-ı qane etmədi.

Belə olduqda Birləşmiş Ştatlar hökuməti yalnız öz adından Qafqaza nümayəndə heyəti yollamaq qərarına gəldi. Bu işdə əsas məqsəd regiondakı durumu dərindən öyrənmək və Qafqaz üzərində ABŞ mandatı ilə bağlı bəzi tövsiyələr hazırlamaqdan ibarət idi. Bu missiya Qafqaz respublikalarının, o cümlədən də AXC-nin ABŞ tərəfindən tanınması kimi dəyərləndirilə bilməz). Amerikanın hərbi-siyasi dairələrində yetərincə tanınan general C.Harbordun başçılıq etdiyi bu missiya təqribən üç aya qədər (avqustun sonlarından oktyabrın ortalarınadək) davam etdi.

Missiyanın marşrutu və yolboyu keçirdiyi görüşlər də çox önəmli idi. Marşrut İstanbul, Sivas, İrəvan, Tiflis, Bakı və s. mühüm siyasi mərkəzlərdən keçmişdi. Missiya müddətində Sivasda Mustafa Kamal Paşa, Cənubi Qafqaz respublikalarının paytaxtlarında dövlət – hökumət başçıları, diplomatlar və Parisdə isə Sülh nümayəndəlikləri ilə görüşlərdə müxtəlif səpkili müzakirələr aparılmışdı.

Azərbaycan hökuməti Harbordun missiyası ilə bağlı məlumatlandırılmışdı. Doğrudur, Harbord nədənsə (onun

həddən ziyadə məşğulluğu və s. vurğulanır) Parisdən yola düşməzdən öncə və oraya qayıtdıqdan sonra da Ə.Topçubaşı ilə görüşməmişdi. Əlimərdan bəy və müavini yalnız ABŞ-ın AXC-dəki nümayəndəliyinin başçısı (Harbordun Azərbaycan üzrə müvəkkili) polkovnik C.Reylə, həmçinin bütün Amerika missiyalarının rəhbəri polkovnik Loqe ilə görüşüb müəyyən müzakirələr aparmışdılar.

Bakıda H.Z.Tağıyevin evində yaşayan Harbord AXC-nin Baş naziri, diplomatları, buradakı erməni icması və səfiri T.Bekzadyanla, habelə digərləri ilə çoxsaylı görüşlər keçirmişdi. Azərbaycan haqqında yetərincə məlumatlandırılan Harbord AXC XİN-i M.Cəfərov tərəfindən Batuma qədər müşayiət edilmişdi.

Harbordun missiyasının Azərbaycana dair qənaətləri və Qafqaz (Ermənistan) üzərində ABŞ mandatı ilə bağlı nəticələri də xüsusi olaraq nəzərdən keçirilməlidir. Bununla əlaqədar missiyanın müşahidə-təəssüratı və məruzəsindəki (yekun rəyindəki) aşağıdakı məqamlar maraq doğurur:

**a)** Azərbaycanın iqtisadi-siyasi durumundan razılıq və onun müstəqilliyinin Sülh konfransı tərəfindən tezliklə tanınması ehtimalı;

**b)** missiyanın "qonşuların böyük dövlətlər arasında yaratdıqları narazılığın" Azərbaycanın tərəqqisinə əngəl törətməməsinə çalışacağı;

**c)** Transqafqaz vahid mandatda birləşməlidir. Çünki (və ya Harbordun dəlilləri): Gürcüstanda bolşevizm təhlükəsi güclü olsa da, o müstəqillikdə israrlıdır; Ermənistan xarabalığı xatırladır və Rusiya mandatına tərəfdardır; Azərbaycanda idarəçilik üçün yerli kadrlar çatışmır və o, Türkiyəyə meyllidir, xristianlara etibar etmir, ancaq qabaqcıl nümayəndələri xarici əlaqələrin inkişafının zəruriliyi qənaətindədirlər;

**ç)** Ermənistan üzərindəki ABŞ mandatının lehinə (14) və əleyhinə (13) gətirilən dəlillərdə ikincilərin daha inandırıcı təsir bağışlamaları. Nəticə-tövsiyə olaraq Ermənistan üzərində mandata qarşı çıxılması;



**d)** Transqafqaz və İstanbul üzərində vahid ABŞ mandatına münasibətdə birmənalı mövqenin mümkünsüzlüyü. Ancaq Amerikanın Türkiyə mandatına razılığı;

**e)** ABŞ-ın Qafqaz mandatına marağına son qoyulması və Amerikanın siyasi dairələrindəki ermənipərəstlikdə çatlar yaranması.

Qafqaz üzərində mandatlıq və Azərbaycanın mövqeyi ilə bağlı məsələlərə dair ümumiləşdirmələrdə (dəyərləndirmələrdə) bəzi tezislərə önəm verilməsi vacibdir. Mandat sahiblərinin mənafeləri, onları reallaşdırılmaq imkanları və Azərbaycanın dövlətçilik maraqları baxımından aşağıdakılar önə çəkilməlidir:

**1) Böyük Britaniya mandatı:** İngiltərənin Qafqaza, Yaxın və Orta Şərqə dair maraqlarını təmin edirdi. Onun hərbi-iqtisadi və siyasi-diplomatik imkanları baxımından mümkündü. Regionun ümumi inkişafı cəhətdən sərfəli sayılırdı. Azərbaycanın Denikin və Lenin rusiyalarının təcavüzündən müdafiəsində qarant ola bilərdi;

**2) İtaliya mandatı**: Regiondakı (Azərbaycandakı) güclü iqtisadi maraqlarla hərbi imkanlar və diplomatik nüfuz arasındakı kəskin uyğunsuzluq onu mümkünsüz edirdi. Rusiya və Türkiyə ilə irimiqyaslı hərbi qarşıdurma çəkindirici amil sayılırdı. Məcburi razılıq ola bilərdi, lakin AXC üçün faydalı deyildi;

**3) Fransa mandatı:** Qafqaza maraq zəifdi. Regiona təsir imkanları əsla böyük deyildi. Qatı "Böyük Rusiya"çı sayılırdı. Mandatın gerçəkləşdirilməsi tamamilə ümidsiz görünürdü. Azərbaycan üçün qətiyyən məqbul ola bilməzdi;

**4) ABŞ mandatı:** Böyük geostrateji məqsədlərlə yetərsiz imkanlar uzlaşmırdı. Qərbi Avropanın güclü müqaviməti mandatı əngəlləyən amillərdən hesab olunurdu. Azərbaycana yararlılığı sual altında idi.

**5) Rusiya mandatı:** Həm "ağ", həm də "qırmızı" Rusiyanın "vahidlik və bölünməzlik" iddiaları, ölkəiçi hərbi-si-

yasi qarşıdurmadakı qeyri-müəyyənlik onun hər hansı bir himayəsinə yer qoymurdu. Qərb dövlətlərinin Rusiyaya münasibətindəki fərqli mövqeləri də böyük təsirə malik idi. Rusiya himayəsi ardıcıl müstəqillik yolunu tutan Azərbaycanı qətiyyən qane və təmin etmirdi.

Bu arada Paris konfransı tədricən arxa plana keçməkdə idi. Çünki birinci cahan müharibəsinin yekunları və yeni dünya qaydası ilə əlaqədar başlıca məsələlərdə prinsipial razılıqlar, əsasən, əldə olunmuşdu. Buna Müttəfiq dövlətlərdəki parlament seçkiləri və hökumət dəyişiklikləri, Avropanın xarici siyasətinin istiqamətlərində gözlənilən dönüşlər də ciddi təsir göstərirdi.

Belə bir şəraitdə olduqca vacib problem-postçarlıq Rusiyası geosiyasi məkanında yaranan dövlətlərin rəsmən tanınması məsələsi hələ də öz həllini tapmamışdı. Bu tanınma prosesi ümumrus məsələsinin həllindən asılı olaraq qalırdı. İndi isə konfransın rus və türk məsələlərini Millətlər Cəmiyyətinin müzakirəsinə ötürməsi variantından danışılırdı.

Amerika təmsilçisi Q.Morqentaudan "Müttəfiqlər bizi tanıyacaqmı?" sualına cavab ala bilməyən Ə.Topçubaşı "Paris məktubları"nda yazırdı: "Müttəfiqlərin özünün də Rusiyanın və ondan ayrılmış hissələrin gələcəyinə aid müəyyən bir fikrinin olmasına inanmaq mümkün deyildir".

Lakin 1919-cu ilin payızından etibarən Rusiyadakı hərbi-siyasi qarşıdurmanın sonu yavaş-yavaş görünməyə və qeyri-müəyyənlik aradan qalxmağa başladı. Lenin Rusiyasının "ağ generalları" üstələməsi yeni yaranan dövlətlərin tanınmasına beynəlxalq diqqəti artırdı.

Həmin dövrdə AXC nümayəndəliyi, "bu da Sizə xalqların Sülh konfransı!" deyən Əlimərdan bəy dövlətçiliyimizin və müstəqilliyimizin tanınması uğrunda mücadiləni davam etdirirdilər. Onlar növbəti dəfə (19.VIII.1919) Sülh konfransının sədrinə müraciət edərək Azərbaycanın istiqlalının tanınmasını istədilər. Gürcü nümayəndəliyi ilə birlikdə Qafqaz işləri üzrə xüsusi komissiya yaradılması barədə konfransın sədrinə (17.IX.1919) və Antanta Sülh nümayəndəliklərinə (20.IX.1919) ərizələr verildi.

Sonra da səkkiz respublikanın tanınmaq barədə Sülh konfransına ünvanladığı notaya (8.X.1919) qatıldılar. Birgə müzakirələrdə iştirak etsələr də Ermənistan və Belorusiya notaya qoşulmadılar. Erməni Sülh nümayəndəliyi həm maraqlı, həm də bir çox mətləblərə açıqlıq gətirən "dəlilləri" əsas tutdu. Onlar bildirdilər ki, "Versal müqaviləsi ilə artıq tanınıblar". Və əgər türklər, yaxud Denikin seçimi məcburiyyəti ilə üzləşsələr, təbii ki, sonuncunu seçəcəklər.

Bu, ikinci kollektiv nota da Sülh konfransının - Pişonun başçılıq etdiyi – Ali Şurası tərəfindən cavabsız qaldı. Transqafqaz məsələsinin müxtəlif qurumlarda müzakirələri də elə bir ciddi nəticə vermədi. AXC və GR Sülh nümayəndəliklərinin təşəbbüsü ilə Fransa Müstəmləkə Liqasının Xarici Siyasət bölməsində müvafiq məsləhətləşmələr (29.X.1919) oldu. Bu müzakirələr Klemanso hökumətindən Azərbaycan və Gürcüstana təcili daimi təmsilçiliklər göndərilməsi xahişi ilə yekunlaşdı.

## AXC-nin de-fakto tanınması

Azərbaycan istiqlalının tanınması siyasi-diplomatik fəaliyyətlə yanaşı digər sahələrdə də ciddi işlərin görülməsini tələb edirdi. Sülh nümayəndəliyi həmin sahələr sırasında aşağıdakılara daha çox üstünlük verirdi:

1. Dövlətlərarası ikitərəfli münasibətlərin və ABŞ, Avropada Azərbaycan lobbilərinin yaradılması;
2. Çoxşaxəli və geniş məzmunlu təbliğat işinin aparılması;
3. Müxtəlif səpkili iqtisadi-ticarət əlaqələrinin qurulması.

İkitərəfli əlaqələrin təşkili, ABŞ və Avropada Azərbaycan lobbilərinin yaranması böyük dəyərə malik idi. Bu, Azərbaycanın tanınması, dünya birliyində ləyaqətli və yetərincə təmsil olunması, onun maraqlarının müdafiəsi baxımından mühüm əhəmiyyət kəsb edirdi. Qərb dövlətlərinin,

onların siyasi-işgüzar dairələrinin və geniş ictimaiyyətinin dəstəyinin əldə olunması sahəsində ABŞ-ın önə çəkilməsi təsadüfi deyildi. Bu işdə bir sıra amillərin təsiri danılmaz idi:

- ABŞ-ın getdikcə daha çox "dünya dövləti"nə və beynəlxalq münasibətlərdə sözsahibinə çevrilməsi;
- onun prezidenti V.Vilsonun "yeni dünya qaydası"nın ("14 maddə"nin) müəllifi olması;
- Amerikanın dünyanı iqtisadi cəhətdən idarə etməsi;
- Avropada Vilsonun "14 maddəsi"nə və ABŞ-da isə Versal sisteminə qarşı böyük bir kompaniyaya başlanılması;
- Azərbaycanın ərazi bütövlüyünü təhdid edən və onun beynəlxalq aləmə çıxışını əngəlləyən ermənilərin ABŞ-da artıq çoxdan təşkilatlanmaları;
- ABŞ-ın dövlət və iş adamlarının, ictimaiyyətinin Azərbaycanla bağlı ciddi rahatsızlıq yaradan məlumatsızlığı.

ABŞ ilə çoxsəpkili ikitərəfli münasibətlərin yaradılmasında Amerika yəhudiləri ilə mövcud əlaqələrdən, habelə siyasilər və iş adamlarını əldə saxlamaqdan istifadə olunurdu. Konqresmen-vəkil V.Çendler (Çanderlen, Çandler kimi də göstərilir) və biznesmen M.Robinovla (Rebinov və ya Rabinov olaraq da yazılır) əlaqələr bu baxımdan olduqca səciyyəvi idi. Azərbaycan və gürcü nümayəndəlikləri onları xüsusi olaraq Parisə dəvət etmişdilər. Parisdə qaldığı müddətdə V.Çendler Azərbaycan (habelə Gürcüstan) barədə məlumatlandırılmış, müxtəlif materiallarla təchiz olunmuşdu. Ən əsası isə onunla müqavilələr bağlanmışdı. Əsas müqavilə AXC parlamenti tərəfindən təsdiqlənib geriyə qaytarılmaq üçün M.H.Hacınski vasitəsi ilə Bakıya göndərilmişdi.

Müqavilələrdə aşağıdakı şərt və öhdəliklər öz əksini tapmışdı:

- amerikalı vəkil təbliğat məsələləri üzrə hüquq məsləhətçisi kimi AXC Sülh nümayəndəliyinə daxil edilirdi;
- Çendler ABŞ-da AXC-nin mənafeyini müdafiə və təbliğ etməli idi;
- AXC-nin ABŞ tərəfindən de-fakto tanınacağı təqdirdə konqresmen 50 min dollar alır, əks halda isə hər hansı bir ödənişdən məhrum olurdu.



AXC Sülh nümayəndəliyi-Çendler əlaqələrində ikincinin Ə.Topçubaşı ilə yazışmaları da mühüm sayıla bilər. Çendlerin Azərbaycan Sülh nümayəndəliyinin sədrinə məktub-məlumatlarında, əslində isə, hesabatlarında (18.X, 1 və 10.XI.1919) və Əlimərdan bəyin ona məktublarında (7.X.1919 və s.) bir çox məsələlərə aydınlıq gətirilmiş, müəyyən mülahizə-təkliflər söylənilmişdi.

**Birincisi, Çendlerin məlumatlarından bəlli olur ki:**

- Azərbaycan ilə Gürcüstan ABŞ-da tanınmadıqlarından və Ermənistan kimi amerikan koloniyalarına malik olmadıqlarından onların təbliğatı işi çətinliklərlə qarşılaşmışdı;
- ABŞ-da Azərbaycan təmsilçilərinin fəaliyyət göstərməsi zərurəti yaranmışdı və bu məqsədlə də nümayəndələrimizin Amerikaya getmələrinə ehtiyac vardı;
- Konqresmen – vəkil Ə.Topçubaşının ABŞ-a gəlməsi üçün çalışırdı;
- prezident Vilsonun xəstələnməsi də ümumi işə bir böyük maneə idi. Və konqresmen onunla görüşməyə, habelə AXC ilə GR-in tanınmalarına dair qətnaməni ABŞ-ın qanunverici hakimiyyətinə təqdim etməyə hazırlaşırdı;
- Azərbaycanın müstəqilliyinin təbliğatı üçün "Müstəqil Ermənistanın Amerika Komitəsi" kimi qurumların təşkili və ermənilərtəki ABŞ hökumətinə, ictimaiyyətinə müraciətlər edilməsi zəruri idi;
- 30 minlik orduya malik Ermənistan ABŞ-ın onu tanımasını və hərtərəfli yardım göstərməsini istəyirdi. Habelə Amerika, İstanbul və Bolqarıstan ermənilərindən 20 min nəfərlik könüllü legion yaradaraq Ermənistana göndərməyi, Şərqi Anadolu və Kilikii-

yanın da qatıldığı Ermənistan dövlətinin qurulmasına dair qətnamənin ABŞ senatından keçirilməsini tələb edirdi;

- Rusiyaya (Azərbaycana) ABŞ prezidenti layihəsi üzrə yardım göstərəilcəyi ehtimal olunurdu;
- ABŞ və digərləri "ağ Rusiya"nın məğlubiyyəti ilə kiçik qeyri-rus dövlətlərin, o cümlədən də Azərbaycanın müstəqilliyini tanıyacaqdı (Konqressmen bu məsələ ilə bağlı Dövlət Departamenti qarşısında məsələ qaldırmış və ona sorğu da vermişdi. Ancaq sonrakı proseslər Çendlerin bu fikrinin Amerika ilə bağlı hissəsini təsdiqləmədi. Belə ki, ABŞ AXC-ni tanımadı).

**İkincisi, Ə.Topçubaşının Çendlerə məktubları təsdiqləyirdi ki:**

- Sülh konfransının Azərbaycana münasibəti və s. ilə bağlı məlumatlar, habelə Denikin məsələsi ilə əlaqədar yeniliklər vəkilə çatdırılmışdı;
- Amerikaya gedilməsi üçün müvafiq adamlarımız və maddi vəsaitimiz çatışmırdı;
- Amerikadakı ermənilərlə polemikaya girmədən xeyrimizə təbliğat aparan bir komitə yaratması tövsiyə olunmuşdu;
- AXC Sülh nümayəndəliyi Azərbaycanın müstəqilliyinin ABŞ tərəfindən tanınmasına və müdafiə olunmasına ümidlər bəsləyirdi.

Ə.Topçubaşı Paris konfransını tərk etməyə hazırlaşan Morqentaudan da Amerikadakı müvəkkilimiz Çendlerin Azərbaycan naminə fəaliyyətinə yardım göstərməsini istəmişdi. Morqentau isə Azərbaycanın zənginliyini və müstəqil yaşaya bilməsi imkanlarını vurğulamışdı. Habelə Amerikada öz təmsilçilərimizin olmasına üstünlük vermişdi.

O həm də ABŞ Sülh nümayəndəliyinin Ərazi Məsələləri bölməsinin başçısı Buklerin imkanlarından yararlanmağı məsləhət bilmişdi. Qafqaz xalqları arası münasibətlər və ermənilərin niyyətləri barədə Əlimərdan bəy tərəfindən ətraflı



məlumatlandırılan Bukler qonşularımızı əsla mələk saymadıqlarını bildirmişdi. Buklerin Ə.Topçubaşı ilə görüşündə ABŞ-ın Azərbaycana münasibətində Harborun missiyasının önəmi də dəyərləndirilmişdi.

Azərbaycanın tanınması işində təbliğatın rolu və dəyəri şəksiz böyük oldu. Bu işin başlıca mərkəzləri kimi də Avropa ölkələri və ABŞ müəyyənləşdirilmişdi. Təbliğat fəaliyyətinin əsas vəzifə və istiqamətləri sırasında, **1-cisi**, ermənilər və digərləri tərəfindən Azərbaycan haqqında yayılan saxta məlumatların təkzibi, **2-cisi**, bitərəf ölkələrin ictimai fikrinin tərəfimizə çəkilməsi, **3-cüsü**, ölkəmizin populyarlaşdırması məsələləri öndə gedirdi.

Bu vəzifələrin həyata keçirilməsinə AXC XİN-i nəzdində Xüsusi təşviqat şöbəsinin təşkili və onun gördüyü tədbirlər mühüm rol oynayırdı. Düzgün olaraq mətbuat vasitəsi ilə təbliğata geniş yer və böyük önəm verildi. "Azərbaycan haqqında məlumat bülleteni" buraxıldı. Bakıdan göndərilən "Azərbaycan rəqəmlərdə" xəritəsi iqtisadi albom kimi yayıldı. Avropada yayınlanan jurnallarda ("L'Europe orientale", "Revue de monde musulman") və qəzetlərlə ("Le Temps", "L'Humanite") əməkdaşlıq genişlənirdi.

Nüfuzu və kəsəri ilə fərqlənən İsveçrə mətbuatında ("Jurnal de Cenev"də) fransız professoru Broşenin Azərbaycan haqqında iki məqaləsinin dərc edilməsinə və onun özünün jurnalında ("Les peuples Libres") ölkəmiz barəsində iki yazının çapına nail olundu. Broşenin "Öz müqəddəratını təyinetmə hüququ və Azərbaycan Respublikası" məqaləsində vurğuladığı bu məqamlar ölkəmizin təbliğatı baxımından təsirli və dəyərli idi: təyin-müqəddərat üçün vacib sayılan göstəricilərin mövcudluğu; güclü iqtisadi potensial; müstəqillliyi qoruma və təcavüzdən müdafiə imkanları; demokratikləşmə və çağdaş dövlətçilik; AXC-nin Sülh konfransı tərəfindən tanınması zərurəti.

İtaliya kommersantı Korsinin "Korreqena della sera" qəzetinə verdiyi müsahibə də (23.X.1919) Azərbaycanın təb-

liğatı və tanınması işi üçün şəksiz faydalı idi. Onun "Türkiyə ilə əməkdaşlıq Azərbaycanın tanınmasına mane olmamalıdır və bu işbirliyinə təbii baxılmalıdır", "Avropa bolşevizmin Qafqazda təntənəsinin acı nəticələrini qiymətləndirməyi bacarmalıdır" kimi fikirləri müəyyən dairələri düşünməyə dəvət edirdi. Sülh nümayəndəliyimizin xüsusi səyləri sayəsində "Limaçe" jurnalının bir sayı (1.1920) bütövlükdə ölkəmizə həsr olunmuşdu.

Ə.Topçubaşının qəti qənaətinə görə Azərbaycan yubanmadan Cenevrədə özünə yer eləməli – Millətlər Cəmiyyətinin gözüönündə Mərkəzini yaratmalı idi. Bu, yeni yaranan respublikaların müdafiəsi ilə məşğul olan mərkəzlərin təşkili (Cenevrədə) məsələsinə dair məsləhətləşmə-razılaşmadan irəli gəlirdi.

Sülh nümayəndəliyi Azərbaycan haqqında hərtərəfli məlumatlar verən çoxsaylı materialların (kitabçalar, xəritələr, diaqramlar) Avropa ölkələrində və Amerikada yayılmasını da təşkil etmişdi. Ermənilərin ABŞ-da apardıqları antiazərbaycan təbliğatı, xüsusi ilə də "vəhşi türk-müsəlman"a ünvanlanan ittihamları yəhudilərin imkanları və s. sayəsində dəf olunurdu. Yəhudi təəssübkeşlərimiz "kütləvi erməni qırğınları"na dair böhtanların təkzibi üçün ABŞ-a öz nümayəndələrimizin göndərilməsini məsləhət bilmişdilər.

Bununla bağlı V.Çendler tərəfindən də maraqlı və faydalı tövsiyələr verilmişdi. Məsələn, AXC və GR nümayəndəliklərinin ümumi mitinqində kiçik xristian və müsəlman respublikalarının dostcasına dini və s. münasibətlərinə dair hər hansı bir qərarın qəbulu vacib sayılmışdı. Bu, azərbaycanlıların dini ayrılığa görə ermənilərə düşmən münasibət bəsləmələrinə dair baxışların və "dəlillərin" alt-üst edilməsi üçün çox gərəkli idi.

Ə.Topçubaşı "Paris məktubları"nda Qərbdəki təbliğat işimizi axsadan subyektiv, yəni bilavasitə özümüzlə bağlı səbəblərə də toxunmuşdu: **a)** maddi vəsait çatışmazlığı; **b)** təşviqat (əlalxüsus da orduya aid) materialları ilə təchizatın yetərsizliyi; **c)** Sülh nümayəndəliyinin tərkibində aparılan mexaniki (parlamentin reqlamentinə müvafiq olaraq fraksiya üzvü olan təmsilçilərin dəyişdirilməsi qaydasına əsasən) əvəzləmələr.

Nümayəndəliyin fəaliyyətində dövlət mənafeləri daima partiya maraqlarından üstün tutulduğu halda hökumət (XİN) diplomatik təyinatları bəzən şəraiti nəzərə almadan həyata keçirirdi. Məsələn, sosialist diplomatların əvəzlənməsində belə olmuşdu. Təbiiğat işi və iqtisadi məsələlərlə bağlı ABŞ-a getməsi nəzərdə tutulan M.Məhərrəmovun A.Atamalıbəyovla əvəzlənməsinə dair fraksiyanın təklifinə parlament və XİN tərəfindən situasiya öyrənilmədən razılıq verilmişdi.

Sülh nümayəndəliyimizin ikitərəfli iqtisadi əlaqələr qurulmasına dair tədbirləri də nəticə etibarı ilə AXC-nin tanınmasına xidmət edirdi. Konfransın keçirildiyi ölkə ilə Azərbaycanın iqtisadi-mədəni əlaqələrinin qurulmasını Fransa-Qafqaz Komitəsi xeyli asanlaşdırdı. Fəxri sədri keçmiş Ticarət naziri Monzi (Monzie) və əməli sədri isə Llean olan bu komitə Azərbaycan tərəfindən lazımı materiallar və məlumatlarla təmin olunmasını istəmişdi. Onun "Güney Qafqaz respublikaları və Fransa" mövzusunda keçirdiyi (4.X.1919) konfrans qarşılıqlı əlaqələr üçün çox faydalı oldu.

Ə.Topçubaşı konfransın məqsəd və məramlarının ticarət-sənaye dairələrində təbliğatı vasitəsi ilə bu komitəyə Azərbaycandan yeni üzvlər cəlb olunmasını da lazım bilmişdi. Komitə musiqili Azərbaycan gecəsi keçirilməsini təklif etmişdi. Sülh nümayəndəliyi Fransada ali təhsil almaq istəyənlərin problemlərinin həllinin sürətləndirilməsinə də çalışmışdı. Fransada əldə olunan (və alınan) xeyli tibbi ləvazimatın Bakıya göndərilməsi təşkil edilmişdi.

Nümayəndəliyimizin səyləri və vasitəçiliyi ilə Fransanın sənaye-ticarət dairələrinin təmsilçiləri hərbi missiya ilə birlikdə Bakıda olmuşdular (X.1919). Poçt-teleqraf işləri sahəsində dövlətlərarası əməkdaşlıq genişləndirildi. Fransa Öl-

kəmizə müvafiq yardım göstərdi. Azərbaycanla Fransa arasında poçt-teleqraf sazişi bağlandı. Gəncədə Eyfel qülləsindəki Avropa radiostansiyasına qoşulan radiostansiya işə salındı. Sülh nümayəndəliyi Ümumdünya Poçt İttifaqına qəbul olunmaq üçün Beynəlxalq Büroya (Bern şəhəri) müraciət etdi.

İngiltərə və İtaliya ilə də ilkin iqtisadi əlaqələrə cəhdlər göstərildi. İtaliyanın xüsusi iqtisadi təmsilçiliyi Enrikonun başçılığı ilə Bakıda oldu. İngiltərənin "Kosmos" şirkəti ilə ilkin müqavilə ərsəyə gəldi. Həmin sazişə görə şirkət Azərbaycan xammalının Qara dəniz vasitəsi ilə daşınıb Avropada satılmasını təşkil etməli idi. Bakıdakı ingilis komandanlığının AXC hökumətinə borcu və ondan Sülh nümayəndəliyimizə vəsait (avans) ayrılması ilə bağlı müvafiq yazışmalar aparıldı. İngilis nümayəndə heyəti Maliyyə şöbəsinin müdiri mayor Monfrislə bu məsələ ilə əlaqədar görüş keçirildi.

Dünyanın iqtisadi idarəsini əlinə alan ABŞ ilə əlaqələr qurulması üstün istiqamətlərdən biri sayılırdı. Bu işdə Çendlerlə birlikdə ABŞ-dan dəvət olunan M.Robinovun missiyasının xidməti danılmazdır. O, AXC Sülh nümayəndəliyinin maliyyə işləri üzrə məsləhətçisi təyin olunmuşdu. Azərbaycan və gürcü nümayəndəlikləri onu, əsasən, kredit alınması məsələsi sahəsində əməkdaşlıq üçün dəvət etmişdilər.

M.Robinovla, tərəflərin istəyi ilə müddəti sonradan artırılmaqla, müqavilə bağlandı. Müqavilənin şərtlərinə görə M.Robinov: **1)** Azərbaycan neftinin dünya qiymətlərinə uyğun satılmasını; **2)** ABŞ-ın AXC-yə kredit verməsini; **3)** Amerika manufaktura mallarının Azərbaycan üçün alınmasını təşkil etməli; **4)** gəlirin üç faizinə sahib olmalı idi.

O, Vətənə döndükdən (8.X.1919) sonra müəyyən faydalı işlər görə bildi. Belə ki, Azərbaycan üçün Amerika bazalarından 108 adda müxtəlif mallar şəklində 15 milyon dollarlıq kredit razılaşdırıldı. ABŞ tanımadığı dövlətlərə kredit buraxmadığından Azərbaycanla bağlı da problemlər mövcud idi. Maliyyə məsləhətçisi ABŞ ilə iqtisadi-ticarət əlaqələ-



rinin genişləndirilməsi və s. məqsədlərlə M.Məhərrəmovun Amerikaya gəlməsini tövsiyə etmiş, müvafiq təmsilçiliyin oraya yetişə bilməsi üçün də çalışmışdı.

Ə.Topçubaşıya ünvanladığı teleqramlardan və məktubdan (3.XI.1919) da göründüyü kimi M.Robinov öz təşəbbüsü ilə – nümayəndəlik tərəfindən tapşırılmadığı halda – neftlə bağlı məsələlərlə də məşğul olmuşdu. Sənədlərdən aydın olur ki, o, həmçinin "Standard Oil Company" təmsilçiləri ilə də danışıqlar aparmışdı (Yeri gəlmişkən, şirkətlə AXC Yollar Nazirliyi arasında kerosinlə taxıl alqı-satqısına dair saziş (VII.1919) artıq həyata keçirilirdi). Buna görə də Əlimərdan bəy təcili teleqramla M.Robinovun istisnasız şəkildə yalnız kredit məsələsi ilə məşğul olmasını istəmişdi.

M.Robinov ilin sonunda Bakıya göndərilmək üçün ticarət-sənaye-maliyyə dairələrinin iş adamlarından ibarət təmsilçilik də müəyyənləşdirmişdi. Ən əsası isə Azərbaycanla iqtisadi-ticarət əlaqələrində həlledici rol oynaya biləcək Amerika-Qafqaz Kommersiya Palatası təşkil olunmuşdu.

Müxtəlif dövlətlərlə hərtərəfli əlaqələr qurulmasına mühüm əhəmiyyət verən Sülh nümayəndəliyi bu və digər məsələlərlə bağlı mülahizə və tövsiyələrini də AXC hökumətinə çatdırmışdı. Ə.Topçubaşı Baş nazirə göndərdiyi məktublardan birində (8-9.VII.1919, №8) diqqəti iqtisadi-ticarət əlaqələrinin qurulması sahəsində Azərbaycanda yol verilən bu kimi nöqsanlara və onların aradan qaldırılmasına yönəltmişdi:

- sənaye və ticarət nazirliyinin mal alınması üçün müxtəlif şəxslərə verdiyi vəsiqələrə məsuliyyətsiz münasibət göstərməsi. Yəni ki, müvafiq vəsiqələri çox asanlıqla (fərqinə varmadan) verməsi;
- guya hökumət işləri üçün göndərilən, əslində isə şəxsi məsələlərinin həlli ilə bağlı Avropaya gələn ayrı-ayrı kommersantlara dövlət sənədlərinin verilməsinin davam etməsi;
- belə yollarla (sənədlərlə) varlanmaq imkanı verilən

(qazanan) şəxslərin əksəriyyətini ölkəmizin əsl sakinlərinin deyil, Azərbaycanla heç bir əlaqəsi olmayanların təşkil etmələri;

- İtaliya hökuməti ilə ticarət sahəsində əməkdaşlıq yaratmaq üçün Romaya gələn nümayəndə heyətimizə son dərəcə diqqətli münasibətin müqabilində onun bir üzvünün müxtəlif sertifikatlar, hətta Azərbaycan dəmiryolları ilə pulsuz gediş hüququ verən sənədlər paylaması;
- nümayəndəliyin tranzit-ticarət qaydaları və neft sənayesi ilə bağlı hökumət sərəncamları barədə məlumatsızlığı və bununla bağlı pis vəziyyətə düşməsi. Habelə böyük (qoca) Nobelin hökumətimizin ünvanına iradlar söyləməsi;
- yuxarıda sadalanan nöqsanların hökumətin nüfuzuna təsirini nəzərə alaraq onu qorumaq məqsədi ilə göndərilən adamların seçilməsinə xüsusi diqqət yetirilməsi;
- kommersiya fəaliyyəti ilə məşğul olanların bu işə təşviq edilməsi. Lakin kommersantlara heç bir halda təmsilçilik hüququnun verilməməsi. Hətta kommersiya səciyyəli təmsilçilik hüququna da şərait yaradılmaması;
- nümayəndəliyin tranzit-ticarət və sənaye-maliyyə məsələlərinə dair hökumət sənədləri ilə təminatı işinin səmərəliliyi üçün dəftərxanada Xüsusi büro yaradılması.

Ə.Topçubaşı Azərbaycanın dövlət başçısı olaraq müstəqilliyimizin tanınması kimi tarixi bir vəzifənin gerçəkləşdirilməsi üçün zəruri saydağı həlledici məsələ və məqamları da vurğulamışdı. Onun nəzər nöqtəsinə görə:

- Azərbaycanın həyatındakı müsbət yeniliklər, mədəni təşəbbüslər, qanuni sərəncamlar, dövlətçiliyin hərtərəfli təzahürləri, ölkənin mənafeyinə xidmət edən şəxsi səylər – müsbət hallar kimi Nümayəndə heyətinə ona Azərbaycanın müstəqiliyini daha cəsarətlə müdafiə haqqı (imkanı) verir;



- ölkəmizin bolşeviklərlə amansız mübarizəyə tab gətirməsi xalqımızın həyat qabiliyyətinə malik olmasını, müstəqil dövlətini qura bilməsini isbatlayır və bu özünütəsdiqi mühafizə etmək lazımdır;
- geniş xalq kütlələrinin öz dövlətinin müəssisələrindən, qurumlarından nümunə götürmələri və dövrümüzün sınaq anının bütün ciddiyyətini dərk etmələri çox zəruridir. Azərbaycana bütün varlığı ilə xidmət etməyin nümunəsini isə onlara paytaxt və rəhbər xadimlər göstərməlidirlər;
- ümumi vəzifə (borc) – xalqı səfərbər etmək və onu müstəqil mövcudluq ideyası ətrafında, Azərbaycanın müstəqilliyinə aparan yolda sıx birləşdirməkdən ibarətdir. Bu yolun təhlükəsiz keçilməsi üçün isə, ilk öncə, ölkənin daxili vəziyyətinin sahmanlanması və möhkəmləndirilməsi, qanunçuluğa hörmətlə, ümumi-dövlət mənafelərinə qayğı və sevgi hissi ilə yanaşılması, onların qorunması üçün xalqın mütəşəkkiliyi və birliyi zəruridir;
- yalnız bunların gerçəkləşəcəyi təqdirdə Azərbaycan artıq heç kəsin onu tanımasına möhtac olmayan bir dövlətə çevrilə bilər. Onda artıq daxilən güclü, sabit Azərbaycan real və inkar olunmaz bir fakt kimi tanınacaqdır. Daxildə möhkəmlənən dövlətçilik hər cür xarici təhdidə layiqli cavab üçün fiziki və mənəvi qüvvə əldə edəcəkdir;
- hökumət mövcud qüvvələrini dövlət quruculuğunun bütün sahələrinə və Azərbaycanın daxili vəziyyətinin möhkəmləndirilməsinə sərf etməklə xalqın rəğbətini qazanmaq, habelə müstəqil dövlətçilik şəraitində yaşamağa qabil olduğumuzu göstərmək iqtidarına malikdir;
- ölkəmizdəki işlərin vəziyyəti – daxildən güclü Azərbaycanın mövcudluğu ilə Sülh nümayəndəliyindən istənilən səmərəli fəaliyyət və gözlənilən nəticələr sıx

əlaqədardır. Nümayəndə heyəti qarşıya qoyulan məqsədə yetişilməsi – arzuladığımız dünyanın yaranması üçün hər cür fədakarlığa, hətta özünü tamamilə qurban verməyə hazırdır.

(Çox maraqlıdır ki, fədakarlıq da göstərildi və məqsədə də yetişildi – Azərbaycanın müstəqilliyi tanındı. Amma arzuladığımız dünya qurulmadı (Aprel işğalı qoymadı). Sülh nümayəndəliyi bəzi istisnalarla ömürlük mühacir həyatı yaşamaqla əslində böyük amallar uğrunda (yolunda) özünü qurban verdi).

Dövlət başçısı – Sülh nümayəndəliyi sədrinin AXC-nin tanınmasına yönəlik səyləri 1919-cu ilin payızında daha da intensivləşdi. Dövrün beynəlxalq həyatındakı köklü dəyişikliklər – dönüş səciyyəli proseslər də Azərbaycan dövlətinin tanınmasının xeyrinə oldu. Belə ki, Antanta (İngiltərə) Sovet Rusiyası ilə anlaşmağa yönəlik xətt götürdü.

Bolşeviklərlə barışıq, Antantanın yeni yaranan dövlətlərə diqqətinin artması və hətta onların təmsilçiləri ilə xüsusi bir konfrans keçirilməsi məsələləri gündəmə gəldi. Bolşeviklərin danışıqların əsas obyekti – başlıca barışıq (sülh) şərtləri kimi bunları təklif etmələri məlumdur: yeni yaranan dövlətlərin Rusiyanın keçmiş borclarından paylarını ödəmələri əvəzində rəsmən tanınmaları. Bu şərtlər haqqında ilk dəfə deputat (polkovnik) Malone parlamentdə və sonra da L.Corc ziyafətdə bəhs etmişdilər.

Fransada isə "Vahid və bölünməz Rusiya"nın bərpası ideyası (xətti) hələ də üstün mövqelərə malik idi. Bu mövqe isə bir çox amillərlə yanaşı, əsasən də, Fransanın işgüzar dairələrinin Rusiyadakı maliyyə maraqlarından doğurdu. Ancaq Fransada qeyri-rus xalqların imperiyadan ayrılması ideyasına rəğbətlə yanaşan siyasi baxışlar da vardı. Bu dövrdə fransız mətbuatı ("Le Temps", "La Croix" və s.) ingilis hökumətinin Lenin Rusiyası ilə danışıqlarından, habelə Azərbaycanın da müstəqil mövcudluq imkanlarından geniş bəhs edirdi.



İngiltərənin yeni yaranan dövlətlərin tanınması ilə bağlı mövqeyindəki dəyişiklik L.Corcun parlamentin İcmalar palatasındakı nitqində (17.XI.1919) açıqlandı. Baş nazir geniş əks-səda doğuran bu nitqində Rusiyanın tərkibinə yenidən qatılmaq istəməyən dövlətlər sırasında digərləri ilə yanaşı Azərbaycanın da adını iki dəfə çəkmişdi.

L.Corcun belə bir qənaətə gəlməsinə AXC hökumətinin (Ə.Topçubaşının) "kimliyindən-bolşevik, menşevik, denikinçi və s. mövqedə dayanmasından asılı olmayaraq Azərbaycanın müstəqilliyinə qəsd edən hər bir kəs onun düşmənidir" kimi qəti xətti də ciddi təsir göstərmişdi. Onun nitqi (qənaəti) antibolşevik qüvvələr sırasına daxil etdiyi Azərbaycana da yardım göstərilməsi istəyinə əsas verirdi.

L.Corcun məşhur nitqi (xətti) ilə paralel surətdə Fransız Koloniyaları Liqası siyasət və xarici əlaqələr bölməsinin qətnaməsi də ortaya çıxdı. Barəsində bölmənin sədri P.Burdarinin Əlimərdan bəyə ünvanladığı məktubda (17.XI.1919) bəhs olunan qətnamədə Gürcüstanla bərabər Azərbaycanın da de-fakto və de-yure tanınması arzusu ifadə edilmişdi.

Belə bir məqama da mütləq toxunmaq lazımdır ki, L.Corcun bu mövqeyi və onu dəstəkləyən baxışlar Parisdəki rus siyasi dairələrinin sərt reaksiyası və ciddi müqaviməti ilə üzləşdi. Digər tərəfdən də, yeni yaranan dövlətlərin Sülh nümayəndəlikləri ilə "Vahid və bölünməz Rusiya"nın təmsilçiləri arasında ciddi siyasi-diplomatik mübahisələr yaşandı.

Lakin Böyük Britaniya hökuməti Rusiya ilə bağlı sərt gerçəklikləri nəzərə almaya bilməzdi. Və L.Corcun məlum çıxışı da həmin reallıqların düzgün dəyərləndirilməsindən irəli gəlmişdi. Əslində o, kiçik xalqların məqsədlərinin (tanınma, müdafiəolunma və s.) reallaşmasına müsbət təsir göstərən, onları ruhlandıran və ümidləndirən hallarla hesablaşmaq məcburiyyətində qalmışdı.

Həmin hallar isə bunlar idi: **a)** "ağ generallar"ın məğlubiyyəti; **b)** Denikinin ağır durumu və Müttəfiqlərin ona pul, ərzaq, sursat yardımından imtinası; **c)** Almaniyanın

Rusiya ilə yaxınlaşmaq planları; **ç)** Baltikyanı dövlətlərin bolşeviklərlə sülh müqaviləsi bağlamaq cəhdləri; **d)** ABŞ senatorlarının çoxluğunun Sülh konfransına, ələlxüsus da Versal müqaviləsinə mənfi münasibəti.

L.Corcun mətbuatda və ictimai rəydə dönüş yaradan nitqi Azərbaycan Sülh nümayəndəliyi tərəfindən də razılıqla qarşılanmışdı. Və, ən əsası isə, onun misilsiz nemət sayılan böyük sərvətə – müstəqilliyə yiyələnmək ümidlərini xeyli artırmışdı. Ə.Topçubaşı yazırdı: "Müstəqil siyasi həyata qabil xalq kimi ingilislərin diqqətini cəlb etdiyimizi eşitmək bizə xoşdur".

Siyasi cəhətdən durumumuzun yaxşılaşmasını, şəksiz, tanınma faktı ilə sıx əlaqələndirən dövlət (nümayəndəlik) başçısı bir daha Azərbaycanın daxili işlərinə diqqəti artırmağı, ən vacibi isə, tezliklə Müəssislər Məclisini toplamağı zəruri sayırdı. Bunlar rəsmən tanınma və Qərb tərəfindən dəstəklənmək üçün çox vacib idi. Çünki, bir tərəfdən, "rus məsələsi" ilə əlaqədar Londonda keçiriləcək konfransa hazırlıq işləri görülürdü. Digər tərəfdən də, yeni respublikaların təmsilçilərindən ibarət xüsusi bir konfransın İsveçrədə tezliklə çağrılacağı gözlənilirdi.

Transqafqaz dövlətlərinin tanınması və bolşevik təcavüzündən müdafiəsi məsələlərinə dair ingilis-amerikan məsləhətləşmələri də keçirildi. L.Corcun ABŞ dövlət katibinin müavini Polkla görüşündə (XI.1919) Baş nazir yeni yaranan dövlətlərin, o cümlədən də AXC-nin tanınmasının zərurətini açıqladı. Böyük Britaniyanın bu kimi səyləri çox güclü erməni təbliğatı ilə qarşılaşdı. İngiltərənin "erməni məsələsi"ni dumanlı və cəfəng problem" olaraq dəyərləndirməsi onun xəyanətdə və Azərbaycanın timsalında "Kiçik Türkiyə" yaratmaqda suçlandırılması ilə nəticələndi.

Güney Qafqaz respublikaları ilə bağlı problemlər "rus məsələsi"nin kontekstində Antanta dövlətləri Baş nazirlərinin görüşündə də (London, XII.1919) müzakirə olundu. Görüşdə çıxarılan qərara əsasən Azərbaycan və Gürcüstanı



Denikinlə barışdırmaq üçün Qafqaza göndərilən Makinderin (ingilis parlamentarisi) missiyası uğursuz oldu. "Üçlü blok" yaradılması təklifi keçmədi.

Ə.Topçubaşının AXC hökumətinə Denikinlə bağlı tövsiyələri öz işini gördü. "Paris məktublar"nda yazılırdı ki, "keçmiş Rusiyaya, ələlxüsus da Könüllü Orduya münasibət məsələlərində orta mövqe ola bilməz və olmamalıdır... Heç bir cəlbedici təklif, vəd və yarımçıq xarakterli danışıqlar bizə kömək etməyəcəkdir".

Digər tərəfdən, AXC rəhbərliyi Sovet Rusiyasının Denikinə qarşı birgə mübarizə "tövsiyəsi" ilə də razılaşmadı. Hətta 1920-ci ilin lap əvvəlindən etibarən onlar arasında "notalar savaşı" da başladı (bu barədə VI bölümdə ətraflı bəhs olunur).

AXC hökumətinin müttəfiqlərin və bolşeviklərin təkliflərindən imtina etdiyi bir şəraitdə Sülh nümayəndəliyimiz Azərbaycanın Millətlər Cəmiyyətinə qəbuluna cəhdlər göstərdi. Bu niyyətlə də xüsusi Memorandum beynəlxalq qurumun katibliyinə təqdim (XII.1919) olundu (Məlum təkliflərdən imtina və bu Memorandum AXC-nin "çoxrəngli" Rusiyaya qatılmamaq xəttindəki israrlılığın davamı (təsdiqi) kimi də qiymətləndirilə bilər). Lakin Azərbaycanın durumu (de-yure tanınmaması, sərhəd mübahisələri və s.) Millətlər Cəmiyyətinə qəbulun şərtlərinə uyğun gəlmədiyindən məsələnin həlli müvəqqəti təxirə salındı.

İngiltərə hökuməti yeni xəttində maraqlı olduğundan Transqafqazdakı Ali komissarı Uordrop vasitəsi ilə AXC hökumətini məlumatlandırdı (XII.1919): Azərbaycanın müstəqilliyi müdafiə edilir və ona rəğbətlə yanaşılır. Qafqaz respublikalarına münasibət məsələləri yenə də ingilislərin təşəbbüsü ilə Sülh konfransı Ali Şurasının Ke d'Orsedə keçirilən müşavirəsində (10-11.I.1920) müzakirə edildi. Müşavirədə ilk öncə Azərbaycan və Gürcüstan üçün yaranan təhlükə açıqlandı.

Diplomatların fikrincə, **1-cisi**, Cənuba irəliləyən bolşe-

vik Rusiyasının qoşunları, **2-cisi**, geri çəkilən "Könüllü Ordu", **3-cüsü** də, kamalçı.Türkiyə bu iki cümhuriyyətə hərbi müdaxilə edə bilərdi. Müzakirələrin gedişində təklif olundu ki:

- ingilis nümayəndələri "Transqafqaz respublikalarına yardım haqqında" Memorandum hazırlasınlar;
- Azərbaycan və Gürcüstan ləngidilmədən de-fakto tanınsınlar;
- Ermənistan məsələsi "türk məsələsi" ilə birlikdə həll edilsin.

Nəhayət, Ali Şura lord Kerzonun təklifi ilə 1920-ci il yanvarın 11-də Azərbaycanın (habelə Gürcüstanın) istiqlalının tanınması barədə tarixi qərar qəbul etdi. Yaponiya hökuməti tezliklə (7.II.1920) bu qərara qatılsa da, ABŞ onu rədd etdi. Onun mövqeyi çox ziddiyyətli və anlaşılmaz (əslində məntiqsiz) idi.

Çünki məsələyə belə yanaşma, bir tərəfdən, ABŞ-Qərbi Avropa ixtilaflarından (Amerika-İngiltərə ziddiyyətlərindən) irəli gəlirdisə, digər tərəfdən də, yeni dövlətlərin tanınmasının "Vahid Rusiya"nın bölünməsinin başlanğıcı kimi dəyərləndirilməsindən doğmuşdu. Halbuki, ABŞ-ın sonrakı diplomatik addımlarında bu dəyərləndirmə nəzərə alınmadı. Belə ki, Müttəfiqlər tərəfindən tanınan (19.I.1920) Ermənistana ABŞ-ın "de-fakto bəyanilmə hədiyyəsi" (23.IV.1920) heç bir problem yaratmadı.

Sülh konfransının Azərbaycanın de-fakto tanınmasına dair rəsmi qərarı 1920-ci il yanvarın 15-də Fransa XİN-də keçirilən qəbulda Ə.Topçubaşıya təqdim olundu. "Bu gündən belə suveren dövlət hesab edilən" AXC-nin Sülh nümayəndəliyi konfransın bərabərhüquqlu iştirakçısı kimi müəyyən əlavə səlahiyyətlər qazandı. Əlimərdan bəy Azərbaycanın böyük dövlətlərdən yardım gözlədiyini və de-yure tanınmaq istədiyini də vurğuladı.

Ke d'Orse sessiyasının təklifinə əsasən Sülh konfransının ekspertlər Şurası Qafqazın müstəqilliyi artıq tanınan



dövlətlərinə hərbi yardım göstərilməsi məsələsini müzakirəyə (15-16.I.1920) çıxardı. İngiltərənin o dövrki Hərbi naziri U.Çörçill və digər yüksək rütbəli hərbiçilərin də iştirak etdiyi bu müzakirədə, habelə AXC və GR təmsilçiləri ilə keçirilən müşavirədə elə bir ciddi nəticələr əldə olunmadı. Müxtəlif səbəblər üzündən əsas diqqət yalnız ərzaq yardımı imkanları üzərində cəmləşdirildi.

Qafqaz dövlətlərinə yardım məsələləri Sülh konfransı Ali Şurasının yüksək səviyyəli toplantısında (19.I.1920) bir daha araşdırıldı. Dövrün ən məşhur dövlət adamlarının (Klemanso, Corc, Kerzon, Nitti, Çörçill, Kambon, Foş və b.) da iştirak etdikləri bu iclasa AXC Sülh nümayəndəliyi tam tərkibdə qatılmışdı. "Transqafqaz respublikalarına yardım haqqında" Memorandum iclasda ciddi mübahisələr yaratdı. Müzakirələr, əsasən, Qafqaz dövlətlərinin hərbi imkanları, yardımın göstərilməsi yolları və formaları ətrafında aparıldı. Nəticədə regiona qoşun hissələri göndərilməsinin mümkünsüzlüyü qənaətinə gəlindi.

Əlimərdan bəyin Dağlılar Respublikasının da de-fakto tanınmasına dair təklifini bəyənən Ali Şuranın iclası 4 bəndlik qərarla işini yekunlaşdırdı. Qərara görə: Ermənistan və Dağıstan de-fakto tanınmalı idi; Qafqaza ordu göndərilməsi mümkün deyildi; yalnız silah, hərbi sursat və ərzaq yollanılacaqdı; göndəriləcək hərbi materialların tərkibi və çatdırılması yolları müəyyənləşdirilməli idi.

Sülh nümayəndəliyinin AXC rəhbərliyi və XİN-i ilə təcili məsləhətləşmələrindən sonra Azərbaycan hökumətinin rəsmi Memorandumu konfransın Ali Şurasına təqdim edildi. Dörd bənddən ibarət olan bu Memorandumda:

- Azərbaycan Respublikasının istiqlalının tanınmasının tarixi əhəmiyyəti dəyərləndirilirdi;
- Azərbaycanın "tezliklə Şimaldan gözlədiyi" təhlükənin sovuşdurulması üçün ona ciddi yardım göstərilməsi zərurəti əsaslandırılır və bu köməyin təcili edilməsi xahiş olunurdu;

- iqtisadi-maliyyə böhranının aradan qaldırılması məqsədi ilə Qərb dövlətlərinin AXC-yə 40-50 milyon qızıl manat məbləğində borc verməsi istənilirdi;
- daha ağır durumda olan Gürcüstana taxıl yardımı göstərən Azərbaycanda da çörək qıtlığı təhlükəsi yarandığından onun ərzaq yardımına ehtiyacı vurğulanır, bunun əvəzinin neft, pambıq və s. ilə ödəniləcəyi bildirilirdi;
- Batum limanının Azərbaycan üçün əməli önəmini nəzərə alaraq ondan istifadənin beynəlxalq zəmanət altına alınması təklif edilirdi.

Bu və digər hadisə (tədbirlərlə) AXC Sülh nümayəndəliyinin Azərbaycanın de-fakto tanınması uğrunda mübarizəsi, əsasən, sona çatmış oldu.

### Azərbaycanın ərazi bütövlüyünün təminatı uğrunda mübarizə

AXC Sülh nümayəndəliyinin Paris konfransındakı çoxşaxəli fəaliyyətinin başlıca istiqamətlərindən birini də Azərbaycanın ərazi bütövlüyü uğrunda ardıcıl mübarizə təşkil edir. Bu problemə dair məsələlərin aşağıdakı şəkildə qruplaşdırılması və izahı daha faydalı olar:

**1.** Bir sıra xarici dövlətlər tərəfindən dəstəklənən ermənilərin Cənub-Qərbi Azərbaycan torpaqlarına dair iddialarını Sülh konfransının himayəsi ilə qanuniləşdirməyə və gerçəkləşdirməyə çalışmaları;

**2.** Azərbaycan Sülh nümayəndəliyinin "Böyük Ermənistan" iddialarının dəf olunması sahəsindəki siyasi-diplomatik səyləri;

**3.** İranın Paris konfransı vasitəsi ilə "öz tarixi torpaqları"nı – Quzey Azərbaycanı "geri qaytarmaq" cəhdlərinin zərərsizləşdirilməsinə yönəlik tədbirlər görülməsi.

Məlum olduğu kimi, ermənilər hələ Paris konfransınadək Azərbaycanın bir sıra mahallarında sürətlə "etnik təmizləmə" - "yandırılmış torpaq" siyasətini yürütmüşdülər. Onlar bununla da "türksüzləşdirilmiş-müsəlmansızlaşdırılmış" bölgələrimizə öz "etnoqrafik hüquqlar"ını "sübuta" yetirməyə və həmin ərazilərin Ermənistana "tarixi" mənsubiyyətinin beynəlxalq birlik tərəfindən tanınmasına çalışırdılar.

Ermənistan bu qəsbkarlıq məqsədlərinə müvafiq olaraq Azərbaycana qarşı ərazi iddiaları ilə bağlı Sülh konfransına da tələblər irəli sürdü. Onun nümayəndəliyinin Memorandumunda Qafqaz Ermənistanının – keçmiş İrəvan quberniyasını (vaxtı ilə ona qatılan Naxçıvan mahalı və s.), habelə Gəncə quberniyasının cənub hissəsini də (Zəngəzur və b. qəzaları) əhatə edən - ərazisi göstərilirdi. Ermənilər öz niyyətlərini gerçəkləşdirmək üçün Memorandumda bir sıra cəfəng "*dəlillər*"i vurğulamışdılar. Onlar iddia edirdilər ki, azərbaycanlılar:

- birinci dünya müharibəsində Osmanlı türkləri ilə müttəfiq olmuşlar;
- *Bakıda ingilis-erməni qüvvələri ilə vuruşmuşlar;*
- *hazırda da Qafqazda yeni fəlakət törədə bilərlər.*

Ermənilərin Paris konfransından tələbləri, təqdim etdikləri xəritədən də göründüyü kimi dənizlərdən (Qara və Xəzər) dənizə (Aralıq) qədər ərazinin "xarici işğalçılar"dan (Osmanlı və Azərbaycan dövlətlərindən) "azad olunması"nı nəzərdə tuturdu. İrəvandakı ingilis missiyasının üzvü polkovnik Temperleyin "Ermənistan Rus dövlətinin 1914-cü il hüdudlarında hansı əraziləri özünün ayrılmaz hissələri sayır?" sualına cavabında çoxlu digər bölgələrlə yanaşı həm də bütün İrəvan quberniyasının və cüzi istisnalarla Gəncə quberniyasının Zəngəzur qəzasının adlarını çəkmişdi.

Doğrudur, erməni nümayəndə heyətlərinin Paris konfransından tələbləri böyük dövlətlərin başçıları (L.Corc, Nitti) tərəfindən ciddi qəbul edilmədi. Belə ki, L.Corc İcmalar palatasındakı çıxışlarında: **a)** ermənilərin arzularının həddən ziyadə böyüklüyünü; **b)** iddiasında olduqları ərazilərin əhalisinin tərkibində azlıq təşkil etmələrini qabartdı.

İtaliyanın, "ermənilərin işini öz işi sayan", əvvəlki Baş naziri Orlandodan fərqli olaraq Nitti "Böyük Ermənistan"ın bərpasını Antantanın avantürası sayırdı. O sanki gələcəyə ünvanlanan çox oricinal bir tövsiyə-xəbərdalığın da müəllifidir: "Ermənistan yalnız xəyali hüquqlarının köçürüldüyü xəritə ilə kifayətlənə bilər". Əvvəldə barəsində bəhs olunan İv.Loris-Melikov da "Böyük Ermənistan"ın bərpası istəyinin konfransda və Qərbin siyasi-diplomatik dairələrində müəyyən narazılıqlar yaratdığını təsdiqləmişdi.

Paris konfransında ermənilərin əsassız ərazi iddialarına Sülh nümayəndəliyimiz tərəfindən yetərincə tutarlı cavablar verildi. Öncə "Parisdəki Sülh konfransına Qafqaz Azərbaycanı Sülh nümayəndəliyinin tələbləri" (Memorandumu) ilə ermənilərin iddiaları rədd olundu. Memorandumun IX ("Azərbaycan Respublikasının ərazisi") və X ("Azərbaycan Respublikasının ərazisi və əhalisinin sayı") bölümləri də bunu təsdiqləyir.

Memoranduma əlavə olunan xəritədən də göründüyü kimi, AXC-nin tabeliyində olan ərazisi şərqdə Xəzər dənizi, şimalda Dağıstan, Quzey Qafqaz və Gürcüstan, qərbdə Gürcüstan və Ermənistan, cənubda İranla həmsərhəd idi. Onun real hakimiyyəti altında olan mübahisəsiz ərazi 94.137,38 kv. km təşkil edirdi. Bu da Qafqazın 247.376,15 kv. km-lik ərazisinin 30 faizinə bərabər idi. AXC hakimiyyətinin yayıldığı mübahisəli əraziləri də əlavə etdikdə respublikanın ümumi ərazisi 150.184,88 kv. km olurdu. Bu da bütün Qafqazın 60 faizini təşkil edirdi.

Memorandumun IX bölümündə Qafqaz Azərbaycanının keçmiş inzibati bölgüsü də verilmişdi:

1. Bakı quberniyası (Bakı şəhəri, habelə Cavad, Göyçay, Quba və Lənkəran qəzaları).
2. Yelizavetpol (Gəncə) quberniyası (Cavanşir, Nuxa, Ərəş, Şuşa, Cəbrayıl, Zəngəzur və Qazax qəzaları). Gəncə quberniyasının dağlıq hissəsi Azərbaycanla Ermənistan arasında mübahisəli olaraq qalırdı.



3. İrəvan quberniyası (Naxçıvan, Şərur-Dərələyəz, Sürməli qəzaları, habelə yeni Bayazid, Eçmiədzin və Sığnax qəzalarının bir hissəsi).
4. Tiflis quberniyasında Borçalı, Tiflis və Sığnax qəzalarının mühüm bir hissəsi də Azərbaycan ərazisidir.
5. Zaqatala qəzası.
6. Dağıstan regionunda Kürə və Samur nahiyələrini əhatə edən ərazinin bir hissəsi, habelə Dərbənd şəhəri və onun ətrafı da daxil olmaqla Taytaq-Tabasaran qəzasının bir hissəsi.
7. Yuxarıda adları çəkilən İrəvan və Tiflis quberniyalarında, habelə Zaqatala qəzasında mənsubiyyəti Qafqaz respublikaları arasında iddialar doğuran sahəcə çox kiçik ərazilər də mövcuddur.

Memorandumun bu bölümündə həmin inzibati bölgüyə əlavə olaraq bildirilirdi ki, AXC adları sadalanan qəza və əyalətlərdən başqa Tiflis quberniyasındakı Axalsıx qəzasını, Batum, əlalxüsus da Qars mahallarını ərazisinə qatmağa xüsusi əhəmiyyət verir.

Azərbaycan Sülh nümayəndəliyi "Böyük Ermənistan" uğrundakı fitnə-fəsadların Parisdəki davamına qarşı mübarizə apararkən bir sıra diplomatik tədbirlər gördü. Onlar arasında Ə.Topçubaşının Sülh konfransının sədrinə və müttəfiqlərin nümayəndələrinə ünvanladığı etiraz notası (16/19.VIII.1919) xüsusi yer tutur. Nota ingilislərin himayəsi ilə Qars Respublikasının Ermənistana birləşdirilməsi, habelə Naxçıvan, Şərur-Dərələyəz, Sürməli mahallarının və İrəvan qəzasının bir hissəsinin onun idarəçiliyinə keçməsinin elan edilməsinə görə verilmişdi.

Mühüm əhəmiyyət kəsb edən bu diplomatik sənəddə aşağıdakı məqamlar nəzər-diqqəti xüsusi ilə cəlb edirdi:

**a)** göstərilən mahalların ermənilərin idarəçiliyinə verilməsinin elan edilməsi ilə (IV.1919) əlaqədar Müttəfiqlərin Qafqazdakı qoşunlarının komandanlığına AXC hökuməti tərəfindən etiraz olunması;

b) erməni hərbi hissələrinin həmin qəzalarda türk-müsəlman əhalisinə qarşı görülməmiş vəhşiliklər törətmələri;

c) bu ərazilərin idarəçiliyinin ermənilərə verilməsinin AXC-nin həmin torpaqlara dair şəksiz hüquqlarının açıq-aşkar pozulması kimi qiymətləndirilməsi.

Bölgələrin idarəçiliyinin Ermənistana keçməsi aktının onun hökuməti ilə yerli müsəlman əhalisi arasında daimi anlaşılmazlıqlar və hətta toqquşmalar yaradacağı da notada vurğulanırdı. Notada həmçinin AXC hökumətinin mövqeyinin haqlılığına dair dəlillər də öz əksini tapmışdı:

- adları sadalanan qəzaların Azərbaycanın tərkib hissəsi kimi həmişə onun tərəfindən idarə edilməsi;
- Ermənistan Respublikasının idarəçilik mənasında hazırkı vaxtadək həmin qəzalarla heç bir əlaqəsinin olmaması;
- göstərilən ərazilərin müsəlman əhalisinin Ermənistanın idarəçiliyinə əsla dözməmələri və Azərbaycana can atmaları, bu məqsədlə də çoxsaylı nümayəndəliklər və yazılı müraciətlər göndərmələri;
- ən əsası isə adları çəkilən ərazilərdə yaşayan müsəlmanların və ermənilərin nisbətinin bu torpaqların Azərbaycana mənsubiyyətinin həlli üçün yetərliliyi.

Etiraz notasında həm də Sülh konfransından bir xahiş edilirdi. Belə ki, Müttəfiqlərin Qafqazdakı qoşunlarının komandanlığı vasitəsi ilə həmin qəzaların AXC-nin idarəçiliyində saxlanılması istənilirdi. Lakin bu kimi xahiş və istəklər hələki elə bir ciddi nəticə vermirdi.

Ə.Topçubaşı bunu "Paris məktubları"nda çox yaxşı açıqlamışdı: ingilis komandanlığı yerli müsəlman əhaliyə qarşı ədalətsiz hərəkətlərə göz yumur; tədbirlər görmək bir yana, açıq-aşkar yanlışlığa yuvarlanıb müsəlmanları günahlandırır; burada (konfransda) da kiçik xalqlara münasibətdə eyni ehtiyatlı, gözləmə mövqeyi və eyni cahillik, xəbərsizlik hökm sürür.

Regionun digər dövlətlərinin Sülh nümayəndəliklərinin



"Qafqaz Evi" uğrundakı mübarizəsi də ermənilər tərəfindən əngəlləndi. Onların təmsilçiliklərinin yalnız "Türkiyə və Qafqaz Ermənistanının vahid və böyük Ermənistan olaraq Ümumqafqaz Konfederasiyasına qatılmasının mümkünlüyü" tezisi birgə mübarizəyə ciddi zərbə vurdu.

Ermənilərin Qafqaz xalqları arasındakı ərazi-sərhəd mübahisələrinin tənzimlənməsinə dair məkrli (qərəzli) mövqeləri də regionun problemlərinin həllinə ciddi xələl gətirdi. Belə ki, onların təmsilçiləri Sülh nümayəndəliklərinin birgə iclaslarına (müzakirələrinə) əsasən qatılmırdılar. Danışıqlar prosesinə qoşulanda da əsassız tələblərlə və mümkünsüz təkliflərlə ümumi nəticələrə gəlinməsinə imkan vermirdilər. Məsələn, onların təmsilçilikləri konfransdakı güclü dayaqlarını nəzərə alaraq ərazi-sərhəd məsələlərinin məhz burada həll edilməsinə çalışırdılar.

Buna görə də Azərbaycan və Gürcüstan nümayəndəliklərinin birgə iclaslarında (14.VIII.1919 və s.) ikitərəfli ortaq mövqe işlənib hazırlandı. Özəyində M.Məhərrəmovun təklifi dayanan bu ortaq mövqe: **a)** sərfəli sayılmadığından ərazi-sərhəd mübahisələrinin konfransda deyil, yerlərdə həll edilməsini; **b)** bu işdə əsas prinsip kimi AXC-GR müqaviləsinin (16.VI.1919) dördüncü maddəsinə istinad olunmasını nəzərdə tuturdu (Həmin maddə ərazi məsələlərinin tərəflər arasında tənzimlənməsini, mübahisəli hallarda isə arbitraj vasitəsi ilə həllini əsas götürürdü).

Azərbaycan Sülh nümayəndəliyinin torpaqlarımızın tamlığı uğrunda, ilk növbədə isə "Böyük Ermənistanın bərpası" cəhdlərinə qarşı mübarizəsi sonrakı beynəlxalq məclislərdə də (London və San-Remo konfranslarında) davam etdirildi.

AXC diplomatiyası Paris konfransında İranın da əsassız ərazi iddiaları ilə qarşılaşdı. Sözgəlişi, İran hələ Sülh konfransından əvvəl də Şimali Azərbaycanı "geri qaytarmağa" diplomatik səylər göstərmişdi. M.Ə.Rəsulzadə İstanbuldan M.H.Hacınskiyə yolladığı diplomatik məktublarda (2 və

6.IX.1918) məlumat verirdi ki, İran Quzey Azərbaycanı özünün ayrılmaz tərkib hissəsi sayır və Osmanlının AXC ilə bağlı siyasətindən narazıdır.

İran Sülh nümayəndəliyi Tehran-Paris yolu boyu apardığı müzakirələr zamanı Bakıda (AXC hökuməti ilə) qismən və İstanbulda (Əlimərdan bəylə) əsasən toxunduğu məsələləri konfransda rəsmən qaldırdı. İranın Xarici İşlər naziri Sülh konfransında xüsusi bəyanat verdi. Həmin bəyanatda İranın "tarixi hüquqlarına" hörmət edilməsi istənilirdi. Bununla İran "öz torpaqları"nın (578 min kv. km ərazinin) – Qafqazda Dərbənddən aşağı və Orta Asiyada isə Aral dənizindən şimala qədər torpaqların "geri qaytarılmasına" çalışırdı.

Fars diplomatiyasının Sülh konfransına Memorandumunda bütün Şimali Azərbaycana iddia irəli sürülürdü. Həmin iddiaların (tələblərin) "əsaslandırılması" üçün istinad edilən "dəlillər" tutarsız olduğu qədər də mücərrəd idi:

- iddia edilən ərazilərin vaxtı ilə İranın tərkibində olmaları;
- onların əhalisinin çoxluğunun fars mənşəliliyi və İran irqinə mənsubiyyəti;
- həmin ərazilərin və onların əhalisinin tarixi, coğrafi, iqtisadi, ticarət, dini, mədəni cəhətlərdən İrana aidiyyəti;
- bu vilayətlərin əhalisinin bir hissəsinin Tehran hökumətindən onları ermənilərdən qorumaları xahişi və İranın tərkibinə qayıtmaq arzusu.

Birinci üç "dəlil"in əsassızlığının əlavə şərhə ehtiyacı olmadığından sonuncu ilə bağlı məqamlara aydınlıq gətirilməsinə lüzum vardır. Belə ki, 1919-cu ilin birinci yarısında Naxçıvan bölgəsindəki gərgin vəziyyət, AXC ilə geniş əlaqələrin mümkünsüzlüyü və s. üzündən mahalın başçıları İrandan yardım istəmişdilər. Rəsmi arxiv sənədlərindən də göründüyü kimi İranla yaxınlaşmaq cəhdləri Osmanlı qoşunlarının getməsindən sonra bölgə və onun türk-müsəlman əhalisi üçün



ermənilər tərəfindən yaradılan təhlükədən irəli gəlmişdi. Mahalın AXC-yə deyil, İrana birləşmək istəməsinə dair fikirlər fars diplomatiyasının uydurması idi.

İranın Sülh konfransından tələbləri (Şimai Azərbaycana iddiaları) əsassız olduğu kimi də gerçəkləşdirilmək perspektivləri və imkanlarına malik deyildi. Ə.Topçubaşının İran təmsilçiləri ilə görüşlərdən sonra gəldiyi qənaətlər də bunu təsdiqləyir. Onun nöqteyi-nəzərincə fars nümayəndə heyəti: **a)** özünü daha ehtiyatlı aparır; **b)** əsaslandığı dəlilin (tarixi birlik) zəifliyindən tələblərinin təmin olunmasına özü də inanmırdı. Fars diplomatiyası yalnız Qafqaz Konfederasiyasının yaradılmasının mümkünsüzlüyünə görə Quzey Azərbaycanın İrana birləşməyə məcbur olacağına ümidli idi və bunu çox istəyirdi.

Bəs onda İranın Şimali Azərbaycana qarşı ərazi iddiaları nə ilə əlaqədardı? Əslində bu tələblər müəyyən diplomatik gediş – "qabaqlayıcı addım" səciyyəsini daşımışdı. Fars diplomatiyası AXC-nin İrana qarşı "gözlənilə biləcək ərazi iddiaları"nı qabaqlayaraq Quzey Azərbaycana dair "tarixi hüquqları"nın bərpasına çalışdığını bəyan etmişdi.

İranın Şimali Azərbaycana qarşı ərazi iddialarına düşməsinə, şübhəsiz, Güney Azərbaycanda gedən proseslərdən qayğılanması da müəyyən təsir göstərmişdi. AXC-nin İrandakı böyük elçisi A.Ziyadxanın rəsmi Bakıya Xarici İşlər nazirliyinə məktub-teleqramında bu mühüm məqam vurğulanmışdı: Cənubi Azərbaycanda İrandan ayrılıb AXC ilə birləşmə istiqamətində zəif təşviqat müşahidə olunur və bundan rahatsızlanan İran bizə xeyirxah münasibət bəsləmir.

Geostrateji maraqları Orta Şərqdə də toqquşan Qərb dövlətləri Sülh konfransında İranla həmrəy olmadılar. Onlar İranın konfransdan tələblərini qeyri-ciddi mövqe kimi dəyərləndirdilər. İngiltərə-İran müqaviləsi bağlandıqdan (9.VIII.1919) sonra fars Sülh nümayəndəliyi konfransdakı fəaliyyətdən tamamilə uzaqlaşdırıldı.

Beləliklə, AXC-nin Sülh nümayəndəliyi dövlətimizin ərazi bütövlüyünün təminatı naminə uğurlu mübarizə apardı. Ölkəmizin torpaq tamlığının pozulmasına yönəlik bütün səylər dəf olundu.

* * *

Bütövlükdə isə Azərbaycan diplomatiyası Paris Sülh konfransında çoxşaxəli və səmərəli fəaliyyət göstərdi. Bu fəaliyyətin nəticələrinə gəldikdə, ilk öncə, aşağıdakı məqamlar vurğulanmalı və diqqətönünə çəkilməlidir:

**1.** Azərbaycanın beynəlxalq aləmə çıxması və ilk növbədə də konfransın Ali Şurası tərəfindən de-fakto tanınması. Bu, Sülh nümayəndəliyinin (Ə.Topçubaşının) fəaliyyətinin ən əsas yekunu və böyük diplomatik uğuru kimi dəyərləndirilməlidir. Yeri gəlmişkən, Ali Şuranın qərarı Azərbaycanda razılıq və sevinclə qarşılandı. AXC-nin Baş naziri N.Yusifbəylinin "Azərbaycan vətəndaşlarına" müraciəti elan edildi (14.I.1920). Parlamentin təntənəli toplantısında (14.I.1920) onun sədr müavini (əvəzi) H.Ağayev istiqlalımızın tanınmasını "bütün türk xalqının bayramı" kimi səciyyələndirdi.

**2.** AXC-nin müstəqil dövlət kimi beynəlxalq miqyasda tanıdılmasına təşəbbüslər göstərilməsi. Belə ki, konfransda böyük dövlətlərlə və yeni yaranan cümhuriyyətlərlə sıx diplomatik təmaslar quruldu.

**3.** Zəmanənin görkəmli dövlət xadimləri ilə görüşlər keçirilməsi. Xüsusi ilə də Sülh nümayəndəliyinin V.Vilson tərəfindən qəbuluna nail olunması onun beynəlxalq fəaliyyətinin uğurlu başlanğıcı da sayıla bilər.

**4.** "Qafqaz Evi"nin yaradılmasına cəhdlər göstərilməsi və İran Sülh nümayəndəliyi ilə anlaşmaya nail olunması.

**5.** Azərbaycanın ərazi bütövlüyünün təmin olunması naminə ardıcıl və uğurlu mübarizə aparılması. Nəticədə:



**a)** "Vahid Rusiya" qəbul olunmadı; **b)** "Böyük Ermənistan" rədd edildi; **c)** "İrana qaytarılma" baş tutmadı.

**6.** Qərbin işgüzar dairələri və ictimaiyyəti ilə iqtisadi-mədəni əlaqələr yaradılması. Ermənilərin antitürk-antimüsəlman təbliğatı zərərsizləşdirildi.

**7.** Qərbin çağdaş dəyərlərindən Azərbaycanın dövlət quruculuğunda istifadə olunmasına yönəlik tövsiyə-məsləhətlərin verilməsi.

**8.** Böyük diplomatiya məktəbinin keçilməsi və müvafiq təcrübəyə yiyələnilməsi.

Azərbaycan Sülh nümayəndəliyi Paris konfransındakı işini yekunlaşdırdıqdan sonra Avropada keçirilən bir sıra mötəbər beynəlxalq toplantılara da qatıldı. Eyni zamanda AXC hökuməti diplomatik qaydaları və yeni şəraitin tələblərini nəzərə aldı. Paris Sülh konfransındakı Azərbaycan nümayəndəliyinin ləğvi və Qərbi Avropa dövlətlərində, ABŞ-da diplomatik nümayəndəliklərin yaradılması barədə qərar (5.III.1920) çıxarıldı. 1920-ci il aprelin 1-dən etibarən AXC-nin Fransa, İngiltərə, İsveçrə, İtaliya, Polşa və ABŞ-da diplomatik nümayəndəliklərinin açılmasına başlanılması razılaşdırıldı. Habelə Azərbaycanın Fransadakı böyük elçiliyinin işə başlaması ilə Sülh nümayəndəliyinin fəaliyyətinə xitam verilməli idi.

Lakin Aprel işğalı Azərbaycanın de-fakto tanınmasının diplomatik nümayəndəliklər vasitəsi ilə gerçəkləşdirilməsinə də imkan vermədi. Paris konfransındakı fəaliyyətini böyük uğurla yekunlaşdıran Sülh nümayəndəliyimiz (xeyli əvvəl Azərbaycana dönən M.H.Hacınski çıxılmaqla) Vətənə qayıda bilmədi. Onlar "Azərbaycan davası"nı mühacirətdə davam etdirməli oldular.

# ALTINCI BÖLÜM

## AZƏRBAYCAN-RUSİYA MÜNASİBƏTLƏRİ VƏ APREL İŞĞALI

Azərbaycan istiqlalının tanınmasından az sonra onun itirilməsi təhlükəsi artdı. Dövlətçiliyimizin yenidən itirlməsi təhlükəsi və süqutu daxili və, ən əsası da, bir sıra xarici amillərlə bağlı olmuşdur. Xarici amillər sırasında ən başlıcaları bunlar sayılır:

- "Böyük Ermənistan"ın bərpasına yönəlik hərbi-diplomatik səylər;
- Qərb dövlətlərinin ikili mövqeyi;
- Türkiyənin Azərbaycana yardım göstərə bilməsinin mümkünsüzlüyü;
- Rusiyanın işğalçılıq siyasəti və hərbi təcavüzü.

Azərbaycan dövlətçiliyinə (istiqlalına) təhlükə yaradan və onu süquta uğradan bu amillər arasında sonuncu həlledici hesab olunur. Bu mühüm məqamı və tarixi şəraitin reallıqlarını nəzərə alan AXC hökuməti Rusiya ilə bərabərhüquqlu münasibətlər yaratmağa çalışırdı. Rusiyadakı daxili siyasi-hərbi qarşıdurma onunla əlaqələr qurmaq istəyən dövlətlər üçün ciddi problemlər doğurmuşdu. Azərbaycan da bu baxımdan istisna təşkil etmirdi.

Rusiyanın bu dövrdəki xarici siyasəti əslində iki tərəfdən – vətəndaş müharibəsində qarşıduran qüvvələr vasitəsi ilə aparılırdı. Və Azərbaycan da bu xüsusi şəraiti nəzərə almalı oldu. AXC diplomatiyası şəraitə uyğun olaraq Rusiyadakı tərəflərin ikisi ilə də anlaşmağa çalışırdı. Bu məqsədlə də yeri gəldikcə "qırmızı", yaxud da "ağ" Rusiya ilə münasibətlər yaradılmasına cəhdlər göstərilirdi. Belə əvəzlənməyə Rusiyadakı tərəflərdən birinin digərini üstələməsindən irəli gələn şərtlər də təsir edirdi.

Buna görə də əvvəlcə Azərbaycan-Sovet Rusiyası, sonra AXC-Denikin və sonda isə yenə də AXC-Lenin Rusiyası münasibətləri önə çıxdı. Azərbaycan-Rusiya münasibətləri məsələlərindən bəhs edərkən belə bir mühüm cəhət xüsusi olaraq vurğulanmalıdır: daxildəki hərbi-siyasi qarşıdurmanın hər iki tərəfi (Lenin və Denikin Rusiyaları) böyük dövlətçilik iddialarından çıxış edirdi. Onların Azərbaycanda geostrateji maraqları var idi. Və ölkəmizi yenidən işğal etmək məqsədi güdürdülər.



### Azərbaycan-Sovet Rusiyası münasibətlərinin səciyyəsi

AXC hökuməti İstiqlal Bəyannaməsinin prinsiplərinə müvafiq olaraq Rusiya ilə də normal münasibətlər yaradılmasına böyük əhəmiyyət verirdi. Və onun daxilindəki siyasi-hərbi qarşıdurmanın gedişindən asılı olaraq, ilk öncə, Sovetlərlə (Lenin hökuməti ilə) əlaqələr qurulması lazım gəldi. Azərbaycanın Rusiya ilə (indilik Sovetlərlə) münasibətlər yaratmaq zərurəti dövlətimizin xarici siyasətinin başlıca məqsədləri ilə sıx bağlı idi. Bu işdə tarixi əlaqələrin və həlli təxirəsalınmaz olan iqtisadi problemlərin (Rusiya bazarına ehtiyac, yeni ticarət-maliyyə ilişgilərinin hələlik qurula bilməməsi və s.) də təsiri danılmazdır.

Rusiya Sovet Federativ Sosialist Respublikası (RSFSR) fəaliyyətinin ilk çağlarından etibarən "Vahid və bölünməz Rusiya" siyasətindən (prinsipindən) çıxış edirdi. Buna görə də Qafqazdan (Azərbaycandan) əl çəkmək istəmirdi. Bu istiqamətdə bir sıra addımar atılmışdı:

**a)** bütün Qafqaz ölkəsinin sovetləşəcəyi müddətədək S.Şaumyan region üzrə Fövqəladə Komissar təyin olundu (16.XII.1917); **b)** "Türkiyə Ermənistanının muxtariyyəti haqqında" 13 saylı dekret (29.XII.1917) elan edildi ("məşhur" Andranik bu dekreti son yüzilin Rusiya tarixində "Böyük Ermənistan"ın bərpasına rəvac verən ilk rəsmi sənəd kimi dəyərləndirmişdi); **c)** Bakı Xalq Komissarları Sovetinin (XKS; onu Bakı Kommunası da adlandırırlar) timsalında Rusiyanın Qafqazda plasdarmı – regionda "vətəndaş müharibəsinin

başlıca mərkəzi və istehkamı" (S.Şaumyan) yaradıldı.

Erməni liderləri (A.Xatisyan və b.) tərəfindən "Ermənistan Sovet hökuməti" kimi səciyyələndirilən Bakı Kommunası qarşısına iki məqsəd qoymuşdu: **1.** Azərbaycanın istiqlalına mane olmaq. **2.** Bakını Rusiya üçün əldə saxlamaq və onu Azərbaycandan ayırmaq. Buna görə də o, məqsədyönlü antiazərbaycan siyasətini aparırdı. "Müsavat" və digərlərinin Azərbaycanın muxtariyyətinə dair ideyası "millətçilərin Bakını Azərbaycan xalqının paytaxtı" etməsi kimi qiymətləndirildi (Əmiryanın redaktorluğu ilə çıxan "Bakinski raboçi" qəzeti hətta "Azərbaycan" sözünü məsxərəyə qoyurdu). Bakıda və ətraf ərazilərdə türk-müsəlman soyqırımı həyata keçirildi. Qısa müddətdə Rusiyaya 1,5 milyon ton neft, habelə xeyli pambıq göndərilmişdi.

Azərbaycanda dövlətçiliyin bərpası və AXC-nin elan edilməsinə baxmayaraq Sovet Rusiyası özünün işğalçılıq niyyətlərindən, bəd əməllərindən əl çəkmədi. Çoxsaylı sənədlərdən göründüyü kimi, Rusiya Azərbaycandakı maraqlarından imtina etmək, onların reallaşdırılmasından geri çəkilmək istəmirdi. Bu məqsədlə də:

- Leninin Stalinə ünvanladığı teleqramda (30.VI.1918) Bakı nefti və s. məsələlərlə bağlı bəzi mülahizələr söyləniIdi. Belə ki, teleqramda neftin bir hissəsinin almanlara verilməsinə razılaşmaqla türklərin Bakıya buraxılmamalarından, habelə şəhərin əldə saxlanılması üçün yaxşı imkanların mövcudluğundan və bu barədə dərhal Şaumyana məlumat çatdırılmasından bəhs olunurdu.
- Bakı XKS-dən (S.Şaumyandan), habelə onun vasitəsi ilə də Andranikdən istifadə olundu. Bakı Kommunası qoşunlarının (70 faizini ermənilər təşkil edirdi) Gəncə üzərinə uğursuz yürüşü (VI.1918), S.Şaumyanın "xalq rəhbəri (qəhrəmanı)" adlandırdığı Andranikin Naxçıvanı "Sovet Rusiyasının ayrılmaz tərkib hissəsi elan etməsi" (VII.1918) və s. bu qəbildən olan tədbirlərdən idi;
- İran ilə Azərbaycana dair sövdələşmələrə başvuruldu. Regionda geosiyasi təsirə malik olmağa çalışan İranın imkanlarından faydalanmağa səylr göstərildi. AXC-nin İran tərəfindən rəsmən tanınmasını əngəlləmək və s. mülahizələrlə ona bəzi vədlər də verildi. Belə ki, Sovet Rusiyasının İrandakı birinci diplomatik missiyasının başçısı İ.Kolomiytsev 1918-ci ilin iyulunda Tehrana 16 maddəlik bir müqavilə gətirdi. Həmin müqavilədə Sovet Rusiyasının İran tərəfindən tanınmasının əvəzində Quzey Azərbaycanın bir hissəsinin (sərhədboyu ərazilərin) ona qaytarılması nəzərdə tutulurdu;
- Almaniya Bakı nefti ilə bağlı şirnikləndirildi. Bunu Brest-Litovsk müqaviləsinə Əlavə ("Bakı sazişi", 27.VIII.1918) və s. də təsdiqləyir;
- "özünün çox əhəmiyyətli şəhərlərindən" hesab etdiyi Bakının qurtuluşu ilə əlaqədar olaraq Almaniyaya irad və Osmanlıya isə etiraz bildirildi. Bakının azad olunmasını "özünün ərazi bütövlüyünə qəsd" kimi dəyərləndirən Sovet Rusiyasının Xalq Xarici İşlər komissarı G.Çiçerin Almaniya (21.IX.1918) və Osmanlı (10.X.1918) hökumətlərinə notalar göndərdi. Sonuncuya ünvanlanan notada Rusiya ilə Türkiyə arasında hazırlanan diplomatik protokola Bakının Sovet hakimiyyəti orqanlarına verilməsinə dair xüsusi maddənin salınması tələb olunurdu.

Öz növbəsində AXC hökuməti (XİN-i), bir tərəfdən, Sovet Rusiyasının suverenliyimizə (dövlətçiliyimizə) qarşı hərəkətlərini zərərsizləşdirməyə yönəlik tədbirlər görürdü. Digər tərəfdən də, onunla normal münasibətlər qurmağa çalışırdı. Buna görə də AXC rəhbərliyinin Sovet Rusiyası ilə əlaqələr yaratmaqda maraqlı olmaması, hətta onunla münasibətləri korlamasına dair baxışlarla razılaşmaq çətindir.

M.Ə.Rəsulzadə hələ 1918-ci ilin yayında İstanbuldan

F.Xoyskiyə və M.H.Hacınskiyə yolladığı məktubda "bolşevik hökuməti ilə birbaşa əlaqələrin yaradılmasında" israr etmişdi. AXC XİN-in Gürcüstandakı diplomatik nümayəndəliyimizə ünvanladığı məktubda (13.IX.1918) isə Azərbaycanın Rusiya ilə münasibətlərə dair rəsmi mövqeyi açıqlanmışdı: "Biz Moskva ilə əlaqə yaratmaq... Rusiya, o cümlədən də Sovet hakimiyyəti ilə daimi dostluq şəraitində yaşamaq istəyirik".

AXC-nin Rusiyaya dair siyasətinin başlıca xətləri və məramları M.Ə.Rəsulzadənin parlamentin açılışındakı (7.XII.1918) nitqində bir daha vurğulandı: bizim Rusiya camaatına qarşı heç bir ədavət və nifrətimiz yoxdur; bizcə mənfur olan, millətləri əzən və hüquqlarını verməyən Rusiyadır; müstəbid və təcavüzkar bir hökumətə laqeyd qala bilmərik; Rusiyanın səadətini istəyirik; fəqət öz istiqlalımızı da əziz tuturuq; cəbr ilə qəbul edilən bir şeydə qətiyyən səadət ola bilməz, çünki o, hürriyyət və istiqlaldadır.

Azərbaycan hökuməti Sovet Rusiyası tərəfindən rəsmən tanınmasa da onunla iqtisadi-ticarət əlaqələri qurmağa, keçmişdə olanları yeni əsaslar üzərində bərpa etməyə çalışırdı. Bu niyyətlə də Moskvanın iqtisadiyyat strukturlarından birinin təmsilçisi İ.Orlovun Bakıya 1918-ci ilin payızındakı missiyası zamanı hərtərəfli danışıqlar aparıldı.

Bu müzakirələrdə iqtisadi əlaqələrlə yanaşı diplomatik münasibətlər yaradılması məsələlərinə də toxunuldu. Azərbaycan XİN-i Sovet rəhbərliyinə müraciət edib (6.X.1918) diplomatik nümayəndəliklərin açılmasını (Moskvada və Bakıda) istədi. AXC-nin IV hökumət kabinəsinin fəaliyyət proqramında Sovet Rusiyası ilə iqtisadi-ticarət əlaqələrinin bərpa və inkişafına mühüm əhəmiyyət verilirdi.

AXC Lenin Rusiyası ilə anlaşmağa (dil tapmağa) çalışırdı. Bolşevik hökuməti isə daxildəki siyasi-silahlı qarşıdurmada üstünlük qazandıqca 1919-cu il boyu Azərbaycanın yenidən işğalına dair ideoloji-hərbi hazırlıq tədbirlərini də genişləndirirdi. Bu kimi tədbirlərə aşağıdakıları misal göstərmək olar:



- Azərbaycanda plasdarmın – Muğan Sovet Respublikasının təşkili;
- sinfi-ideoloji bazanın, yəni Azərbaycan Kommmunist (bolşeviklər) partiyasının (AK(b)P) yaradılması və ondan istiqlalımıza qarşı istifadə olunması.

Sadalananlar sırasında ən təhlükəlilərindən biri qurama Muğan Sovet Respublikası hesab olunur. Bu siyasi qurumun ərsəyə gəlməsində bolşeviklərlə yanaşı denikinçilər də mühüm rol oynamışdılar. Belə ki, hər iki tərəf bölgədə yaşayan rus kəndlilərinin – molokanların müdafiəsi adı altında oraya silahlı müdaxilə təşkil etdi. Tarixi-diplomatik ədəbiyyatda "molokan qiyamı" da adlandırılan bu proses Muğan-Lənkəranda Sovet Rusiyasının elanı (15.V.1919) ilə nəticələndi. Əslində bu, Sovet Rusiyasının Azərbaycanı yenidən işğal etməsinə dair planların tərkib hissəsi idi.

Bunu təsdiqləyən bir sıra tutarlı faktlar vardır: **a)** Rusiyanın Sovet hakimiyyəti Həştərxan vasitəsi ilə bölgəyə hərbi ekspedisiya göndərmiş, silah və maliyyə yardımı göstərmişdi; **b)** Muğandakı qurama hökumətə Sovet Rusiyası XI ordusu hərbi-səhra tribunalının sədri T.Ulyantsev (Otradnev) başçılıq edirdi (O da N.Nərimanov və S.Kirov ilə sıx əlaqələr saxlayırdı).

AXC hökumətinin müəyyən diplomatik səyləri əməli nəticə vermədiyindən Azərbaycan ordusunun hissələri əvvəlcə denikinçi "desantı" əzdilər, sonra da (25.VII.1919) oyuncaq respublikaya son qoydular. Bununla da Azərbaycanın dövlətçiliyinə (suverenliyinə) və ərazi bütövlüyünə qarşı Rusiya tərəfindən törədilən daha bir qəsd zərərsizləşdirildi.

Ölkəmizi yenidən işğal etməyə hazırlaşan Sovet Rusiyası Azərbaycanda özünə siyasi dayaqlar yaratmağa çalışır və ideoloji-təbliğat işlərini gücləndirirdi. Bu işdə AXC-nin əhalisinə təsir imkanlarına malik olan şəxslərin (N.Nərimanov və b.) "xidmətləri"ndən istifadə edilirdi. Onun bir sıra məktub və müraciətləri bu baxımdan heç də təsadüfi səciyyə

daşımırdı. Bu dövrdə "dünya sosialist inqilabı" mövqeyində duran və nəinki Azərbaycanın, habelə bütün Şərqin sovetləşməsini özünün amalı sayan N.Nərimanov Sovet Rusiyasının AXC-yə qarşı siyasi-ideoloji təzyiqlərini dəstəkləyirdi. Bunu onunla bağlı aşağıdakı sənədlər və özünün məqalələri də təsdiqləyir:

**1.** Sovet Rusiyası Xalq Xarici İşlər komissarlığı Yaxın Şərq şöbəsinin müdiri olarkən AXC Baş naziri N.Yusifbəyliyə ünvanladığı məktub (16.VII.1919); **2.** Qafqazın müsəlman kommunistləri "Hümmət" partiyası Mərkəzi bürosunun sədri kimi "Qafqazın fəhlə və kəndlilərinə müraciəti" (20.VII.1919); **3.** G.Çiçerinlə birlikdə Azərbaycan, Dağıstan və Gürcüstanın fəhlə-kəndlilərinə müraciəti (4.X.1919); **4.** "Biz Qafqaza hansı şüarla gedirik" (II.1919), "Qafqazın ələ keçirilməsinə baxış" (II.1919), "Azərbaycanda vəziyyət haqqında..." (29.IX.1919) və b. çoxlu yazılar.

Adları çəkilən və digər məktub-müraciət-məqalələr N.Nərimanovun Azərbaycan-Rusiya münasibətlərinə dair baxışlarını, habelə bolşevik hökumətinin AXC-yə qarşı təcavüzkar niyyətlərini (planlarını) açıqlayan çoxsaylı məqamlar, mülahizə və təkliflərlə zəngindir. Onlar haqqında tam təsəvvür yaradıla bilməsi üçün belə bir qruplaşdırmaya ehtiyac vardır:

- Bakı-Sovet Rusiyasının həyat mənbəyidir;
- biz Bakıyadək süngü ilə getməliyik, sonra oradan Şərqə yalnız ideya və əqidə ilə silahlanmaqla irəliləmək olar;
- rus yoldaşlardan kömək gözləmək lazımdır;
- ümumdünya sosialist inqilabının dalğalarında boğulmamaq üçün Rusiya fəhlə və kəndlilərinin Qırmızı bayrağı altında birləşmək lazımdır;
- Bakı fəhlələri Denikinlə mübarizəyə qoşulmalıdırlar;
- Kolçak və Denikinin darmadağın edilməsi ilə Sovet Respublikasının qolları tamamilə açılacaqdır;
- Azərbaycan hökumətinin öz siyasətinə görə Güney Qafqazın müsəlman fəhlə və kəndlilərinin məhkəməsi qarşısında cavab verməli olacağı müdhiş saat yaxınlaşmaqdadır;
- o yalnız meydandan çəkilərək yerini Sovet hökumətinə verəcəyi təqdirdə rus proletariatı qarşısında təqsirini yüngülləşdirə bilər;
- Xan Xoyski Denikinin Azərbaycana nə gətirdiyini gözəl bilsə də, çar generalını Bakıya buraxmaq üçün ciddi cəhdlə çalışır;
- Sovet Rusiyası öz hakimiyyətini bərpa etmək üçün əldə silah sizin respublikalar üzərinə yürüşə getmək niyyətində deyildir. Qafqazın müsəlmanları və gürcüləri öz respublikalarının idarəçiliyi formasından razıdırlarsa, sakit yaşaya, müqəddəratlarını təyin edə və bizimlə mehriban qonşuluq münasibətlərinin bərpasına nail ola bilərlər.

Rusiyadakı vətəndaş müharibəsinin gedişində vaxtaşırı baş verən dəyişikliklər və yaranan yeni situasiyalar AXC diplomatiyasından çeviklik tələb edirdi. Belə dəyişikliklərdən (situasiyalardan) biri Denikinin siyasi mövqeyinin güclənməsi və "Könüllü Ordu"nun hərbi üstünlükləri ilə bağlı yarandı.

## AXC-Denikin Rusiyası münasibətlərinin durumu

"Vahid və bölünməz Rusiya"nın bərpasını öz siyasətinin mərkəzində tutan Denikin də Azərbaycan dövlətinə əsla xoş münasibət bəsləmirdi. Onun da baş planı Azərbaycanın yenidən işğalını nəzərdə tuturdu. "Ağ Rusiya"nın Qafqazdakı (Azərbaycandakı) geostrateji maraqlarını təmin etmək üçün Denikin tərəfindən istinad olunan amillər ("güclər") arasında bunlar diqqəti çəkir:

- L.Biçeraxovun qurama "Qafqaz-Xəzər hökuməti";
- AXC ilə Dağlılar Respublikası arasında ərazi-sər-

həd məsələləri (mübahisələri);

- Ermənistanla (Andraniklə) siyasi-hərbi əməkdaşlıq;
- Paris Sülh konfransı (Müttəfiqlər) vasitəsi ilə Azərbaycana göstərilə biləcək təsir (təzyiq).

Tarixi şərait, AXC diplomatiyasının beynəlxalq-məhəlli miqyaslı ardıcıl səyləri və s. rus generalının böyük dövlətçilik iddialarının gerçəkləşməsini əngəllədi. Onun istinad etdiyi "qüvvələr" (ehtimallar) yetərsiz oldu. Əvvəldə qeyd olunduğu kimi, L.Biçeraxovun oyuncaq "hökuməti" elə ingilislərin tələbi ilə Bakıdan qovuldu. Paris konfransında Denikin diplomatiyası ilə uzunsürən çəkişmələr də "ağ Rusiya"ya elə bir üstünlük qazandırmadı.

AXC hökuməti (XİN-i) Dağlılar Cümhuriyyəti ilə mehriban qonşuluq (hətta müttəfiqlik) münasibətləri qurmağa nail ola bildi. Bununla da Denikinin AXC ilə DR arasındakı ərazi-sərhəd mübahisələrindən faydalanmaq cəhdləri müvəffəqiyyətsizliyə uğradı (Təbii ki, bu işdə Azərbaycan və Dağıstan xalqları arasında tarixən mövcud olan sıx iqtisadi-mədəni əlaqələr və dini-etnik birlik amilləri də çox mühüm rol oynadı). Azərbaycanla Gürcüstan arasındakı hərbi-müdafiə müqaviləsi və s. də Denikin üçün çəkindirici amilə çevrildi.

Biçeraxov-Andranik-Denikin işbirliyi və "ağ Rusiya"nın ("Könüllü Ordu"nun komandanı ilə yanaşı həm də Kolçakın) Ermənistanla siyasi-hərbi əməkdaşlığı AXC üçün ciddi problemlər (təhlükə) yaratmışdı. Lakin onları da zərərsizləşdirmək (sovuşdurmaq) mümkün oldu. Biçeraxovun və Andranikin silahlı dəstələrinin Azərbaycandan çıxarılmaları, AXC hökumətinin (XİN-in) hərbi-diplomatik məzmunlu tədbirləri, leninçilərin denikinçiləri üstələmələri və s. də buna ciddi təsir göstərdi.

Qafqazın problemlərinin həllinə Antanta-Denikin yanaşmasındakı fərqlər də öz işini gördü. "Ağ Rusiya"nın Müttəfiqlərlə razılaşdırılmamış hərəkətləri: **a)** Dağıstanın işğalı; **b)** Azərbaycanla Gürcüstana qarşı iqtisadi blokada elan



edilməsi (19.XI.1919) və s. də Denikinin bəzi ümidlərini doğrultmadı. Belə ki, Qərbin Azərbaycana davamlı təzyiq göstərəcəyinə dair ehtimallar da puça çıxdı.

Bütün bunlardan aydın göründüyü kimi, "Könüllü Ordu"nun Qafqaz istiqamətindəki hərbi üstünlüyü Denikin diplomatiyasının regiona dair siyasətindəki yanlışlıqlar üzündən təsirsiz oldu (Sözsüz ki, bu işdə əsas rolu hərbi qarşıdurmada "ağlar"ın "qırmızılar"a uduzmağa başlamaları oynadı). Bu və digər amillərin təsiri ilə Denikin diplomatiyası Qafqaz siyasətindəki uğursuzluqlara son verməyə, yanlışlıqları "düzəltməyə" yönəlik cəhdlər göstərdi.

Bu məqsədlə də Gürcüstan və Azərbaycan hökumətləri ilə danışıqlar aparıldı. Onlar qısa aralarla bir neçə mərhələdən keçdi. İlk rəsmi müzakirələr 1919-cu ilin yayında Tiflisdə Gürcüstan hökuməti ilə general Baratov arasında aparıldı. Azərbaycan tərəfi bu görüşlərdə iştirak etməsə də Baratovun tələbləri onun da mənafelərinə toxunurdu. Üç qrup (hərbi, iqtisadi və siyasi) məsələ ilə bağlı Baratova verilən tapşırıqlar Denikinin yenə də inad göstərdiyini təsdiqləyirdi.

Bunu: **1)** dağılmış rus Qafqaz ordusunun bütün mülkiyyətinin geri qaytarılması; **2)** "Könüllü Ordu"nun buraxdığı pulların Güney Qafqaz dövlətlərində sərbəst dövriyyəsinə icazə verilməsi; **3)** Cənubi Qafqazın yenidən "Vahid və bölünməz Rusiya" ilə dinc birləşməsinə zəmin hazırlanması kimi tələb-tapşırıqlardan da aydın görmək olar.

AXC hökuməti də əvvəlcə "Könüllü Ordu"nun Bakıdakı ingilis qoşunlarının qərargahındakı təmsilçisi ilə ilkin müzakirələr keçirdi. Sonra da Denikinin Bakıya göndərdiyi polkovnik Lazarevlə danışıqlar aparıldı. Avqustun axırlarında isə Azərbaycanla saziş hazırlamaq üçün Rusiyanın Ali hakimi Kolçakın təmsilçisi sifəti ilə Bakıya gələn Baratovla danışıqlar oldu. Nəticəsiz qalan bu məsləhətləşmələr onun Tiflisdə N.Yusifbəyli ilə görüşündə davam etirildi.

Baratova edilən sui-qəsdlə bağlı onu "Könüllü Ordu"nun yeni təmsilçisi (general Voskresenski) əvəzləməli idi. Bu

müddətdə isə Baratovu Bakıda polkovnik Palitsın təmsil etdi və o da tezliklə Azərbaycandan getdi. AXC-nin Kuban hökuməti yanındakı diplomatik nümayəndəsi C.Rüstəmbəylinin müvafiq səyləri də əməli nəticə vermədi.

Bütün bu və digər danışıqlarda, diplomatik yazışmalarda tərəflərin qaldırdığı məsələləri, tutduqları mövqeləri, gəldikləri nəticələri və çıxardıqları qərarları belə bir təsnifatla qrupplaşdırmaq olar:

**1. Qaldırılan məsələlər, toxunulan problemlər və mövqelər.**

**a) Azərbaycan hökuməti:**

- Denikinin AXC-yə münasibətinin aydınlaşdırılmasını istədi;
- Baratovla danışıqların birinci (Bakıdakı) mərhələsində bunları təklif etdi: Bakı ilə Rostov və Azərbaycanla Şimali Qafqaz arasında rabitə-nəqliyyat (dəmiryolu və dənizlə) əlaqələrinin bərpası; dipkuryerlərin şəxsiyyətinin toxunulmazlığı, dipyazışmaların məxfiliyinin qorunması barədə təlimatın və AXC ilə Quzey Qafqaz arasında iqtisadi-maliyyə sazişinin layihəsinin hazırlanması; Xəzərdə Azərbaycan gəmiçiliyinin nizamlanması;
- Dağıstanın Denikin tərəfindən işğalının və onun Qızılburun-Zaqatala xətti üzrə sərhəd iddialarının AXC üçün artıq təhlükə yaratdığını bildirdi;
- ilkin sazişin bağlanması üçün "Könüllü Ordu"nun Dağıstandan çəkilməsi şərtini irəli sürdü və əvəzində isə arxadan onun təhlükəsizliyinin təminatını vəd etdi.

**b) Denikin tərəfi:**

- Azərbaycanı Rusiyanın tərkib hissəsi sayaraq onun müstəqilliyinə ölkəsində ali hakimiyyətin bərpasına qədər dözüləcəyini bildirdi (General sonralar mühacirətdə olarkən yazdığı "Rus hərc-mərcliyinin oçerkləri" adlı əsərində bunları inkar etdi: "Gürcüstan və Azərbaycanın zorla zəbt edilməsi mənim planlarına daxil deyildi və siyasi cəhətdən də məqsədəuyğun olmazdı. Lakin bu yeni qurumların hökumətləri bizim siyasətimizə ya inana bilmirdilər, ya da taktiki mülahizələrə görə inanmaq istəmirdilər... Qafqazda mübarizənin əsas, bəlkə də yeganə səbəbi vahid Rusiya baxışı və yeni Qafqaz qurumlarının tam müstəqilliyi ideyası arasında toqquşma idi";
- Türkmənçay müqaviləsinə istinad edərək Xəzər donanması ilə bağlı tələblər irəli sürdü. Belə ki, Azərbaycan ticarət gəmilərinin rus bayrağı altında üzmələri və hərbi gəmilərinin isə heç dənizə çıxmamaları şərtini qoydu.

**2. Gəlinən nəticələr və çıxarılan qərarlar.**

**a) "Könüllü Ordu"nun komandanlığı:**

- Şimala doğru hücumlarla bağlı Cənub istiqamətində (Dağıstanda) hərbi əməliyyatları dayandırdı (VIII.1919);
- Azərbaycan-Dağıstan sərhədboyu demarkasiya xəttini müəyyənləşdirdi (4.VIII.1919);
- Azərbaycana daxil olmaq üçün xaricilərə icazə (viza) verilməsinə qadağa qoydu;
- Azərbaycan Ordusunda qulluq edən bütün rus zabitlərinə onun sıralarından çıxmağı əmr etdi (9.XI.1919);
- Azərbaycan və Gürcüstana qarşı iqtisadi blokada tətbiq olunduğunu bildirdi (9.XI.1919);

**b) AXC rəhbərliyi:**

- parlamentin qərarına əsasən Dövlət Müdafiə Komitəsi (DMK) yaratdı və onun vasitəsilə də Azərbaycanda hərbi vəziyyət elan etdi (11.VI.1919), çoxlu müvafiq tədbirlər gördü;
- Denikinin Xəzər donanması ilə bağlı tələblərini rədd etdi və onun ingilislərin Azərbaycana verdiyi gəmiləri ələ keçirməsini əngəllədi;
- Azərbaycanın Denikinə canlı qüvvə ilə yardım göstərməsinə dair ingilis təklifini qəbul etmədi. Və bu mövqeyini dövlətin xarici siyasət xətti ilə (Rusiyanın

daxili işlərinə qarışmamaqla) əsaslanırdı.

1919-cu ilin axırları üçün Rusiyadakı hərbi-siyasi qarşıdurmanın sonu görünməyə və onda qalib çıxacaq qüvvətərəf (Sovetlər) aydınlaşmağa başladı. Bu vəziyyət Denikini özünün Qafqaz siyasətinə bir daha yenidən baxmağa məcbur etdi. Nəticədə Azərbaycan istiqlalı Denikin tərəfindən gec də olsa tanındı (11.II.1920). O hətta AXC ilə (habelə Gürcüstanla) hərbi əməkdaşlığa uğursuz səylər (Kovalyovun missiyası) göstərdi. Denikinin istefası ilə (4.IV.1920) "Könüllü Ordu" dağıldı. AXC-Denikin ("Könüllü Ordu") münasibətləri beləcə sona yetdi.

## Rusiya tərəfindən yenidən işğalı ərəfəsində Azərbaycanın beynəlxalq vəziyyəti

Azərbaycan istiqlalının Paris Sülh konfransı tərəfindən tanınması da onu təhdid edən təhlükəni sovuşdurmadı. Qızıl Ordunun Denikin qoşunlarını sıxışdıraraq Cənuba doğru irəliləməsi Sovet Rusiyasının Azərbaycanın daxili işlərinə müdaxiləsini genişləndirdi. Lenin tərəfindən Sovet Rusiyasına "hücum edən on dörd dövlət"in siyahısına salınan Azərbaycan onun təcavüzünün başlıca hədəfi kimi seçildi. Lakin Sovet hökuməti əvvəlcə diplomatik gedişlər edərək AXC-ni Rusiyadaxili hərbi qarşıdurmaya qatmağa çalışdı. Bununla əlaqədar olaraq RSFSR (Çiçerin) ilə AXC (Xoyski) arasında bir müddət "notalar savaşı" getdi.

Öncə G.Çiçerin Azərbaycan xalqına və onun hakimiyyətinə müraciət etdi. Əslində AXC-yə birinci notasını (2.I.1920) verdi. Müraciət-notada:

- Sovet Rusiyası və Azərbaycan ordularının komandanlıqları arasında hərbi saziş bağlanılması üçün dərhal danışıqlara girilməsi təklif olunurdu;
- ləngimədən Rusiya fəhlə və kəndlilərinin silahlı zərbəsi ilə birləşib Denikinə qarşı mübarizəyə başlamaq "məsləhət" bilinirdi;



- Azərbaycanın da qatı düşməni hesab olunan Denikinə qarşı mübarizədə (müharibədə) iştirakın onun dövlət maraqlarına və zəhmətkeşlərinin mənafelərinə uyğunluğu vurğulanırdı;
- gerçəkliklərin ("həqiqətlər"in) AXC tərəfindən düzgün başa düşüləcəyi qeyd edilirdi.

Əslində RSFSR hökuməti bu (birinci) notası ilə Azərbaycanı Denikinə qarşı müharibəyə cəlb etməklə onun müstəqilliyinə son qoymaq məqsədini güdürdü. Bu niyyətlə də ona "Könüllü Ordu" əleyhinə "ittifaq" bağlamaq təklif edilirdi. Sovet diplomatiyasının məkrli planları ilə üzləşən AXC hökuməti müəyyən məsləhətləşmələr apardı. DMK-dakı müzakirələr (6.I.1920) belə bir qərarla yekunlaşdı. XİN-ə: **a)** Gürcüstanla məsləhətləşmələr aparıb AXC-nin müstəqil dövlət kimi Sovet Rusiyası ilə münasibətlər qurmaq üçün danışıqlara hazır olduğunun çatdırılması; **b)** Böyük Britaniya hökumətinin yeni siyasi şəraitə münasibətinin öyrənilməsi və onun nüfuzundan Azərbaycanın mənafeyi üçün istifadə olunması tapşırıldı.

AXC diplomatiyası Çiçerinin bu notası-yeni siyasi durumdan çıxış yolları barədə geniş əhatəli məsləhətləşmələr apardı. Belə ki, Gürcüstandakı diplomatik nümayəndəlik (F.Vəkilov) vasitəsi ilə bəzi məqamlar aydınlaşdırıldı. GR hökumətinin və İngiltərənin regiondakı Ali komissarı Uordropun mövqeyi öyrənildi. Paris Sülh konfransı məlum nota ilə bağlı məlumatlandırıldı. Azərbaycanın istiqlalının Sülh konfransı tərəfindən tanındığı günlərdə AXC XİN-i F.Xoyski RSFSR hökumətinə cavab notası (14.I.1920) göndərdi. Notadan göründüyü kimi, Azərbaycan hökuməti Sovet Rusiyasının təzyiqlərini diplomatik yollarla azaltmağa çalışırdı. Orada qeyd edilirdi ki, AXC hökuməti:

- heç vaxt başqalarına onun daxili işlərinə qarışmaq imkanı vermir;
- digər xalqların daxili işlərinə qarışmamaq prinsipini müdafiə edir və rus xalqının mübarizəsinə müdaxi-

ləni də yolverilməz sayır;

- xalqımızın müstəqilliyinə qəsd etdiyinə görə daima Denikinlə mübarizə aparır;
- dövlətlərin suverenliyi prinsipinə əsasən Rusiya ilə mehriban qonşuluq münasibətlərinin yaradılmasına hazırdır.

F.Xoyskinin cavab notasına belə bir xülasə vermək olar: dövlətlərarası danışıqlar yalnız Azərbaycan istiqlalının Sovet Rusiyası tərəfindən tanınması şəraitində mümkün ola bilər. Öz növbəsində Sovet Rusiyası belə bir təklifi əsla qəbul etmirdi. Bu şərait isə iki dövlət arasındakı diplomatik gərginliyi artırırdı. Çiçerinin AXC hökumətinə ikinci notası da (23.I.1920) bunu təsdiqləyir.

Nota Azərbaycanın Sülh konfransı tərəfindən artıq de-fakto tanınmasına Sovet Rusiyasının elə bir ciddi önəm vermədiyini və ona heç məhəl qoymadığını açıqlayırdı. AXC diplomatiyasının RSFSR ilə münasibətlər qurmasına dair məlum mövqeyi də notada bilərəkdən yanlış şərh edilirdi. Belə ki, "Rusiyadaxili mübarizəyə qarışılmaması" prinsipi "Denikinlə mübarizədən imtina" kimi səciyyələndirilirdi. Burada habelə sinfi-ideoloji bir məqam ("zəhmətkeşlərin milli müqəddəratını təyin etmək hüququ") xüsusi olaraq vurğulanırdı. Sonda isə Denikinə qarşı birgə mübarizə aparılması "zərurəti" bir daha xatırlanırdı.

Əvvəlkinə nisbətən daha təcavüzkar səciyyə daşıyan bu notanın cavabı çox da ləngimədi. F.Xoyskinin ikinci notası (1.II.1920) AXC hökumətinin məlum mövqeyini təkrarladı: Azərbaycan həmişə Denikinlə mübarizə aparmışdır. Bu notada həmçinin Azərbaycanın istiqlalının qeyd-şərtsiz tanınmasına Sovet Rusiyasının münasibətinin tam açıqlanması (aydınlaşdırılması) istənildi.

Çiçerin isə öz mövqeyində israrlı idi. Buna görə də onun üçüncü notası (20. II.1920) özünü çox da gözlətmədi. Notada elə bir yeni (ciddi) fikir yox idi. Burada deyilirdi ki, Azərbaycanın tanınması iki dövlət arasında münasibətlər



qurulmasına dair məsələlərlə bağlı mürəkkəb danışıqların nəticəsində mümkündür.

Bəzi səbəblərə görə cavab notası bu dəfə bir az yubadıldı: **1-cisi,** RSFSR hökuməti (Çiçerin) notalar mübadiləsinə əslində vaxtqazanmaq və başaldatmaq vasitəsi kimi baxırdı. **2-cisi,** Sovet Rusiyası ilə münasibətlərlə bağlı hökumətdə vahid mövqe deyil, iki xətt vardı. **3-cüsü,** dövlətçilik üçün yaranan ciddi təhlükə və əlverişsiz beynəlxalq şərait də öz təsirini göstərirdi (Bir tərəfdən, Sovet qoşunları sürətlə Cənuba irəliləyirdi, digər tərəfdən də, Qərbin vəd etdiyi hərbi yardımdan xəbər yox idi).

Bütün bu və digər amillər dövlətin daxili imkanlarının səfərbərliyə alınmasını və beynəlxalq aləmdə siyasi-hərbi dəstək axtarışlarının gücləndirilməsini Sovetlərlə diplomatik yazışmalardan üstün mövqelərə çıxarmışdı. Xarici siyasətə təsir göstərən daxili amillər (problemlər) sırasında olduqca yersiz hökumət dəyişiklikləri, oriyentasiya məsələlərindəki kəskin fərqli baxışlar, Rusiyanın ölkəmizin içində apardığı işğala yönəlik sinfi-ideoloji hazırlıq tədbirləri və s. daha çox diqqəti cəlb edir.

Sovet Rusiyası ilə münasibətlərə yanaşmadakı iki xətt və onlar arasındakı gərginlik dövlətin beynəlxalq vəziyyəti və xarici siyasəti üçün istər-istəməz problemlər yaradırdı. Birinci xəttin tərəfdarları (M.H.Hacınski) AXC-nin Sovet Rusiyası tərəfindən tanınmasından ötrü ona böyük güzəştlər edilməsini mümkün sayırdılar. Əslində onlar dövlətin xarici oriyentasiyasının köklü şəkildə Rusiya istiqamətində dəyişdirilməsinə çalışırdılar.

İkinci xəttin ardıcılları (N.Yusifbəyli və F.Xoyski) isə ölkədə qüvvətli hakimiyyət yaradaraq Sovet Rusiyasının hərbi təcavüzünə qarşı silahlı müqavimət göstərilməsinə üstünlük verirdilər. Dövrün beynəlxalq şəraiti (Sovet Rusiyasının güclənməsi, Qərbin geri çəkilməsi və s.) üzündən ikincilərin birincilərin təsirini heçə endirmək (heç olmazsa zəiflətmək) səyləri əməli nəticə vermədi. Əksinə, M.H.Hacınski

və tərəfdarları işğal ərəfəsində ölkədə siyasi (hakimiyyət) böhranı yaratmağa müvəffəq ola bildilər. Bütün bunlardan göründüyü kimi, Ə.Topçubaşı "Paris məktubları"nı heç də təsadüfən belə bir müraciətlə bitirməmişdi: "Azərbaycanın daxili işlərinə xüsusi diqqət yetirin..."

Sovet Rusiyasının Azərbaycanı yenidən işğal etmək planlarında AXC daxilində sinfi-ideoloji zəminə söykənən dayaqların yaradılması da mühüm yer tuturdu. 1919-cu ilin sonundan etibarən bu istiqamətdə ciddi addımlar atıldı. "Sosialist inqilabı etmiş Azərbaycan zəhmətkeşlərinə Sovet Rusiyası tərəfindən beynəlmiləl yardım göstərilməsi"nin ideoloji-siyasi təminatı yaradıldı. İlk öncə "Hümmət"in parçalanması təşkil edildi. Onun tərkibindəki bolşevik qrupuna-mövcud quruluşu silahlı üsyan yolu ilə devirmək istəyənlərə hərtərəfli dəstək verildi.

Rusiya Kommunist (bolşeviklər) Partiyası (RK/b/P) Mərkəzi Komitəsi (MK) Siyasi Bürosunun iclasında (17-18.I.1920) Azərbaycanın daxili işlərinə ideoloji-diplomatik müdaxilənin təşkili məsələləri nəzərdən keçirildi. Çiçerinin məruzəsi və Leninin təklifi əsasında qəbul edilən qərarda AXC hökumətinə etimadsızlıq siyasətinin gücləndirilməsi və s. zəruri sayıldı. Bolşevikləri dönüklər, düşmənlər sayan türk-müsəlman əhalinin rəğbətini qazanmaq məqsədi ilə "Müstəqil Sovet Azərbaycanı" şüarı və müstəqil Kommunist partiyası fikri ortaya atıldı.

Bunun ardınca Sovet Rusiyasının Azərbaycanda mühüm sinfi-ideoloji bazası hesab olunan AK/b/P (əslində RK/b/P-nin yerli şöbəsi) yaradıldı (11-12.II.1920). Bir həftə sonra (fevralın 17-də) isə onun Azərbaycanın müstəqilliyinin əleyhinə çıxması təşkil olundu. AK/b/P MK-nın Moskvaya göndərdiyi teleqramda Sovet Rusiyasının rəhbərliyindən Azərbaycanın müstəqilliyinin tanınmaması xahiş edildi; guya Azərbaycanın fəhlə və kəndliləri bunu istəmirdilər.

Bu "mövqe" – təklifin Sovet Rusiyasının rəhbərliyi tərəfindən dəstəklənməsi ilə AXC-yə qarşı hərbi müdaxiləyə



hazırlıq işi özünün son mərhələsinə daxil oldu. Bolşeviklər Bakıda dövlət çevrilişinə uğursuz cəhd (III.1920) göstərdilər. Bakıda "... Azərbaycanın meyidinin üzərindən keçib moskvalı yoldaşlara kömək" (Ə.Qarayev) göstərilməsi çağırışları səsləndi. Belə bir şəraitdə Lenin Qafqaz cəbhəsinin İnqilabi-Hərbi Şurasına (Q.Orconikidze və b.) "məşhur" əmr-teleqramını (17.III.1920) göndərdi: "Bakını almaq bizə olduqca və olduqca zəruridir. Bütün səylərinizi buna verin... Qüvvələr yeridilməsi barədə Baş komandanla şərtləşin".

RSFSR hökuməti işğalçılıq məqsədlərini gerçəkləşdirməyə hazırlaşarkən ermənilərin də xidmətlərindən yararlandı. Onların təmsilçiləri (Pirumov və Zaxaryan) 1920-ci ilin əvvəlində Moskvaya gedib müəyyən ərazi güzəştləri əvəzində AXC-nin devrilməsinə öz yardımlarını təklif etdilər. Elə bu cür sövdələşmə axarında Sovet Rusiyası və ermənilərin Azərbaycan dövlətçiliyinə qarşı növbəti qəsdi-Qarabağ qiyamı (III.1920) təşkil olundu (AXC hökuməti onu vaxtında zərərsizləşdirə bildi).

Tarixi-diplomatik sənədlərdən də göründüyü kimi, Sovet Rusiyası Azərbaycanın (Bakının) yenidən işğalını sürətləndirərkən siyasi məqsədlərlə yanaşı iqtisadi amilləri də (tezliklə Bakı neftini özünə qaytarmaq və s.) əsas tutmuşdu (Heç də təsadüfi deyil ki, hələ işğaldan əvvəl (17.IV.1920) suveren dövlətin daxili işlərinə kobud müdaxilə edilmiş-A.Serebrovski Bakı neft komissarı təyin olunmuşdu).

Sovet Rusiyasının Azərbaycan dövlətinə qarşı yaratdığı təhlükə onun Qərbin yardımına (dəstəyinə) olan ehtiyacını xeyli artırmışdı. Müttəfiqlərin sərkərdə və siyasətçilərinin Qafqaza (Azərbaycana) hərbi yardım göstərilməsi məsələsinə fərqli baxışları durumu daha da ağırlaşdırırdı. Antantanın, ələlxüsus da, İngiltərənin: **a)** Sovetlərdən daha çox güzəştlər əldə etmək istəyi; **b)** Qızıl Ordunun təcavüzünü əngəlləmək üçün Qafqaza qoşun göndərilməsinin bahalı və azsəmərəli sayılması regiona hərbi yardım göstərilməsini mümkünsüz edirdi.

Lakin AXC Qərbdən yardım alınması, Sovet Rusiyası tərəfindən tanınmasına siyasi dəstək verilməsi və s. sahələrdə səylərini davam etdirirdi. Bu məqsədlə də AXC-nin Parisdəki Sülh nümayəndəliyi Antantanın Ali Şurasının London və San-Remo konfranslarına (sessiyalarına) qatıldı. Bu həm də "AXC-nin Kamal Türkiyəsi ilə sıx əlaqələr qurması və bunun Antantanın regiondakı mənafeyinə təhlükə yaratması"na dair erməni təbliğatının zərərsizləşdirilməsi zərurətindən irəli gəlirdi. Həmçinin sessiyalarda müzakirə edilən məsələlərin bu və ya digər dərəcədə Azərbaycanın maraq-istəkləri ilə əlaqəsi vardı.

London sessiyasında (II-III.1920) araşdırılan "rus məsələsi" də Azərbaycanın mənafeləri ilə sıx bağlı idi. Konfransın "Rusiyada Müttəfiqlərin siyasəti" adlı sənədi (Memorandumu, 24.II.1920) bir çox tərəflərdən maraq doğurur. Sessiyada (Memorandumda):

- müstəqilliyi yenicə tanınan dövlətlərə Sovet Rusiyası ilə dinc münasibətlər yaratmaq tövsiyə olunurdu;
- onunla müharibə şəraitində olanlara hərbi əməliyyatlara son vermək məsləhət görülürdü;
- bolşevik hökumətinin təcavüzü ilə üzləşən dövlətlərə hərtərəfli yardım vəd edilirdi.

Azərbaycanın Gürcüstanla birlikdə ingilis yardımında israrlı olması səbəbsiz deyildi. Çünki Qərb dövlətləri sırasında yalnız İngiltərə Qafqaza yetərli yardım göstərə bilmək imkanlarına malik idi. Habelə Sovet Rusiyası ilə müəyyən (ticarət və s.) əlaqələr qurmağa çalışan Böyük Britaniya RSFSR ilə Qafqaz dövlətləri arasında vasitəçi ola bilərdi.

Ancaq, əvvəldə qeyd edildiyi kimi, İngiltərənin bu məsələdə özəl maraqları var idi. Buna görə də yardım vədləri əslində bəyanat səciyyəsi daşıyırdı. Həm də o, ehtimal olunan yardımı həyata keçirilməsi hələki çox çətin sayılan şərtlə bağlayırdı: Qafqazda millətlərarası münaqişələrə son qoyulması (Onun özünün bu sahədə vaxtı ilə göstərdiyi səylər də elə bir ciddi nəticə verməmişdi).



Azərbaycan hökuməti İngiltərənin yardım vədləri ilə əlaqədar da bəzi işləri gördü. Belə ki, Xarici İşlər nazirinin müavini M.Təkinski AXC-nin hərbi ehtiyaclarına dair məlumatları Müttəfiqlərin regiondakı Ali komissarlığına çatdırdı. Azərbaycanın diplomatları (Gürcüstan və İrəvandakı səfirlər – F.Vəkilov və Ə.Haqverdiyev) Qafqazdakı millətlərarası münaqişələrin tənzimlənməsinə dair Uordropun keçirdiyi müşavirəyə (Tiflis, 23.II.1920) qatıldılar. AXC-nin Paris konfransındakı təmsilçiləri gürcü nümayəndə heyəti ilə birlikdə L.Corca nota ilə (6.III.1920) müraciət etdilər. Notada onların dövlətlərinin Sovet Rusiyası tərəfindən tanınmasına İngiltərənin yardım göstərməsi və müvafiq danışıqlar üçün vasitəçilik etməsi xahiş olunurdu.

London sessiyasında "türk məsələsi" – Türkiyə ilə bağlanacaq sülh müqaviləsi də müzakirə edildi. Konfrans ərəfəsində və onun gedişində ortaya çıxan məsələlər, səsləndirilən müəyyən mülahizə və təkliflər Azərbaycanın maraqları ilə də bağlı idi.

***1-cisi**, Müttəfiq dövlətlər* "türk məsələsi"nin həllinə fərqli yanaşsalar da bu kontekstdə Ermənistanın sərhədlərinin müəyyənləşdirilməsi üzərində də düşünürdülər. **2-cisi**, bundan faydalanmağa çalışan ermənilər Türkiyənin şərq vilayətlərinin və bütün Trabzon mahalının onlara verilməsində israr edirdilər. **3-cüsü**, Antanta dövlətləri XİN-lərinin London müşavirəsi Ərzurumun Ermənistana verilməsi və onun dənizə çıxışının təminatı təklifini irəli sürmüşdü. Lakin ingilis-fransız bloku ilə ABŞ arasında ziddiyyətlərin dərinləşməsi və başqa səbəblərə görə Qafqaz respublikalarının sərhədləri məsələsinin müzakirəsi növbəti danışıqlara (San-Remo konfransına) qədər təxirə salındı.

London konfransının gündəliyində özünə yer alan Batum məsələsi də Azərbaycanı maraqlandırırdı. Buna görə də həmin problemə dair mübahisələr və təkliflər AXC-nin diqqətindən əsla kənarda qala bilməzdi. Müzakirələrdə Batum məsələsinin həlli variantları ilə əlaqədar aşağıdakı layihələr

nəzərdən keçirildi:

- Batumun Gürcüstana birləşdirilməsi və Qafqazın digər iki dövlətinin də saziş əsasında həmin limandan azad istifadə etmələrinin təmin olunması (GR-in təklifi);
- vilayətin üç yerə bölünməsi, onun bir hissəsinin Ermənistana, digərinin Gürcüstana verilməsi, Batum şəhərinin isə mənafeyi olan bütün dövlətlərin istifadə edə (Millətlər Cəmiyyətinin nəzarəti ilə) biləcəyi azad şəhərə çevrilməsi (Müttəfiqlərin layihəsi);
- Azərbaycanın Qərb bazarlarına yeganə çıxışının (dəniz yolunun) təmin edilməsi (AXC-nin mövqeyi).

Tərəflərin məsələyə dair fərqli baxışları (təklifləri) onun həlli ilə bağlı ortaq mövqeyə gəlinməsinə imkan vermədi. Gürcülər Müttəfiqlərin variantı ilə əsla razılaşmadılar. Azərbaycan nümayəndəliyi Batuma qarşı iddia qaldırsa da gürcüləri dəstəklədi. Onların birgə mövqeyi Batumun parçalanmasını istisna edirdi. Qarşılıqlı razılaşma: **a)** Batum vilayətinin (həm də şəhərinin) Gürcüstana birləşdirilməsini; **b)** Azərbaycanın Batuma dair maraqlarını Gürcüstanın tam təmin etməsini nəzərdə tuturdu.

Lakin erməni nümayəndələrinin – Antanta dairələrinin Qars məsələsi ilə əlaqədar yaratdıqları mübahisə Batum probleminin həllini əngəllədi. AXC təmsilçiliyi Qarsın Türkiyədən alınacağı təqdirdə onun Gürcüstana qatılmasını məsləhət gördü. Habelə Gürcüstanın da bunu Antantanın Ali Şurasından tələb etməsini istədi. Əks halda Batumla bağlı müraciəti imzalamayacağını bildirdi. Gürcülər isə bu şərtlə razılaşmadılar. Ermənilərin Azərbaycana qarşı irəli sürdükləri saxta ittihamlar da (onun guya Türkiyə ilə gizli hərbi saziş bağlaması və s.) tərəflər arasındakı diplomatik qarşıdurmanı dərinləşdirdi.

Paris Sülh konfransında və Antanta Ali Şurasının London sessiyasında həllini tapmayan (Azərbaycanı da maraqlandıran) məsələlərin müzakirəsi müxtəlif toplantılarda davam etdirildi. Bu məqsədlə də Ali Şuranın San-Remo konfransının (sessiiyasının) keçirilməsi qərara alındı. Lakin Güney Qafqaz dövlətlərinin həlli yarımçıq qalan məsələlərə kəskin fərqli yanaşmaları ciddi problemlər yaradırdı.



Buna görə də Müttəfiqlərin təmsilçiləri onların Sülh nümayəndəlikləri ilə konfransönü müşavirə – ilkin müzakirələr (Paris: 13, 15-16.IV.1920) keçirdilər. Müzakirələrdə qarşıdakı konfransın nəticələrinə təsir göstərə biləcək mülahizələr (təkliflər) söyləndi.

**a) İngiltərə XİN-i təmsilçisinin fikrincə:**

- Transqafqaz respublikalarının heç bir gələcəyi yoxdur, çünki onlar vəziyyətin düzəldilməsi üçün lazım olan həmrəyliyə qadir deyildirlər;
- onlar arasında mübahisələrin həll edilməməsi Müttəfiqlərin regiona silah yardımını əngəlləyirdi;
- göndəriləcək silahın qarşılıqlı çəkişmələrə xidmət etməsindən ehtiyat olunurdu.

**b) Ə.Topçubaşıya görə isə:**

- Versal sülh müqaviləsinin 89-cu paraqrafına müvafiq olaraq Azərbaycana Batum limanı vasitəsi ilə dənizə çıxış imkanı (yolu) verilməliydi;
- mübahisəli ərazilərə Güney Qafqaz dövlətləri tərəfindən birgə nəzarət olunmalı idi.

Əlimərdan bəyin ikinci təklifi onun hələ Londonda İngiltərə XİN-ə verdiyi Memorandumda əksini tapmışdı. Təəssüflər olsun ki, İngiltərə təmsilçisi tərəfindən Parisdəki 13 aprel müşavirəsində "yüksək dövlət adamına layiq ideya" kimi dəyərləndirilən həmin fikir erməni və gürcü nümayəndəliklərinin etirazları ilə qarşılaşdı. Ermənilər həm də AXC-nin Batuma iddiasını rədd etdilər. Gürcülər isə əvvəlki mövqelərini təkrarladılar: Batum şəriksiz onlara çatır və qonşu respublikaların limandan istifadə hüququ tanınır.

Bu kimi fikir ayrılıqları (diplomatik toqquşma) San-Remo konfransının (İtaliya, 19-26.IV.1920) keçirilməsini əngəlləmədi. Avropa dövlətlərinə hələki diplomatik heyətlər göndərilmədiyindən Azərbaycan San-Remo konfransında

Parisdəki Sülh nümayəndəliyi ilə təmsil olundu. Konfransın gündəliyindəki aşağıdakı məsələlər AXC üçün də əhəmiyyət kəsb edirdi: **a)** neft məsələsi; **b)** Qafqaz dövlətləri arasındakı sərhədlər; **c)** Batum məsələsi; **ç)** rus məsələsi və Transqafqaz respublikalarına yardım; **d)** Türkiyə ilə sülh müqaviləsinin ilkin layihəsi və onun Ermənistanla sərhədləri.

Konfransdakı kəskin diplomatik qarşıdurmanı və onun yekunlarını qısaca belə dəyərləndirmək olar:

**1.** "Böyük Ermənistan" uğrunda israrlı cəhdlər Qafqaz dövlətləri arasındakı sərhəd mübahisələrinin həllini yenə də mümkünsüz etdi. Ancaq Müttəfiqlərin liderlərinin (L.Corc, F.Nitti, A.Mileran və b.) bu dəfəki obyektiv mövqeləri ermənilərin iddialarının gerçəkləşməsinə imkan vermədi.

**2.** Batum məsələsi ilə əlaqədar gərgin mübahisələr getdi və önəmli qərar qəbul olundu. Belə ki, ermənilər Batum limanının bir hissəsinin onlara verilməsini tələb etdilər. Lord Kerzon onları dəstəklədi. Gürcü tərəfi heç bir güzəştə getmədi və yerli əhalinin istəyi ilə hesablaşılmasını vacib saydı. Ə.Topçubaşı Batumun yerli müsəlman əhalisinin arzusunun nəzərə alınmasını bildirdi. Nəticədə Müttəfiqlər Batumu azad şəhər (liman) elan etdilər. AXC-nin Batum limanından sərbəst surətdə istifadə hüququ tanındı.

**3.** Müttəfiqlər Qafqaz dövlətlərinə yardım göstərilməsinin mümkünlüyünü onlar arasında möhkəm sülh və həmrəyliyin bərqərar olması ilə bağladılar (Bu şərtin ilk qurbanı AXC oldu). Region xalqları arasındakı, həlli mümkün olan, münaqişələrin tənzimlənməməsi San-Remo konfransının Qafqaz respublikaları qarşısında açabiləcəyi perspektivləri heçə endirdi. Konfransda neft məsələsinin müzakirəsi və region millətlərinin birliyinə nail olunması Qafqazın problemlərinə yenidən baxılmasını və artıq de-fakto tanınan respublikalara yardım göstərilməsini mümkün edirdi. Bunun ardınca onların Millətlər Cəmiyyətinə qəbulu və beləliklə də beynəlxalq münasibətlər sisteminə daha yaxından qoşulması labüd olurdu. Buna Sovet Rusiyasının hələki ikili (tərəddüdlü) görünən durumu da şərait yaradırdı.



Qafqaz xalqlarının birliyi regionun Rusiya tərəfindən yenidən işğalını önləyən əsas amillərdən idi. Lakin bu birlik alınmadı. Transqafqaz dövlətlərindən Rusiyanın yenidən işğalına ilk hədəf seçiləni Azərbaycan oldu. AXC hökuməti (XİN-i) işğalönü mərhələdə də ciddi diplomatik müqavimət göstərdi.

F.Xoyski RSFSR XİN-ə üçüncü-sonuncu nota ilə (15.IV.1920) müraciət etdi. Notada: **a)** Azərbaycan xalqının şimal tərəfdən qorxu çəkmədən sakit yaşayacağına ümid bəslədiyi bildirilir; **b)** Rusiyanın AXC ilə sərhədlərə qoşun toplamasının səbəblərinin açıqlanması istənilir; **c)** danışıqlara başlanılmasına israr edilirdi.

G.Çiçerin bu notaya münasibət bildirmədi. Çünki Lenin hökuməti Azərbaycanla münasibətlərin hərbi müstəvidə "həlli" qənaətini artıq qətiləşdirmişdi. Rusiya bəzi diplomatik gedişləri – ticarət və iqtisadi məsələlərə dair danışıqları ilə başaldadır, vaxt qazanırdı. Arxada isə Azərbaycana hərbi müdaxilənin planları hazırlanırdı.

Bunu bir çox rəsmi sənədlər də yaxşı açıqlayır. Qafqaz cəbhəsi komandanlığının XI ordunun və Volqa-Xəzər donanmasının komandanlıqlarına Petrovsk şəhərindən verilən 490 (21.IV.1920), Rostovda imzalanan 5969/s saylı (23.IV.1920) direktivləri, Dərbənddən verilən 52 saylı əmr (25.IV.1920) bu baxımdan olduqca səciyyəvidir.

"Bakıya hücum və Azərbaycanın azad edilməsi haqqında"kı 490 saylı direktivdə: **1)** aprelin 27-də Azərbaycan sərhədlərini keçib Bakı quberniyasını tutmaq; **2)** desant çıxararaq neftdaşıyan AXC donanmasını ələ keçirmək və s. nəzərdə tutulurdu. 5969/s saylı direktivdə əvvəlkinə əlavə olaraq yalnız Bakı quberniyasının deyil, Azərbaycanın bütün ərazisinin ələ keçirilməsi XI ordunun son vəzifəsi sayılırdı.

"XI ordunun qoşunlarına Bakıya hücum və Azərbaycanın azad edilməsi haqqında"kı 52 saylı əmrdə isə gələcək hərbi əməliyyatların (bunu "beynəlmiləl yardım" kimi qiy-

mətləndirənlər də mövcuddur) 17 maddəlik konkret planı verilirdi (Bu sənədlər sırasında Bakının tutulmasına dair hərbi əməliyyatın plan-sxemi da vardır).

İşğal ərəfəsində daxildəki bolşeviklər və ermənilər Sovet Rusiyasının hərbi müdaxilə planlarına dəstək verdilər. A.Mikoyan başda olmaqla Bakı bolşeviklərinin nümayəndə heyəti ordu hissələrinə gedərək "Azərbaycan xalqı adından" onu ölkəmizə dəvət etdi.

Sovet Rusiyası bu kimi hərbi-siyasi-ideoloji səciyyəli hazırlıq tədbirlərini tamamladıqdan sonra yenidən Şimali Azərbaycanın işğalına başladı (27.IV.1920). AXC parlamenti: **a)** Azərbaycanın tam müstəqilliyinin saxlanılması; **b)** onun ərazi bütövlüyünün qorunması və digər şərtlərlə hakimiyyətin təhvil verilməsinə razılaşdı. Beləliklə, 27 aprel istilası ilə növbəti, lakin qısamüddətli (23 aylıq) Azərbaycan istiqlalı "dünya sosialist inqilabı", Lenin "milli siyasəti" və s. yolunda qurban gedərək tarixə qovuşdu.

Belə bir vacib məqamın da xüsusi olaraq vurğulanması lazım gəlir: 1920-ci ilin apreli üçün Azərbaycanda (Bakıda) sosialist inqilabı üçün şərait olmamış və fəhlə sinfinin silahlı üsyanı baş verməmişdir. Sadəcə, Azərbaycanın müstəqilliyini əsla qəbul etməyən Rusiya onu yenidən işğal etdi. "XI ordunun Azərbaycan zəhmətkeşlərinə beynəlmiləl yardımı", bunun üçün də onun "dəvət" olunması, habelə AXC parlamentinin hakimiyyətin təhvili barədə qərar çıxarmağa məcbur edilməsi – bütün bunlar Rusiyanın hərbi təcavüzünə geyindirilən "siyasi-hüquqi" dondan başqa bir şey deyildi.

### AXC-nin süqutuna böyük və qonşu dövlətlərin münasibəti

Paris Sülh konfransının de-fakto tanıdığı AXC-ni Rusiyanın devirməsi beynəlxalq dairələr və böyük-qonşu dövlətlər tərəfindən, əsasən, sükutla qarşılandı (Bundan razı qalanlar və sevinənlər də oldu). AXC Sülh nümayəndəliyi San-



Remoda ikən Azərbaycanın Rusiya tərəfindən işğalı ilə bağlı Müttəfiqlərin Ali Şurasına, Romadakı səfirliklərə və sonralar isə Millətlər Cəmiyyətinə, beynəlxalq konfranslara (Spa və s.) notalar – müraciətlər göndərdi.

Həmin diplomatik sənədlərdə Azərbaycanın müstəqilliyinin bərpası üçün təcili tədbirlər görülməsi və yardım göstərilməsi istənildi. Lakin heç bir ciddi əməli nəticə hasil olmadı. Göründüyü kimi, beynəlxalq toplantı və qurumlar (Paris Sülh konfransı, Müttəfiqlərin Ali Şurası, Millətlər Cəmiyyəti) AXC-nin devrilməsi, Azərbaycanın beynəlxalq münasibətlər sistemindən çıxarılması ilə razılaşdılar. Böyük və qonşu dövlətlərin konkret mövqelərinə gəldikdə isə bunlara diqqət yetirilməsi vacibdir:

**1. Qərbin böyük dövlətləri** (o cümlədən də İngiltərə) Aprel işğalı faktına "gözyumdular". Bu cür münasibət onların ikili siyasətinin qanunauyğun (labüd) yekunu kimi də dəyərləndirilə bilər. Müttəfiqlərin Rusiyanın yenidən Azərbaycana (Qafqaza) qayıtmasını önləməmələri bu kimi səbəbniyyətlərdən də irəli gəlirdi:

- işğalın əngəllənməsi üçün lazım gələn hərbi-iqtisadi imkanların yetərsizliyi;
- yardım göstərilməsinin bahalı və azsəmərəli sayılması;
- Rusiyadan güzəştlər qoparılması, ilk öncə, də onun borclarını qaytarmasına nail olunması.

**2. Türkiyə** parçalanmaq və suverenliyini itirmək təhlükəsi ilə üzləşdiyindən Azərbaycan dövlətinin süqutuna "razılıq verdi və yardım göstərdi". Bu məsələ böyük elmi-siyasi maraq doğurduğundan onun ətraflı şərhinə ehtiyac duyulur. AXC-nin süqutu və Türkiyənin mövqeyi, ümumiyyətlə isə Atatürkün "Azərbaycan siyasəti" məsələlərinə dair müxtəlif baxışlar mövcuddur. Onlar arasında Azərbaycanın işğalında "türk amilinin rolu" konsepsiyası diqqəti daha çox cəlb edir. "Türk amili"ni qəbul və inkar edən, habelə onun rolunun dərəcəsi ətrafında polemika aparan mövqelər vardır.

**a) "Türk amili"ni qəbul edənlərin nəzər nöqtəsinə (dəlillərinə) görə:**

- bu məsələnin izahı zamanı Mustafa Kamalın mülahizə və fikirlərinə istinad edilməlidir. Və bu zaman onun Memorandumunda (22.IX.1919), hərbi komandanlara ünvanladığı "Siyasi durum mühakiməsi" adlı sənəddə (7.I.1920), Sovet hökumətinə göndərdiyi məktubda (26.IV.1920), Böyük Millət Məclisindəki çıxışında (14.VIII.1920) yazılan və söylənilən bəzi məqamlar önə çəkilir. Məsələn, bu kimi tezislər xüsusi olaraq vurğulanır: Antanta dövlətlərinin (başda İngiltərə olmaqla) Türkiyəni məhv və bolşevik Rusiyasının isə onu müdafiə etməyə çalışmaları; əgər Qafqaz dövlətləri, ələlxüsus da islam Azərbaycanı və Dağıstanı Antantanın planlarına əsasən qarşımızda əngəl olmaq qərarına gələrlərsə, biz bolşeviklərlə razılaşıb onların üzərinə birlikdə hücuma keçərik; X və XI rus orduları bizim yönləndirməyimiz, təsirimiz və xidmətimiz sayəsində asanlıqla Güney Qafqazı keçib Azərbaycana gəldilər;
- gənc türklər kimi, kamalçılar da bolşeviklərlə əlaqələrə yollar aramış və Azərbaycanı bu məqsəd üçün ən münasib yer saymışlar. Onların fikrincə, Azərbaycan Sovet yardımının döyüşən Türkiyəyə çatdırılması üçün bir körpü ola bilərdi. Buna görə də M.Kamal Güney Qafqaz dövlətlərinin (AXC-nin) Müttəfiqlər tərəfindən tanınmasına təşvişlə reaksiya vermişdi;
- Atatürk Azərbaycanın müstəqilliyini heç vaxt ciddi qəbul etməmiş və onun itirilməsində (Sovet Rusiyasına qurban verilməsində) müəyyən rol oynamışdır;
- Türkiyə Azərbaycanı əvvəlcə düşmənin pəncəsindən qurtarmış və sonra da qırmızı ruslara satmışdı. İkinci birincinin naminə Sovet sisteminə qatılmışdı;
- Müsavat hökuməti Qızıl ordu ilə Bakıdakı türkiyəli kommunistlər-ittihadçıların ittifaqı nəticəsində devrildi. Onlar Azərbaycandakı populyarlıqlarından yararlanaraq XI ordunun gözlənilən yürüşü xeyrinə təbliğat apardılar. Guya ingilispərəst AXC hökuməti Kamal Türkiyəsinə köməyə tələsən Qızıl ordunu öz ərazisindən buraxmadığından Xəlil Paşa və b. yerli-rus bolşevikləri ilə birlikdə onu devirməyə çağırırdılar. Və bu zaman M.Ə.Rəsulzadənin Xəlil Paşaya müraciəti də xatırlanır: "Bunu etməyin, bizi öz başımıza buraxın, yüz sənədən artıq təhti-əsarətində olduğumuz rusları biz daha yaxşı tanıyırıq; onlar hiylə ilə gələr, sonra bizi əzərlər";
- burada habelə RK/b/P Qafqaz Diyar Komitəsi ilə Türkiyənin "Qarakol" inqilabi təşkilatı arasında bağlanan müqavilə (11.I.1920), ələlxüsus da onun 12-ci paraqrafı dəlil olaraq göstərilir. Orada deyilirdi: tərəflər Cənubi Qafqazdakı mövcud hökumətlərin devrilməsində yerli kommunist partiyalarına yardım edəcəklər; onların Sovet Rusiyası və döyüşən Türkiyə ilə tam işbirliyi şəraitində Qərbi Avropanın imperialist dövlətlərinə qarşı mübarizə aparacaq hökumətlərlə əvəzlənməsinə çalışacaqlar; döyüşən Türkiyənin müvəqqəti hökuməti Azərbaycanda çevrilişin həyata keçməsində türk xalqlarının qarşılıqlı rəğbətindən və öz adamlarının yerli əhali arasındakı nüfuzundan istifadə edəcəkdir. Türkiyəli kommunistlər və ittihadçılar hətta XI ordunun Bakını tutmasının iştirakçıları da oldular;
- AXC hökuməti bolşevikləri rəğbətlə qarşılamaq qərarına gəlmişdi və Azərbaycanda indiyə qədər qeyri-müəyyən olan vəziyyət qəti və konkret şəkil almaqda idi;
- K.Qarabəkir Paşa türk-müsəlman dünyasının gələcəyi üçün Azərbaycanın bolşevikləşməsini gərəkli saymışdı.

**b) "Türk faktoru"nu inkar (təkzib) edənlərin fikrincə isə:**

- Atatürkün müvafiq (yuxarıda sadalanan) mülahizələri dövrün (şəraitin) sərt tələbləri və ağır şərtləri kontekstində nəzərdən keçirməlidir. Və habelə onun digər fikirlərini də yaddaşlardan silmək olmaz. Məsələn, M.Kamalın işğaldan azsonra K.Qarabəkir Paşaya Azərbaycanla bağlı əmrində deyilirdi: "Azərbaycanın tamamilə və həqiqətən müstəqil dövlət halına düşməsinin tərəfdarıyıq və bunun üçün rusları şübhələndirməmək şərti ilə təşəbbüs göstərəcəyik... Rusların Azərbaycanda yeritdikləri siyasətin bütün islam aləminin bolşeviklərə münasibəti üçün bir meyar olacağını onlara anlatmaq gərəkdir";
- çoxəsrlik rus-türk hərbi və diplomatik qarşıdurması tarixində keyfiyyətcə yeni mərhələ sayılan bu dövrün gerçəklikləri mütləq nəzərə alınmalıdır. Belə ki, Türkiyə kimi böyük və qüdrətli bir dövlət parçalanmaq və Qərb dövlətlərinin asılılığına düşmək təhlükəsi ilə qarşılaşmışdı. Bu şəraitdə Lenin Rusiyası ilə Kamal Türkiyəsi arasında 1919-cu ilin yayından etibarən başlayan yaxınlaşma Qərb (İngiltərə) təhlükəsi ilə əlaqədar idi. Bu yaxınlaşma "vahid düşmənə qarşı təbii şərtlərdən doğan bir dostluq" kimi də dəyərləndirilir. Bunu tərəflərin həmin "dostluq"dan güddükləri məqsədlər də kifayət qədər açıqlayır. Kamalçılar: Rusiyadan pul və digər yardım almağa, habelə onun Cənuba doğru nüfuz etməsini əngəlləməklə Anadoluda kommunizmin yayılmasını (təbliğatını) önləməyə çalışırdılar. Bolşeviklər isə Türkiyənin İngiltərə və digərlərinin müstəmləkəsinə çevrilməsindən və bununla da Cənubdan Rusiyaya qarşı təhlükə yaranmasından qorxurdular. Buna görə də Türkiyənin qurtuluş savaşında olduqca maraqlı idilər və hətta onun da bolşevik rejiminə qatılmasını istəyirdilər;
- AXC-nin "ingilispərəst siyasəti"nə görə Türkiyənin qəzəbinə tuş gəlməsi də mümkün deyildi. Çünki, bir tərəfdən, K.Qarabəkir Paşanın da yazışmalarının isbatladığı kimi, "azərbaycanlıların ingilislərlə ittifaqı əsassız bir şayiə" idi. Əksinə, bir ingilis admiralının lord Kerzona göndərdiyi şifrəli teleqramda deyilirdi ki, "Azərbaycan hökuməti Türkiyə millətçiləri ilə həmfikirdir, onlarla əlaqəyə girmişdir. Azərbaycana silah vermək lazım deyil". Digər tərəfdən, AXC hökuməti Türkiyənin qurtuluş savaşına mümkün qədər yardım göstərmişdi. Anadoludakı azadlıq mübarizəsi Azərbaycan cəmiyyətində özünə çoxsaylı tərəfdarlar tapmışdı;
- Anadolunun qurtuluşu üçün bolşevik orduları ilə birgə hərəkət etməkdən savayı yol (çarə) yox idi. Buna görə də M.Kamal hökuməti Azərbaycanı da Sovet Rusiyasının nüfuz dairəsi kimi tanımaq məcburiyyətində qalmışdı;
- Sovet Rusiyasının Azərbaycanda yalnız hökumət dəyişikliyi ediləcəyi və onun müstəqilliyinin saxlanılacağı vədlərinə inanılmışdı;
- Atatürk sovet sistemi daxilindəki Azərbaycanın taleyinə biganə qalmamışdı. Bir sıra hərəkət və fikirləri ilə o bunu yetərincə təsdiqləmişdir: Moskva və Qars müqavilələri ilə bağlı Azərbaycanın ərazi bütövlüyünə verdiyi mühüm önəm ("Naxçıvan türk qapısıdır" tezisi) və tutduğu prinsipial mövqe; Türkiyə Cümhuriyyətinin 10 illiyindəki nitqində (30.X.1933) Stalindən sonrakı SSRİ-nin gələcəyi və postsovet ümumtürk həmrəyliyinə dair proqnozları və s.;
- Xəlil Paşa və həmfikirləri Azərbaycan hökumətinin devrilməsi ilə bağlı səhvə yol verdiklərini sonralar anlamış və etiraf etmişdilər;
- Azərbaycanın Rusiya tərəfindən yenidən işğalı ilə məcburi razılaşma Türkiyənin qurtuluş savaşının uğuruna təsir göstərməklə ümumtürk dövlətçiliyini

bütövlükdə iflasa uğramaqdan xilas etmişdi.

**3. İran** Şimali Azərbaycanda dövlətçiliyin növbəti süqutunu razılıqla qarşıladı. Güney Azərbaycanda milli-demokratik mübarizənin (Ş.M.Xiyabani hərəkatının) genişləndiyi bir dövrdə AXC-nin devrilməsi onun üçün göydəndüşmə bir iş (bəxşiş) sayıla bilər.

**4. Ermənistan** Azərbaycan dövlətçiliyinin yenidən itirilməsində ən mənfur rol oynayanlardan biri oldu. Ermənilərin Azərbaycana, ümumiyyətlə türk-müsəlmanlara qarşı tarixi düşmənçiliyi AXC-nin süqutuna mühüm təsir göstərdi. Onlar Azərbaycanın işğalına sevindilər. Bu halı Sovet Rusiyası vasitəsi ilə Azərbaycan torpaqlarını ələ keçirməyin real vasitəsi (imkanı) kimi dəyərləndirdilər (Əslində belə də oldu).

**5. Gürcüstan** AXC-nin süqutundan çox rahatsızlıq keçirdi. Çünki o, Sovet Rusiyasının işğalının növbəti hədəfi idi. Gürcü hökuməti həm də AXC rəhbərliyinin ünvanına əsassız iradlar bildirdi və ittihamlar irəli sürdü. Belə ki, Baş nazir N.Cordaniya, bir tərəfdən, Sovet Rusiyasını Güney Qafqazın yenidən işğalına İngiltərənin (L.Corcun) təşviq etdiyini yazırdı. Digər tərəfdən də, AXC hökumətini istilaya müqavimət göstərməməkdə və bununla da bütün Qafqazın təkrarən Rusiyaya keçməsinə şərait yaratmaqda suçlandırırdı (Lakin az sonrakı tarix Gürcüstanın da Rusiyanın hərbi müdaxiləsi qarşısında gücsüz olduğunu təsdiqlədi). Bu məsələ (mövzu) sonralar Azərbaycan və Gürcüstan siyasi mühacirləri (ələlxüsus da keçmiş Sülh nümayəndəlikləri) arasındakı polemikada (mübahisələrdə) bir müddət başlıca yer tutdu.

***

Aprel istilası ilə Azərbaycan dövlətçiliyinin daha bir mərhələsi sona yetdi. İşğalın ilk günlərindən etibarən milli



istiqlalın bütün uğurları üzərindən xətt çəkildi. Tezliklə XI ordu bütün Azərbaycanı tutdu. "Müstəqil Sovet Azərbaycanı" şüarı köhnəlmiş sayıldı və ondan imtina edildi. Azərbaycanın müstəqil xarici siyasətinə son qoyuldu və ordusu tədricən ləğv olundu. Ölkəmiz təkrarən Rusiyanın xammal bazasına çevrildi. Onun yanacaq ehtiyatları və s. Rusiyaya daşındı. Bütün bunlar işğala qarşı milli müqavimət hərəkatına və müstəqilliyin bərpası uğrunda mübarizəyə təkan verdi. Bu hərəkat - mübarizə sovet rejiminin burulğanlarından keçərək Azərbaycanın müstəqlliyinin yenidən (18.X.1991) bərpası ilə nəticələndi.

# NƏTİCƏ

## (AXC diplomatiyasının uğurları və dərsləri)

Azərbaycan Xalq Cümhuriyyəti dönəmində həyata keçirilən dövlət quruculuğu prosesində xarici siyasət fəaliyyəti mühüm əhəmiyyət kəsb edirdi. Xarici siyasətdə milli təhlükəsizliyin diplomatik təminatı məsələləri xüsusi yer tuturdu. Bu və digər hallar AXC diplomatiyasından tarixi məsuliyyət, gərgin və səmərəli iş tələb edirdi. Keçilən tarixi mərhələnin, qazanılan müvafiq təcrübənin sərf-nəzər edilməsi AXC-nin xarici siyasətinin və onun gerçəkləşdirilməsinə yönəlik diplomatiyanın uğurlarını – dərslərini müəyyənləşdirməyə imkan verir. Onları, əsasən, aşağıdakı kimi yekunlaşdırmaq və formulə etmək mümkündür.

**1. Diplomatiyamızın uğurlarından sayılmalıdır:**

- xarici siyasətin prioritet istiqamətlərinin və başlıca vəzifələrinin (milli istiqlalın, dövlət suverenliyinin, ərazi bütövlüyünün və xalqın fiziki mövcudluğunun təmin olunması) dürüst müəyyənləşdirilməsi;
- milli təhlükəsizliyin beynəlxalq (xarici) amillərinin (Osmanlı və Antanta himayəsi; Qərb dövlətləri tərəfindən rəsmən tanınma; Qafqaz respublikalarının konfederasiyası; İran və Rusiya ilə diltapma; Dağıstanın geosiyasi dəyərləndirilməsi və ona yardım) daima diqqət mərkəzində saxlanılması;
- Osmanlı hərbi-siyasi yardımına vaxtında müraciət kimi düzgün diplomatik addım atılması (Batum müqaviləsi və s.);
- xarici oriyentasiya məsələlərində çeviklik göstərilməsi, bu kontekstdə Antanta və onun Qafqazdakı təmsilçiləri ilə uzlaşılması;
- Gürcüstan ilə normal münasibətlər qurulması (hərbi-müdafiə sazişi və s.), onunla birlikdə Qafqaz konfranslarının keçirilməsi;
- AXC diplomatiyasının təşəbbüsü və səyləri sayəsində Batum şəhərinə beynəlxalq status verilməsi;
- ermənilərin ərazi iddialarının dəf olunması;
- İranın təzyiqlərinin zəiflədilməsi (dostluq müqaviləsi və s.);
- Dağlılar Respublikasının Güney Qafqaz birliyinə inteqrasiyasına yönəlik səylər göstərilməsi, Rusiya təhlükəsinin sovuşdurulmasında Dağıstanın istiqlalının önəminin qonşulardan əvvəl (və daha çox) dəyərləndirilməsi;
- beynəlxalq diplomatiya meydanında ilkin sanballı addımların atılması (Ə.Topçubaşının İstanbul missiyası, Paris Sülh konfransında iştirak və s.);
- AXC-nin de-fakto tanınması, onun dövlətlərarası münasibətlər sisteminə qatılması və beynəlxalq hüququn subyektinə çevrilməsi;
- AXC-nin tanınması ilə Azərbaycan məsələsinin Rusiyadaxili problemlər çərçivəsindən çıxması;
- səriştəli diplomatlar korpusunun formalaşması.

**2. Diplomatiyamızın yanlışlıqları (dərsləri) hesab oluna bilər:**

- Azərbaycan Milli Şurası tərəfindən İrəvanın Ermənistana güzəştə gedilməsi;
- Azərbaycan-Ermənistan sazişinə (23.XI.1919) inanaraq hərbi hissələrimizin Zəngəzurdan çıxarılması (Buna ermənilərin istəyi ilə Müttəfiqlərin təsir göstərmələri də inkar edilə bilməz);
- Qafqazda yaranan yeni dövlətlərə münasibətdə fərqli (xüsusi) yanaşmanın lazım gəldiyinin nəzərə alınmaması;
- ermənilərin başaldadan və vaxtaparan taktiki diplomatik gedişlərinə imkan verilməsi;
- Qərb dövlətlərinin ikili siyasətinin bəzi konkret hallarda (Naxçıvan, Qarabağ və Zəngəzurla bağlı məsələlərdə) yetərincə dəyərləndirilməməsi.

Diplomatiyamızın bəzi zəif tərəfləri milli təhlükəsizliyin daxili amillərinin tam təminatına nail olunmaması və dövrün beynəlxalq şəraitinin əlverişsiz reallıqları ilə (xarici amillərlə) də şərtlənir. Daxili amillər sırasında – ölkənin iqti-

sadi qüdrəti, milli istiqlal şüuru və s. ilə bağlı məqamlar mütləq nəzərə alınmalıdır. Müharibənin yaratdığı dərin iqtisadi böhran şəraitində elan olunan AXC-nin ondan qurtula bilməməsi diplomatiyamızın təsir imkanlarını məhdudlaşdırırdı.

Qazanılan milli istiqlala dair sadəlövh baxışlar ("gözlənilməyən və başagələn hadisə", "əmri-vağe"), habelə rus müstəmləkəçiliyinin təsirindən doğan dəyərləndirmələr də AXC diplomatiyası üçün problemlər yaradırdı. Ölkədə güclü qanunverici və icraedici hakimiyyətin qərarlaşmasının ləngiməsi, bu sahədəki əngəllər və çətinliklər diplomatiyamız üçün izsiz ötüşmədi. Xüsusi ilə də parlament üsul-idarəsinin (gərgin beynəlxalq şərait və mürəkkəb daxili durum baxımından) zəif tərəfləri və lüzumsuz, vaxtsız-vədəsiz hökumət dəyişiklikləri dövlətin normal xarici siyasət fəaliyyəti üçün məqbul sayıla bilməzdi.

Demokratiyaya aludəçilik (Azərbaycanla düşmənçilik edən və ona qarşı hərbi təcavüzə başvuran ermənilərə parlament fraksiyaları (özü də ikisinin) yaradılması imkanının verilməsi, müstəqilliyin əleyhinə çıxaraq Rusiyanı dəstəkləyən yerli qüvvələrin (bolşeviklərin) fəaliyyətinə dözümlülük göstərilməsi) də diplomatiyanın çevik addımlarını əngəlləyirdi. Bir sözlə, "Azərbaycanın daxili işlərinə diqqəti daha da artırmaq" (Ə.Topçubaşı) çağırışları və tövsiyələrinin yetərincə nəzərə alınmaması milli təhlükəsizliyimizin diplomatik təminatı sahəsindəki uğurları da zəiflədirdi.

Azərbaycanın iradəsindən asılı olmayan obyektiv (xarici) amillər – beynəlxalq şərait diplomatiyamızın bir sıra səylərinin təsirini zəiflədən (bəzən hətta heçə endirən) başlıca məqamlardan sayıla bilər. Bu məqam (amillərin) arasında aşağıdakıları fərqləndirmək olar:

- Qafqaz dövlətlərinin (AXC-nin) Antanta tərəfindən rəsmən tanınmasının həddən ziyadə ləngidilməsi;
- Müttəfiqlərin (ingilislərin) Qafqazdakı sülhyaratma missiyasının (cüzi istisnalarla) ardıcıl olmaması və ikili mahiyyət daşıması;
- Qafqaz respublikları arasındakı ərazi-sərhəd mübahisələrinin münsiflər (arbitraj) vasitəsi ilə həllindən qaçılmasının regionda sabitliyin pozulmasına təsir göstərməsi;
- ermənilərin "Qafqaz Birliyi"nin gerçəkləşməsini önləmələrini əngəlləməyin alınmaması;
- "Vahid və bölünməz Rusiya"nın təzyiqlərinin (hərbi təcavüzünün) dəf olunmasının çətinliyi (əslində mümkünsüzlüyü).

Bu və digər xarici, habelə daxili amillərin bir-birini tamamlamaları AXC diplomatiyasının tarixi uğurlarını heçə endirdi. Dövlətçiliyin və müstəqilliyin yenidən itirilməsi Azərbaycanın təkrarən müstəmləkəyə çevrilməsini təmin etdi.

***

XX əsrin sonlarında Azərbaycan beynəlxalq şəraitdə baş verən ciddi dəyişikliklərin və qüdrətli milli-azadlıq hərəkatının nəticəsində müstəqilliyini yenidən bərpa etdi. Şərqin (dünyanın) ən qədim dövlətlərindən biri olan Azərbaycan hazırda beynəlxalq birliyin bərabərhüquqlu üzvüdür. O, çağdaş dünyanın beynəlxalq həyatında yaxından iştirak edir. Digər tərəfdən də, milli təhlükəsizlik (müstəqilliyin müdafiəsi, ərazi bütövlüyünün təminatı və s.) baxımından bir sıra ciddi problemlərlə üzləşmişdir. Bütün bunlar isə diplomatiiyamızın çoxəsrlik tarixi təcrübəsinin, o cümlədən də AXC-nin xarici siyasətinin uğurları və dərslərinin öyrənilməsini, onların nəzərə alınmasını tələb edir.

# ƏLAVƏLƏR
## (Müqavilələr, cədvəllər, xəritələr və s.)





Böyük Rusiya inqilabının cərəyanı ilə dövlət vücudunun ayrı-ayrı hissələrə ayrılması ilə, Zaqafqaziyanın rus orduları tərəfindən tərkinə mövcub bir vəziyyəti - siyasiyyə hasil oldu. Kəndi qüvveyi-məxsusilərinə tərk olunan Zaqafqaziya millətləri müqəddəratlarının idarəsini bizzat kəndi əllərinə alaraq Zaqafqaziya Qoşma Xalq Cümhuriyyətini təsis etdilər. Və qayeyi siyasiyyənin inkişaf etməsi üzərinə gürcü milləti Zaqafziya Qoşma Cümhuriyyəti cüzindən çıxıb da müstəqil Gürcü Xalq Cümhuriyyətini səlah gördü.

Rusiya ilə Osmanlı imperatorluğu arasında zühur edən müharibənin təsviyyəsi üzündən hasil olan vəziyyəti hazirə siyasiyyə və məmləkət daxilində bulunan misilsiz anarşi Cənubi-Şərqi Zaqafqaziyadan ibarət bulunan Azərbaycan dəxi bulunduğu xarici və daxili müşkülatdan çıxmaq üçün xüsusi bir dövlət təşkilatı qurmaq lüzumunu təqyin edir.

Buna binaən areyi-ümumiyyə ilə intixab olunan Azərbaycan Şurayi-Milliyyeyi-İslamiyyəsi bütün cəmaətə elan edir ki:

1. Bu gündən etibarən Azərbaycan xalqı hakimiyyət həqqinə malik olduğu kimi, Cənubi-Şərqi Zaqafqaziyadan ibarət Azərbaycan dəxi kamil müstəqil bir dövlətdir.
2. Müstəqil Azərbaycan dövlətinin şəkli idarəsi Xalq Cümhuriyyəti olaraq təqrir edilir.
3. Azərbaycan Xalq Cümhuriyyəti bütün millətlər və bilaxəssə həmcüvar olduğu millət və dövlətlərlə münasibət hissinin təsisinə əzm edər.
4. Azərbaycan Xalq Cümhuriyyəti millət, məzhəb, sinif, silk və cins fərqi gözləmədən qələmrounda yaşayan bütün vətəndaşlarına hüquqi siyasiyyə və vətəniyyə təmin eylər.
5. Azərbaycan Xalq Cümhuriyyəti ərazisi daxilində yaşayan bilcümlə millətlərə sərbəstnamə inkişafları üçün

geniş meydan buraxır.

6. Məclisi-müəssisan toplanıncaya qədər Azərbaycan idarəsinin başında ariyei-ümumiyyə ilə intixab olunmuş Şurayi-Milli və Şurayi-Milliyyəyə qarşı məsul hökuməti-müvəqqətə durur.

Bu əqdnamə 1918 sənəsi mayis ayının 28-də Tiflisdə elan olunmuşdur.

***

## ДЕКЛАРАЦИЯ НЕЗАВИСИМОСТИ

28 мая 1918 года, в гор. Тифлисе, Национальный Совет Азербайджана в составе: товарища председателя Гасан-бека Агаева, секретаря Мустафы Махмудова, Фатали Хана Хойского, Халил-бека Хас-Мамедова, Насиб-бека Усуббекова, Мир Гидаят Сеидова, Нариман-бека Нариманбекова, Эйбат-Гули Мамедбекова, Мехти-бека Гаджинского, Али Аскер-бека Махмудбекова, Аслан-бека Кардашева, Султан Меджида Гани-заде, Акпер-Ага Шейх-Уль-Исламова, Мехти-бека Гаджибабабекова, Мамед Юсуфа Джафарова, Худадат-бека Мелик-Асланова, Рагим-бека Векилова, Гамид-бека Шахтахтинского, Фридун-бека Кочарлинского, Джамо-бека Гаджинского, Шафи-бека Рустамбекова, Хосров-пашабека Султанова, Джафара Ахундова, Магомеда Магеррамова, Джавада Мелик-Еганова и Гаджи Молла Ахунд-заде, провозгласил следующий акт о независимости Азербайджана:

В ходе великой Российской Революции, в России установился политический строй, который повлек за собой распад отдельных частей государственного организма и оставление русскими войсками Закавказья.

Предоставленные собственным своим силам, народы Закавказья взяли в свои руки дело устроения своих судеб и создали Закавказскую Демократическую Федеративную республику. Однако, в дальнейшем ходе политических событий, грузинский народ счел за благо выделиться из состава Закавказской Демократической Федеративной республики и образовать независимую Грузинскую Демократическую Республику.

Нынешнее политическое положение Азербайджана, связанное с ликвидацией войны, возникшее между Россией и Оттоманской Империей, а также небывалая анархия внутри страны повелительно диктуют Азербайджану, состоящему из Восточного и Южного Закавказья, необходимость создания собственной государственной организации, дабы вывести народы Азербайджана из того тяжелого внутреннего и внешнего положения, в котором они оказались.

На основании этого Мусульманский Национальный Совет Азербайджана, избранный всенародным голосованием, ныне всенародно объявляет:

I. Отныне народы Азербайджана являются носителями суверенных прав и Азербайджан, состоящий из Восточного и Южного Закавказья, — полноправным, независимым государством.

II. Формой политического устройства независимого Азербайджана устанавливается Демократическая Республика.

III. Азербайджанская Демократическая Республика стремится установить добрососедские отношения со всеми членами международного общества, а в особенности с определенными народами и государствами.

IV. Азербайджанская Демократическая Республика гарантирует в своих пределах гражданские и политические права всем гражданам без различия национальностей, вероисповедания, социального положения и пола.

V. Азербайджанская Демократическая Республика всем народностям, населяющим ее территорию, предоставит широкий простор для свободного развития.

VI. *До созыва Учредительного Собрания во главе управления всем Азербайджаном стоят Национальный Совет, избранный народным голосованием и Временное Правительство, ответственное перед Национальным собранием.*

[illegible]

TÜRK-ALMAN İTTİFAKI, 2 Ağustos 1914.
(Metni: *Die deutschen Dokumente zum Kriegsausbruch*, Hrsgb. von Karl Kautsky, Graf Max Montgelas and Prof. Walter Schückling. 4 Bde Charlottenburg 1919) Bd III. ss 183/184.

No 733. Der Botschafter in Konstantinopel an das Auswärtige Amt. Tel No 409. Therapia, den 2. August 1914.

Text des Bündnisvertrages. Formel

Constantinople, le 2 août 1914

1° Les deux Puissances contractantes s'engagent d'observer une stricte neutralité en face du conflit actuel entre l'Autriche-Hongrie et la Serbie.

2° Dans le cas où la Russie interviendrait par des mesures militaires actives et créerait par là pour l'Allemagne le *casus foederis* vis-à-vis de l'Autriche-Hongrie, ce *casus foederis* entrerait également en viguer pour la Turquie.

3° En cas de guerre l'Allemagne laissera sa mission militaire à la disposition de la Turquie.

Celle-ci, de son côté, assure à la dite mission militaire une influence effective sur la conduite générale de l'armée, conformement à ce qui a été convenu directement entre Son Excellence le Ministre de la guerre et Son Excellence le chef de la mission militaire.

4° L'Allemagne s'engage, au besoin par les armes .... le territoire ottoman au cas où il serait menacé.

5° Cet accord qui a été conclu en vue de garantir les deux Empires des complications internationales qui pourraient résulter du conflit actuel, entre en viguer dès sa signature par les plénipotentiaires susmentionnés et restera valable, avec les obligations mutuelles analogues, jusqu'au 31 décembre 1918.

6° Au cas où il ne sera pas dénoncé par l'une des hautes Parties contractantes six mois avant l'expiration du délai ci-haut fixé, ce traité continuera à être en viguer pour une nouvelle période de cinq ans.



7° Le présent acte sera ratifié par Sa Majesté l'Empereur de l'Allemagne, Roi de Prusse et Sa Majesté l'Empereur des Ottomans, et les ratifications seront échangées dans le délai d'un mois à partir de la date de la signature.

8° Le présent accord restera secret et ne pourra être rendu public qu'à la suite d'un accord conclu entre les deux hautes parties contractantes.

En foi de quoi les deux plénipotentiaires ont signé present accord et y ont apposé leurs sceaux

*Wangenheim*
*Said Halim*

[Metnin orijinalı Bonn'da Alman Dışişleri Bakanlığı Arşivinde muhafaza edilmektedir: Auswärtiges Amt, Politisches, Archiv, Deutschland 128 No. 5. Bd. 4.]

* * *

TÜRK-ALMAN İTTİFAKI, 2 Ağustos 1914

1. Hal-i hazırki Avusturya-Macaristan ile Sırbistan arasındaki ihtilâf karşısında her iki akid Devlet tam bir tarafsızlığı muhafazayı tazammun eyler.

2. Rusya, şayet, askerî tedbirlerle müdahele eder ve bununla Almanya'yı, Avusturya-Macaristan'a karşı ittifak taahhütlerinin yerine getirilmesi durumu hasıl olursa, bu ittifak vecibeleri aynı zamanda Türkiye için de yürürlüğe girecektir.

3. Harp vukuunda Almanya, Askerî Heyetini Türkiye'nin emrine bırakacaktır.

Türkiye ise bu Askerî Heyeti, Ekselans Harbiye Nazırı ile ve Ekselâns Askerî Heyetin başı arasındaki doğrudan doğruya vukubulan anlaşma gereğince, Ordunun umumi idaresinde müessir tesir icra hakkını tanıyacaktır.

4. Almanya, Osmanlı Devleti tehdid edildiği takdirde, Türkiye-nin müdafaasına silâhla yardım edecektir.

5. Fiilî bir çatışma halini alması mümkün görülen milletlerarası anlaşmazlıklar muvacehesinde, iki İmparatorluğu ihtilâtlardan

korumak maksadıyle akdedilen işbu anlaşma, aşağıda adları gösterilen salâhiyetli murahhasların imzalarını koyduktan sonra, müşabih karşılıklı taahhütler çerçevesinde olmak üzere, yürürlüğe girecek ve 31 Aralık 1918 tarihine kadar devam edecektir.

6. Yüksek âkid taraflarından birisi tarafından inkizası, yukarda tesbit edilen zamanın bitiminden altı ay evvel haber verilmezse, bu muahede kendiliğinden 5 yıllık yeni bir devre için mutebر olacaktır.

7. İşbu muahede Sa Majeste Almanya İmparatoru, Prusya Kralı ve Sa Majeste Osmanlı Sultanı tarafaından tasdik olunca ve imzalanmayı takibeden bir ay içinde tasdikli nüshaları teati edilecektir.

8. İşbu muahede gizli tutulacak ve bu hususta yüksek âkid taraflarca bir anlaşmaya varılmadan, açıklanmayacaktır.

Tasdikan lilmekal v.s. v.s.

* * *

## SYKES-PICOT VEYA PALEOLOGUE-SAZONOV ANLAŞMASI

(*Documents on British Foreign Policy 1919 - 1939* First Series vol. IV. (1919) London 1952. pp 241-243)

I. Rus Dışişleri Nazırı M. Sazonov'tan Petrograd'daki Fransız Elçisi M. Paleologue'e, Petrograd, 13/26 avril. 1916.

M. L' Ambassadeur,

